# XƏYALIN DİGƏR ADI:
# MADDƏ




HARUN YƏHYA-ADNAN OKTAR

## MÜƏLLİF HAQQINDA

Harun Yahya təxəllüsündən istifadə edən Adnan Oktar 1956-cı ildə anadan olmuşdur. 1980-ci ildən bəri imani, elmi və siyasi mövzularda bir cox əsər yazmışdır. Bundan əlavə, müəllifin təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini üzə çıxaran cox mühüm əsərləri var.

Müəllifin bütün əsərlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin çürük təməllərini və batil fəlsəfələrini ifşa etməkdir. Belə ki, bu gunə qədər 57 fərqli dilə tərcümə edilən 250-yə yaxın əsəri dünya səviyyəsində güniş oxucu kütləsi tərəfindən oxunur. Harun Yahya Külliyatı, Allahın izniylə XXI əsrdə insanları Quranda tərif edilən rahatlıq və sülhə, düzgünlük və ədalətə, gözəllik və xoşbəxtliyə çatdırmağa vəsilə olacaqdır.




بسم الله الرحمن الرحيم
الله
رسول
محمد



# XƏYALIN DİGƏR ADI: MADDƏ

HARUN YAHYA
(ADNAN OKTAR)



# OXUCUYA

Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi bir yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhdarı olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısilə, Allahın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək əhəmiyyətli imani bir vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd edilməsi lazım olan  başqa bir xüsus da bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəslə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı  söhbət mühiti şəklində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük bir xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salıcı yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görəcək, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.

Bu əsərlərdə digər bəzilərində görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

# XƏYALIN DİGƏR ADI: MADDƏ

# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 60 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (s.ə.v.) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayınlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq “son söz”ü söyləməyi hədəfləmişdir. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri



Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-Hersoqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, İndoneziya, malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc hədəflənməmişdir.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

1-ci nəşr: sentyabr 2001
2-ci nəşr: dekabr 2002
3-cü nəşr: iyun 2007
4-cü nəşr: noyabr 2008
5-ci nəşr: dekabr 2009

ARAŞDIRMA
NƏŞRİYYAT

www.harunyahya.org - www.harunyahya.net

GÖRÜNTÜ NECƏ MADDƏ ZƏNN EDİLİR?

# XƏYALIN DİGƏR ADI: MADDƏ

HARUN YƏHYA
(ADNAN OKTAR)

# İÇİNDƏKİLƏR

**İÇİNDƏKİLƏR:** ........ **10**

**ÖN SÖZ** ........ **12**

**GİRİŞ** ........ **16**

**DÜNYA HƏYATININ BEYNİMİZDƏKİ ƏKSİ İLƏ TƏMASDA OLDUĞUMUZ TEXNİKİ HƏQİQƏTDİR** ........ **21**
Görən gözlərimiz deyil, görüntü beynimizdə əmələ gəlir ........ 24
Bütün səsləri beynimizdə eşidirik ........ 36
Bütün qoxular beynin içində meydana gəlir ........ 39
Bütün dadlar beyində əmələ gəlir ........ 43
Toxunma hissi də beyində əmələ gəlir ........ 43
Beynimizdə əmələ gələn dünyanın əsli ilə əsla təmasda ola bilmərik ........ 48
Uzaqlıq hissi də beyində əmələ gələn hissdir ........ 52
Süni şəkildə əmələ gətirilən hisslər ........ 61
Bütün bu hissləri yaşayan kimdir? ........ 81

**MADDƏNİN HƏQİQƏTİ NİYƏ ƏHƏMİYYƏTLİ BİR MÖVZUDUR?** ........ **91**
Maddənin həqiqəti tək mütləq varlığın Allah olduğunu göstərir ........ 93
İnsanların etdikləri də Allaha aiddir ........ 96
Maddənin həqiqətinin dərk edilməsi insanları iman gətirməyə yönəldəcəkdir ........ 99
Maddənin həqiqətini bilmək dünya həvəsini yox edir ........ 100
Maddənin həqiqəti gizlədilmədikdə əmələ gələcək mühit ........ 116
Maddənin həqiqətinin bilinməsi materializmin sonudur ........ 117

**ZAMAN DA BİR HİSSDİR** ........ **123**
Zaman bir anı digər an ilə müqayisə etdikdə ortaya çıxan məfhumdur ........ 124




Zamanın nisbi bir anlayış olduğu Quranda bildirilmişdir • • • • • • • • • • • 130
Zamanın nisbiliyi qədər həqiqətini açıqlayır • • • • • • • • • • • • • • • • • • • • • 133
"Keçmiş" anlayışı hafizəmizdəki məlumatlara görə əmələ gəlir • • • • • • • 134
Keçmiş və gələcək qeyb xəbəridir • • • • • • • • • • • • • • • • • • • • • • • • • • 137
Qədərə təslimiyyətin əhəmiyyəti • • • • • • • • • • • • • • • • • • • • • • • • • • 138

**SONSUZ ZAMAN ALLAHIN HAFİZƏSİNDƏ QORUNUR • • • • • • • • • 149**
Bütün hadisələr "lövhi-məhfuz" adlı kitabda qeyd olunuşdur • • • • • • • • 152
Keçmiş və gələcək əslində hal-hazirda yaşanmaqdadır • • • • • • • • • • • • • 153
Allah cənnətdə istəyənə keçmişi eynilə göstərə bilər • • • • • • • • • • • • • • • 157
Bu mövzunun insanlar üçün əhəmiyyəti • • • • • • • • • • • • • • • • • • • • • • • 160

**MADDƏNİN HƏQİQƏTİ MÖVZUSUNA GƏLƏN ETİRAZLARA CAVABLAR • • • • • • • • • • • • • • • • • • • • • • • • • • • • 165**

**NƏTİCƏ: HƏQİQƏTLƏRDƏN QAÇMAQ OLMAZ • • • • • • • • • • • • • 213**

**MADDƏNİN SİRRİNİ ÖYRƏNƏNLƏR BÖYÜK HƏYƏCAN YAŞAYIR • • • • • • • • • • • • • • • • • • • • • • • • • • • • • • • 215**

**TƏKAMÜL YALANI • • • • • • • • • • • • • • • • • • • • • • • • • • • • • • • • • 223**



# ÖN SÖZ

Bu kitabda izah edilənlər bu günə qədər bir çox insanı həddindən artıq təəccübləndirən, həyata baxışının tamamilə dəyişməsinə səbəb olan çox əhəmiyyətli və böyük həqiqətdir. Bu həqiqəti belə tərif edə bilərik: "Dünyada yaşadığımız həyatın bir hissəsi olan bütün hadisələr, insanlar, binalar, şəhərlər, avtomobillər, qısaca desək, həyatımız boyu gördüyümüz, tutduğumuz, toxunduğumuz, qoxuladığımız, daddığımız, dinlədiyimiz heç bir şeyin əsli ilə təmasda olmuruq. Biz sadəcə beynimizdə əmələ gələn görüntü və hisslərlə təmasda oluruq".

Xarici aləmdə maddə var, ancaq bizim bu maddənin əslini bilməyimiz heç vaxt mümkün deyil. Bizə verilən təlqinlə onların beynimizdən kənardakı dünyada sabit olduqlarını və bizim bu səbəbdən onların əslini gördüyümüzü, hiss etdiyimizi zənn edirik. Əslində isə biz heç bir varlığın əslini əsla görə bilmərik və bu varlıqların əslinə əsla toxuna bilmərik. Qısaca desək, biz həyatımız boyunca xarici aləmdəki maddə ilə təmasda olduğumuzu hesab etsək də, əslində hər şeyin xəyalını və surətini tanıyırıq.

Bu kitabın mövzusunu əmələ gətirən həqiqət fəlsəfə və ya hər hansı bir fikir deyil. Əksinə, bu gün müasir elmin qəti surətdə sübut etdiyi və inkarı qətiyyən mümkün olmayan texniki həqiqətdir. Bu gün tibb, biologiya, fizika, nevrologiya, beyin və bununla bağlı digər bütün sahələrdə mütəxəssis olan hər hansı elm adamına "biz dünyanı necə və harada görürük?" deyə sualı verilsə, verdikləri tək cavab var: bütün dünyanı beynimizdəki görmə mərkəzində görürük.

XXI əsrdə elmin qəti şəkildə aşkar etdiyi, insanda böyük təəccüb və heyrət yaradan bu məlumatın bizi gətirdiyi ən əhəmiyyətli nəticələrdən biri isə bu iki sualın cavabıdır: "Bütün həyatımız boyu beynimizdə meydana gələn görüntülərlə təmasda olduğumuza görə, bu görüntüləri beynimizdə əmələ gətirən kimdir? Beynimizdə əmələ gələn bu görüntüləri beynimizin içində gözü olmadan seyr edən və seyr etdiklərindən həzz alan, həyəcanlanan kimdir?" Bu kitabda bu çox vacib iki sualın da cavabını tapacaqsınız.



Həyatımızın bir hissəsi olan bütün hadisələr, insanlar, binalar, şəhərlər, avtomobillər, qısaca desək, həyatımız boyu gördüyümüz, tutduğumuz, toxunduğumuz, qoxuladığımız, daddığımız, dinlədiyimiz hər şey əslində beynimizdə əmələ gələn görüntü və hisslərdir.

## MADDƏNİN ARDINDAKI SİRR MÖVZUSU VƏHDƏTİ-VÜCUD DEYİL

Maddənin ardındakı sirr mövzusu bəzi şəxslərin etirazlarına səbəb olmuşdur. Sözügedən şəxslər bu mövzunun əsasını səhv anladıqları üçün bu mövzunun vəhdəti-vücud təlimi ilə eyni olduğunu iddia edirlər. Əvvəla, qeyd etmək lazımdır ki, bu əsərlərin müəllifi əhli-sünnə inancına sıx bağlıdır və vəhdəti-vücud təliminin tərəfdarı deyil. Bundan əlavə, unutmaq olmaz ki, vəhdəti-vücud təlimi Muhyiddin ibn Ərəbi kimi çox böyük İslam alimləri tərəfindən müdafiə edilmişdir.

Vəhdəti-vücud düşüncəsini izah edən bir çox məşhur İslam aliminin keçmişdə bu kitablarda verilən bəzi mövzuları düşünərək izah etdikləri doğrudur. Ancaq bu əsərlərdə bəhs edilənlər vəhdəti-vücud düşüncəsi ilə eyni deyildir.

Vəhdəti-vücud düşüncəsinin tərəfdarlarından bir qismi səhv fikirlərə düşərək Qurana və əhli-sünnə inancına zidd olan bəzi iddialar irəli sürmüşlər, məsələn, Allahın yaratdığı varlıqları tamamilə yox hesab etmişlər. Əslində isə maddənin ardındakı sirr mövzusu izah edilərkən qətiyyən belə bir iddia irəli sürülmür. Bu mövzu Allahın bütün varlıqları yaratdığını, ancaq yaratdığı varlıqların əslini Allahın gördüyünü, insanların isə bu varlıqların beyinlərində əmələ gələn görüntülərini gördüklərini açıqlayır.

Gördüyümüz bütün varlıqlar, dağlar, düzənliklər, çiçəklər, insanlar, dənizlər, qısaca desək, gördüyümüz hər şey Allahın Quranda var olduğunu, yoxdan yaratdığını bildirdiyi hər varlıq yaradılmışdır və vardır. Ancaq insanlar bu varlıqların əslini duyğu orqanları yolu ilə görə bilməz, hiss edə bilməz və ya eşidə bilməzlər. Gördükləri və hiss etdikləri, bu varlıqların beyinlərindəki surətləridir. Bu, elmi həqiqətdir və bu gün başda tibb fakültələri olmaqla, bütün məktəblərdə öyrədilən elmi mövzudur. Hal-hazırda bu yazını oxuyan insan bu yazının əslini görə bilməz, bu yazının əslinə toxuna bilməz. Bu yazının əslindən gələn işıq insanın gözündəki bəzi hüceyrələr tərəfindən elektrik siqnalına çevrilir. Bu elektrik siqnalı beynin arxasındakı görmə mərkəzinə ötürülərək mərkəzə xəbərdarlıq edir və insanın beyninin arxasında bu yazının görüntüsü əmələ gəlir. Yəni siz bu dəqiqə gözünüzlə gözünüzün önündəki yazını oxumursunuz. Bu yazı sizin beyninizin arxasındakı görmə mərkəzində əmələ gəlir. Sizin oxuduğunuz yazı beyninizin arxasındakı "yazı surətidir". Bu yazının əslini isə Allah görür.

Beləliklə, maddənin beynimizdə əmələ gələn xəyal olması onun "yox" olduğu demək deyil. Ancaq bizə insanın təmasda olduğu maddənin mahiyyəti haqqında məlumat verir ki, bu da maddənin əsli ilə heç bir insanın təmasda

olmadığı həqiqətidir.

Bu həqiqət *"İdealizm, Matriks fəlsəfəsi və Maddənin gerçəyi"* adlı kitabımızda belə ifadə edilmişdir:

**Xarici aləmdə maddə var, ancaq biz maddənin əsli ilə təmasda ola bilmərik!**

Maddə xəyaldır demək, maddə yoxdur demək deyil. Əksinə, biz görsək də, görməsək də, maddi dünya mövcuddur. Ancaq biz bu dünyanı beynimizin içində bir surət, başqa bir sözlə, hisslərimizin ifadəsi kimi görürük. Ona görə, maddə bizim üçün xəyaldır.

Xarici aləmdəki maddənin varlığını bizdən başqa görən varlıqlar da var. Allahın mələkləri, katib kimi təyin etdiyi elçiləri də bu dünyaya şahidlik edirlər.

**Xatırla ki, sağında və solunda təsbit edən iki mələk oturmuşdur! Dediyi hər sözü onun yanında hazır durub gözləyən vardır! (Qaf surəsi, 17-18)**

Hər şeydən önəmlisi budur ki, Allah hər şeyi görür. Bu dünyanı hər cür incəlikləri ilə Allah yaratmışdır və Allah hər şeyi görür. Quran ayələrində belə xəbər verilir:

**... Allahdan qorxun və bilin ki, Allah, həqiqətən, sizin nə etdiyinizi görəndir! (Bəqərə surəsi, 233)**

**De: "Mənimlə sizin aranızda təkcə Allahın şahid olması kifayət edir. Şübhəsiz ki, O, bəndələrindən xəbərdardır, görəndir!" (İsra surəsi, 96)**

Bundan əlavə, unutmaq olmaz ki, Allah bütün hadisələri "Lövhi-məhfuz" adlı kitabda yazmışdır. Biz görməsək də, bunların hamısı Lövhi-məhfuzda var. Hər şeyin Allah qatında Lövhi-məhfuz adlandırılan "əsas kitab"da qorunduğu belə bildirilir:

**Şübhəsiz ki, o, dərgahımızdakı əsl kitabda mövcuddur. O, çox ucadır, çox hikmətlidir. (Zuxruf surəsi, 4)**

**... Dərgahımızda hifz edən bir kitab vardır! (Qaf surəsi, 4)**

**Göylərdə və yerdə elə bir gizli şey yoxdur ki, açıq-aydın bir Kitabda olmasın! (Nəml surəsi, 75)**



# GİRİŞ

Otağınızın pəncərəsindən çöldəki mənzərəni seyr etdikdə həyatınız boyu aldığınız təlqinə əsasən, bu mənzərəni gözlərinizlə gördüyünüzü zənn edirsiniz. Əslində isə həqiqət belə deyil. Çünki siz gözlərinizlə çöldəki mənzərəni görmürsünüz. Siz beyninizin içində əmələ gələn mənzərəyə aid görüntünü görürsünüz. Bu, hər hansı bir təxmin və ya fəlsəfə deyil, elmi həqiqətdir.

Görmə hadisəsinin necə baş verdiyini xatırladıqda bu mövzu daha aydın başa düşüləcəkdir. Gözün vəzifəsi sadəcə ona gələn işığı tor qişasındakı hüceyrələr vasitəsilə elektrik siqnalına çevirməkdir. Bu elektrik siqnalı isə beyninizdəki görmə mərkəzinə ötürülür. Daha sonra bu elektrik siqnalları pəncərənizdən gördüyünüz mənzərənin görüntüsünü əmələ gətirirlər. Nəticə etibarilə, görüntünün əmələ gəldiyi yer beyninizdir və siz evinizdən çöldəki mənzərəni deyil, beyninizin içindəki mənzərəni görürsünüz.

Yan səhifədəki rəsmdə pəncərədən baxan insanın gözünə çöldən "işıq" düşür. Bu işıq gözdəki hüceyrələr tərəfindən elektrik siqnalına çevrilərək bu insanın beyninin arxa tərəfində yerləşən kiçik görmə mərkəzinə gəlir və bu elektrik siqnalları beyində mənzərə görüntüsünü əmələ gətirir. Əslində beynimizin içi açılsa, burada mənzərəyə aid görüntü tapa bilmərik. Ancaq beynimizin içindəki şüur beyinə gələn elektrik siqnallarını mənzərə kimi qavrayır. Elə isə beynin içində gözü, göz hüceyrələri, tor qişası olmadan elektrik siqnallarını qavrayan şüur nədir, kimə aiddir?

Eyni vəziyyət hal-hazırda oxuduğunuz kitaba da aiddir. Gözlərinizə gələn işığın elektrik siqnallarına çevrilərək beyninizə çatması nəticəsində beyninizdə bu kitabın görüntüsü əmələ gəlir.

Yəni kitab hal-hazırda sizdən xaricdə deyil, içinizdə, beyninizin arxa tərəfindəki görmə mərkəzindədir. Bəlkə kitabın bərkliyini əlinizlə hiss etdiyiniz üçün kitabı özünüzdən xaricdə zənn edirsiniz. Ancaq bu bərklik hissi də eynilə




**Pəncərədən çöldəki mənzərəyə baxan insan əslində çöldəki deyil, beynindəki mənzərəyə aid görüntünü seyr edir.**

**İnsanın gözünə düşən işıq gözdəki hüceyrələr tərəfindən elektrik siqnalına çevrilərək beynin arxasındakı görmə mərkəzinə gəlir və beynimizin içindəki "şüur" beynə gələn elektrik siqnallarını mənzərə kimi qavrayır.**


YAZIÇI
SƏHİFƏ NİZAMI
MƏTBƏƏ
KİTAB EVİ
CİLDLƏMƏ
BİR KİTABIN ƏSLİNƏ HEÇ VAXT TOXUNA BİLMƏZSİNİZ

görmə hissində olduğu kimi, beyninizdə meydana gəlir. Barmaq uclarınızdakı sinirlər oyandırıldıqda bu xəbərdarlıq elektrik siqnalına çevrilərək bu dəfə beyninizdəki toxunma mərkəzinə çatdırılır və siz beyninizdə kitaba toxunduğunuza və onun bərkliyini, səhifələrinin sürüşkənliyini, cildindəki qabarıqlığı, kağız kənarlarının sivriliyini qavradığınıza dair hisslərə malik olursunuz.

**Əslində isə heç bir zaman bu kitabın əslinə toxuna bilməzsiniz.** Toxunduğunuzu hesab etdikdə əslində beyninizin içindəki toxunma hissini qavrayırsınız. Bu kitab maddə kimi sizin beyninizdən kənarda var, ancaq siz sadəcə beyninizdə əmələ gələn kitab görüntüsü ilə təmasda ola bilirsiniz. Bu kitabın yazıçı tərəfindən yazıldığı, kompyuterdə səhifə quruluşunun düzülməsi və ya bir mətbəədə çap edilməsi sizi yanıltmasın. Çünki bir azdan izah ediləcək məlumatlar bu kitabın ərsəyə gəlməsinin hər mərhələsində əməyi olan insanların, mətbəənin, kompyuterlərin də heç vaxt əslini bilməyəcəyinizi sizə göstərəcək.

Beləliklə, biz gördüyümüz, toxunduğumuz, hiss etdiyimiz hər şeyi beynimizin içində yaşayırıq. Bu texniki həqiqətdir və elmi dəlillər nəticəsində etiraza və ya mübahisəyə səbəb olacaq mövzu deyil. Əsas cəhət bu texniki həqiqətin bizi apardığı və yuxarıda verilən sualdır:

**Beynimizin içində bir gözü olmadan, pəncərədən görünən mənzərəni seyr edən, bu mənzərədən həzz alan, həyəcanlanan kimdir?** Bu vacib sualın cavabı da sonrakı səhifələrdə veriləcəkdir.





# DÜNYA HƏYATININ BEYNİMİZDƏKİ ƏKSİ İLƏ TƏMASDA OLDUĞUMUZ TEXNİKİ HƏQİQƏTDİR

Yaşadığımız dünyaya aid hər cür məlumatı və bildiyimiz hər şeyi duyğu orqanlarımız vasitəsilə öyrənirik. Duyğu orqanlarımız vasitəsilə bizə çatan məlumatlar ardıcıl proseslər nəticəsində elektrik siqnallarına çevrilir və bu siqnallar beynimizin lazımi nöqtələrində şərh edilir. Beynimizin bu şərhi nəticəsində biz, məsələn, bir kitab görürük, çiyələyin dadını alır, cökə ağaclarını qoxulayır, ipək parçaya toxunur və ya küləklə yellənən yarpaqların xışıltısını eşidirik.

Aldığımız təlqinlə hər zaman bədənimizin xaricindəki parçaya toxunduğumuzu, bizdən 30 sm-lik məsafədəki kitabı oxuduğumuzu, metrlərlə uzaqlıqdakı cökə ağaclarının qoxusunu aldığımızı, çox yüksəkliklərdəki yarpaqların xışıltısını eşitdiyimizi zənn edirik. Əslində isə bu sadaladıqlarımızın hamısı bizim içimizdə baş verən hadisələrdir. Kitabın görüntüsündən yarpaqların xışıltısına qədər hər şey içimizdə, beynimizdə əmələ gəlir. Burada daha təəccüblü həqiqətlə də qarşılaşırıq: beynimizdə əslində nə rənglər, nə səslər, nə də görüntülər var. Beynimizdə ancaq elektrik siqnalları var. Bu, fəlsəfi düşüncə deyil, duyğularımızın funksiyası ilə bağlı elmi izahdır. "*Zehnin xəritəsini çıxarmaq*" adlı kitabında yazıçı Rita Karter dünyanı necə qavradığımızı belə açıqlayır:

> *Hər bir duyğu orqanı özünə uyğun olan xəbərdarlığa cavab verəcək şəkildə yaradılmışdır. Bu xəbərdarlıqlar isə molekullar, dalğalar və ya titrəmələr şəklindədir. Bütün bu müxtəlifliyə baxmayaraq, duyğu orqanları əslində eyni vəzifəni yerinə yetirirlər: özlərinə aid olan xəbərdarlığı elektrik siqnallarına çevirirlər.* ***Xəbərdarlıq isə sadəcə xəbərdarlıqdır. Qırmızı rəng deyil və ya Bethovenin beşinci simfoniyasının ilk notu deyil, sadəcə elektrik enerjisidir.*** *Əslində hər hansı bir hissi digərlərindən fərqləndirmək əvəzinə duyğu orqanları hamısını eyni şeyə, yəni elektrik siqnalına çevirirlər.*
>
> *Elə isə* ***bütün hisslərə aid olan xəbərdarlıqlar eyni qaydada beynə elektrik axınları şəklində daxil olur*** *və buradakı sinir hüceyrələrinə xəbərdarlıq edirlər. Bütün proses budur.* ***Bu elektrik siqnallarını yenidən işıq dalğalarına və ya molekullara çevirən geri qayıtma sistemi yoxdur.*** *Hər hansı bir elektrik siqnalının görüntüyə, digərinin qoxuya çevrilməsi isə bu elektrik siqnalının hansı sinir hüceyrələrinə təsir etməsinə bağlıdır.1*

Yuxarıdakı açıqlamalar çox vacib mövzuya diqqət çəkir. Bizim dünya haqqında qavradığımız bütün hisslər, görüntülər, dadlar və qoxular əslində eyni məmulatdan, yəni elektrik siqnallarından meydana gəlir. Elektrik siqnallarını bizim üçün mənalandıran, bu siqnalları qoxu, dad, görüntü, səs və ya toxunma şəklində şərh edən isə beyindir. Beyin kimi nəm ətdən əmələ gələn bir maddənin hansı elektrik siqnalını qoxu, hansını görüntü kimi şərh edəcəyini bilməsi, eyni






**Bütün həyatımızı beynimizin içində yaşayırıq. Gördüyümüz insanlar, qoxuladığımız çiçəklər, dinlədiyimiz musiqi, daddığımız meyvələr, əlimizdə hiss etdiyimiz nəmlik... Bunların hamısının beynimizdəki halını bilirik. Əslində isə beynimizdə nə rənglər, nə səslər, nə də görüntülər var. Beyində təkcə elektrik siqnalları var. Qısaca desək, biz beynimizdəki elektrik siqnallarının əmələ gətirdiyi dünyada yaşayırıq. Bu, bir fikir və ya fərziyyə deyil, dünyanı necə qavradığımıza dair elmi açıqlamadır.**

məmulatdan bir-birindən çox fərqlənən duyğular və hisslər meydana gətirməsi isə böyük möcüzədir.

İndi bu böyük möcüzənin necə baş verdiyini, yəni "dünyanı necə qavrayırıq?" sualının cavabını bütün hisslərimiz üçün bir-bir nəzərdən keçirək.

## Görən gözlərimiz deyil, görüntü beynimizdə əmələ gəlir

Həyatımız boyu aldığımız təlqinlə bütün dünyanı gözlərimizlə gördüyümüzü zənn edirik. Hətta "gözlərimiz dünyaya açılan pəncərədir" deyə bilərik. Əslində isə görmənin elmi açıqlamasına əsasən, həqiqət belə deyil, çünki **biz gözlərimizlə görmürük**. Gözlərimiz və gözlərimizə bağlı olan milyonlarla sinir hüceyrəmiz sadəcə "görmə hadisəsinin" həyata keçməsi üçün beyinə mesaj yollayan kabel vəzifəsini daşıyır. Görmə hadisəsinin necə həyata keçdiyini orta məktəb biliklərimizdən xatırlasaq, bu həqiqəti daha asan başa düşərik. Bir cisimdən gələn işıq göz büllurundan keçir və gözün arxa tərəfindəki torlu qişanın üzərinə başı aşağı və iki ölçülü görüntü salır. Torlu qişadakı çöpcüklər və kolbacıqlar bəzi kimyəvi proseslərdən sonra bu görüntünü elektrik siqnalına çevirirlər. Bu elektrik axınları göz sinirləri vasitəsilə beynin arxa tərəfindəki görmə mərkəzinə ötürülür. Beyin isə gələn bu siqnalı aydın və üç ölçülü görüntülərə çevirir. Məsələn, biz parkda oynayan uşaqları seyr etdikdə bu uşaqları və parkı gözlərimizlə görmürük, çünki bu mənzərəyə aid görüntü gözümüzün önündə deyil, beynimizin arxa tərəfində əmələ gəlir. Burada çox səthi şəkildə izah etdiyimiz görmə prosesi əslində çox mürəkkəbdir. İşıq şüaları bir anda və qüsursuz şəkildə elektrik siqnallarına çevrilir və sonra bu elektrik siqnalları üç ölçülü, rəngarəng, parlaq dünya şəklində bizə görünür. *"Göz və beyin"* kitabının müəllifi R.L.Qreqori bunun fərqinə varmış şəxslərdən biri kimi görmə sistemindəki möhtəşəm quruluşu belə ifadə edir:

> *Gözlərimizə kiçik, başı aşağı görüntülər verilir və biz ətrafımızda bunları sağlam cisimlər kimi görürük. Tor qişanın üzərindəki siqnallar nəticəsində cisimlər dünyasını qavrayırıq və əslində bunun bir möcüzədən fərqi yoxdur.*[2]

Bütün bunlar bizi daima eyni həqiqətə aparır: biz həyatımız boyu dünyanı bizim xaricimizdə zənn edirik. Əslində isə **dünya hər şeyi ilə birlikdə bizim içimizdədir.** Biz xaricimizdə hesab etdiyimiz dünyanı əslində içimizdə, beynimizdəki kiçik nöqtədə görürük. Məsələn, bir şirkət rəhbəri şirkətin binasının, şəhərin kənarındakı fabrikinin, avtoparkdakı avtomobilinin, dəniz sahilindəki evinin, limandakı yaxtasının, tabeçiliyində işləyən yüzlərlə insanın, vəkillərinin, ailəsinin, dostlarının daima öz bədənindən xaricdə olan

## *GÖRDÜYÜMÜZ VƏ MALİK OLDUĞUMUZ HƏR ŞEY BEYNİMİZDƏ ƏMƏLƏ GƏLƏN GÖRÜNTÜDÜR*





**Topla oynayan uşağı seyr edən insan bu uşağı əslində gözləri ilə görmür. Gözlərin funksiyası sadəcə işığı gözün arxa tərəfinə ötürməkdir. İşıq tor qişaya çatdıqda tor qişada uşağın tərsinə və iki ölçülü görüntüsü əmələ gəlir. Daha sonra bu görüntü elektrik siqnalına çevrilərək beynin arxasındakı görmə mərkəzinə çatır və uşağın düz, üç ölçülü və qüsursuz görüntüsü burada görülür. Bəs beynin arxasında uşağın üç ölçülü, qüsursuz dərəcədə aydın görüntüsünü görən kimdir? Elə burda qarşımıza beynin fövqündə olan varlıq – RUH çıxır.**

varlıqları ilə təmasda olduğunu düşünür. Lakin bunların hamısının sadəcə onun kəllə sümüyünün içində, beyninin arxa tərəfindəki kiçik bölgədə əmələ gələn görüntüləri ilə təmasdadır. Xarici aləmdəki əsillərinin necə olduğunu isə heç vaxt bilə bilməz. Sözügedən şəxs bu həqiqəti bilmir, bilsə də, düşünmək istəməz. Ancaq son model avtomobili ilə gəldiyi şirkətinin qarşısında qürurla dayanarkən əsən mehlə gözünə toz düşsə, bu həqiqəti o dəqiqə anlayar. Toz düşdüyü üçün qaşınan sağ gözünü gözü açıq ikən yüngülcə qaşıdıqda şirkət binasının yuxarı-aşağı və ya sağa-sola doğru gedib-gəldiyini görəcəkdir. Elə bu zaman düşünən insan gördüyü görüntünün xarici aləmdəki sabit varlıq olmadığını anlayar. Çünki gözünü qaşıması ilə görüntü gedib-gəlir.

**Beləliklə, bu bir həqiqətdir ki, hər insan həyatı boyu gördüyü hər şeyi beynində görür və heç bir zaman gördüklərinin əsilləri ilə təmasda ola bilməz. Gördükləri xarici aləmdə mövcud olan görüntülərin beynində əmələ gələn surətidir. Bu surətin əslinin necə olduğu isə bizə məlum deyil.**

Materialist olmasına baxmayaraq, alman psixiatr və nevrologiya professoru Hoymar von Ditfurt bu elmi həqiqət haqqında bunları söyləyir:

# *GÖRDÜYÜMÜZ VƏ MALİK OLDUĞUMUZ HƏR ŞEY BEYNİMİZDƏ ƏMƏLƏ GƏLƏN GÖRÜNTÜDÜR*

**Gözünü qaşıyan insan avtomobilinin aşağı-yuxarı sürüşdüyünü görəcək. Bu da gördüyü bu avtomobilin xarici aləmdəki sabit əsli ilə deyil, beynində əmələ gələn görüntüsü ilə təmasda olduğunun dəlilidir.**



*Arqumentlərimizin hərəkətverici qolunu hara yerləşdirsək də, nəticə dəyişmir: ətisümüyü ilə qarşımızda duran, **gözümüzün gördüyü şey "dünya" deyil, sadəcə onun xəyalıdır, bir bənzəridir, orijinalı ilə nə qədər üst-üstə düşdüyü mübahisəlidir.**[3]*

Məsələn, hal-hazırda başınızı qaldırıb içində olduğunuz otağa baxdıqda gördüyünüz sizin xaricinizdəki otaq deyil. Siz otağın beyninizin içində əmələ gələn xəyali görüntüsünü görürsünüz və heç bir zaman bu otağın əslini duyğu orqanlarınız vasitəsilə görməyiniz mümkün deyil.

## Qapqaranlıq beyninizin içində aydın və rəngarəng görüntü necə meydana gəlir?

Nəzərdən qaçırılmamalı vacib cəhət də var: beynin içində işıq yoxdur. Yəni beynin yerləşdiyi yer qapqaranlıqdır, ona görə də beynin işığın özü ilə təmasda olması əsla mümkün deyil. Ancaq **siz möcüzəvi şəkildə bu zülmət qaranlıqda işıqlı, parlaq dünyanı seyr edirsiniz.** Rəngarəng təbiət, parlaq mənzərə, yaşılın hər çaları, meyvələrin rəngləri, çiçəklərin naxışları, günəşin parıltısı, küçədəki bütün insanlar, yolda sürətlə şütüyən maşınlar, ticarət mərkəzindəki yüzlərlə növ geyim də daxil olmaqla, hər şey bu zülmət qaranlıq yerdə əmələ gəlir.

Buradakı maraqlı vəziyyəti bir nümunə ilə açıqlayaq. Qarşımızda yanan manqal alovunu düşünək. Bu manqalın qarşısına keçib onu uzun müddət izləyə bilərsiniz. Amma bu müddət boyu beynimizə manqaldan gələn işığın, parıltının və istiliyin əsli ilə heç vaxt təmasda ola bilmərik. Manqaldakı alovun işığını və istiliyini hiss etdiyimiz anda belə kəllə sümüyümüzün və beynimizin içi qapqaranlıqdır və temperaturu heç dəyişmir. Qapqaranlıq beynin içində elektrik siqnallarının rəngarəng, parıltılı, aydın görüntüyə çevrilməsi bir möcüzədir. Bu hadisə üzərində düşünən insan qarşılaşdığı əsrarəngizlik qarşısında böyük heyranlıq hissi keçirəcəkdir.

## İşıq da beynimizdə əmələ gəlir.

Görmə hadisəsinin necə baş verdiyini izah edərkən daima xaricdən gələn işığın gözümüzdəki hüceyrələri hərəkətə gətirdiyini və bu hərəkətlənmənin görüntünün əmələ gəlməsinə səbəb olduğunu bildirdik. **Ancaq burada vurğulanmalı çox vacib bir cəhət də var. Əslində beynimizin xaricində bizə məlum olan işıq yoxdur. Bizim bildiyimiz, tanıdığımız işıq yenə bizim beynimizdə əmələ gəlir.** Xarici dünyada, yəni beynimizin xaricində işıq kimi bildiyimiz şey elektromaqnit dalğalar və fotonlardır (fotonlar zərrəcik halında olan enerjidir). Bu elektromaqnit dalğalar və ya fotonlar tor qişanı oyandırdıqda bizə məlum olan "işıq" əmələ gəlir. Fizika kitablarında işığın bu xüsusiyyəti belə ifadə edilir:




*İşıq sözü fiziki və ya obyektiv mənada elektromaqnit dalğalarla və ya fotonlarla bağlı istifadə edilmişdir. Eyni söz psixoloji mənada elektromaqnit dalğalar və fotonlar gözün tor qişasına təsir etdikdə insanda əmələ gələn hiss ilə bağlı olaraq da istifadə edilir. İşıq sözünün həm obyektiv, həm də subyektiv anlayışlarını birlikdə ifadə edək: işıq bir insan gözünə tor qişasının oyandırılması nəticəsində əmələ gələn görmə təsiri ilə varlığını göstərən enerji formasıdır.*[4]

Beləliklə, işıq gözümüzə gələn bəzi elektromaqnit dalğaların və ya hissəciklərin bizdə əmələ gətirdiyi təsir ilə meydana gəlir. Yəni xaricdə beynimizdəki görüntünü əmələ gətirəcək işıq da yoxdur. Sadəcə enerji var və bu enerji gözümüzə çatdıqda biz rəngarəng, parlaq, aydın dünya görürük.

# *BEYİNDƏ ƏMƏLƏ GƏLƏN SON DƏRƏCƏ HƏQİQİ "XƏYALİ GÖRÜNTÜLƏR"*



Aşağıdakı rəsmdə minlərlə elektronika mühəndisinin üzərində yüz ilə yaxın müddətdə çalışaraq istehsal etdikləri və çox yüksək texnologiyaya malik televizorda ortaya çıxan görüntü ilə insan gözündə əldə edilən görüntü müqayisə edilir.

**GÖZÜ ƏMƏLƏ GƏTİRƏN XAM MADDƏLƏR**

Zülallar
Yağ
Su

**TELEVİZORUN TƏRKİB HİSSƏLƏRİNDƏN BƏZİLƏRİ**



Katot şüa tüpü, idarəetmə düymələri, yerdəyişmə barabanı, səsgücləndirici cihaz, kondensator, transformator, müqaviməti mərkəzləşdirmə barabanı, elektron tapançası, anod və digərləri....

**NƏTİCƏ**

Əsli ilə ayırd edilə bilməyəcək qədər eyni, aydın, canlı, dərin, dumanlanma və sürüşmə olmayan, parlaq 3 ölçülü görüntü

**NƏTİCƏ**

Əslinə tam bənzəməyən, bəzən dumanlı, toranlıq, bəzən görüntünün əyildiyi, dərinlik hissinin tam verilmədiyi görüntü

**Bu rəsmdən də göründüyü kimi, insanlar on illərlə səy göstərmələrinə baxmayaraq, gözdəki kimi qüsursuz dərəcədə aydın və keyfiyyətli görüntü əldə edə bilməmişlər. Ancaq onların həyata keçirə bilmədiklərini sadəcə zülal, yağ və sudan əmələ gələn gözünüz, üstəlik, son dərəcə həqiqi görüntü şəklində meydana gətirir. Bu, o qədər qüsursuz və aydınlıqdır ki, hər insan gördüyü görüntünün həqiqi olduğunu zənn edir. Gördüyü hər şeyin beynində əmələ gəldiyini anlaya bilmir. Əslini seyr etmədiyi halda əsl görüntüyə baxdığına əmindir, çünki beynində əmələ gələn görüntünün keyfiyyəti mükəmməldir. Görüntünü görən beyindəki zülallar, molekullar və atomlar deyil, Allahın insana Özündən üfürdüyü RUHdur.**






## Rənglər də beynimizdə əmələ gəlir

Biz doğulduğumuz andan etibarən ətrafımızda rəngli dünya görür, rəngarəng mühitlə təmasda oluruq. Əslində isə kainatda heç bir rəng yoxdur. Rənglər beynimizin içində əmələ gəlir. Xaricdə sadəcə fərqli dalğa uzunluqlarına malik elektrik dalğaları var. Gözümüzə çatan bu fərqli dalğa uzunluqlarındakı enerjidir.

Yuxarıda da bildirildiyi kimi, biz buna işıq deyirik, ancaq bu, bizim bildiyimiz mənada parlaq, aydın işıq deyil, sadəcə enerjidir. Beynimiz bu fərqli dalğa uzunluqlarına malik enerjini şərh etdikdə biz onları "rənglər" kimi görürük. Əslində isə nə dənizlər mavi, nə otlar yaşıl, nə torpaq qəhvəyi, nə də meyvələr rənglidir. Onlar sadəcə beynimizdə o cür qavradığımız üçün elədirlər. Şüur və beyin haqqında yazdığı kitabları ilə *Daniel C. Dennet* bu həqiqəti belə izah edir:

*Ortaq qənaətə əsasən, elm rəngləri fiziki dünyadan ayırmış və əvəzinə sadəcə rəngsiz, fərqli dalğa uzunluqlarındakı elektromaqnit şüaları saxlamışdır.*[5]

Dennet beyinlə bağlı bir kitabında rənglərin meydana gəlməsi haqqında bunları deyir:

***Dünyada rəng yoxdur, rəng sadəcə baxanın gözündə və beynində əmələ gəlir.*** *Cisimlər işığın fərqli dalğa uzunluqlarını əks etdirirlər, ancaq bu işıq dalğalarının rəngi yoxdur.*[6]

# *BÜTÜN RƏNGLƏR BEYNİMİZDƏ ƏMƏLƏ GƏLİR, XARİCİ ALƏMDƏ RƏNG YOXDUR*



**Xarici aləmdə rənglər yoxdur. Rənglər sadəcə baxan şəxsin gözündə və beynində əmələ gəlir. Xarici aləmdə sadəcə fərqli dalğa uzunluqlarındakı enerji mövcuddur. Bu enerjini rəngə çevirən beynimizdir.**

Bu elmi həqiqətin daha yaxşı başa düşülməsi üçün rəngləri necə gördüyümüzü qısaca nəzərdən keçirək.

Günəşdən gələn işıqlar bir cismə toxunduqda hər cisim işığı fərqli dalğa uzunluğunda əks etdirir. Bu fərqli dalğa uzunluqlarındakı işıq gözə çatır (burada işıq olaraq bəhs edilənin əslində elektromaqnit dalğalar və fotonlar olduğu, bizə məlum olan işığın isə sadəcə beynimizdə əmələ gəldiyini unutmamaq lazımdır). Rəngin qavranılması gözün tor qişasındakı kolbacıqlarda başlayır. Tor qişada işığın müəyyən dalğa uzunluğuna cavab verən üç əsas kolbacıq hüceyrə qrupu var. Bu hüceyrə qruplarının birincisi qırmızı, ikincisi mavi, üçüncüsü ilə yaşıl işığa həssasdır. Bu üç fərqli kolbacıq hüceyrənin müxtəlif nisbətlərdə oyandırılması nəticəsində milyonlarla müxtəlif rəng çaları ortaya çıxır. Ancaq işığın kolbacıq hüceyrələrə çatması rənglərin əmələ gəlməsi üçün kifayət deyil. Johns Hopkins Universitetinin tibb fakültəsindən tədqiqatçı Jeremy Nathans gözdəki hüceyrələrin rəngləri əmələ gətirmədiyini belə bildirir:

*Hər hansı bir kolbacıq hüceyrənin üzərinə düşən tək şey işığı tutub gərginliyi haqqında məlumat verməkdir. Rəng haqqında sizə heç bir şey demir.*[7]

Kolbacıq hüceyrələr qəbul etdikləri bu rəng məlumatlarını malik olduqları piqmentlər vasitəsilə elektrik siqnallarına çevirirlər. Bu hüceyrələrlə əlaqədar olan sinir hüceyrələri də elektrik siqnallarını beyindəki xüsusi





**Beynimizdən kənarda işıq və rənglər yoxdur. Rənglər və işıq gözümüzdə və beynimizdə əmələ gəlir.**



**Gözün tor qişasında işığın müəyyən dalğa uzunluğuna reaksiya verən üç əsas kolbacıq hüceyrə qrupu var. Bu hüceyrə qruplarının birincisi qırmızı, ikincisi mavi, üçüncüsü isə yaşıl işığa həssasdır. Bu üç fərqli kolbacıq hüceyrəsinin fərqli nisbətlərdə oyandırılmaları nəticəsində biz milyonlarla fərqli rəng tonuna malik bir dünya görürük.**

bölgəyə göndərirlər. Həyatımız boyu gördüyümüz rəngarəng dünyamızın əmələ gəldiyi yer elə beyindəki bu xüsusi bölgədir. Beləliklə, beynimizdən xaricdə rənglər yoxdur, işıq da yoxdur. Sadəcə elektromaqnit dalğalar və ya hissəciklər şəklində hərəkət edən enerji var. Həm rənglər, həm də işıq sadəcə bizim beynimizdədir. Yəni biz gülü qırmızı olduğu üçün qırmızı rəngdə görmürük. Bizim gülü qırmızı görməyimizin səbəbi tor qişamıza təsir edən enerjinin beynimiz tərəfindən qırmızı kimi şərh edilməsidir.

Rəng korluğu rənglərin beynimizdə əmələ gəlməsinin vacib dəlillərindəndir. Məlumdur ki, gözdəki tor qişada əmələ gələn kiçik pozuntu rəng korluğuna səbəb olur. Belə olduqda insan yaşıl ilə qırmızını bir-birindən ayırd edə bilmir. Bu halda xarici aləmdəki cismin "rəngli" olub-olmaması vacib deyil. Çünki biz cisimləri onlar rəngli olduqlarına görə rəngli görmürük. Buradakı nəticə bundan ibarətdir: varlıqlara aid etdiyimiz bütün xüsusiyyətlər "xarici dünyada" deyil, beynimizdədir. Biz heç vaxt hisslərimizdən kənara çıxaraq xarici aləmə çıxa bilməyəcəyimizə görə, maddələrin və ya rənglərin əsillərini



**Yuxarıdakı şəkildə sol tərəfdəki yaşıl sahələr daha tünd, sağdakılar daha açıq yaşıl kimi görünür. Əslində hər iki tərəfdəki yaşılın tonu – aşağıda da görəcəyiniz kimi – bir-birinin eynidir. Ancaq yaşılların arasındakı qırmızı və narıncı rənglər gözümüzü aldadır və rənglərin tonlarını olduğundan fərqli görməyimizə səbəb olur. Bunun göstərdiyi vacib həqiqət budur: biz maddənin əslini deyil, sadəcə beynimizdəki şərhini görürük.**





**Allahın qüsursuz yaratması ilə elektrik siqnallarını milyonlarla rəng tonundan ibarət, parlaq, rəngarəng bir dünya kimi görür və bu gördüklərimizdən zövq alırıq. Bu, üzərində düşünməli qeyri-adi bir möcüzədir.**

*BÜTÜN SƏSLƏR BEYNİMİZDƏ ƏMƏLƏ GƏLİR, XARİCİ ALƏMDƏ SƏS YOXDUR*



də bilmərik. Məşhur mütəfəkkir *Berkeley* də bu həqiqətə aşağıdakı sözləri ilə diqqət çəkir:

*Qısaca desək, eyni şeylər eyni zamanda bəziləri üçün qırmızı, bəziləri üçün isti, bəziləri üçün tam əksi ola bilirsə, bu, o deməkdir ki, biz illüziyaların təsirindəyik...*[8]

## Bütün səsləri beynimizdə eşidirik

Eşitmə prosesi də eynilə görmə kimi baş verir. Başqa sözlə, xarici aləmə aid görüntüləri necə beynimizin içində görürüksə, səsləri də beynimizin içində eşidirik. Xarici qulaq ətrafdakı səs dalğalarını qulaq seyvanı ilə toplayaraq qulağa ötürür. Orta qulaq isə qəbul etdiyi səs titrəmələrini gücləndirərək daxili qulağa ötürür. Daxili qulaq da bu titrəmələri səsin gərginliyi və sıxlığına görə elektrik siqnallarına çevirərək beyinə göndərir. Beyində bir neçə mərhələdən sonra siqnallar son mərhələdə işlənərək şərh edilmək üçün eşitmə mərkəzinə göndərilir. Beləliklə, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Ona görə də beynimizdən kənarda səslər deyil, səs dalğaları kimi tanınan fiziki titrəmələr var. Bu səs dalğalarının səsə çevrildiyi yer isə xarici aləm və ya qulağımız deyil, beynimizin içidir. Yəni görən gözlərimiz olmadığı kimi, eşidən də qulaqlarımız deyil. Məsələn, ən yaxın dostunuzla söhbət edərkən dostunuzun görüntüsünü beyninizdə izləyir, səsini də beyninizin içində dinləyirsiniz və necə ki, beyninizdəki görüntü üç ölçülü, dərinlik hissi ilə əmələ gəlirsə, dostunuzun səsi də sizə dərinlik hissini təsdiqləyəcək şəkildə gəlir. Məsələn, dostunuzu sizdən uzaqda görürsünüzsə və ya arxanızda bir yerdə oturursa, səsinin də

**Xarici qulaq ətrafdakı səs dalğalarını qulaq seyvanı vasitəsilə toplayaraq orta qulağa ötürür. Orta qulaq isə aldığı səs titrəyişlərini gücləndirərək daxili qulağa ötürür. Daxili qulaq da bu titrəyişləri səsin gərginliyinə və sıxlığına görə elektrik siqnallarına çevirərək beyinə göndərir.**





# İNSANLAR MADDƏNİN ƏSLİNİ GÖRDÜKLƏRİNİ ZƏNN ETSƏLƏR DƏ, BEYNİMİZDƏN KƏNARDA İŞIQ, SƏS, RƏNG YOXDUR, SADƏCƏ ENERJİ VAR

Yaşadığımız hər şeyin beynimizdə əmələ gələn xəyallar cəmi olması elmi cəhətdən sübut edilmiş bir həqiqət olmasına baxmayaraq, bəzi insanlar beynimizdən kənarda bu görüntülərin əsllərini gördüklərini zənn və iddia edirlər. Bu, heç vaxt sübut edilə bilməyəcək iddiadır. Daha əvvəl də bildirildiyi kimi, beynimizdən kənarda nə səs, nə işıq, nə də rənglər var. İşıq xarici aləmdə enerji dalğaları və ya enerji torbacıqları şəklində mövcuddur və ancaq tor qişaya təsir etdikdə bizə məlum olan işıq qavrayışı ilə qarşılaşırıq. Buna bənzər şəkildə xarici aləmdə səs də yoxdur. Sadəcə enerji dalğaları var. Bu dalğaların bəziləri də qulağımıza və oradan beynimizə gəldikdə səs əmələ gəlir. Xarici aləmdə rəng də yoxdur. "Rəng yoxdur", -deyərkən insanların ağlına qara, ağ, boz kimi görüntü gəlir. Əslində isə bunlar da rəngdir. Beynimizdən kənardakı dünyada isə qara, ağ, boz belə yoxdur. Sadəcə fərqli gərginlik və tezliklərə malik enerji dalğaları var və bu enerji dalğaları sadəcə göz hüceyrələrimiz və beynimiz vasitəsilə rənglərə çevrilirlər.

"Maddənin əslini görürəm", -deyə israr edənlərin iddialarını əsassız edən elm sahələrindən biri də kvant fizikasıdır. Kvant fizikasının bizə göstərdiyi ən vacib həqiqətlərdən biri materialistlərin toxunduqda bərkliyini hiss etdikləri mütləq varlıq hesab etdikləri maddənin əslində 99.9999999 %-nin boşluq olmasıdır. Fizika və psixologiya sahəsində apardığı fəaliyyətlərlə tanınan və xüsusilə insan şüuru haqqındakı açıqlamalarından ibarət bir çox kitabı olan Peter Russel "From science to God" (Elmdən Allaha) adlı kitabından bəhrələnərək hazırlanan bir məqaləsində bu həqiqəti belə açıqlayır:

> Məsələn, maddə ilə bağlı düşüncələrimizi nəzərdən keçirin. 2000 ildir ki, atomların bərk maddəni əmələ gətirən kiçik toplar olduğuna inanılır. Daha sonra fiziklər atomların daha kiçik atomaltı zərrəciklərdən (elektronlar, protonlar və neytronlar kimi) ibarət olduğunu tapdılar. Model mərkəzdə nüvə və ətrafında fırlanan elektronlara çevrildi.
>
> Atom çox kiçikdir. Diametri 25.4 millemetrin milyardda biri qədərdir. Ancaq atomaltı zərrəciklər atomdan yüz minlərlə dəfə kiçikdir. XX əsrin əvvəllərində ingilis fizik Sir Arthur Eddington: "Maddə bir xəyal kimi boş məkandır", -deyərək bu vəziyyəti açıqlamışdır. Daha açıq demək lazımdırsa, maddənin 99.9999999 %-i boşdur. Hətta maddəyə bənzər heç bir tərəfi yoxdur. Daha çox bulud topaları kimidirlər. Əksəriyyəti zərrəcik kimi deyil, dalğa formasında görünürlər. (Peter Russell, "The mystery of consciousness and meaning of light" (Şüurun sirri və işığn mənası), 12 oktyabr, 2000-ci il, http://www.arlingtoninstitute.org/ futuredition/from_science_to_God.htm)

Göründüyü kimi, elmi kəşflər beynimizdən kənarda sadəcə enerji dalğalarının, enerji torbacıqlarının olduğunu bizə göstərir. Beynimizdən kənarda nə işıq, nə səs, nə də rənglər var. Habelə maddəni əmələ gətirən atomlar və atomaltı zərrəcikləri də əslində boşluqdan meydana gələn enerji topaları kimidirlər. Beləliklə, maddə boşluqdan ibarətdir.

Əslində Allah maddəni bir görüntü kimi bu xüsusiyyətlərlə yaradır.




yerinə görə uzaqdan, çox yaxından və ya arxanızdan gəldiyini zənn edirsiniz. Əslində isə dostunuzun səsi nə arxanızda, nə də uzağınızdadır. Dostunuzun səsi sizin içinizdə, beyninizdədir.

Eşitdiyiniz səsin əsli barədə möcüzələr bununla bitmir. Beyin necə işığı keçirmirsə, səsi də keçirmir. Yəni beyinə heç bir zaman səs girə bilməz. Ona görə, eşitdiyiniz səslər nə qədər gurultulu olsa da, beyninizin içi tamamilə səssizdir. Lakin bu gurultunu, ən aydın səsləri beyninizdə dinləyirsiniz. O qədər aydındır ki, sağlam insan qulağı heç bir xışıltı olmadan hər şeyi eşidir.

Səs keçirməyən, dərin səssizliyin hökm sürdüyü beyninizdə orkestrin simfoniyalarını dinləyirsiniz, şəhərin səs-küyünü eşidirsiniz, yarpağın xışıltısından reaktiv təyyarələrin gurultusuna qədər böyük tezlik və desibel aralığındakı bütün səsləri qavraya bilirsiniz. Sevdiyiniz müğənninin konsertinə getdikdə bütün salonda əks olunan o güclü səs də əslində beyninizdəki səssizliyin içində əmələ gəlir. Öz-özününzə yüksək səslə mahnı oxuduğunuzda da bunu yenə beyninizdə dinləyirsiniz. Əslində isə o anda həssas cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada tamamilə səssizliyin hakim olduğu məlum olar. Bu, çox fövqəltəbii vəziyyətdir. Beyninizə gələn elektrik siqnalları səs kimi, məsələn, hər hansı bir stadiondakı insanların müşayiət etdiyi qrupun konserti şəklində beyninizdə dinlənilir.



## Bütün qoxular beynin içində meydana gəlir

Bir insandan qoxuları necə hiss etdiyi soruşulsa, çox güman ki, "burnumla" deyəcək. Əslində isə bəzi insanların qəti həqiqət kimi gördükləri bu cavab doğru deyil. Yale Universitetindən nevrologiya professoru olan Gordon Shepherd *"Burnumuzla qoxuladığımızı düşünürük, ancaq bu sanki "qulaq mərcəyi ilə eşidirik" demək kimi bir şeydir"* sözləri ilə bunun doğru olmadığını açıqlayır.[9]

Qoxu hissimizin funksiyası digər duyğu orqanlarımızın funksiyasına bənzəyir. Əslində burnumuzun xaricdən görünən hissəsinin vəzifəsi sadəcə kanal kimi havadakı qoxu molekullarını içəri qəbul etməkdir. Vanil və ya gül qoxusu kim uçucu molekullar burnun epitel adlanan hissəsindəki titrək tüklərdəki reseptorlara çatır və burada qarşılıqlı əlaqəyə keçir. Qoxu molekullarının epitel bölgəsindəki əlaqəsi beynimizə elektrik siqnalı kimi çatır. Bu elektrik siqnalları isə beynimizdə qoxu kimi şərh edilir.

Beləliklə, bizim xoş və ya pis adlandırdığımız qoxuların hamısı uçucu molekulların qarşılıqlı təsir nəticəsində elektrik siqnalına çevrildikdən sonra beyindəki şərh formasından başqa bir şey deyil. Bir ətir, çiçəyi, xoşladığınız yeməyin və ya dənizin qoxusunu, xoşunuza gələn və ya gəlməyən hər cür qoxunu beyninizdə hiss edirsiniz. **Ancaq əslində qoxu molekulları beyinə heç vaxt çatmır. Səs və görüntüdə olduğu kimi, qoxu hissində də beyninizə çatan yalnız elektrik siqnallarıdır.**

Bu halda qoxunun istiqaməti də olmaz, çünki bütün qoxular beyninizdəki qoxu alma mərkəzində qavranılır. Məsələn, piroqun qoxusu sobadan, yeməyin qoxusu mətbəxdən, doqquzdon bitkisinin qoxusu bağdan, dənizin qoxusu metrlərlə uzaqlıqdakı dənizdən gəlməz. Hamısı tək nöqtədə, beyninizdəki lazımi yerdə qavranılır. Bu duyğu mərkəzindən kənarda sağ, sol, ön, arxa kimi bir anlayış yoxdur. Bunların hər biri ilk baxışda müxtəlif təsirlərlə və müxtəlif tərəflərdən gələn kimi görünsə də, əslində hamısı beyində əmələ gəlir. Qoxu alma mərkəzinizdə əmələ gələn təsirləri xarici aləmdəki maddələrin qoxusu hesab edirsiniz. Əslində isə gülün görüntüsü necə görmə mərkəzinizin içindədirsə, o gülün qoxusu da eyni şəkildə qoxu alma mərkəzinizin içindədir. Xarici aləmdə həqiqi qoxu varsa da, sizin bunun əsli ilə təmasda olmağınız əsla mümkün deyil.

**Bağında gülün ətrini alan insan əslində heç vaxt güllərin əslini qoxulamır. Aldığı qoxu elektrik siqnallarının beyni tərəfindən şərhidir. Ancaq bu qoxu o qədər həqiqidir ki, insan heç vaxt gülün əslini qoxulamadığını anlamır. Hətta bu həqiqiliyə görə, dünyadakı insanların bəziləri həqiqi gülü qoxuladıqlarını zənn edir. Bu, Allahın yaratdığı çox böyük möcüzədir.**

*BÜTÜN QOXULAR BEYNİMİZDƏ ƏMƏLƏ GƏLİR*







**Burnun vəzifəsi sadəcə qoxuya aid oyanmaları beyinə ötürməkdir. Şorbanın və ya gülün qoxusu beyində hiss edilir. Belə ki, insan ortada bir gül və ya bir boşqab şorba olmasa da, yuxuda hər ikisinin qoxusunu ala bilir. Allah beynin içində dadı, qoxusu, görüntüsü ilə toxunma hissi və səsi ilə o qədər inandırıcı hisslər cəmi meydana gətirir ki, insanlara bu hisslərin beyində əmələ gəldiyini, gördükləri şeylərin heç birinin əsli ilə təmasda olmadıqlarını izah etmək üçün xeyli açıqlama vermək lazımdır. Elə bu, Allahın möhtəşəm elmidir.**

George Berkeley bu vacib həqiqəti anlayan mütəfəkkir kimi: *"Əvvəl rənglərin, qoxuların və s. həqiqətdə mövcud olduğu hesab edildi; ancaq daha sonra bu cür baxışlar rədd edildi və aydın oldu ki, bunlar ancaq duyğularımız sayəsində var"*, - deyir.

Qoxunun hiss olduğunu anlamaq üçün yuxuları düşünmək də faydalı ola bilər. İnsanlar yuxularında necə bütün görüntüləri çox həqiqi şəkildə görə bilirlərsə, eyni şəkildə yuxularında bütün qoxuları da həqiqətdə olduğu kimi duyurlar. Məsələn, yuxuda restorana gedən hər hansı bir şəxs yeməyini menyuda olan yeməklərin qoxuları arasında yeyir, dəniz kənarına gəzintiyə çıxan biri dənizin özünəməxsus qoxusunu duyur, çobanyastığı bağçasına girən biri o mükəmməl qoxulardan həzz alır və yaxud başqa biri ətriyyat mağazasına girərək özünə ətir seçir və hətta bu ətirlərin qoxusunu tək-tək ayırd edə bilir.



**Bir insan bir az fikrini cəmləyərək anasının görüntüsünü və ya çobanyastığının qoxusunu zehnində canlandıra bilər. Bəs yanında olmadığı halda bir gözə ehtiyacı hiss etmədən bu görüntünü görən, bir buruna ehtiyac hiss etmədən qoxu alan kimdir? Bu varlıq insanın ruhudur.**

Hər şey o qədər həqiqidir ki, həmin şəxs yuxudan oyandıqda bu vəziyyətə təəccüb edir.

Bu mövzunu anlamaq üçün əslində yuxuları düşünməyə də lüzum yoxdur. Sadaladığımız təsvirləri hal-hazırda xəyal edib düşünməyiniz də kifayətdir. Məsələn, indi hər hansı bir çobanyastığı qoxusunu düşünün. Əlinizdə çobanyastığı olmadığına baxmayaraq, əgər fikirlərinizi cəmləsəniz, çobanyastığı qoxusunu hiss edə bilərsiniz. Qoxu o anda beyninizdə əmələ gələcəkdir. Necə hal-hazırda ananızı gözünüzün önünə gətirmək istədikdə ananızın yanınızda olmadığına baxmayaraq, onu zehninizdə görə bilirsinizsə, buna bənzər şəkildə çobanyastığının qoxusunu da zehninizdə duya bilirsiniz.

Washington Universitetindən psixoloq Michael Posner və nevroloq Marcus Raichle xarici aləmdən hər hansı bir siqnal gəlmədiyi halda görüntü və ya başqa bir hissin necə əmələ gəldiyi haqqında belə izahlar verirlər:

*Gözlərinizi açın, bir mənzərə sizin qarşınızda canlanacaq. Gözlərinizi yumun və o mənzərəni düşünün. Bu şəkildə o mənzərənin bir görüntüsünü xəyal edə bilərsiniz, qətiyyən sizin gözlərinizlə gördüyünüz mənzərədən canlılığı, aydınlığı və tamlığı ilə fərqlənmir. Lakin hələ mənzərənin əsas xüsusiyyətlərinə malik tərzdədir. Hər iki*

*vəziyyətdə də mənzərənin bir görüntüsü zehində əmələ gəlir. Həqiqi əyani şəkildə, görərək əmələ gələn görüntü xəyal edilən görüntüdən fərqləndirilməsi baxımından "hiss" adlandırılır. Hiss tor qişaya təsir edən və daha sonra beyində müəyyən prosesdən keçiriləcək siqnalları göndərən işığın məhsulu kimi ortaya çıxır.* ***Lakin bu siqnalları göndərmək üçün heç bir işıq tor qişaya təsir etmədikdə bir görüntünü necə əmələ gətiririk?***[10]

Göründüyü kimi, görüntünün zehnimizdə əmələ gəlməsi üçün xarici aləmdə hər hansı bir mənbə olmasına ehtiyac yoxdur. Eyni vəziyyət qoxu hissinə də aiddir. Necə ki, yuxuda və ya xəyalınızda olmayan bir qoxunu duya bilirsinizsə, gerçək həyatda da qoxusunu duyduğunuz cisimlərin xarici aləmdə necə olduğunu bilmirsiniz. Əsla onların əsilləri ilə təmasda ola bilməzsiniz.

## Bütün dadlar beyində əmələ gəlir

Dadbilmə hissi də digər duyğu orqanlarına bənzər şəkildə açıqlana bilər. İnsan dilinin ön tərəfində dörd müxtəlif növdə kimyəvi reseptor var, bunlar duzlu, şirin, turş və acı dadlarını hiss edir. Dad reseptorları ardıcıl proseslərdən sonra bu hissləri elektrik siqnallarına çevirir və beyinə yollayır. Bu siqnallar da beyin tərəfindən dad kimi şərh edilirlər. Hər hansı bir tortu, qatığı, limonu və ya sevdiyiniz meyvəni yedikdə aldığınız dad əslində elektrik siqnallarının beyin tərəfindən şərh edilməsidir.

Beyninizdə əmələ gələn tort görüntüsünə beyninizdə əmələ gələn şirin dad əlavə edilir və tort haqqında hər şey sevdiyiniz hala gəlir. Siz iştaha ilə tortu yedikdə aldığınız dad əslində elektrik siqnallarının beyninizdə əmələ gətirdiyi təsirdən başqa bir şey deyil. Beyniniz kənardan gələn siqnalları necə şərh edirsə, siz ancaq onu bilirsiniz. Xarici aləmdəki cisimlə əsla təmasda ola bilməzsiniz; məsələn, şokoladın özünü görməz, qoxulaya və dada bilməzsiniz. Beyninizə gedən dadbilmə sinirləri kəsilsə, o anda yediyiniz hər hansı bir şeyin dadının beyninizə çatması mümkün olmaz; dad duyğunuzu tamamilə itirərsiniz. Aldığınız dadların olduqca həqiqi olması, üstəlik onlara aid görüntüləri də seyr edə bilməyiniz sizi qətiyyən aldatmasın. Mövzunun elmi açıqlaması bu şəkildədir.

## Toxunma hissi də beyində əmələ gəlir

İnsanların yuxarıda izah edilən həqiqətlərə, yəni görmə, eşitmə, dadbilmə kimi hisslərin hamısının beyində əmələ gəlməsi hissini dərk etməyə mane olan ən əsas amillərdən



# BÜTÜN DADLAR BEYNİMİZDƏ ƏMƏLƏ GƏLİR



biri toxunma hissidir. Məsələn, bu kitabı beynində gördüyünü dediyiniz insan diqqətli düşünmədikdə: "Beynimdə görmürəm, bax, əlimlə toxunuram", -deyəcək. "Bu kitabın xarici aləmdə maddi cəhətdən necə olduğunu bilmirik, biz sadəcə kitabın beynimizin içindəki görüntüsünü görə bilirik" -dedikdə yenə eyni səthi düşüncəyə malik bir insan: "Xeyr, bax, əlimlə tuturam və bərkliyini hiss edirəm, deməli, necə olduğunu bilirəm", -deyə cavab verəcəkdir.



Əslində isə bu insanların anlaya bilmədikləri və ya anlamadıqları kimi davrandıqları həqiqət budur: **bütün digər duyğu orqanlarımız kimi toxunma hissi də beyində əmələ gəlir. Yəni siz hər hansı bir cismə toxunduqda onun bərk, yumşaq, nəm, yapışqan və ya zərif olduğunu beyninizdə hiss edirsiniz.** Barmaq uclarınıza gələn təsirlər beyninizə yenə elektrik siqnalı kimi ötürülür və beyninizdə bu siqnallar toxunma hissi kimi şərh edilir. Məsələn, siz hamar olmayan səthə toxunduqda onun əslində nahamar olub-olmadığını və ya hamar olmayan yerin əslində necə bir hiss oyandırdığını əsla bilmirsiniz. Çünki siz hamar olmayan səthin əslinə heç vaxt toxuna bilməzsiniz. Sizin hamar olmayan yer haqqında hissləriniz beyninizin müəyyən siqnalları şərh etmə şəklidir.

Çay içərək yaxın dostu ilə söhbət edən insan isti çay stəkanına toxunduqda əli yanarkən dərhal stəkanı əlindən qoyur. Ancaq burada da sözügedən şəxs stəkanın istiliyini əslində əlində deyil, beynində hiss edir. Həmin şəxs çayın dadını və qoxusunu da beynində hiss edir, görüntüsünü isə beynində seyr edir. Lakin insan ləzzətlə içdiyi çayın əslində beynindəki surəti ilə təmasda olduğunun fərqinə varmayaraq, stəkanın əsli ilə təmasda olduğunu zənn edib görüntüsü beynində əmələ gələn dostu ilə söhbət edir. Əslində bu çox qeyri-adi vəziyyətdir. İnsanın stəkanın bərkliyindən, istiliyindən, çayın qoxusundan, dadından təsirlənərək stəkanın əslinə toxunduğunu, çayın əslini içdiyini düşünməsi bu şəxsə beynində yaşadılan hisslərin heyrətamiz dərəcədə aydın və mükəmməl olduğunu göstərir. Üzərində diqqətlə düşünməli bu vacib həqiqəti XX əsrin məşhur mütəfəkkiri



## TOXUNMA HİSSİ DƏ BEYNİMİZDƏ ƏMƏLƏ GƏLİR





Hal-hazırda oxuduğunuz kitabı əlinizdə hiss etməyiniz bu kitabın beyninizdə görməyiniz həqiqətini dəyişdirmir. Çünki kitabın görüntüsü kimi, kitaba toxunma hissi də beyninizdə əmələ gəlir.

Bertrand Russell belə ifadə etmişdir:

> *... Barmaqlarımızla stola əl vurduğumuz andakı toxunma hissinə gəlincə, bu barmaq uclarındakı elektron və protonlar üzərindəki elektrik təsiridir. Müasir fizikaya görə, stoldakı elektron və protonların yaxınlığından meydana gəlmişdir. Əgər barmaq uclarımızdakı eyni təsir başqa yolla ortaya çıxsaydı, heç masa olmamasına baxmayaraq, eyni şeyi hiss edəcəkdik.*[11]

Russellin diqqət çəkdiyi cəhət son dərəcə əhəmiyyətlidir. Həqiqətən də əgər barmaq uclarımızda başqa bir yolla oyanma olsa, çox fərqli hissləri duya bilərik. Belə ki, sonrakı səhifələrdə ətraflı şəkildə görüləcəyi kimi, dövrümüzdə simulyatorlar vasitəsilə bu edilir. Ələ taxılan xüsusi əlcək ilə insan həmin mühitdə olmadığı halda pişiyi oxşadığını, əl verib görüşdüyünü, suyun altında əlini yuduğunu və ya bərk cismə toxunduğunu hiss edir. Əslində isə toxunduğunu hiss etdiyi bu varlıqların heç biri yoxdur. Bütün bunlar insanın həyatındakı bütün hissləri beynində qavradığının qəti dəlilidir.

## Beynimizdə əmələ gələn dünyanın əsli ilə əsla təmasda ola bilmərik

Bura qədər izah edilənlərdən açıq şəkildə göründüyü kimi, həyatımız boyu yaşadığımız, gördüyümüz, hiss etdiyimiz hər şey beynimizdə meydana gəlir. Məsələn, kresloda oturaraq pəncərədən çölü seyr edən hər hansı bir insan kreslonun bərkliyini, döşəmənin sürüşkənliyini beynində hiss edir. Mətbəxdən gələn qəhvə qoxusu əslində mətbəxdə, yəni uzaqda deyil, beyninin içindədir. Pəncərədən gördüyü dəniz mənzərəsi, quşlar, ağaclar beynində əmələ gələn görüntülərdir. Onu qəhvəyə qonaq edən dostu və qəhvənin gözəl dadı da beynində əmələ gəlir. Qısaca desək, evində oturduğunu və pəncərədən çölü seyr etdiyini zənn edən insan əslində beyninin içindəki ekrandan salonunu, pəncərədən görünən mənzərəni seyr edir. Belə ki, **insan beynindəki ekranda seyr etdiyi, mənalı şəkildə cəm edilən hisslərinin bütününə "həyatım" deyir və heç bir zaman beynindən kənara çıxa bilməz.**

Seyr etdiyimiz bu ekrandan kənarda maddənin gerçəyi necədir, bunu heç vaxt bilə bilmərik. Əsli də bizim gördüyümüz kimidirmi, məsələn, yarpağın yaşıl rəngi xarici aləmdə də belədirmi, bunu bilmirik. Yediyimiz konfetin dadı əslində bu cürdürmü, yoxsa beynimiz onu bu cür şərh edir, bunu öyrənmək imkanımız qətiyyən yoxdur. Məsələn, daha əvvəl gördüyünüz bir mənzərəni gözünüzdə canlandırın. Mənzərə qarşınızda deyil, amma onu beyninizdə görürsünüz. Bununla bağlı elmi yazıçı Rita Carter belə deyir:

*Bir üz və ya mənzərə gördükdə tam əslini görmürük, gördüyümüz orijinalının şərhi və ya tamamilə yenidən işlənmiş formasıdır... Bunlar nə qədər çox yaxşı surətlər olsa da, orijinalından əksik və ya fərqlidir.*[12]

Eyni vəziyyət o mənzərəyə baxdığınız an üçün də aktualdır. Mənzərəni uzaq yerdən gözünüzdə canlandırmağınızla qarşısında durub ona baxmağınız arasında əslində heç bir fərq yoxdur. Dolayısilə mənzərəni seyr edərkən də əslində onun əslini deyil, beyninizdə işlənmiş formasını görürsünüz. Bu barədə bir az düşünən insan bu həqiqəti bütün aydınlığı ilə görəcəkdir. Bu insanlardan biri olan George Berkeley "İnsan məlumatının prinsipləri üzərində tədqiqat" adlı əsərində bu həqiqəti belə ifadə edir:

*... Görmə yolu ilə işıq və rəng, onların müxtəlif dərəcələri və fərqləri düşüncəsinə malik oluram. Toxunma ilə yumşağı və bərki, istini və soyuğu qavrayıram... Qoxu alma mənə qoxuları, dadbilmə dadları, eşitmə isə səsləri öyrədir... Bu hisslərdən bəziləri birlikdə müşahidə olunduqları üçün onlara ortaq ad verilir və onlar bir şey hesab edilirlər. Beləliklə, məsələn, müəyyən nizamlama içərisində rəng, dad, qoxu, forma və bərklik birlikdə müşahidə edildikdə alma sözü ifadə edilən ayrı bir şey kimi qəbul edilir; digər hisslər cəmi ilə daş, ağac, kitab və digər hiss edilən şeyləri meydana gətirirlər...*[13]

**Mənzərəni seyr edən insan gözləri ilə gözünün önündəki mənzərəni seyr etdiyini zənn edir. Əslində isə onun gördüyü mənzərə beyninin arxasındakı görmə mərkəzində əmələ gəli. Bu mənzərəni seyr edən və bu mənzərədən zövq alan zülal və yağdan ibarət beyin olmayacağına görə kimdir?**



Berkeleyin bu sözlərində ifadə etdiyi həqiqət budur: beynimizdə yaşadığımız müxtəlif duyğuların cəmlənməsi ilə bir cismi tərif edirik. Bu misalda olduğu kimi, almanın dadı, qoxusu, bərkliyi, qırmızı rəngi, yuvarlaqlığı və digər xüsusiyyətləri ilə bağlı hisslər beynimizdə bütünlükdə qavranılır və biz bu bütünə "alma" deyirik. Amma biz heç vaxt almanın əsli ilə təmasda ola bilmərik. Bizim tək görə bildiyimiz, qoxulaya bildiyimiz, dada bildiyimiz, toxuna bildiyimiz və ya hiss edə bildiyimiz beynimizdəki surətlərdir.

Buraya qədər izah edilənləri yenidən düşündükdə bu həqiqət bütün açıqlığı ilə ortaya çıxacaqdır. Məsələn,

- İşığın olmadığı beyində rəngarəng işıqlarla bəzənmiş prospekti, bütün rəngləri, canlılığı və parlaqlığı ilə seyr edə biliriksə, onda bu prospektin, işıqlı lövhələrin, vitrinlərin, küçə işıqlarının, avtomobillərin işıqlarının beynimizdə elektrik siqnallarından ibarət surətlərini görürük.
- Beynimizə heç bir səs girə bilmədiyi üçün biz heç bir zaman yaxınlarımızın səslərinin əslini eşidə bilmərik. Eşitdiklərimiz hər zaman surətidir.
- Biz heç vaxt dənizin sərinliyini, günəşin istiliyini hiss edə bilmərik. Biz daima beynimizdə onların surətlərini hiss edirik.
- Eyni şəkildə bu günə qədər heç bir insan nanənin əslinin dadına baxmamışdır. Nanə kimi hiss etdiyi dad əslində beynində əmələ gələn hissdir. Çünki nanənin əslinə nə toxuna bilər, nə onun əslini görə bilər, nə də əslinin qoxusunu və dadını ala bilər.

Beləliklə, biz həyatımız boyu bizə göstərilən surət qavrayışlarla yaşayırıq. Ancaq bu surətlər o qədər həqiqidir ki, heç vaxt surətlərini hiss etdiyimizin fərqinə varmırıq. Məsələn, indi başınızı qaldırın və olduğunuz otaqda gözünüzü ətrafa gəzdirin. Özünüzü içində mebellər olan otağın içində görürsünüz. Oturduğunuz kreslonun qollarına toxunduqda sanki həqiqətən bu qolların əslinə toxunurmuş kimi bərkliyini hiss edirsiniz. Göstərilən görüntülərin həqiqiliyi, bu görüntülərin yaradılışındakı sənətin mükəmməlliyi sizi və sizin kimi milyardlarla insanı bunların "xarici aləmdəki maddənin gerçəyi" olduğuna inandırmaq üçün kifayətdir. Hətta insanlar o qədər qəti şəkildə inanırlar ki, kitabları bu həqiqətlə dolu olmasına baxmayaraq, bunların beyinlərində bir surətlə təmasda olduqlarına çətinliklə inana bilirlər. Bunun səbəbi görüntünün möhtəşəm sənətlə, son dərəcə həqiqi və qüsursuz şəkildə yaradılmasıdır.

Bu günə qədər heç bir insan beynindəki hisslərdən kənara çıxa bilməmişdir. Hər insan beynindəki hüceyrənin içində yaşayır və hisslərinin ona göstərdiklərindən başqa heç bir şey hiss edə bilməz. Ona görə, hissləri xaricindəki dünyada nələr olduğunu heç vaxt bilmir. Bu səbəbdən, "maddənin əslini bilirəm" demək səhv mühakimədir, çünki heç bir insanın buna dair dəlili yoxdur. İnsan sadəcə beynində əmələ gələn xəyal ilə təmasda olur. Məsələn,

# *BEYNİNİZİN İÇİNDƏKİ OTAQDAN ÖMÜR BOYU ÇIXA BİLMƏZSİNİZ*



**İçində böyük televizor ekranı olan qapqaranlıq otağa girdiyinizi düşünün. Çöldəki dünyanı yalnız bu otağn içindəki ekrandan seyr etsəniz, təbii ki, bir müddət sonra sıxılıb çölə çıxmaq istəyərsiniz. Bir anlıq düşünün, hal-hazırda da olduğunuz məkan fərqli deyil. Bir qutu kimi qapqaranlıq və kiçik kəllənizin içində xarici aləmə aid görüntüləri bir ömür boyu seyr edirsiniz. Amma beyninizdəki ekranda əmələ gələn görüntüləri bu dar yerdən heç çıxmadan və heç sıxılmadan seyr edirsiniz. Həm də sizə hər şeyi bir ekrandan seyr etdiyinizi söyləsələr, buna əsla inanmazsınız. Gördüyünüz görüntü o qədər inandırıcıdır ki, minlərlə ildir insan bu böyük həqiqətin fərqinə vara bilməmişdir.**

rəngarəng çiçəklərlə bəzənmiş bağçanı gəzən insan əslində bu bağçanın əslini deyil, beynindəki surətini görür. Ancaq bu bağça o qədər həqiqidir ki, hər insan xəyalında əmələ gələn bu bağçadan həqiqi imiş kimi zövq alır. Hətta bu günə qədər milyardlarla insan bu bağça kimi gördüyü hər şeyin əslini gördüyünü hesab etmişdir.

Bundan əlavə bunu da bildirməliyik ki, texnologiyanın və ya elmin inkişafı da bunu dəyişdirmir. Çünki hər elmi tapıntı və ya texnoloji kəşf də insanların beynində əmələ gələcək, ona görə, bu yolla da xarici aləmə çıxmaq mümkün olmayacaq.

## Uzaqlıq hissi də beyində əmələ gələn hissdir

Avtomobillər, siqnal səsləri, mağazalar, binalar... Bir küçəyə baxdıqda qarşılaşdığınız bu mənzərə sizə çox aydın, çox həqiqi görünür. Ona görə, insanların böyük bir qismi gördükləri bu mənzərənin beyinlərində əmələ gəldiyini qavraya bilmirlər, hamısının əslini gördüklərini zənn edərək yanılırlar. Bu mənzərə o qədər mükəmməl şəkildə yaradılmışdır ki, insanın bunun xarici aləmin əsli olmadığını, sadəcə öz zehnində yaşadığı surət olduğunu anlaması mümkün deyil.

Görüntünü bu qədər inandırıcı və təsirli edən şeylər isə məsafə, dərinlik, rəng, kölgə, işıq kimi ünsürlərdir. Bu xam maddələrdən o qədər qüsursuz şəkildə istifadə edilmişdir ki, beynimizdə üç ölçülü, rəngli və canlı görüntü halına gəlirlər. Sonsuz sayda təfərrüat bu görüntüyə əlavə edildikdə ortaya heç fərqinə varmadan bütün ömür boyu həqiqi zənn edərək içində yaşadığımız, ancaq əslində sadəcə zehnimizdə təmasda olduğumuz dünya çıxar.

İndi özünüzü avtomobil sürərkən təsəvvür edin. Avtomobilin rolunu özünüzdən bir qol məsafədə, küçə işıqlarını isə bir neçə yüz metr qarşıda görürsünüz. Qarşınızdakı avtomobillə aranızda təxminən 10 metr məsafə var. Üfüqdə görünən dağlar isə kilometrlərlə uzaqdadırlar. Ancaq bu təxminlərinizin hamısı səhvdir! Nə dağlar, nə də qarşınızdakı avtomobil o qədər uzaqda deyil. Əslində bütün bu görüntülər bir film pərdəsi kimi beyninizdə tək bir səthdə, iki ölçülü şəkildə yerləşir. Bəs onda bu məsafə və dərinlik hissi necə əmələ gəlir?

Məsafə dediyimiz hiss bir növ üç ölçülü görmə formasıdır. Görüntülərdə məsafə və dərinlik hissini yaradan şeylər isə perspektiv, kölgə və hərəkət dediyimiz ünsürlərdir. Optika elmində məkan (space) hissi deyilən bu hiss forması çox qarışıq sistemlərlə təmin olunur. Bu sistemi ən asan yolla belə izah edə bilərik: əslində gözümüzə gələn görüntü sadəcə iki ölçülüdür. Yəni hündürlük və en ölçülərinə malikdir. Göz bülluruna gələn görüntülərin ölçüləri və iki gözün eyni anda iki fərqli görüntü görməsi dərinlik və məsafə hissini əmələ gətirir. Bizim hər bir gözümüzə düşən görüntü digər gözə gələn görüntüdən bucaq, işıq kimi ünsürlər baxımından fərqlənir. Beyin bu iki fərqli görüntünü

vahid rəsm halına salaraq dərinlik və məsafə hissini əmələ gətirir.

Bunu daha yaxşı anlamaq üçün bir təcrübə keçirə bilərik. Əvvəlcə, sağ qolunuzu bacardıqca irəli uzadın və şəhadət barmağınızı qaldırın. İndi gözlərinizi barmağınıza zilləyərək növbə ilə sağ və sol gözlərinizi yumub açın. İki gözə fərqli iki görüntü gəldiyi üçün barmağın bir az yerini dəyişdirdiyini və ya sürüşdüyünü görəcəksiniz. İndi iki gözünüzü də açaraq sağ şəhadət barmağına zilləyərkən sol əlinizin şəhadət barmağını mümkün olduğu qədər gözlərinizə yaxınlaşdırın. Yaxındakı barmağın cüt görüntü əmələ gətirdiyini görəcəksiniz, bu isə duyğu sistemində uzaqdakı barmaqdan fərqli dərinlik hissi əmələ gəlməsinə görədir. İndi bu vəziyyətdə ikən gözlərinizi növbə ilə yumub-açsanız, yaxındakı barmağın daha çox yer dəyişdirdiyini görəcəksiniz, çünki iki gözə düşən görüntülərin fərqi artmışdır.





Üç ölçülü film çəkilərkən də bu üsuldan istifadə edilir; iki müxtəlif bucaqdan çəkilən görüntü eyni ekran üzərində əks etdirilir. Tamaşaçılar rəng filteri və ya polyarlaşdırıcı filterli eynəklər taxırlar. Eynəyin şüşəsindəki filterlər iki görüntüdən birini tutur, beyin bunları birləşdirib üç ölçülü görüntü halına salır.



**Avtomobil idarə edən insan sükanın, qarşısındakı yolun və ağacların özündən uzaqda olduğunu zənn edir. Əslində isə bütün bu gördükləri, eynilə bir fotoşəkildə olduğu kimi, beynində tək bir səthin üzərindədir.**

İki ölçülü tor qişada dərinlik hissinin əmələ gəlməsi iki ölçülü rəsm kanvasında həqiqi dərinlik hissi yaratmağa çalışan rəssamların istifadə etdiyi üsula çox bənzəyir. Dərinlik hissini əmələ gətirən bəzi vacib ünsürlər var. Bunlar cisimlərin üst-üstə yerləşməsi, atmosfer perspektivi, tekstura dəyişikliyi, xətti perspektiv ölçü, yüksəklik və hərəkətdir. Tekstura dəyişikliyi dərinlik hissinin əmələ gətirilməsində son dərəcə vacibdir. Üzərində gəzdiyimiz səth,


ÖZÜNÜZDƏN UZAQ OLDUĞUNU ZƏNN ETDİYİNİZ
CİSİMLƏRİN HAMISI ƏSLİNDƏ BEYNİNİZİN İÇİNDƏDİR







məsələn, yol və ya çiçəklərlə dolu çöl əslində bir teksturadır. Bizə yaxın olan teksturalar daha hərtərəfli, uzaqdakılar isə daha tutqun görünür. Ona görə, tekstura üzərində yerləşdirilən cisimlərin məsafəsi haqqında mühakimə yürütmək çox asandır. Bundan başqa, burada kölgə və işıq ünsürləri də birlikdə üç ölçülü görüntünü tamamlayır.

Belə ki, qabiliyyətli rəssamların çəkdiyi rəsmlərə heyranlıqla baxmağımızın səbəbi kölgə və perspektiv ünsürlərindən istifadə edərək rəsmə verdikləri dərinlik və canlılıq hissidir.

Perspektiv uzaqdakı şeylərin müşahidəçiyə görə yaxındakı şeylərə nisbətən daha kiçik görünməsindən irəli gəlir. Məsələn, bir mənzərə rəsminə baxdıqda uzaqdakı ağaclar kiçik, yaxındakı ağaclar böyük görünür və ya arxa plandakı dağ rəsmi ön plandakı insan rəsmindən daha kiçik çəkilir. Xətti perspektivdə isə rəssamlar paralel xətlərdən istifadə edirlər. Məsələn, qatar relsləri üfüq xəttində birləşərək məsafə və dərinlik hissini əmələ gətirirlər.

Rəssamların rəsmlərində istifadə etdikləri üsul beynimizdə meydana gələn görüntüyə də aiddir. Beynimizdəki iki ölçülü məkanda dərinlik, işıq, kölgə eyni üsulla meydana gəlir. Bir görüntüdə təfərrüatlar, yəni işıq, kölgə və ölçülər nə qədər hərtərəflidirsə, o görüntü o



**Bu şəkildə arxadakı xətt qabaqdakı xətdən təxminən iki dəfə uzundur. Əslində hər iki xətt eyni uzunluqdadır.**
**Bu nümunədən də göründüyü kimi, xətlərin işlənməsi, perspektiv, işıq, kölgə kimi ünsürlər insanların bəzi cisimləri olduğundan fərqli görmələrinə səbəb olur. Amma əslində bütün cisimlər tək bir yerdə, beynimizin görmə mərkəzində qavranır.**

qədər həqiqi olur və hisslərimizi aldadır. Beləliklə, biz üçüncü ölçü olan dərinlik və məsafə varmış kimi hərəkət edirik. Halbuki gördüyümüz bütün görüntülər film kadrı kimi tək bir səth üzərindədir. Beynimizdəki görmə mərkəzi son dərəcə kiçikdir! Bütün o uzaq məsafələr, uzaqdakı evlər, göydəki ulduzlar, Ay, Günəş, havada uçan təyyarələr, quşlar kimi görüntülər bu kiçik məkana sığışdırılır. Yəni sizin baxıb minlərlə kilometr yuxarıda dediyiniz təyyarə ilə əlinizi uzadaraq tuta bildiyiniz stəkan arasında texniki bir məsafə yoxdur, hamısı beyninizdəki qavrama mərkəzində tək bir səth üzərindədir.

Məsələn, üfüqdə gözdən itməkdə olan gəmi əslində sizdən kilometrlərlə uzaqda deyil. Gəmi sizin beyninizin içindədir. Baxdığınız pəncərənin çərçivəsi, pəncərənin qarşısındakı qovaq ağacı, evinizin qarşısından keçən yol, dəniz və dənizdə hərəkət edən gəmi də daxil olmaqla, beyninizdəki görmə mərkəzində, yəni iki ölçülü məkanda əmələ gəlir. Bir rəssam böyüklük və kiçiklik kimi nisbətləri, rəng, kölgə və işıq kimi xam maddələrdən və perspektivdən istifadə edərək uzaqlıq hissini iki ölçülü rəsmdə necə göstərə bilirsə, bizim beynimizdə də buna bənzər şəkildə uzaqlıq hissi olur. Nəticədə gördüklərimizi özümüzdən uzaqdaymış kimi qavramağımız, gördüklərimizlə aramızda bir məsafə olması bizi yanıltmalı deyil. Çünki məsafə də digərləri kimi bir hissdir.





**Bu şəkildə arxadakı xətt qabaqdakı xətdən təxminən iki dəfə uzundur. Əslində hər iki xətt eyni uzunluqdadır. Bu nümunədən də göründüyü kimi, xətlərin işlənməsi, perspektiv, işıq, kölgə kimi ünsürlər insanların bəzi cisimləri olduğundan fərqli görmələrinə səbəb olur. Amma əslində bütün cisimlər tək bir yerdə, beynimizin görmə mərkəzində qavranır.**

# İKİ ÖLÇÜLÜ YERDƏ DƏRİNLİYİ OLAN GÖRÜNTÜ MEYDANA GƏTİRMƏK

**Bu səhifələrdə görünən şəkillərin hamısında son dərəcə həqiqi dərinlik hiss edilir. İki ölçülü kanva (kətan) üzərində kölgə, perspektiv və işıqdan istifadə edilərək üç ölçülü, dərinliyi olan görüntü əmələ gətirilmişdir. Rəssamın bacarığına görə bu həqiqilik daha da artır. Buna bənzər vəziyyət bizim görmə hissimizə də aiddir. Çünki gözün tor qişasına düşən görüntü iki ölçülüdür. Ancaq hər iki gözə düşən görüntü daha sonra tək rəsm halına salınır və 3 ölçülü,**





















**Siz otağın içindəsiniz, yoxsa otaq sizin içinizdədir?**

İnsanların gördüklərinin beyinlərində bir hiss olduğunu dərk etmələrinə mane olan səbəblərdən biri də bədənlərini də bu görüntünün içində görmələridir. "Mən bu otağın içində olduğuma görə, deməli, bu otaq mənim beynimdə əmələ gəlmir"-kimi səhv nəticəyə gəlirlər. Onları bu səhv nəticəyə aparan səbəb odur ki, öz bədənlərinin də görüntüsü ilə təmasda olurlar və bunu unudurlar. Ətrafımızda gördüyümüz hər şey necə sadəcə xəyali görüntülərdən ibarətdirsə, öz bədənimiz də eyni şəkildə beynimizin içində əmələ gələn bir xəyali görüntüdür. Məsələn, hal-hazırda oturduğunuz kresloda boynunuzdan aşağıda qalan hissənizi görürsünüz. Bu görüntü də digərləri kimi eyni sistemlə meydana gəlir. Əlinizi ayağınızın üzərinə qoyduqda bu toxunma hissi də beyninizdə əmələ gəlir. Yəni siz hal-hazırda beyninizdə əmələ gələn bədəninizi görür və bədəninizə toxunduğunuzu beyninizdə hi edirsiniz



Bədəniniz də beyninizdə bir görüntü olduğuna görə, otaq sizin içinizdədir, yoxsa siz otağın içindəsiniz? Aydındır ki, bu sualın doğru cavabı belədir: "otaq sizin içinizdədir". Siz beyninizdəki otaq görüntüsünün içindəki bədəninizin görüntüsünü görürsünüz.

Bunu bir başqa misalla bir az da açıqlayaq. Təsəvvür edin ki, liftin düyməsinə basdınız və lift gəldikdə yuxarı mərtəbədəki qonşunuz da liftin içindədir. Liftə mindiniz. Əslində siz liftin içindəsiniz, yoxsa lift sizin içinizdədir? Həqiqət budur: lift içindəki qonşunuzun və bədəninizin görüntüsü ilə birlikdə sizin beyninizdə əmələ gəlir.

Beləliklə, biz heç bir şeyin "içində" ola bilmərik. Hər şey bizim içimizdə, yəni beynimizdə əmələ gəlir. Günəşin, Ayın, ulduzların və ya göydə uçan təyyarənin bizdən milyon kilometrlərlə uzaqlıqda olması da bu həqiqəti dəyişdirmir. Günəş və Ay da eynilə əlimizdə tutduğunuz bu kitab kimi sizin beyninizin içindəki kiçik görmə mərkəzində əmələ gələn xəyali görüntülərdir.



**Bədəniniz də beyninizdə gördüyünüz görüntü olduğuna görə, içində olduğunuz otaq sizin içinizdədir, yoxsa siz otağın içindəsiniz? Bu sualın cavabı açıqdır: əlbəttə, otaq sizin içində, beyninizdəki görmə mərkəzindədir.**

## Süni şəkildə əmələ gətirilən hisslər

Yazıçı Rita Carter "Mapping the mind" adlı kitabında: **"Görmək üçün gözlərə ehtiyac yoxdur",** -deyərək elm adamları tərəfindən həyata keçirilən çox əhəmiyyətli təcrübəyə yer verir. Təcrübədə görmə qabiliyyyətindən məhrum olan şəxslərə video rəsmləri titrəmələrə çevirən cihaz birləşdirilmişdir. Bu şəxslərin gözlərinin yanına taxılan kamera isə siqnalları həmin şəxsin beyninə göndərirdi. Beləliklə, bu şəxs davamlı şəkildə vizual dünyadan siqnalları qəbul edə bilirdi. Xəstələr bir müddət sonra həqiqətən görən insan kimi davranmağa başladılar. Məsələn, cihazlardan birində görüntünü yaxınlaşdırmaq üçün linza vardı. Bu linza xəstəyə xəbər verilmədən işə salındıqda, xəstə görüntü böyüyərək üzərinə gəldiyini gördüyü üçün iki qolu ilə özünü qorumağa çalışmışdır.[14] Bu təcrübədən də göründüyü kimi, hisslərimizin əmələ gəlməsi üçün süni şəkildə əmələ gətirilən hisslər də kifayətdir.

**Bir təcrübədə görmə qüsuru olan insanların gözlərinin yanına taxılan cihaz ilə bəzi görüntüləri görmələri təmin edildi. Bu adamlar xarici aləmə aid olmayan, süni şəkildə hazırlanan oyanmalar olmasına baxmayaraq, son dərəcə həqiqi görüntülər görürdülər. Hətta cismin üstlərinə doğru gəldiyini zənn edərək özlərini qorumaq üçün geri çəkilirdilər.**



**Yuxuda yaşadığımız "hisslər dünyası"**

İnsan yuxu əsnasında gözləri qapalı şəkildə yatağında yatır. Ancaq buna baxmayaraq, həqiqi həyatında qarşılaşdığı hadisələrin, yaşadığı hisslərin, siqnalların hamısını yuxuda əslindən tamamilə fərqsiz şəkildə həqiqi surətdə hiss edir. Bu həqiqətə bu kitabı oxuyan insanların hamısı özləri yuxularında tez-tez şahid olurlar. Məsələn, gecə yatağında səssiz və sakit mühitdə, ətrafında heç kimin olmadığı şəraitdə yatan insan yuxuda özünü çox insanın olduğu yerdə, təhlükədə görə bilər. Var gücü ilə bu təhlükədən qaçdığını, divarın arxasında gizləndiyini həqiqi şəkildə yaşaya bilər. Hətta yuxuda gördükləri o qədər həqiqidir ki, qorxu və təşviş hissini həqiqətən təhlükəli şəraitdə olduğu kimi hiss edir. Hər hay-küydə ürəyi ağzına gəlir, qorxudan titrəyir, ürəyi bərk döyünür, tərləyir, insan bədəni təhlükədə olduqda nələr hiss edirsə, fiziki cəhətdən necə reaksiya verirsə, hamısı eynilə baş verir. Əslində isə zehnindən kənarda gördüklərinin heç biri yoxdur.



**Yuxuda soyuq bir qış səhəri bağda oturduğunu görən insan əsən küləkdən üşüdüyünü, hətta titrədiyini hiss edə bilər. Əslində isə olduğu yerdə nə külək, nə də soyuq hava yoxdur. Hətta çox isti otaqda yatır. Buna baxmayaraq, hissini bütün gerçəkliyi ilə yaşayır. Gerçək dünyada yaşadığı üşümə hissi ilə yuxuda yaşadığı arasında bir fərq yoxdur.**





**Bir insan həqiqətdə evindəki divanda sakitcə yatarkən yuxuda özünü müharibənin ortasında görə bilər. Hətta müharibənin bütün gərginliyini, qorxu və təşvişini son dərəcə həqiqi şəkildə yaşaya bilər. O anda isə tək başına, səssiz və sakit yerdə yatır. Yuxuda gördüyü son dərəcə inandırıcı görüntü və səslər isə beynində meydana gəlir.**

Yuxuda yüksək bir yerdən yıxılan insan da bunu bütün bədəni ilə hiss edir. Əslində isə, o anda yatağında heç tərpənmədən yatır. Yuxuda ayağı sürüşərək su çuxuruna yıxıldığını görən bir insan bütün paltarlarının islandığını, küləkdən üşüdüyünü hiss edə bilər. Ancaq olduğu yerdə nə su çuxuru, nə də külək var. Hətta çox isti otaqda yatdığına baxmayaraq, nəmliyi və üşüməyi eynilə oyaq vaxtda olduğu kimi hiss edir.

Yuxusunda maddənin əsli ilə təmasda olduğunu iddia edən insan özündən son dərəcə əmin ola bilər. Ona maddənin xəyali görüntüsü ilə təmasda olduğunu, xarici aləmin əsli ilə təmasda olmağın mümkün olmadığını izah edən dostunun çiyninə əlini qoyaraq: "İndi mən xəyalam? Sən əlimi çiynində hiss etmirsənmi? Elə isə necə xəyali görüntü ola bilərsən? Hardan çıxarırsan bu iddiaları? Gəl səninlə gəzintiyə çıxaq, həm bu mövzu haqqında danışarıq,



**İnsan evində yatarkən yuxuda lunaparkda sürətlə fırlanan vaqonlara mindiyini görə bilər. Vaqonların sürətini, müəyyən vaxtlarda tərsinə çevrildiyini, əsən küləyi əslinin eynisi kimi hiss edə bilər.**



həm də belə bir mövzuya nə üçün inandığını mənə izah edərsən", -deyə bilər. Gördüyü yuxusu o qədər aydındır ki, rahatlıqla avtomobili işə salıb, motora qaz verir və sonra birdən pedala basaraq avtomobili hərəkətə gətirir. Yolda sürətlə gedərkən ağaclar və yol xətləri sürətdən sanki göz aparan görüntü əmələ gətirir. Bir tərəfdən də təmiz dəniz havasını alır. Elə dostuna etiraz etməyə, o anda yaşadıqlarının xəyal olmadığını anlatmağa hazırlaşarkən saatının zənginə oyanır. Ancaq maraqlıdır ki, yuxuda gördüklərinin xəyal olduğuna etiraz edən bu insan oyaq olarkən də gördüklərinin zehnində əmələ gələn xəyali görüntülər olduğunu izah edən dostu yanında olsa, ona da eyni şəkildə etiraz edəcəkdir.

İnsanlar yuxudan oyandıqda o ana qədər gördüklərinin xəyal olduğunu anlayırlar, ancaq "oyanma" görüntüsü ilə başlayan və adına "həqiqi həyat" dedikləri həyatın xəyal ola biləcəyindən nədənsə heç şübhələnmirlər. Əslində isə "həqiqi həyatımız" dediyimiz görüntüləri qavrama forması yuxularımızı qavrama forması ilə tamamilə eynidir. Hər ikisini də zehnimizdə görürük



Yuxuda maddənin əslini gördüyünü iddia edən şəxs “maddənin xəyalını gördüyünü” izah edən dostunun çiyninə əlini qoyar və: “İndi mən bir xəyalam? Sən əlimi çiynində hiss etmirsən? Elə isə necə xəyal ola bilərsən?” -deyər.



Sonra dostunu avtomobilində gəzməyə çağırar. “Gəl, səninlə gəzintiyə çıxaq. Sən də belə şeyləri hardan çıxardığını izah edərsən”, -deyər.



Gördüyü bu yuxu o qədər həqiqidir ki, həvəslə avtomobilini işə salıb motora yavaş-yavaş qaz verdiyini və arabanı hərəkətə gətirərək sürdüyünü əslinin eynisi kimi görür və hiss edir.



Dostu ilə boğazda gedərkən dənizin qoxusunu, dalğaların səsini, əsən mehi həqiqətdə olduğu kimi hiss edir.



Yolda sürətlə gedərkən ağaclar və yol xətləri sürətdən göz aparan görüntü əmələ gətirir və avtomobilin yanından sürətlə ötüb keçir. Bu görüntülərin gerçək həyatında gördüklərindən heç bir fərqi yoxdur.



Elə dostuna etiraz etməyə, o anda yaşadıqlarının xəyal olmadığını izah etməyə hazırlaşarkən zəngli saatının səsinə oyanır. Oyandıqda isə bir an əvvəl həqiqiliyindən əmin olduğu hadisələrin və görüntülərin əslində yuxu olduğunu anlayır. Bəs bu insan hal-hazırda da bir az sonra oyanacağı başqa bir yuxunun içindədirsə?

və yuxudan oyanmadıqca onların bir xəyal olduğunu anlamırıq. Ancaq oyandığımız zaman: "Deməli, gördüklərim bir yuxu imiş", -deyirik. **Elə isə hal-hazırda gördüklərimizin yuxu olmadığını necə sübut edə bilərik?** Sadəcə hələ oyandırılmadığımız üçün içində olduğumuz anı həqiqi zənn edə bilərik. Hər gecə gördüyümüz yuxulardan daha uzun davam edən bu yuxudan bir gün oyandırıldıqda bu həqiqətlə qarşılaşa bilərik və bunun əksini söyləyəcək heç bir dəlilimiz yoxdur.

Dünya həyatının bir yuxu kimi olduğu, ancaq bu yuxudan "böyük oyanma" ilə oyandıqda insanların yuxu kimi bir aləmdə yaşadıqlarını anlayacaqları İslam alimləri tərəfindən də dilə gətirilən bir həqiqətdir. Üstün elminə görə Şeyxi-əkbər (ən böyük Şeyx) kimi tanınan böyük İslam alimi Muhyiddin Ərəbi bir sözündə Peyğəmbərimiz hz. Muhəmmədin (s.ə.v.) bir hədisini söyləyərək dünya həyatını yuxularımıza belə bənzətmişdir:

*Həzrəti Muhəmməd əleyhissəlam: "İnsanlar yuxudadır, öldükləri vaxt oyanacaqlar", -buyurmuşdur. Deməli, dünya həyatında gördüyü şeylər yatan şəxsin yuxusunda gördüyü şeylər kimidir. Yəni xəyaldır.*[15]

Bir ayədə isə Allah insanların qiyamət günündə yenidən dirildildikdə belə deyəcəklərini bildirir:

**Onlar deyəcəklər: "Vay halımıza! Bizi yatdığımız yerdən kim qaldırdı? Bu Rəhmanın məxluqata buyurduğu vəddir. Peyğəmbərlər doğru deyirlərmiş!" (Yasin surəsi, 52)**

Ayədən də göründüyü kimi, insanlar qiyamət günü eynilə yuxudan oyanan kimi oyanırlar. İnsan dərin yuxuya getdiyi və yuxu gördüyü anda birdən oyandırıldıqda onu oyandıranın kim olduğunu necə soruşursa, bu insanlar da eyni şəkildə onları kimin oyandırdığını soruşurlar. Bu ayədə də diqqət çəkildiyi kimi, dünya həyatı gördüyümüz bir yuxu kimidir və hər insan bu yuxudan oyandırılacaq və gerçək həyatı olan axirət həyatına dair görüntüləri görməyə başlayacaqdır.

## Süni şəkildə əmələ gətirilən dünyalara digər nümunələr

"Xarici dünya" olmadan hisslərin çox həqiqi şəkildə yaşana biləcəyinə dair dövrümüzün texnologiyasında da çox əhəmiyyətli nümunələr var. Xüsusilə son illərdə böyük irəliləyiş göstərən "xəyali gerçəklik" anlayışı çox diqqət çəkir.

Xəyali gerçəklik ən sadə formada kompyuterdə canlandırılan üç ölçülü görüntülərin bəzi cihazlar vasitəsilə insanlara "gerçək dünya" kimi göstərilməsidir. Bu gün bir çox sahədə fərqli məqsədlərlə istifadə edilən bu texnologiya bu səbəbdən "süni həqiqət", "xəyali dünyalar", "xəyali mühit"

# HƏYATINIZI YUXULARINIZ KİMİ TAMAMİLƏ BAŞQA BİR YERDƏ SEYR EDƏ BİLƏRSİNİZ

Yuxuda qəhvə içən insan qəhvənin şəkərini, qatılığını, içindəki südün dadını həqiqətən qəhvə içirmiş kimi hiss edir. Ancaq ortada nə qəhvə, nə də içməli bir şey var. Belə ki, yuxuda qəhvə içən insana birisi yaxınlaşıb: "Hal-hazırda yuxudasan və bu qəhvə əslində görüntüdür", -desə, dərhal etiraz edər. "Görüntü ola bilərmi? Bax, istiliyini də hiss edirəm. Birdən içdikdə dilim yanır. Hətta qəhvəni içdikdə susuzluğum keçdi. Görüntü olsa, susuzluğumu keçirər?" -deyir. İçdiyini hesab etdiyi qəhvənin əslində beynində əmələ gələn görüntü olduğunu, içərkən hiss etdiyi istilik, susuzluq kimi hisslərin də beynində əmələ gələn hisslər olduğunu ancaq yuxudan oyandıqdan sonra anlayar.




Qətiyyən yox. Oyanıb özünüzü yatağınızda yatarkən görmədikcə heç vaxt yuxuda olduğunuzu anlaya bilməzsiniz və bu qədər ömrü gerçək həyatınızı yaşadığınızı zənn edərək keçirərsiniz. Elə isə gerçək həyat dediyimiz həyatımızın da bir yuxu olmadığını necə sübut edə bilərsiniz? Bir gün bu gördüyümüz həyatdan çıxıb özümüzü tamamilə başqa bir yerdə, bu həyatımıza dair görüntüləri seyr edərkən görməyəcəyimizə dair bir məlumatımız var?

kimi də adlandırılır. Xəyali gerçəkliyin ən əhəmiyyətli xüsusiyyəti odur ki, xüsusi alətlərdən istifadə edən şəxs gördüyü görüntünü həqiqi zənn edir, hətta bu görüntünün içinə dalır. Ona görə, son illərdə xəyali gerçəklik ifadəsinin ingiliscə qarşılığının əvvəlində “immersive” sözündən də istifadə edilir və bu sözün mənası “batırmaq, qərq etmək, içinə dalmaq”dır. *(İmmersive Virtual Reality: daldıran xəyali gerçəklik).*



Xəyali dünya əmələ gətirmək üçün istifadə edilən alətlər görüntünü göstərən ekranı olan kaska, toxunma hissi verən elektronik əlcəkdir. Kaskanın içindəki alət isə davamlı olaraq başın hərəkətlərinə və istiqamətinə nəzarət edərək görüntünün başın istiqaməti və duruşu ilə mütənasib şəkildə ekrana gəlməsini təmin edir. Bəzən otaq böyüklüyündəki kubşəkilli yerin bütün divarlarında və döşəməsində stereo görüntülər əks etdirilir və bu otağa girən insanlar taxdıqları stereo eynəklərlə otaqda dolaşaraq özlərini tamamilə başqa məkanlarda, məsələn, şəlalə kənarında, dağın zirvəsində, dənizin ortasındakı gəminin göyərtəsində günəş şüaları altında dincələrkən görə bilərlər. Başa taxılan kaskalar üç ölçülü, dərinlik və məkan hissi olan görüntülər əmələ gətirirlər. Görüntülər insan ölçüləri ilə nisbətdə verilir və əlcək kimi bəzi alətlərlə toxunma hissi təmin edilir. Beləliklə, bu alətlərdən istifadə edən edən şəxs gördüyü xəyali dünyadakı əşyalara toxuna bilir, onların yerlərini dəyişdirə bilirlər. Bu məkanlarda insanın gördüyü görüntüdəki səslər də son dərəcə inandırıcıdır. Səs hər tərəfdən fərqli dərinliklərdə verilir. Bəzi hallarda dünyanın





**Xəyali gerçəklik üçün istifadə edilən simulyatorlar. Yuxarıdakı şəkildə adam istifadə etdiyi cihazlar vasitəsilə hərəkətli suya toxunduğunu zənn edir. Aşağıdakı adamlar isə özlərini göstərilən filmin qəhrəmanları kimi seyr edir və yaşadıqlarından həyəcanlanırlar.**





müxtəlif yerlərindəki bir neçə insana eyni xəyali mühit göstərilə bilir. Beləliklə, məsələn, dünyanın müxtəlif ölkələrindən, hətta müxtəlif qitələrindən üç insan özlərini digərləri ilə birlikdə motorlu qayığa minərkən görə bilirlər.

Xəyali dünyanın əmələ gətirilməsi üçün lazım olan alətlərdə istifadə edilən sistem beş duyğu orqanımızın sistemi ilə eynilik təşkil edir. Məsələn, istifadəçinin əlinə taxdığı əlcəyin içindəki mexanizmin təsiri ilə barmaq uclarına bəzi siqnallar verilir və bu siqnallar beyinə ötürülür. Beyin bu siqnalları şərh etdikdə bu şəxs ətrafında olmadığı halda ipək xalıya və ya səthi girintili-çıxıntılı olan, qabarıq vazaya toxunduğunu hiss edir.

Xəyali gerçəkliyin istifadə edilməyə başlandığı vacib sahələrdən biri tibbdir. Michigan Universitetində təkmilləşdirilən texnika ilə həkimliyə namizədlər və xüsusilə təcili yardım xidməti işçiləri süni əməliyyatxana mühitində təlim keçirlər.

# XƏYALİ MÜHİTLƏRDƏ ƏMƏLƏ GƏTİRİLƏN DÜNYALAR



Dövrümüzdə inkişaf edən texnologiya ilə birlikdə simulyator adlanan sistemlər bir çox sahədə istifadə edilməyə başladı. Eynəkli başlıq və əlcəklə bunlardan istifadə edən adama çox fərqli görüntülər üç ölçülü formada göstərilir və bu şəxs özünü bu görüntünün içində zənn edir.





Avtomobil dizaynerləri yeni avtomobil modellərini xəyali mühitlərdə sınaqdan keçirirlər.









**Bu texnologiyanın istifadə edildyi sahələrdən biri də təyyarəçilik təlimidir. Kiçik kabinənin içində olan adamlar bu alətlər sayəsində özlərini həqiqətən təyyarə idarə edərkən, göy üzündə uçarkən və ya hava limanına enərkən görürlər.**

Burada otağın yerində və divarlarında əməliyyatxana ilə bağlı görüntülər, əməliyyatxananın ortasına isə əməliyyat stolu və “xəstə”nin görüntüsü əks etdirilir. Həkimliyə namizədlər isə üç ölçülü eynəklərini taxaraq bu xəyali xəstə üzərində əməliyyata başlayırlar. Şəkillərdən də göründüyü kimi bu şəkli görən bir insan hansının gerçək, hansının xəyali olduğunu anlamayacaqdır.

Bu nümunələrdə də göründüyü kimi, süni siqnallarla gerçək olmayan dünya gerçək kimi göstərilə bilir. Son illərdə çəkilən bəzi məşhur filmlərin bu mövzuya toxunması da son dərəcə diqqət çəkir. Məsələn, *“The matrix”* adlı Hollywood filmində filmin iki qəhrəmanı kresloda uzanmış vəziyyətdə ikən sinir sistemlərinə kompyuter qoşulduqda özlərini tamamilə başqa məkanlarda görürlər. Bir səhnədə uzaq şərq idman növü ilə məşğul olarkən, başqa birində isə özlərini başqa paltarlar içində bir çox insanın olduğu küçədə gəzərkən görürlər. Filmin qəhrəmanı yaşadıqlarının həqiqiliyi qarşısında bunların kompyuter vasitəsilə əmələ gətirilən görüntülər olduğuna inana bilmədiyini söylədikdə isə kompyuter tərəfindən görüntü dondurulur və bu şəxs həqiqi sandığı dünyanın əslində bir görüntü olduğuna inandırılır.

Beləliklə, dövrümüzün texnologiyası ilə süni siqnallar ilə süni görüntülər, başqa sözlə, süni dünya əmələ gətirmək mümkündür. Bu süni görüntülərin



**Miçiqan Universitetində təkmilləşdirilən texnika ilə həkimliyə namizədlər və xüsusilə təcili yardım xidməti işçiləri süni əməliyyatxana mühitində təlim keçirlər. İlk mərhələdə bir otağın yerində və divarlarında əməliyyatxana ilə bağlı görüntülər əks etdirilir. Yandakı səhifədə görünən əməliyyatxana mühitində üç həkimdən başqa bütün görüntülər xəstə də daxil olmaqla xəyalidir. Simulyator cihazları ilə həkimliyə namizədlər ilk əməliyyatlarını xəyali əməliyyatxanada xəyali xəstələr üzərində edirlər.**





# SÜNİ ƏMƏLİYYATXANADA SÜNİ ƏMƏLİYYAT







həqiqilərindən heç bir fərqi olmadığı təcrübədən keçirənlər tərəfindən ifadə edilir. Elə isə biz də hər an gördüyümüz "həyat görüntüsü"ndə təmasda olduqlarımızın mütləq "əsilləri" olduğunu iddia edə bilmərik. Çünki bu hisslərimizin səbəbi çox fərqli mənbə ola bilər.

### Hipnozun göstərdiyi vacib həqiqət

Süni siqnallarla bir dünya əmələ gətirilməsi həqiqətinə ən yaxşı nümunələrdən biri də hipnozdur. Məlumdur ki, hipnozda hipnoz edilən şəxsin təlqinlər vasitəsilə həqiqisindən ayırd edilməyəcək qədər inandırıcı bir sıra hadisələri yaşaması təmin edilir. Sözügedən şəxs olduğu otaqda olmayan görüntüləri, adamları və ya mənzərələri görür, səsləri eşidir, qoxuları və dadları bilir. Bu müddətdə yaşadığı hadisələrdən sevinir, kədərlənir, həyəcanlanır, sıxıntı, təşviş keçirir. Hətta hipnoz altındakı şəxsin yaşadığı hadisələrin təsiri kənardan fiziki cəhətdən də müşahidə olunur, verilən təlqinlə əlaqədar nəbzin vurması, təzyiqin yüksəlməsi, dərisində qızartı əmələ gəlməsi, temperaturunun qalxması, mövcud ağrını hiss etməsi kimi əlamətlər meydana gəlir.[16]

Məsələn, hipnozun tətbiq edildiyi bir təcrübədə şəxsə xəstəxanada olduğu və bu xəstəxananın onuncu mərtəbəsində ölmək üzrə olan bir xəstə olduğu deyilmiş, ancaq onun əlindəki dərmanı tez çatdırdığı halda xəstənin həyatının qurtarılacağı təlqin edilmişdir. Bu şəxs hipnoz ərzində təlqinin təsiri ilə son dərəcə sürətlə 10 mərtəbəni yuxarı çıxmağa başladığını hesab etmişdir. Bu zaman tövşümüş, bərk yorulduğu üçün təngnəfəs olmuşdur. Sonra ona artıq ən yuxarı mərtəbəyə çatdığı və dərmanı çatdırdığı deyilmiş və rahat bir çarpayıya uzanması təlqin edilmişdir. Beləliklə, hipnoz edilən şəxs rahat olmağa başlamışdır.[17] Hipnoz edilən şəxs ona təlqin edilən məkanı və mühiti

## *MADDƏNİN HƏQİQƏTİ MÖVZUSU FİLMLƏRDƏ*

**Maddənin həqiqəti mövzusunun gündəmə gətirilməsi və bir çox vəsilə ilə dünyaya izah edilməsilə yaşanan diqqətçəkən irəliləyişlərdən biri bir çox Hollivud filminin məğzində bu mühüm həqiqətə yer verilməsi olmuşdur.**







**Arnold Şvardzneqqerin baş rolda oynadığı "Total recall" (Hər şeyi xatırlamaq) adlı filmdə isə baş qəhrəman gerçək zənn etdiyi həyatının əslində beyninə yüklənmiş məlumatlardan ibarət olduğunu anlayır. Ancaq hansının gerçək, hansının xəyal olduğunu ayırd edə bilmir.**



Bu kadrların götürüldüyü "13-cü mərtəbə" adlı filmin mövzusu qısaca belədir: filmin iki baş qəhrəmanı kompyuter ilə xəyali dünya meydana gətirmişlər. Bu xəyali dünyada 1937-ci il canlandırılır. Əslində isə bu insanlar 2000-ci ildə yaşayırlar.



Bu kompyuter proqramına bağlanan şəxs yatağa uzanır və beyninə bu proqramdakı məlumatlar və 1937-ci ilin yaşandığı xəyali dünyadakı şəxsiyyəti ilə bağlı informasiya yüklənilir. Məsələn, bu şəxs 2000-ci ildə yaşayan Duqlas Hol adlı varlı və uğurlu kompyuter şirkətinin meneceridir, hafizəsinə isə 1937-ci ildə yaşayan Con Ferguson adlı bank xəzinədarının məlumatları yüklənilir.



Bu şəxs özünü bir anda 1937-ci il mühitində görür. Binalar, avtomobillər, geyimlər tamamilə o ilə xasdır. Bu şəxsi təəccübləndirən isə hər iki həyatının da bir-biri ilə eyni dərəcədə həqiqi olmasıdır. İkisində də suyun nəmliyini, çöldəki küləyi, qarşılaşdığı hadisələrdə hiss etdiyi qorxu və həyəcanı bütün gerçəkliyi ilə yaşayır.



Bu şəxs daha sonra gerçək həyatı zənn etdiyi həyatının da əslində kompyuter proqramı olduğunu, o günə qədər həqiqi hesab etdiyi hər şeyin-şirkətinin, mövqeyinin, avtomobilinin, dostlarının hamısının xəyalı ilə təmasda olduğunu anlayır. Əslində 2000-ci ildən çox daha sonrakı zamanda yaşayır və bütün bu həyatını bir simulyatorda izləyir. Filmdə əsas vurğulanan mövzu isə xəyal şəklində yaşananların gerçək hesab edilən həyatdan ayırd edilməyəcək qədər həqiqi olmasıdır.

  

**“The Matrix” filmində isə baş qəhrəman o günə qədər şüşə kürənin içində beyninə verilən elektrik siqnallarından ibarət xəyali dünyada yaşadığını anlayır. Özünü kompyuter proqramçısı zənn edir, əslində isə yuxarıda görünən yerdə yatır. Yəni həyatı hesab etdiyi hər şey əslində xəyallardan ibarətdir.**

  

**Filmdə baş qəhrəmanın beyninə kompyuter kabeli bağlanılır və bu kabel vasitəsilə beyninə bəzi proqramlar yüklənilir.**

  

**Kompyuter proqramı yükləndikdən sonra əslində başqa bir yerdə, pis geyimdə, olduqca köhnə kresloda oturan bu şəxs özünü tamamilə başqa geyimlərlə başqa bir yerdə görür. Geyimləri dəyişmiş, saçı uzanmışdır. Əslində oturduğu simulyator kreslosundakı görüntüsündən tamamilə fərqli görünüşə malikdir.**

  

**Bu şəxs gördüklərinin xəyal olmayacaq qədər həqiqi olmasına görə həqiqəti qəbul etmək istəmir və kresloya toxunaraq: “Bu həqiqi deyil?” -deyə soruşur. Aldığı cavab isə belədir: “Həqiqət nədir? Həqiqəti necə tərif edirsən? Əgər hiss edə bildiyin, qoxulayıb, dadıb görə bildiyin şeylərdən bəhs edirsənsə, “həqiqət” beyinə göndərilən elektrik siqnallarının şərhidir”.**





Ona bildiyi dünyanın tamamilə simulyasiyadan ibarət olduğu göstərilir. Buna gördüyü hər təfərrüat daxildir. Avtomobillər, şəhərin gurultusu, nəqliyyat, göydələnlər, okean, insanlar, qısaca desək, hər şey sadəcə kompyuter proqramı ilə zehnində meydana gələn canlandırmadan ibarətdir.





Ona həqiqətləri göstərən şəxs xəyal dünyasında yaşadığını və yaşadıqlarını həqiqi hesab etdiyini söyləyir. Dünyanın o andakı həqiqi halı isə tamamilə başqa cürdür. Məhv olmuş, xarabalığa çevrilmiş dünya var. Gördüyü göydələnlər, müasir görünüş, avtomobillər və digərləri isə sadəcə zehnindəki xəyallardır.





Bu günə qədər həqiqi olduğunu zənn etdiyi bütün tarixin də xəyal olduğunu və əslində tamamilə başqa bir zamanda yaşadığını öyrənir.





“The Matrix” filmindən başqa bir səhnə. Bu səhnədəki şəxs bütün həyatının kompyuter proqramı tərəfindən beynində göstərildiyini bilir. Buna görə, yediyi bifşteksin ləzzətinin əslində mövcud olmadığını, bunu sadəcə beynində hiss etdiyini söyləyir, ancaq yenə də bu ləzzətdən həqiqi imiş kimi zövq aldığını bildirir.





**Bu şəxs hipnoz zamanı təlqinin təsirilə olduqca sürətlə 10 mərtəbəni çıxmağa başladığnı hesab edir. Bu zaman tövşümüş, bərk yorulduğu üçün təngnəfəs olmuşdur. Hipnoz edilən şəxs ona təlqin edilən məkanı və mühiti bütün gerçəkliyi ilə yaşamasına baxmayaraq, ortada nə haqqında bəhs edilən məkan, nə insanlar, nə də hadisələr vardır.**

bütün gerçəkliyi ilə yaşamasına baxmayaraq, ortada nə bəhs edildiyi kimi bir məkan, nə insanlar, nə də hadisələr var.

Digər təcrübədə isə normal otaqda olan şəxsə hamamda olduğu və hamamın çox isti olduğu təlqin edilmiş, bundan sonra həmin şəxs həddindən artıq tərləməyə başlamışdır.[18] Burada çox vacib cəhət də diqqəti cəlb edir. İnsan bədənində tərləmə baş verməsi üçün bəzi təsirlərin meydana gəlməsi şərtdir. Bu hipnoz hadisəsində qarşılaşdığımız həqiqət isə budur: hipnoz edilən şəxs xarici aləmdə tərləməyə səbəb olan heç bir amil olmadığı halda tərləmişdir. Bu nümunə açıq şəkildə göstərir ki, bir məkanda olmaq və ya bir mühiti hiss etmək üçün o mühitin və ya məkanın əsli ilə təmasda olmaq şərt deyil. Süni siqnallar və ya təlqin yolu ilə bənzər təsirlərin əmələ gətirilməsi mümkündür.

*Milli Hipnoterapiya Dərnəyi, Milli Psixoterapiya Dərnəyi, Peşəkar Hipnoterapistlər Mərkəzi, Hipnoterapiya Araşdırma Dərnəyi* kimi bir çox qurumun üzvü olan ingilis hipnoterapiya mütəxəssisi Terrence Watts da bir məqaləsində hipnoz vaxtı keçmişdəki hadisəni xatırlayaraq danışan insanlarda danışdıqları hadisə ilə əlaqədar olaraq bəzi fiziki dəyişikliklər müşahidə edildiyini bildirir. Məsələn, insanın danışdığı hadisədə nəfəs alma çətinliyi kimi vəziyyət baş vermişsə, hadisəni hipnoz altında danışdığı vaxtda yenə nəfəsi daralır, hətta bir

müddət tamamilə dayanır. Watts hipnoz zamanı kiçik yaşlarında döyüldüyü anı danışan insanın üzündə şillə izlərinin meydana gəldiyini də bildirir. Bundan əlavə, Watts bunun bir sirr olmadığını, bədənin ağrıya cavab verdiyini bildirir.[19]

Hipnoz hadisələrində görülən ən təəccüblü nümunələrdən biri də hipnoz edilən şəxsin dərisində təlqin nəticəsində yaraların belə əmələ gəlməsidir. Məsələn, Paul Thorsen adlı tədqiqatçı hipnoz altındakı şəxsin qoluna sadəcə qələmin ucunu toxundurmuş və bunun qızğın şiş olduğunu təlqin etmişdir. Qısa müddətdən sonra qələmin ucunun dəydiyi yerdə yanıq qabarcığı üzə çıxmışdır. Eyni tədqiqatçı Anne O. adlı şəxsə hipnoz vaxtı qolunun A hərfi şəklində sıyrıldığını təlqin etmişdir. Başqa heç bir şey edilmədiyi halda o yerdə A hərfi şəklində qızartı əmələ gəlmişdir.[20] Bourru və Burot adlı tədqiqatçılar isə hipnoz altındakı şəxsə qolunun kəsildiyini təlqin edərək yumşaq qələmlə yüngül bir xətt cızdıqdan sonra qolunda qan sızdığını görmüşlər.[21]

J.A.Hadfield isə hipnoz etdiyi dənizçiyə qoluna qızğın dəmir basdığını və o yerin yanacağını söyləmişdir. Halbuki sadəcə barmağının ucunu oraya toxundurmuşdur. Sonra da o yeri sarımışdır. 6 saat sonra sarğı açıldıqda orada həqiqətən yüngül qızartı və qabarma görünmüşdür. Hadfield: "Ertəsi gün qabarıq xeyli böyümüşdü və eynilə yanıq yeri kimi su yığılmışdı", -demişdir.[22]



**Hipnozla dəri xəstəliklərinin sağaldığı hər kəsə məlum olan həqiqətdir. Yuxarıdakı şəkildə hipnozla müalicə edilməzdən əvvəlki yaralar görünür. Aşağıda isə hipnozla müalicədən sonra yaraların sağaldığı müşahidə edilir. (D.Waxman, Hypnosis, səh. 113)**

Hipnoz vaxtı insan bədənində meydana gələn bu dəyişikliklər görmə, eşitmə, toxunma, hiss etmə, ağrı bilmə kimi hislərimizin əmələ gəlməsi üçün xarici aləmə ehtiyacımızın olmadığını göstərir. Məsələn, xarici aləmdə qızğın dəmir olmamasına baxmayaraq, bu təlqini alan şəxsin qolunda yanıq izi əmələ gələ bilir. Bütün bu nümunələrdən də məlum olduğu kimi, həm görüntünün necə əmələ gəldiyini tədqiq etdikdə, həm texnoloji nailiyyətlərə baxdıqda, həm də hipnoz kimi təlqin üsullarını bu məlumatlara əlavə etdikdə ortaya qəti həqiqət çıxır: insan ömrü boyu bədəninin xaricindəki dünyada yaşadığını zənn edir. Halbuki dünya dediyimiz hər şey qavrama mərkəzlərimizə çatan siqnalların beynimiz tərəfindən şərhidir. Yəni biz

beynimizin içində əmələ gələn dünyadan başqa dünya ilə heç vaxt təmasda ola bilmərik. Xarici aləmdə nə olduğunu bilməyimiz əsla mümkün deyil. Beynə ötürülən siqnalların mənbəyinin, orijinalının nə olduğunu da bilmirik. Bu gün bu mövzu ən əsas elmi kitablarda yer alan və məktəbdə yuxarı siniflərdən etibarən insanlara öyrədilən açıq həqiqətdir. Problem ondadır ki, insanlar bu həqiqət üzərində düşünmürlər.

## Bütün bu hissləri yaşayan kimdir?

Bura qədər olan bölmələrdə həyatımıza aid bütün hisslərin beynimizdə əmələ gəldiyini nəzərdən keçirdik. Burada bir az diqqətlə düşünən hər insanın soruşacağı çox vacib sual ilə qarşılaşırıq.

Məlumdur ki, gözümüzdəki hüceyrələrdən gələn elektrik siqnalları beynimizdə görüntüyə çevrilir. Məsələn, beyin görmə mərkəzinə gələn bəzi elektrik siqnallarını günəbaxan tarlası kimi şərh edir. Elə isə görən göz deyil.

Əgər görən gözlərimiz deyilsə, elə isə beynin arxa hissəsində, qapqaranlıq yerdə gözə, tor qişaya, göz bülluruna, göz sinirlərinə, göz bəbəyinə ehtiyacı olmadan elektrik siqnallarını rəngarəng günəbaxan tarlası kimi görən, gördüyü bu mənzərədən zövq alan kimdir?

Heç bir səsin girə bilmədiyi beyində qulağa ehtiyacı olmadan elektrik siqnallarını ən yaxın dostunun səsi kimi eşidən, bu səsi eşitdikdə sevinən, eşitmədikdə onun üçün darıxan kimdir?

Beynin içində bir ələ, barmaqlara, əzələlərə ehtiyacı olmadan pişiyinin tüklərini oxşadığını hiss edən kimdir?

İsti, soyuq, qatılıq, forma, dərinlik, uzaqlıq kimi toxunma duyğularını əslinin eynisi ilə beyində kim yaşayır?

Heç bir qoxunun girə bilmədiyi beynin içində limon, lavanda, gül, yemiş, qarpız, portağal, kabab qoxusunu eynisi ilə qoxulayan və kababın qoxusunu duyduqda iştahaya gələn kimdir?

Bura qədər daima duyğularımızın beynimizdə meydana gəldiyindən bəhs etmişik. Elə isə beynin içində əmələ gələn bu görüntüləri bir televizor ekranındakı kimi seyr edən, seyr etdiklərindən sevinən, kədərlənən, həyəcanlanan, razı qalan, təşvişə düşən, maraqlanan kimdir? Bütün gördüklərini və hiss etdiklərini şərh edən şüur kimə aiddir?

Həyatı boyu qapqaranıq, səssiz kəlləsinin içində ona göstərilən görüntüləri seyr edən, düşünən, nəticə çıxaran, qərar verən şüur sahibi varlıq kimdir?

Bütün bunları qavrayan, şüuru meydana gətirən varlığın şüursuz atomların əmələ gətirdiyi su, yağ, zülal kimi maddələrdən ibarət olan beyin olmadığı aydındır. Beynin fövqündə çox daha fərqli bir varlıq olmalıdır. *Daniel Dennet* materialist olmasına baxmayaraq, kitabında bu sualı belə açıqlayır:

*Şüurlu düşüncələrim və xüsusilə də günəş işığından, Vivaldidən, yüngülcə tərpənən budaqlardan aldığım zövq - necə olur ki, bütün bunlar sadəcə beynimdə əmələ gələn fiziki şeylərdir? Necə olur ki, beynimdəki elektrokimyəvi birləşmələrin kombinasiyası bu yüzlərlə zərif budağın zaman ərzində musiqi ilə diz çökməsinə çevrilir? Beynimdəki məlumatı hazırlama prosesi necə olur ki, üzərimə düşən günəş işığının istiliyinə çevrilir? Hətta beynimdəki hadisə necə olur ki, beynimdəki başqa bir məlumatı hazırlama prosesinin çertyoj şəklində əyaniləşdirilmiş zehni görüntüsünə çevrilir? Bu, mümkünsüz görünür. Mənim şüurlu düşüncələrim və təcrübələrim olan hadisələr beyin prosesləri deyilmiş kimi görünür, ancaq başqa bir şey olmalıdır, şübhəsiz, beyin proseslərinin səbəb olduğu və ya onlar tərəfindən hazırlanan, ancaq buna əlavə olaraq fərqli maddədən əmələ gələn, fərqli məkana yerləşdirilmiş bir şey. Bəli, niyə də olmasın?*[23]

R.L. Gregory isə beynin arxasında olan və bütün bu görüntüləri görən bu varlığı belə şərh edir:

*Gözlərin beyində şəkillər əmələ gətirdiyini söyləyən söhbət gedir, ancaq bu fikirdən çəkinmək lazımdır. Beyində şəkil əmələ gəldiyi deyilirsə, bunu görməsi üçün içəridə bir göz də olmalıdır, lakin bu gözün şəklini görmək üçün bir gözə də ehtiyac olacaq... və bu da sonsuz bir göz və şəkil olması deməkdir. Bu, mümkün deyil.*[24]

Maddədən başqa varlığı qəbul etməyən materialistlərin içindən çıxa bilmədikləri əsl müəmma elə budur. Görən, gördüyünü qavrayan və reaksiya verən "içəridəki göz" kimə aiddir? Karl Pribram da elm və fəlsəfə dünyasında qavrayışı hiss edənin kim olduğu ilə bağlı bu vacib axtarışa belə diqqət çəkmişdir:

*Yunanlardan bəri filosoflar "maşının içindəki xəyal", "kiçik insanın içindəki kiçik insan" və s. üzərində daima düşünmüşlər. "Mən" – yəni beyindən istifadə edən varlıq haradadır? Əslində bilməni həyata keçirən kimdir? Assisili Müqəddəs Francisin də dediyi kimi: "Axtardığımız şey baxanın nə olduğudur".*[25]

Bir çox insan bu mövzunu düşünərək həqiqətə lap yaxınlaşdığı halda "görən kimdir" sualının cavabını verməkdə, düşüncədə bundan daha irəliyə getməkdə tərəddüd edir. Yuxarıdakı nümunələrdə də göründüyü kimi, mənliyimizi meydana gətirən varlığa bəziləri "kiçik insan", bəziləri "maşının içindəki xəyal", bəziləri "beyni idarə edən varlıq", bəziləri isə "içəridəki göz" ifadəsindən istifadə etmişlər. Bütün bu ifadələrdən beynin fövqündə şüur sahibi olan varlığı tərif etmək və onu dərk etmək üçün istifadə edilmişdir. Ancaq bu insanlar materialist fikirlərinə görə, əslində görənin, eşidənin kim olduğunu dilə gətirə bilməmişlər.

Bu həqiqətin cavabını bizə verən yeganə mənbə dindir. Allah Quranda insanın əvvəl bədənini yaratdığını, sonra da ona "ruhundan üfürdüyünü" bildirmişdir.

**Xatırla ki, bir zaman Rəbbin mələklərə belə demişdi: "Mən quru və**

# *BEYNİNİZDƏKİ DƏRİN SƏSSİZLİKDƏ KONFRANSI DİNLƏYƏN RUHUNUZDUR*

Böyük salonda diqqətlə nitqi dinləyən insanların hamısı natiqin ağzından çıxan hər səsi eşitdiklərini zənn edirlər. Natiq də eyni əminliklə düşüncələrini anladır və dinləyicilərin onu eşitdiklərini zənn edir. Əslində isə həqiqət çox fərqlidir və o anda salondakı heç kimin fərqinə varmadığı qeyri-adi möcüzə baş verir.

Nitq söyləyən şəxs beynindəki dinləyicilərə bir şey danışır, eyni şəkildə dinləyicilər də danışılanları beyinlərində dinləyirlər. O anda salonun içində olduqlarından olduqca əmin olan o qədər insan bütün bunları əslində beyinlərində yaşayırlar və salondakı dinləyicilərin hər birinin beynində elektrik axınlarını natiqin səsi kimi qulağa ehtiyac olmadan eşidən varlıq var.

Bu varlıq hər şeyi o qədər həqiqi yaşayır ki, heç kim eşitdiyi səsin əsli ilə təmasda olmadığını anlamır. Bu varlıq Allahın bənzərsiz elmlə yaratdığı RUHdur. Beynin içindəki dərin səssizliyə baxmayaraq, ruh hər şeyi qüsursuz dərəcədə aydın və əslinin eynisi kimi eşidir.









**qoxumuş qara palçıqdan insan yaradacağam! Mən ona surət verib ruhumdan üfürdüyüm zaman siz ona səcdə edin!" (Hicr surəsi, 28-29)**

**Sonra onu düzəldib insan şəklinə saldı və ona öz ruhundan üfürdü. O, sizə göz, qulaq və ürək verdi. Siz az şükür edirsiniz! (Səcdə surəsi, 9)**

Yəni insanın bədənindən başqa varlığı da var. Beyninin içindəki görüntünü "görürəm" deyən, beyninin içində eşitdiyi səsləri "eşidirəm" deyən, öz varlığının dərk edən və "mən mənəm" deyən bu varlıq Allahın insana verdiyi ruhdur.

Ağıl və vicdan sahibi olan hər insan həyatı boyu yaşadığı hər hadisəni beyninin içindəki ekranda seyr edən varlığın ruhu olduğunu dərhal başa düşəcəkdir. **Hər insan gözə ehtiyacı olmadan görə bilən, qulağa ehtiyacı olmadan eşidə bilən, beyinə ehtiyacı olmadan düşünə bilən ruha malikdir.**

Tək mütləq varlığın maddə olduğunu iddia edən, insan şüurunun da yalnız beynindəki kimyəvi proseslərin nəticəsi olduğunu zənn edən materialist düşüncə isə bu mövzuda çıxılmaz vəziyyətə düşmüşdür. Bunu görmək üçün hər hansı materialistə bu sualları verə bilərsiniz:

- Görüntü beynimizdə əmələ gəlir, ancaq bu görüntünü beynimizdə kim seyr edir?
- Hal-hazırda yanınızda olmayan aşağı mərtəbədəki qonşunuzu gözünüzün qarşısına gətirin. Onu aydın şəkildə görürsünüz. Paltarının detalları, üz cizgiləri, saçlarındakı ağlar, səsinin tonu, danışıq tərzi, yerişi ilə xəyalınızda çox aydın şəkildə canlandırdığınız bu insanı kim seyr edir?

Bu və buna bənzər sualları materialistlərə verdikdə heç bir cavab ala bilməzsiniz. Çünki bu sualların tək cavabı Allahın insana verdiyi ruhdur. Materialistlər isə maddədən başqa heç bir varlığı qəbul etmirlər. Elə buna görə, bu kitabda izah edilən qeyri-adi həqiqət Allahın varlığını inkar edən materialist düşüncəyə ən böyük zərbə vuran, materialistlərin düşünməkdən və haqqında danışmaqdan ən çox çəkindikləri mövzudur.

## Bu görüntüləri ruhumuza seyr etdirən kimdir?

Burada bir sual da verilməlidir: ruhumuz beynimizdə əmələ gələn görüntüləri seyr edir. Bəs bu görüntüləri əmələ gətirən kimdir? Qapqaranlıq beynimizin içində işıqlı, rəngarəng, aydın, kölgəli görüntüləri əmələ gətirən, elektrik siqnallarından kiçik bir yerdə böyük dünyanı meydana gətirən beyin ola bilərmi? Beyin nəm, yumşaq, qırışlı bir ət parçasıdır. Belə bir ət parçası ən qabaqcıl texnologiya ilə istehsal edilmiş televizorlardan daha aydın, heç bir pozulma və ya tutqunluq olmayan, rəngləri son dərəcə canlı olan aydın görüntü əmələ gətirə bilərmi? Beyin kimi təqribən 1.5 kq ağırlığındakı ət parçasının bu

qədər qüsursuz hisslər əmələ gətirə bilməsi, əlbəttə, mümkün deyil.

Burada bir həqiqətlə də qarşılaşırıq. Ətrafımızda gördüyümüz hər şeylə birlikdə sahib olduğumuz bədənimiz, əlimiz, qolumuz, üzümüz kölgə varlıq olduğuna görə, beynimiz də kölgə varlıqdır. Elə isə görüntü olan varlığın görüntü meydana gətirdiyini deyə bilmərik.

Bertrant Russel *"Nisbiliyin əlifbası"* adlı əsərində *"Şübhə yoxdur ki, maddə ümumi şəkildə formalaşma qrupu kimi şərh ediləcəksə, bunu gözə, optik sinirə və beyinə də aid etmək lazımdır".*[26] deyərək bu həqiqətə diqqət çəkir.

Bu həqiqəti dərk edən tanınmış filosof Bergson isə *"Maddə və hafizə"* adlı kitabında: *"dünya görüntülərdən ibarətdir, bu görüntülər ancaq bizim şüurumuzda var; beynin özü də bu görüntülərdən biridir"*[27], -deyir. Onda ruhumuza bu görüntüləri göstərən, ona həqiqisi ilə eyni dərəcədə aydın görüntü və hisslərlə həyat yaşadan, üstəlik bu görüntüləri fasiləsiz davam etdirən kimdir?

Ruhumuza bütün görüntüləri göstərən, bütün səsləri eşitdirən, ruhumuzun zövq alması üçün bütün dadları və qoxuları yaradan, bütün aləmlərin Rəbbi, hər şeyin Yaradıcısı olan Allahdır.

## Materializmin qarşılaşdığı ən əsas müəmmalardan biri: İnsan şüuru

Materialist fəlsəfə insan şüurunu, yəni insanın ruhuna aid xüsusiyyətlərin mənbəyini əsla açıqlaya bilməz. Çünki materialist fəlsəfədə ancaq maddənin varlığına inanılır. İnsanın ruhuna aid şüur, düşünmə, qərar vermə, sevinmə, həyəcanlanma, darıxma, zövq alma, şənlənmə, mühakimə və rəy söyləmə kimi xüsusiyyətlər heç bir maddi anlayış ilə açıqlana bilməz. Materialistlər bu mövzunu "insan şüuru beynin fəaliyyətlərinin məhsuludur" -deyərək məsələdən yayınmağa çalışırlar. Bu materialist elm adamlarından biri olan Francis Crick sözügedən materialist iddianı belə izah edir:

> *Sevincimiz, kədərimiz, xatirələrimiz və istəklərimiz, şəxsiyyətinizlə bağlı hissləriniz və iradəniz əslində çox sayda sinir hüceyrəsinin və onlara bağlı molekulların birlikdə həyata keçirdiyi hərəkətlərdən başqa bir şey deyil.*[28]

Əslində isə bu, nə elmi, nə də məntiqi cəhətdən müdafiə ediləcək iddia deyil. Materialistləri insan ruhuna aid xüsusiyyətlər belə bir açıqlama verməyə məcbur edən onların maddəçi rəyləridir. Maddənin fövqündə bir varlığın mövcud olması həqiqətini qəbul etməmək üçün insan zehnini maddə ilə "məhdudlaşdırmağa" çalışır və bu məqsədlə ağıl və məntiqə uyğun olmayan iddialara üz tuturlar. Elmi yazıçı John Horgan "məhdudlaşdırma" adlandırılan sözügedən materialist düşüncəyə bağlı olmasına baxmayaraq, Francis Crickin bu iddiasının qəbul edilməz olduğunu və içinə düşdüyü ziddiyyəti belə etiraf edir:


BİR ƏT PARÇASI ÜZƏRİNDƏ BU QƏDƏR KEYFİYYƏTLİ
GÖRÜNTÜ MEYDANA GƏLƏ BİLƏRMİ?

*Bir tərəfdən Crick haqlıdır. Biz neyron torbasından başqa bir şey deyilik. Eyni zamanda nə qəribədir ki, nevrologiyanın kifayət etmədiyi məlum oldu. Ağlı neyronlarla açıqlamaq ağlı kvark və elektronlarla açıqlamaqdan daha çox anlayış və fayda gətirmədi. Bir çox alternativ məhdudlaşdırma (reductionaism) var. "Biz xüsusi gen paketindən başqa bir şey deyilik". "Biz təbii seçmə ilə formalaşan uyğunlaşmalardan başqa bir şey deyilik". "Biz fərqli sahələr üçün ayrılmış kompyuter makinalarından başqa bir şey deyilik". Crickin iddiasına bənzəyən* ***bu fikirlərin hamısını müdafiə etmək olar, ancaq heç biri kifayət etmir.***[29]

Bu açıqlamaların, əlbəttə, hamısı qeyri-kafidir, hətta tamamilə məntiqsizdir. Ən qatı materialistlər belə bu həqiqəti əslində çox yaxşı anlayırlar. Belə ki, Darvinin ən yaxın dəstəkləyəni kimi tanınan materialist Thomas Huxley də: **"Şüur kimi bu qədər fövqəladə bir şey necə olub sinir toxumalarının bir-birilə qarşılıqlı təsirindən meydana gəlmişdir? Bu, Ələddinin lampasını əli ilə sürtdükdə içindən Cinin çıxması qədər izah edilməzdir", -**deyərək şüurun neyronlararası əlaqə ilə açıqlanmasının mümkün olmadığını ifadə etmişdir.[30]

Huxleydən dövrümüzə qədər insan şüurunun neyronlarla açıqlanmasının mümkünsüzlüyü həqiqəti dəyişməmişdir. Ancaq bunun səbəbi elmin bu sahədəki yeni tapıntılarının kifayət olmadığından irəli gəlmir. Əksinə, nevrologiya sahəsində XX əsrin xüsusilə sonlarında çox irəliləyişlər baş vermiş, bir çox qaranlıq cəhət aydınlığa çıxmışdır. Ancaq bunlar insan şüurunun əsla maddə ilə məhdudlaşmadığını, maddənin fövqündə bir həqiqətin axtarılmalı olduğunu ortaya qoyan elmi fəaliyyətlərdir. Belə ki, Almaniyanın qabaqcıl darvinist-materialist yazıçılarından biri olan Hoimar Von Ditfurth qəbul etdikləri üsul ilə şüurun açıqlanmasının mümkün olmadığını belə etiraf edir:

***İzlədiyimiz təbiət tarixi və genetik irəliləyiş yolunda şüurun, ruhun, zəkanın və duyğunun nə olduğuna dair cavab***



**Sinir hüceyrələrinin bir insana şüur, ağıl, düşünmə və danışma bacarığı, sevmə, şəfqət hiss etmə, yazığı gəlmə, darıxma kimi hissləri qazandırmayacağı çox açıq həqiqətdir.**



*verə bilmədiyimiz gün kimi aydındır.* *Çünki psixi-zehni ölçü ən azından bu dünyada, bu anda təkamülün gəlib çatdığı ən son həddir. Ona görə də təkamülün sonrakı mərhələ və pillələrinə yenə şüurumuzun köməyi ilə kənardan, onların üstünə çıxaraq baxa bildiyimiz halda şüurun (ruhun) özünə belə bir yaxınlaşma imkanından məhrumuq. Çünki əlimizdə şüurun özündən daha çox inkişaf etmiş yuxarı pillə yoxdur.*[31]

Amerikalı fəlsəfə və riyaziyyat elmləri doktoru William A. Dembski *"Converting matter into mind" ("Maddəni zehnə çevirmək")* adlı məqaləsində insan beynindəki neyronların biokimyəvi prosesinin başa düşüldüyünü və bunun hansı zehni fəaliyyətlərlə bağlı olduğunun müəyyən edildiyini, ancaq qərar vermək, istəmək, fikir yürütmək kimi xüsusiyyətlərin "maddə ilə məhdudlaşmadığını" və şüuru araşdıran mütəxəssislərin bu məhdudlaşdırmanın qüsurunu gördüyünü belə yazır:

***... Şüuru öyrənən alimlərin bu faktı (şüuru) nevroloji səviyyədə anlamaq ümidindən artıq əl çəkdiklərini görünür...*** *Materializmə olan bağlılıq davam etsə də, insan ağlını neyron səviyyəsində açıqlamaq ümidi artıq ciddi düşüncə deyil...*[32]

Şüurun materialist düşüncə tərzi ilə açıqlanması, elm inkişaf etsə də, mümkün deyil. Çünki beyin haqqında nə qədər məlumat əldə edilsə, zehnin maddə ilə məhdudlaşmayacağı bir o qədər də ortaya çıxır. Materialistlər insan şüurunu, həqiqətən, qavramaq istəyirlərsə, öz yanlış düşüncələrindən əl çəkərək düşünməli və araşdırmalıdırlar. Çünki şüurun həqiqi mənasını maddə ilə açıqlamaq mümkün deyil. Şüur Allahın insanlara verdiyi ruhun funksiyasıdır.

**Materialistlərə suallar**

İnsanların düşüncələrinin, mühakimə və rəy bacarıqlarının, qərar vermə mexanizmlərinin, sevinc, həyəcan, rahatlıq kimi duyğularının beyinlərindəki neyronların bir-birilə qarşılıqlı təsiri olduğunu irəli sürmək son dərəcə məntiqsiz iddiadır. Mövzu üzərində daha ətraflı düşünən materialistlər də bunu başa düşürlər. Tanınmış materialist Karl Lashley insan şüurunu maddə ilə məhdudlaşdırmağın mümkünlüyünü uzun illər müdafiə etməsinə baxmayaraq, karyerasının sonlarında bu fikri söyləmişdir:

*Zehin-bədən əlaqəsi istər həqiqi metafizik mövzu, istərsə də sistemli xəta kimi nəzərdən keçirilsin, bu mövzu psixoloqlar və insan məsələlərilə məşğul olan nevroloqlar üçün hələ də problemdir...* ***Necə olur ki, beyin fiziki-kimyəvi sistem kimi bir şeyi qavrayır və ya bilir, yaxud bunu etdiyinə dair özünü aldada bilir?***[33]

Lashley sözügedən ziddiyyəti bircə sual ilə ifadə etmişdir. Əslində isə bu barədə materialistlərin özlərinə verməli və üzərində düşünməli daha bir çox cəhət var. Aşağıdakı açıqlamalar materialist yanaşmanın düşdüyü çıxılmaz

vəziyyəti göstərən məsələlərdən bir neçəsidir:

- Düşüncələrin, həyəcan və duyğuların neyronların məhsulu olduğunu söyləmək, bütün bunların əslində neyronları meydana gətirən şüursuz atomların, hətta atomun hissəcikləri olan kvarkların elektronların məhsulu olduğunu iddia etmək ilə eynidir.
- Şüursuz atomlar sevinməyi, ağrını, həyəcanı, musiqidən zövq almağı, ləzzəti, dostluğu, söhbət zövqünü bilmirlər.
- Şüursuz atomlar darvinist və materialist olaraq birləşib kitab yaza bilməzlər.
- Şüursuz atomlar elektron mikroskopunun altında özlərini və ya özlərinin birləşərək əmələ gətirdiyi sinir hüceyrələrini tədqiq edərək bu tədqiqatlarından elmi nəticələr çıxara bilməzlər.
- Görəsən, "şüur beynimizdəki neyronlardadır" -deyərkən əslində nəyi nəzərdə tuturlar? Neyronlar da digər hüceyrələr kimi hüceyrə qılafı, mitoxondri, DNT, ribosom kim tərkib hissələrdən ibarətdir. Görəsən, şüur materialistlərin fikrincə bunların harasında yerləşir? Şüurun neyronlar arasındakı kimyəvi reaksiyalar və elektrik siqnallarından əmələ gəldiyini zənn edirlərsə, yanılırlar. Çünki bizə onlara məlum olan "şüurlu kimyəvi reaksiya" nümunəsi verə bilməzlər. Müəyyən voltajda "düşünməyə" başlayan "elektrik axını" nümunəsi göstərə bilməzlər.

Materialistlər bu mövzular üzərində səmimi şəkildə düşündükdə özlərinin də, digər bütün insanların da neyron yumağından və ya atom yığınından çox fərqli varlıqlar olduğunu dərk edəcəklər. Beyin mütəxəssisi Wolf Singer materialist olmasına baxmayaraq, qarşılaşdığı bu həqiqəti belə ifadə etmişdir:

*Kainatın bu ən qarışıq maddəsində özünü "Mən" olaraq dərk edən bir "şey" var.*[34]

Bu elm adamının ifadə etdiyi "şey" Allahın insana verdiyi ruhdur. İnsan sahib olduğu bu ruh ilə düşünən, sevinən, həyəcanlanan, fikirləşən, əks fikirlərə qarşı çıxan, şərəf, hörmət, sevgi, dostluq, vəfa, səmimiyyət kimi anlayışları bilən varlıqdır. Neyronlar və onları əmələ gətirən atomlar isə düşünə bilməzlər, qərar verə bilməzlər, fəlsəfi fikirlər irəli sürə bilməzlər, sevgi, şəfqət hisslərini bilməzlər. Bunu materialistlərin çoxu da tək başına qaldıqda bilir və qəbul edirlər. Ancaq materialist rəylərini elmiliyin və ağlın gərəyi hesab etdikləri üçün yanılırlar və bu açıq-aydın həqiqəti qəbul etmirlər. Əslində isə materializmi müdafiə etmək üçün içinə düşdükləri vəziyyət və qəbul etdikləri ağıldankənar məntiq onlara daha çox zərər verir. "Düşüncələrimiz atomlarımızın, sadəcə neyronlarımızın məhsuludur" -deyən bir insanın xəyallarını həqiqi zənn edən və ya ağlasığmaz nağıllar uydurub sonra bunlara özü inanan insandan heç bir fərqi yoxdur.

Həqiqət budur: insan Allahın ona verdiyi ruhu daşıyan, bu ruh ilə düşünən, danışan, sevinən, qərarlar qəbul edən, sivilizasiyalar quran, ölkələri idarə edən varlıqdır.





# MADDƏNİN HƏQİQƏTİ NİYƏ ƏHƏMİYYƏTLİ BİR MÖVZUDUR?

İnsanların gördükləri, eşitdikləri, toxunduqları, qoxuladıqları və mütləq varlıq hesab etdikləri hər şeyin əslində hisslərdən ibarət olması və həyatımız boyu sadəcə xəyali görüntülərlə təmasda olmağımız eynilə kainatın yoxdan var edilməsi, sonsuzluğun varlığı, öldükdən sonra sonsuz həyat üçün yenidən dirildiləcəyimiz kimi qeyri-adi bir vəziyyətdir. Allah qüsursuz və saymaqla bitməyəcək qədər çox detala malik olan kainatı hər an, qüsursuz şəkildə yaratmaqdadır. Hətta bu yaratma o qədər qüsursuzdur ki, yer üzündə bu günə qədər mövcud olmuş bir çox insan bu kainatın və gördükləri hər şeyin xəyal olduğunu anlaya bilməmiş, daima maddənin əsli ilə təmasda olduqlarını düşünmüşlər.

XXI əsrdə elmi tapıntılar qəti şəkildə sübut etmişdir ki, maddənin əsli ilə təmasda olmaq heç bir zaman mümkün deyil. Ancaq bəzi insanlar hələ də bu məsələ ilə bağlı özlərini bilməməzliyə vururlar. Əlində isə bu mövzuda özünü bilməməzliyə qoymaq, nəzərə almamaq və ya rədd etmək doğru deyil. **Ona görə, bu mövzu ilə qarşılaşan insanların bu mövzunun əhəmiyyətini düşünmələri və qavramaları çox vacibdir.** Maddənin gerçək mahiyyətini oxuyan bəzi insanlar bu mövzuya nə üçün bu qədər əhəmiyyət verildiyini başa düşmədiklərini bildirirlər. Hətta bu mövzunun iman ilə əlaqəsi olmadığını hesab edir, nə üçün hər imani mövzunun ardından bu mövzunun izah edildiyini soruşurlar. Əslində isə bu mövzunun əhəmiyyəti ortadadır. Materialistləri qorxudan, onların bütün fikirlərini məhv edən bu həqiqətin əhəmiyyətini bütün müsəlmanlar anlamalı və insanlara da çatdırmağa çalışmalıdırlar.

Maddənin həqiqi mahiyyətinin məlum olması insanların bəzi iman mövzularını anlaması baxımından böyük əhəmiyyət daşıyır və digər iman mövzuları qədər vacibdir. Hər şeydən əvvəl maddənin həqiqi yönünün başa düşülməsi ilə insanlar həm dünyaya olan bağlılıqlarından əl çəkir və yalnız axirətə yönəlirlər, həm böyük xətadan qurtulur, həm də bu xətalarına görə qavraya bilmədikləri bəzi həqiqətləri də asanlıqla dərk edə bilirlər. Allahın harada olduğu, Cənnət və Cəhənnəmin varlığı, ruhun mahiyyəti, ölümdən sonrakı həyat, sonsuzluq kimi mövzular materialist dünyagörüşünə malik və ya bu fikrin təlqini ilə yetişmiş insanlar tərəfindən dərk edilə bilmir. Ancaq maddənin xəyal kimi qavranılması bu sualların doğru cavablandırılmasına kömək edir. Beləliklə, insanlar Allahın tək mütləq varlıq olduğunu açıq şəkildə görə bilirlər. Maddənin nə olduğunun başa düşülməsi ilə insanlar dünya həyatında bağlandıqları hər şeyin, həvəslərinin, istəklərinin, onlara Allahı və axirəti unutduran hər şeyin boş və aldadıcı olduğunu dərk edirlər. Bu isə dünya həvəslərindən qurtularaq ixlasla Allaha yönəlmələrinə və şirkdən uzaq olmalarına səbəb olur.

İnsanların lovğalıq və əzəmətlə hər cür insanlıq və əxlaqdan kənar davranışa meyl etdiyi bu əsrdə insanları özlərinin və gözlərində böyütdükləri insanların kölgə varlıq olduqlarını anladıqda təkəbbür və əzəmətlərinin yerini təvazökarlıq və mülayimlik alar.

Bütün bunlar isə rahatlıq və təhlükəsizliyin olduğu, xəsislik və xudbinliyin, rəhmsiz rəqabətin aradan qalxdığı cəmiyyətlərin meydana gəlməsinə səbəb olacaq.

Maddənin əsli ilə təmasda olmadığımızın qəbul edilməsi nəticəsində əldə ediləcək ən mühüm irəliləyişlərdən biri, şübhəsiz, materialist fəlsəfənin çökməsi olacaqdır.

İndi isə maddənin mütləq olmaması həqiqətinin nə üçün ən vacib mövzulardan biri olduğunun detalları ilə yaxından tanış olaq.

## Maddənin həqiqəti tək mütləq varlığın Allah olduğunu göstərir

Bu elmin göstərdiyi ən vacib məsələlərdən biri tək mütləq varlığın Allah olduğu həqiqətidir. Materialist fəlsəfələrin təsirinə düşərək maddənin mütləq varlıq zənn edən bəzi insanlar Allahın varlığını və harada olduğunu izah edərkən son dərəcə səhv və cahil üslubdan istifadə edirlər. Məsələn: "Allah haradadır?" -sualına: "Mənə ağlını göstər, göstərə bilməzsən. Elə Allah da ağıl kimi bir həqiqətdir, ancaq görünmür", -deyərək cahil cavab verirlər. Bəziləri isə (Allahı tənzih edirik) öz ağıllarına görə, Allahı xəyal kimi göstərir, Allahın varlığını radio dalğalarına bənzədirlər (Allahı tənzih edirik). Onların batil fikirlərinə əsasən, özləri və sahib olduqları hər şey mütləq varlıqlardır və Allahın varlığı isə bu maddi varlıqları radio dalğaları kimi əhatə edir. Əslində isə xəyal olan özləri və sahib olduqlarıdır. Tək mütləq varlıq isə Allahdır. Allahın varlığı hər şeyi əhatə etmişdir. İnsan isə heç cür mütləq varlıq olmayacağı üçün görüntüdür.

Bu həqiqəti Rəbbimiz bir ayədə belə bildirir:

**Allah... başqa heç bir tanrı yoxdur. Əbədi, əzəli varlıq Odur. O nə mürgü, nə də yuxu bilər. Göylərdə və yerdə nə varsa Onundur. Allahın izni olmadan Onun Qatında kim şəfaət edə bilər? O, bütün yaranmışların keçmişini və gələcəyini bilir. Onlar Allahın elmindən Onun Özünün istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun kürsüsü göyləri və yeri əhatə etmişdir. Bunları mühafizə etmək Onun üçün heç də çətin deyildir. Ən uca, ən böyük varlıq da Odur! (Bəqərə surəsi, 255)**

Bu həqiqətin başa düşülməsi ilə şirk qoşmadan, tək Allaha iman əmələ gəlir. Çünki Allahdan başqa bütün varlıqların kölgə varlıqlar olduqlarını bilən

insan qəti imanla (haqqəl-yakin dərəcəsində) "yalnız Allah var, Ondan başqa ilah yoxdur" deyir.

Allahı gözləri ilə görmədiyi üçün Allahın varlığına inanmayanların materialist iddiaları da maddənin həqiqəti mahiyyəti öyrənildikdə tamamilə məhv olur. Çünki bu həqiqəti öyrənən şəxs öz varlığının xəyal şəklində olduğunu anlayar. Xəyal olan varlığın isə mütləq olan varlığı görə bilməyəcəyini dərk edər. Belə ki, Quranda insanların Onu görə bilmədiyi, amma Özünün onları gördüyünü Rəbbimiz belə açıqlayır:

**Gözlər Onu dərk etməz. O, gözləri dərk edər. (Ənam surəsi, 103)**

Əlbəttə, biz insanlar Allahın varlığını gözlərimizlə görə bilmərik. Amma bilirik ki, Allah bizim daxilimizi, zahirimizi, baxışlarımızı, düşüncələrimizi tamamilə əhatə etmişdir. Buna görə, Allah Quranda Özünün "qulaqlara və gözlərə sahib olan" (Yunus surəsi, 31) olduğunu bildirir. Allahın bilmədiyi bir söz belə deyə bilmərik, hətta nəfəs belə ala bilmərik. Allah bizim etdiyimiz hər şeyi bilir, bu Quranda da belə bildirilmişdir:

**Yerdə və göylərdə heç bir şey Allahdan gizli qalmaz. (Ali-İmran surəsi, 5)**

Allahın hər an bizi seyr etdiyi, gördüyü, eşitdiyi çox mühüm həqiqətdir. Bu həqiqəti anlayan insan Allahı gözləri ilə görməsə də, Onun hər an ondan xəbərdar olduğunu bilir. Buna görə, nə iş görürsə görsün, Allahın şahid olduğunu bilərək Allahın razı qalmayacağı davranışdan, danışıqdan, baxışdan və ya düşüncədən çəkinir. Allah hər işimizdə bizə yaxın olduğunu, bizi seyr etdiyini və heç bir şeyin Ondan uzaq olmadığını bildirir:

**Sən nə iş görsən, Qurandan nə oxusan, nə iş görsəniz, onlara daldığınız zaman Biz sizə şahid olarıq. Yerdə və göydə zərrə qədər bir şey sənin Rəbbindən gizli qalmaz. Ondan daha böyük, daha kiçik elə bir şey də yoxdur ki, açıq-aydın kitabda olmasın! (Yunus surəsi, 61)**

Tək mütləq varlıq olan Allah, əlbəttə, bir xəyal kimi yaratdığı insanı hər cəhətdən tanıyır. Bu, Allah üçün çox asandır. Ancaq bəzi insanlar cahil olduqları üçün bunu başa düşməkdə çətinlik çəkirlər. Əslində isə "xarici aləm" hesab etdiyimiz hissləri seyr edərkən, yəni həyatımıza davam edərkən bizə ən yaxın olan varlığın hər hansı hiss deyil, Allahın Özü olduğu açıq-aşkar həqiqətdir. Quranda yer alan **"And olsun ki, insanı Biz yaratdıq və nəfsinin ona nə vəsvəsə etdiyini də Biz bilirik. Biz ona şah damarından da yaxınıq!" (Qaf surəsi, 16)** ayəsinin sirri də bu həqiqətin içində gizlənir. Amma insan öz bədəninin "mütləq varlıq olan maddə"dən ibarət olduğunu zənn etdikdə bu mühüm həqiqəti qavraya bilməz. Çünki özünə ən yaxın olanın yenə öz bədəni olduğunu zənn edir. Məsələn, bu insan varlığını "beyni" kimi dərk edirsə, ona şah damarından daha yaxın varlıq olacağını düşünməz. Əslində isə maddənin mütləq olmadığını, hər şeyin zehnində yaşadığı xəyallar olduğunu dərk etdikdə artıq çöl, içəri, uzaq, yaxın kimi anlayışların mənası qalmır. Şah damarı da, beyni, əli, ayağı, özündən kənarda zənn etdiyi evi, avtomobili və hətta çox uzaqda hesab etdiyi Günəş, Ay, ulduzlar da tək bir səth üzərindədir. Allah onu hər tərəfdən əhatə etmişdir və ona









**Uşağını qucağında tutan, həyat yoldaşını qucaqlayan, anası ilə söhbət edən insan bu insanların özünə ən yaxın insanlar olduğunu zənn edir. Əslində isə insana dostundan, həyat yoldaşından, uşaqlarından, hətta özündən də daha yaxın olan Allahdır. Bir Quran ayəsində bildirildiyi kimi, Allah insana "şah damarından daha yaxın"dır. (Qaf surəsi, 16)**

"sonsuz dərəcədə yaxın"dır.

Allah insanlara "sonsuz dərəcədə yaxın" olduğunu **"bəndələrim Məni səndən soruşduqda söylə ki, Mən (onlara) yaxınam..." (Bəqərə surəsi, 186)** ayəsi ilə də bildirir. Başqa bir ayədə işlədilən **"Rəbbin insanları ehtiva etmişdir"(İsra sursəi, 60)** -ifadəsi də eyni həqiqətdən xəbər verir. Buna baxmayaraq, bəzi insanlar özlərinə ən yaxın varlığın yenə özləri olduğunu hesab edərək yanılırlar. Əslində isə Allah bizə özümüzdən belə daha yaxındır. **"(Can) boğaza yetişdiyi zaman. Siz baxıb durursunuz. Biz ona sizdən daha yaxınıq, amma siz görmürsünüz!" (Vaqiə surəsi, 83-85)** ayələri ilə də insana ən yaxın varlığın Allah olduğu həqiqətinə bir daha diqqət çəkilmişdir. Həqiqətən də ölüm yatağındakı və ya xəstə yatan insan xəta ilə o an özünə ən yaxın varlığın başının üstündəki həkimi və ya onu qucaqlayan anası və ya əlini tutan, ona toxunan yaxını olduğunu düşünə bilər. Ancaq ayədə də bildirildiyi kimi, Allah o anda ona hamısından daha yaxındır. Həm də təkcə o an deyil, insan ilk dəfə var olduğu andan etibarən ona ən yaxın olan yeganə varlıq Allahdır. Lakin insanların bir qismi gözləri ilə görmədikləri üçün bu həqiqətdən xəbərsiz yaşayırlar.

Allahın məkandan asılı olmadığı və hər yeri tamamilə əhatə etdiyi həqiqəti başqa bir ayədə də belə bildirilir:

**Şərq də, Qərb də Allahındır: hansı tərəfə yönəlsəniz, Allah oradadır. Şübhəsiz ki, Allah genişdir, biləndir! (Bəqərə surəsi, 115)**

Allah başqa bir ayəsində isə bu həqiqəti belə açıqlayır:

**Göyləri və yeri altı gündə xəlq edən, sonra ərşi yaradıb hökmü altına alan Odur. O, yerə gireni də, çıxanı da, göydən enəni də, qalxanı da bilir. Siz harada olsanız, O sizinlədir. Allah sizin nə etdiklərinizi görəndir! (Hədid surəsi, 4)**

Bütün bu danışılanlardan çıxan nəticə budur: tək və gerçək mütləq varlıq Allahdır. Allah elmi ilə kölgə varlıq olan insanı və digər hər şeyi əhatə etmişdir. Bir ayədə də **"sizin tanrınız ancaq O Allahdır ki, Ondan başqa heç bir tanrı yoxdur. O, elm ilə hər şeyi ehtiva etmişdir!" (Taha surəsi, 98)** -deyilərək bu həqiqətə işarə edilir. Allah Quranda yer alan digər bir ayədə isə insanlara belə bir qəflət barədə xəbərdarlıq etmişdir:

**Bil ki, onlar öz Rəbbi ilə qarşılaşacaqları barədə şəkk-şübhə içindədirlər. Və yenə bil ki, O hər şeyi ehtiva edəndir! (Fussilət surəsi, 54)**

## İnsanların etdikləri də Allaha aiddir

Allahın yaratdığı kölgə varlıq olan insan Allahdan asılı olmadan bir gücə malik ola bilməz. Allah bir ayəsində bu həqiqəti belə bildirir:

**Allah istəməsə, siz istəyə bilməzsiniz... (İnsan surəsi, 30)**

Bəzi insanlar bu çox vacib həqiqətdən xəbərsiz yaşayırlar. Onları yaradanın Allah olduğunu qəbul edir, ancaq etdikləri işlərin özlərinə aid olduğunu zənn edirlər. Əslində isə insanın hər etdiyi hərəkət Allahın izni ilə yaradılır. Məsələn, kitab yazan insan Allahın izni ilə o kitabı yazır. O kitabdakı hər cümlə, hər fikir, hər abzas Allahın istəyi ilə meydana gəlir. Allah bu çox vacib həqiqəti bir çox ayəsində bildirir. Bu ayələrdən biri **"...sizi də, sizin düzəltdiklərinizi də Allah yaratmışdır!" ayəsidir (Saffat surəsi, 96)**. Allah **"...atdığın zaman sən atmadın, Allah atdı..." (Ənfal surəsi, 17)** ayəsində isə hər etdiyimizin Ona aid hərəkətlər olduğunu bildirir.

Allah başqa ayələrdə də Peyğəmbərə möminlərdən sədəqə almasını bildirir.

Ancaq ayənin davamında sədəqələri alanın əslində Özü olduğunu açıqlayır:

**Onların mallarından sədəqə al. Bununla onları təmizləmiş, pak etmiş olarsan. Onlardan ötrü dua et, çünki sənin duan onlar üçün bir arxayınçılıqdır. Allah eşidəndir, biləndir. Məgər onlar bilmirlər ki, Allah qullarından tövbə qəbul edər, sədəqə alar və Allah tövbələri qəbul edəndir, rəhmlidir?! (Tövbə surəsi, 103-104)**











**İnsanların etdikləri bütün hərəkətlər Allaha aiddir. Məsələn, uşağın oxuya bilməsi, memarın hazırladığı layihə, elm adamının kəşfi, mətbəxdə bişən yemək, sənətkarın əsəri... Bütün bunları yaradan və etdirən Allahdır.**

Böyük İslam alimi Muhyiddin Ərəbi etdiyimiz hərəkətlərin də Allaha aid olduğunu belə açıqlayır:

*Ruhlara gəlincə, onların etdiyi hərəkətlərin mənbəyi də özləri deyil. Ruh və cisimləri davamlı halda hərəkətə sövq edən qüvvə ancaq Cənabı-Haqdır... Ruh və maddələr mütəmayiz (ayrıca var olan) varlıqlardan və mütəayyin (bəlli, aşkar) həqiqətlərdən deyillər. İlahi hərəkətlərdən, uca varlığın müxtəlif surətlərindəndirlər. Bunun kimi, sonlu və sonsuz deyilən şeylər də əslində başqa-başqa şeylər deyil, iki ayrı cəhətdən elə görünən tək bir şeydən ibarətdirlər.*[35]

Muhyiddin Ərəbinin sözündə də açıqladığı kimi, bütün hərəkətləri yaradan, ruhlara bu hərəkətləri edənin özləri olduğu hissini verən Allahdır. Allah bütün ruhlarda bu hissi o qədər həqiqi yaradır ki, məsələn, daşı atan insan, həqiqətən, o daşı atanın özü olduğunu zənn edir. Əslində kölgə varlıq olan insan atma hərəkətini edə bilməz. Ancaq Allah insana bu hərəkətləri özü edirmiş kimi hiss etdirir. Allahın yaratmasındakı möcüzənin və qüsursuzluğun nəticəsi olaraq insan bu hissi çox hiss edir və həqiqətən, daşı tutduğunu, qolunu geriyə uzadaraq sürət və güc topladığını və daşı atdığını zənn edir.

İnsan hər anında Allahdan asılı halda yaşayır, bilsə də, bilməsə də, qəbul etsə də, etməsə də, əslində Allaha boyun əymişdir. Allah bir ayəsində bunu belə bildirir:

**Göylərdə və yerdə kim varsa, kölgələri də səhər-axşam istər-istəməz Allaha səcdə edər! (Rəd surəsi, 15)**

Yer üzündə tanıdığınız, bildiyiniz, tarixdə yaşamış, dövrümüzdə yaşayan kim varsa, hansı mövqedə olursa olsun, nəyə sahib olursa olsun və ya nə qədər inadkar inkarçı olursa olsun bu həqiqət dəyişməz. Hər insan Allaha boyun əyən, Allahın yaratdığı, ruhundan üfürdüyü kölgə varlıqdır. Bunu bilən insanın var-dövləti, sahib olduğu elm, ünvan və ya şöhrət, mövqe və ya vəzifə ilə, bacarıqları və ya iş yerindəki uğurları ilə öyünərək qürrələnməsi mümkünsüz olur. Buna baxmayaraq, təkəbbür göstərənlər əslində böyük acizlik içindədirlər. Çünki Allah insanların özləri atdıqlarını hesab etdikləri daşı belə əslində atmadıqlarını, bunu edənin Özü olduğunu bildirmişdirsə, hələ də insanın uğurlarına görə özünə pay çıxarması çox böyük cəhalətdir.

Allah hər insanı bu yolla imtahan edir və eyni zamanda tərbiyələndirir. Bu gün bu həqiqəti dərk edə bilməyən, çox açıq olmasına baxmayaraq, həqiqəti qəbul etməyənlər ölümdən sonra yenidən dirildildikdə hər şeyi bütün açıqlığı ilə görəcək və heç bir şeyə gücləri çatmadığını anlayacaqlar. Allah Onu inkar edənlərin acizliyini bir ayəsində belə bildirmişdir:



**Hər insanın etdiyi bütün işlər, qazandığı bütün uğurlar, malik olduğu bacarıqların hamısı Allaha aiddir. Bu şəxs böyük dövlətin rəhbəri, dünyanın ən varlı insanı, hər kəsin sevdiyi sənətkar və ya mühüm kəşflər edən elm adamı olsa da, bu həqiqət dəyişmir. Hər insan Allaha boyun əymiş olaraq Onun istədiyi şeyləri edir.**

**Rəbbini inkar edənlərin əməlləri fırtınalı bir gündə küləyin sovurub apardığı külə bənzəyir. Onlar etdikləri əməllərdən heç bir fayda əldə edə bilməzlər. Budur azıb uzaqlaşmaq! (İbrahim surəsi, 18)**

Allah isə hər şeyə gücü çatan tək varlıqdır:

**Göylərdə və yerdə nə varsa, Allahı təqdis edib şəninə təriflər deyər. Hökm Onundur, həmd-səna da Ona məxsusdur. O, hər şeyə qadirdir! (Təğabün surəsi, 1)**

## Maddənin həqiqətinin dərk edilməsi insanları iman gətirməyə yönləndirəcəkdir

Həyatı boyu ruhuna göstərilən görüntüləri seyr etdiyinin fərqinə varan insanlar həm ruhlarını, həm də fasiləsiz davam edən bu görüntüləri yaradanın qəti surətdə Allah olduğuna inanacaqlar.

Bəzi insanların maddənin sirrini qəbul etməməkdə israr etməsinin bir səbəbi də Allahın böyüklüyünü və əzəmətini qavrayıb öz heçliklərini qəbul etmək istəməmələridir. Amma bu insanlar qəbul etmək istəməsələr də, ortada mübahisəsiz bir həqiqət var: göylərdə və yerdə olanların hamısı Allahındır və Onun təzahürləridir. Tək mütləq varlıq Allahdır və Allahın yaratdığı digər varlıqlar mütləq deyil, görüntüdür. Allahın yaratdığı görüntüləri seyr edən "mən"lər, yəni insanlar hər biri Allahdan olan ruhdur.

Bu elm və bu böyük sirr başa düşüldüyü təqdirdə insanların şüurları da qəti surətdə aydınlanacaq, üzərlərindəki mənəvi pərdə ortadan qalxacaqdır. Dərk edən hər kəs Allaha könüldən təslim olacaq, Allahı çox sevəcək və Ondan çox qorxacaqdır. Bununla bərabər, insanlardakı paxıllıq, lovğalıq hisslərinin yerini təvazökarlıq və utancaqlıq alacaqdır. Allahın insanlardan istədiyi də budur. Bu təəccüblə həqiqəti anlayanlar yeni dünyagörüşü qazanacaq, yeni həyata başlayacaqlar. Beləliklə, Allahın qüdrətini lazım olduğu kimi təqdir edəcəklər və **"Allahı lazımınca qiymətləndirmədilər. Halbuki qiyamət günü yer bütünlüklə Onun ovcunun içində olacaq, göylər isə Onun sağ əli ilə büküləcəkdir. (Allah Ona) aid etdikləri sifətlərdən tamamilə uzaq və ucadır!" (Zumər surəsi, 67)** ayəsində bəhs edilən şəxslərdən olmaqdan uzaqlaşacaqlar.

## Maddənin həqiqətini bilmək dünya həvəsini yox edir

Bu bölməyə qədər izah etdiyimiz mövzu həyatınız boyu sizə izah edilmiş ən böyük həqiqətlərdən biridir. Çünki bütün maddi dünyanın əslində "kölgə varlıq" olduğunu sübut edən bu mövzu Allahın varlığının və yaratmasının dərk edilməsinin, Onun yeganə mütləq varlıq olmasının başa düşülməsinin açarıdır. Eyni zamanda həm insanın nə qədər aciz olduğunun elmi və inkaredilməz sübutu, həm də Allahın möhtəşəm sənətinin təzahürüdür. Buna görə də bu elm insanları qəti şəkildə imana gətirir, iman gətirməmək isə mümkün deyil. Bəzi insanların bu həqiqətdən qaçmasının əsas səbəbi də budur.

Burada izah edilənlər eynilə fizika qanunu və ya kimya formulu qədər qəti həqiqətlərdir. İnsanlar lazım gəldikdə ən çətin riyaziyyat problemlərini həll edə bilir, başa düşülməsi çətin görünən bir çox məsələni qavraya bilirlər. Amma eyni şəxslərə insanların həyatları boyu zehinlərində əmələ gələn görüntülərlə təmasda olduqları, maddənin əsli ilə heç vaxt təmasda ola bilməyəcəkləri izah edildikdə bunu heç cür anlamaq istəmirlər. Bu son dərəcə "şişirdilmiş" anlayışsızlıq tərzidir. Çünki burada izah edilən mövzunun başa düşülməsi eynilə bir insanın "iki vur iki neçə edər?", "neçə yaşın var?" kimi suallara verəcəyi cavablar qədər asandır. Dünyanı harada gördüyünü hansı elm adamından, hansı nevrologiya professorundan soruşsanız, sizə: "Əlbəttə, beynimdə", -deyə cavab verəcəkdir. Hətta bu həqiqəti orta məktəb biologiya kitablarında belə görə bilərsiniz.

Ancaq bütün bunlara baxmayaraq, maddi dünyanı beynimizdə qavradığımıza dair bilik və bu biliyin insanı gətirdiyi nəticələr görməməzliyə vurulur. Elmin sübut etdiyi ən mühüm həqiqətlərdən birinin insanlardan bu qədər böyük səylə gizlədilməsi əslində böyük hadisədir. İnsanların bütün elmi həqiqətləri asanlıqla qəbul edib bu həqiqətdən bu qədər çox qorxub qaçmalarının əsas səbəbi isə budur ki, maddənin həqiqətinin öyrənilməsi bütün insanların həyata baxışlarının kökündən dəyişilməsinə səbəb olacaqdır. Maddəni və özlərini mütləq varlıq kimi qəbul edənlər və bütün həyatlarını buna bağlı quranlar bir anda özlərinin, həyat yoldaşlarının, uşaqlarının, malik olduqları bütün sərvətin sadəcə zehinlərindəki əksi ilə təmasda olduqlarını anlayacaqlar. Elə insanların bu həqiqətdən bu qədər qorxmalarının, anladıqları halda özlərini bilməməzliyə vurmalarının, ibtidai sinif şagirdinin belə asanlıqla qavraya biləcəyi həqiqəti son dərəcə anlaşılmaz etirazlarla yox etməyə çalışmalarının arxasında gizlənən səbəb bu dünya həvəslərini itirmək qorxusudur.

Mallara, övladlara, dünyanın keçici həvəslərinə çox bağlı olan biri üçün bu, həqiqətən də böyük qorxu səbəbidir. Çünki bu həqiqəti anladıqda hələ ölmədən ölmüş, malını və canını təslim etmiş olacaq. Allah **"əgər Allah sizdən Onun (mal-dövlətinizin) hamısını istəsə və bunu sizdən israrla tələb etsə, siz xəsislik göstərərsiniz və O da kin-küdurətinizi zahirə çıxardar"** (Muhəmməd surəsi, 37) ayəsi ilə insanlardan bütün mallarını istədikdə onların necə inadkarlıq göstərəcəklərini və paxıllıq edəcəklərini bildirir. Bir insan maddənin gerçəyini öyrəndikdə isə onsuz da malının, canının Allaha aid olduğunu, verəcək və ya verməməkdə israr edəcək bir şey olmadığını anlayacaq, ölməzdən əvvəl hər şeyi ilə Allaha təslim olacaqdır. Səmimi iman edənlər üçün bu bir gözəllik, şərəf və Allaha yaxın olmaq üçün vasitədir. İmansız və ya zəif imanlı insanlar isə bu gözəlliyi anlamadıqları üçün bu həqiqəti israrla inkar edərlər.

## Beyində bir görüntü olan fabrik, yaxta və torpaq sahələrinin özlərini boş yerə üzən sahibləri

Bu bölmədə həyatı boyu varlı olmaq istəmiş, gənc yaşından etibarən gecə-gündüz çalışmış, "hər şeyi alnımın təri ilə qazandım" -deyən fabrik sahibinin içinə düşdüyü qafil vəziyyətdən nümunələr verərək çox vacib həqiqətdən bəhs edəcəyik.

Burada haqqında danışacağımız şəxs orta yaşlı, uşaqlarını yaxşı məktəblərdə oxutduran, bir neçə avtomobil, yaxta, bir çox ev və torpaq sahəsinin sahibidir. Bu insan dünya həyatında öz fikrincə, öyünə biləcəyi hər şeyə malikdir. Yenə öz fikrinə görə, dünya həyatında bir insanın arzuladığı hər şeyi əldə etmişdir. Maddi zənginliyi ilə birlikdə həm də böyük etibara malikdir. Səhərlər ona xidmət edən xidmətçilərindən tutmuş avtomobilinin qapısını açaraq qarşısında baş əyən



**İnsan malik olduğunu hesab etdiyi hər şeyin-evinin, avtomobilinin, ailəsinin, işinin və bütün dostlarının beyninin içində meydana gələn hiss və görüntülərilə təmasda olur və insan heç vaxt bunların xarici aləmdə olan əsl hallarını bilməz. Bu həqiqəti qavrayan insan hər şeyin tək sahibinin bu görüntüləri beynində yaradan Allah olduğunu anlayar. Dünya həyatına həvəslə bağlı olan insanlar bu səbəbdən bu həqiqətdən çox qorxurlar.**

sürücüsünə, şirkət binasına girərkən onu hörmətlə salamlayan təhlükəsizlik xidməti işçilərindən şirkətdən içəri girdiyi andan otağına qədər gedənə qədər "əmrinə hazır" şirkət işçilərinə qədər onu tanıyan hər kəsin gözündə böyük etibar, mövqe və məqam sahibidir. Çox yüksək vəzifələrdə və mühüm yerlərdə çox yaxın dostları və ətrafı var. Hər gün iclasdan-iclasa qaçır, bir çox dərnəyin və qurumun üzvü və hətta rəhbəridir. Bir gün ərzində yüzlərlə şəxsə əmr verir. Bankında və şəxsi hesabında saysız-hesabsız pulu, səhmləri, istiqrazları var. Bəzən bunları sayaraq daha da çox qürurlanır, öyünür. Xüsusilə hər şeyi tək başına, çalışaraq əldə etməsi, bütün həyatını həsr etdiyi qazancları əldə etməsi ona böyük bir rahatlıq və güvənlik hissi verir.

# MAL HƏVƏSİNƏ DÜŞƏN İNSANLARIN ƏN BÖYÜK QORXUSU



Ətrafınızdakı mal həvəsinə düşmüş insanların ən çox nələrə dəyər verdiklərini düşünün: yaxşı ev, lüks əşyalar, parıltılı zinət əşyaları, son marka avtomobil, banklarda böyük miqdarda pul, yaxta... Elə bu səbəbdən də bu insanlar malik olduqları bütün bu maddələri beyinlərindəki bir ekranda seyr etdikləri və əslləri ilə əsla təmasda ola bilmədikləri həqiqətindən çox qorxurlar.
Əslində isə qəbul etmək istəməsələr də, beyinlərində əmələ gələn xəyali dünyada yaşayırlar. Xarici aləm ilə təmasda olmaları mümkün deyil. Çünki səsi, işığı və qoxunu heç cür keçirməyən kəllənin içinə girən sadəcə bu maddələrdən gələn elektrik məlumatlardır. Şəkildəki kimi pul verib arxada görünən möhtəşəm villanı satın alan insanın içində olduğu vəziyyət də belədir. Özünü villa satın alan və pul sayan zənn edir, əslində beynində əmələ gələn görüntünü satın alır, qarşısındakı şəxsə də pulun özünü deyil, görüntüsünü verir. Pulu alan şəxs də əslində görüntü alır. Yəni ortada "görüntü alveri" var.



Bir gün dostları ilə yaxta gəzintisində bir şəxs onun yanına gəlir və ona bunları deyir: “Hal-hazırda burada gördüyün bütün insanlar, bu yaxta, dəniz, fabriklərin, evlərin, əmrin altındakı insanlar... bunların hamısının sadəcə beynində əmələ gələn görüntüləri ilə təmasda olursan. Bunların əsillərini heç vaxt görə bilməzsən. Beyninə gedən sinirlər kəsilsə, bu yaxta, yaxtadakı insanlar, onların səsləri, söhbətləri, dənizin qoxusu, içdiyin meyvə şirəsinin dadı, qısaca desək, hər şey bir anda yox olar. Bunların hamısı və sənin dünya həyatın boyu sahib olduğun hər şey zehnində meydana gəlir. Evlərinin, avtomobillərinin, yaxtanın, fabrikin, şirkətinin yuxunda sahib olduğun mallardan heç bir fərqi yoxdur. Eynilə gecə yuxunda xüsusi təyyarəndə Avropaya getdiyini görməyin ancaq səhər oyandıqda nə təyyarənin, nə də Avropada olduğunu, özünü yatağında görməyin kimidir. Bəs bu həyatım dediyin yuxundan da bir gün oyanaraq özünü tamamilə başqa bir yerdə, bu həyatına dair görüntüləri seyr edərkən görməyəcəyindən nə üçün bu qədər əminsən?”

Bu varlı insan ona danışılanlara qətiyyətlə qarşı çıxacaqdır. Ona bu həqiqətin elmi dəlilləri aydın şəkildə izah edilsə və özü bunu anlasa da, həqiqəti qəbul etmək istəməyəcəkdir. Çünki öz fikrinə görə, sahib olduğu hər şeyin yuxu kimi xəyal olduğunu qəbul etməsi bütün həyatı boyu bir xəyalın arxasınca getdiyini qəbul etmək olacaqdır. Onda bu insanın öyündüyü, lovğalandığı, təkəbbürləndiyi hər şey xəyaldır. Bu, bir insanın yuxusunda varlı olub, bu xəyali zənginliyi ilə insanlara lovğalanması kimi insanı alçaldılmış və ağılsız vəziyyətə salacaq haldır. Belə olduqda bu insan artıq şirkətinə girdikdə gördüyü hörmət və etibara görə təkəbbürlənməz. Çünki ona hörmət edənlərin, qarşısında baş əyənlərin hamısı zehnində meydana gələn xəyali varlıqlardır. Ona bunu izah edərkən oturduğu yaxtası ilə qonaqlarına qarşı öz sözü ilə desək, lovğalanmayacaqdır. Çünki yaxta da, yaxtadakı qonaqları da beynində əmələ gələn xəyallardır.

Ona maddənin xəyal olduğu, maddi varlığın əsli ilə heç vaxt təmasda ola bilməyəcəyi izah edilərkən ağlına bir gün əvvəl aldığı malikanəsi gələcək. Elə isə satıcıya bir-bir sayaraq verdiyi pul, satıcı, aldığı malikanə, o malikanədəki bütün malları, onu satın alaraq lovğalandığı ətrafı-hamısı zehnindədir. Necə ki, bir gecə əvvəl yuxuda hərracda qazandığı və buna görə böyük qazanc əldə etdiyini gördüsə və oyandıqda bunlardan əlində heç bir şey qalmadısa, bu həqiqi zənn etdikləri də bir yuxu kimidir.

Elə isə hal-hazırda o yaxtanın içində deyil. Yaxta onun içində, beynində əmələ gələn görüntüdür. Son dəbdəki mebellərlə döşənmiş evinə girdiyini hesab etdikdə əslində beyninin içindəki böyük bağın qapısını açır və beyninin içindəki evinə girir. Ev də, mebellər də, bağ da, bağın qapısı da zehnindədir.

Ona izah edilənlərin son dərəcə açıq həqiqətlər olduğunu anlayan bu



**Böyük şirkətin sahibi-evləri, son markalı avtomobilləri, qarşısında əyilən, ona hörmət edən işçiləri olan insan əslində sahib olduğu hər şeyi beyninin içində bir görüntü kimi görür. Sahib olduğu etibarı da beynində meydana gəlir. Çox ciddi və vacib olduğunu düşündüyü, zamanının böyük hissəsini ayırdığı işi, iş yoldaşları ilə keçirdiyi iclaslar, aldığı qərarlar da beynində meydana gələn görüntülərdir.**



**Eyni insan pulunu böyük həvəslə saydıqda əslində beynindəki pulları sayır. Qürurla və özünü göstərərək yaxta ilə gəzərkən özünü göstərdiyi insanların, yaxtasının və gördüyü mənzərənin beynində əmələ gələn görüntülər olduğunu anlaya bilməz. Ona bu həqiqət izah edildikdə isə sahib olduğu bütün var-dövlətini və etibarını itirməmək üçün bu həqiqətə möhkəm etiraz edər. Əslində isə eyni şəxs yuxusunda da bunların həqiqi olduğundan əsla şübhələnməz. Yuxusunda da ona bunların həqiqi sahibi olmadığı deyilsə, buna etiraz edər. Ancaq oyandıqda hamısının xəyal olduğunu anlayar.**

insan bir andaca əlindəki hər şeyin əslində bir kölgə varlıq olduğunun fərqinə varır. Bütün bunlar onu yaradan Allahın ona göstərdiyi görüntülərdir. Allah onu sınamaq üçün ona bütün bunlara sahib olduğunu zənn edəcəyi bir görüntü, bir həyat yaratmışdır. O da ona bunları verənin, bu görüntülərlə nemətləndirib zəngin edənin Allah olduğunu unudaraq bunlarla azğınlaşmış, təkəbbür göstərmiş, insanlara "lovğalanaraq" onları aşağı, özünü isə üstün görmüşdür. Deməli, həyatı boyu bir xəyal üçün, yuxu kimi bir aləm üçün boş yerə həvəslənmişdir. Amma bir gün bu xəyalların içinə düşdüyü, onlarla vaxtını keçirdiyi gündə bunların heç birinin mütləq varlığı olmadığını, sadəcə Allahın var olduğunu anlamışdır.

Dünya həyatı boyu bu həqiqəti qəbul etməkdən qaçanlara, görməməzliyə vuranlara Allah bir ayəsində belə diqqət çəkir:

**O, öz yanında ancaq Allahın cəzasını tapar. (Allah da) onun cəzasını (layiqincə) verər. Allah tezliklə haqq-hesab çəkəndir.** (Nur surəsi, 39)

Ayədən göründüyü kimi, Allah inkar edənlərin etdikləri işləri illüziyaya, xəyala bənzədir. O insanlar bu xəyallara bağlanaraq onlardan kömək gözlədikdə bunların gerçək olmadığını, tək gerçək və mütləq olanın Allah olduğunu anlayırlar. İnsanların bu həqiqətdən bu qədər qorxmalarının və qəbul etmək istəməmələrinin səbəblərindən biri budur ki,  elə bu misalda bəhs edilən insan kimi əllərindəki bütün sərvətlərinin, etibarlarının, var-dövlətlərinin bir andaca gedəcəyini anlayırlar. Burada bir cəhətə diqqətinizi çəkmək istəyirik: burada bəhs edilənlərdə "insanın malik olduğu hər şey ölümü ilə birlikdə arxada qalacaq və ona heç bir mənfəət verməyəcək" -deyilir. Burada "insanın malik olduğu hər şey xəyaldır" -deyilir. Bütün həyatı boyu göstərdiyi həvəsin, özünü üzərək, çətinliklə, insanların xətrinə dəyib onları əzməyə çalışaraq əldə etdiklərinin xəyal olduğunu gördükdə boş yerə aldandığını anlayır. Qafil insanların bu cür aldanaraq yaşamaları Quranda bir çox ayədə insanlara bildirilir. Allah bir ayəsində insanların var-dövlət həvəsini və hər şeyə malik olmaq istəklərini belə bildirir:

**Qadınlar, uşaqlar, qızıl-gümüş yığınları, yaxşı cins atlar, mal-qara və əkin yerləri kimi nəfsin istədiyi və arzuladığı şeylər insanlara gözəl göstərilmişdir. Bunlar dünya həyatının keçici zövqüdür, gözəl dönüş yeri isə Allah yanındadır.** (Ali-İmran surəsi, 14)

Başqa bir ayədə isə Allah dünya həyatının oyun-əyləncə və aldanma olduğunu belə xəbər verir:

# *XƏYALLARLA BAŞQALARINA LOVĞALANDIĞINI ANLAMAYAN İNSANIN VƏZİYYƏTİ*



**Bahalı avtomobili ilə ətrafındakı insanlara lovğalanan varlı insan əslində beynində əmələ gələn avtomobil görüntüsü ilə lovğalanır. O anda varlı adam çox lovğalandığı avtomobilinin əsli ilə təmasda ola bilmədiyini heç ağlına da gətirməz. Əslində isə öz beynində əmələ gələn avtomobil görüntüsü o anda lovğalandığı ətrafındakı digər insanların beyinlərində də ayrı-ayrı əmələ gəlir. Elə isə əgər orada beş nəfər varsa və hər birinin beynində də avtomobilin görüntüsü ayrı-ayrı əmələ gəlirsə:**
**- Əsl avtomobil haradadır?**
**-Varlı adamın avtomobili bu beş avtomobil görüntüsündən hansıdır?**
**-Varlı adam hansı avtomobil görüntüsünə sahib çıxacaq və hansı ilə ətrafındakılara lovğalanacaq?**
**- Lovğalandığı digər şəxslər də əslində varlı adamın beynində əmələ gələn xəyal deyil?**
**Malik olduqları mal və mülkləri ilə, evlərilə, avtomobilləri ilə digər insanlara lovğalananlar əslində "beyinlərində əmələ gələn xəyallarla beyinlərində əmələ gələn xəyallara" lovğalanırlar. Bəzi insanlar bu çox mühüm həqiqəti heç anlamırlar. Əlbəttə, bu son dərəcə alçaldıcı vəziyyətdir. Çünki sahib olduqları ilə öyünən şəxs nə lovğalanacaq avtomobilin, nə də insanların əslləri ilə heç vaxt təmasda ola bilməz.**

**Bilin ki, dünya həyatı oyun-oyuncaq, bər-bəzək, bir-birinizin qarşısında öyünmək və mal-dövləti, oğul-uşağı çoxaltmaqdan ibarətdir. Bu, elə bir yağışa bənzəyir ki, onun yetişdirdiyi bitki əkinçilərin xoşuna gələr. Sonra o quruyar və sən onun saralıb-solduğunu, daha sonra çör-çöpə döndüyünü görərsən. (Kimisini) axirətdə şiddətli əzab, (kimisini də) Allahdan bağışlanma və razılıq gözləyir. Dünya həyatı aldanışdan başqa bir şey deyildir.** (Hədid surəsi, 20)

İnsanlar dünya həyatında malik olduqlarını hesab etdikləri bu görüntülərin əslində xəyal olduğunu anladıqda boş yerə kədərlənib həvəsləndiklərini, boş yerə vaxt keçirib əyləndiklərini anlayırlar. Malik olduqları üçün hirslənənlər, onlar üçün insanlara acıqlanıb qışqıranlar, əsəbiləşənlər, stola yumruq vuranlar maddənin əsli ilə heç cür təmasda ola bilmədiklərini anladıqda yuxuda insanlara hücum edən, əsəbiləşən, qışqıran insan vəziyyətinə düşəcəkləri üçün bundan çox utanır və həddindən artıq peşman olurlar. Əslində onlara bu görüntüləri göstərən Allahın razı olacağı şəkildə davranmaq lazım gəldiyini dərhal anlayırlar. Bu həqiqəti qavrayanlar, yəni möminlər isə belə deyirlər:

**De: "Mənim namazım da, ibadətim də, həyatım və ölümüm də aləmlərin Rəbbi Allah üçündür!** (Ənam surəsi, 162)

Bu vacib cəhəti unutmaq olmaz: bu həqiqəti həyatının hər hansı bir anında qavrayan insan heç vaxt gecikmiş hesab edilməz. Çünki dərhal həyata baxışını və bütün həyatını bu həqiqətə görə nizama salaraq artıq xəyallar üçün deyil, tək mütləq varlıq olan Rəbbimiz üçün yaşamağa başlaya bilər. Allah hər zaman qullarını bağışlayandır.

Bu həqiqəti görməməzliyə vuraraq, öz fikirlərinə görə hiyləgərlik edib tək mütləq varlığın Allah olduğunu qəbul etməyənlər isə öz-özlərini böyük tələyə salmış olurlar. Allah onların bu vəziyyətini belə xəbər verir:

**Onların dünyada gördükləri işlər puç olmuş və bütün əməlləri boşa çıxmışdır!** (Hud surəsi, 16)

İnsan bu həqiqəti bu an qəbul etmək istəməsə və bütün malik olduqlarını mütləq varlıqlar qəbul edərək özünü aldatsa da, nəticədə ölümündən sonra dirildildikdə, yəni axirətdə hər şey çox aşkar surətdə üzə çıxacaqdır. O gün, ayədə də bildirildiyi kimi, "**görmə sərrastdır"** (Qaf surəsi, 22) və hər şeyi daha açıq şəkildə anlayacaqdır. Amma əgər dünyadakı həyatını xəyali məqsədlərin

arxasınca qaçaraq sərf etmişsə, arzu edəcək ki, kaş ki, orada heç yaşamayaydı. **"Kaş o (ölüm) qəti olaydı! Mal-dövlətim mənə heç bir fayda vermədi. Mülküm də məhv olub getdi!"** (Haqqa surəsi, 27-29) -deyərək həlak olacaqdır.

## Maddənin həqiqətini dərk edənlərin itən təkəbbürü

Bu açıq həqiqəti anlayan bəzi insanların -öz ifadələri ilə desək- "kefi pozulur". Fabriklərinin, evlərinin, avtomobillərinin, mallarının, övladlarının, həyat yoldaşlarının, yaxınlarının, vəzifələrinin sadəcə beyinlərindəki surətləri ilə təmasda olduqlarını anladıqda Allah qarşısındakı acizlikləri və gücsüzlükləri də açıq şəkildə sübut edilmiş olur. Həm özləri, həm malik olduqları şeylər, hətta bütün kainat xəyaldır, özləri də bir "heç" olduqlarını anlayırlar. Yerdə qalan isə sadəcə "mən" dedikləri ruhlarıdır. Bu ruhu da onlara verən Allah olduğu üçün bu şəxs əvvəlcədən imansız da olsa, qəti şəkildə Allaha iman edir və Ona təslim olur.





**Sahib olduğu ad-sanı ilə lovğalanan, insanların ona göstərdiyi maraqdan azğınlaşan insan arxasından qaçanların, onunla maraqlananların əslində beynində əmələ gələn görüntülər olduğunu öyrəndikdə bütün kefi pozular. Təkəbbürünün heç bir mənasının olmadığını görər.**

İnsan bu həqiqətləri qavradıqda qürur, lovğalıq, təkəbbür hisslərinin yerini təvazökarlıq və acizliyini çox yaxşı anlama hissi alır. Belə bir insana dünyanın bütün zənginliyi, ən mühüm vəzifəsi də verilsə, bu insan azğınlaşmayacaq, lovğalanıb zalım olmayacaq. Heç bir vaxt Allahın ona göstərdiyi görüntüləri seyr etdiyini unutmayacaq və xəyalların içinə dalmayacaq.. Bu fövqəladə həqiqət həvəs, lovğalıq, əzəmətlə bərabər kin, nifrət, əsəb kimi mənfi hissləri də aradan qaldıracaqdır. Hər şeyin xəyal olduğunu bilən insanlar xəyallar üçün bir-birləri ilə rəqabətə girməyəcək, bir-birlərinə bu səbəbdən kin bəsləməyəcək və düşmənlik etməyəcəklər. Hər kəsin özünü sadəcə Allaha təslim etdiyi mühitdə təvazökarlıq, təslimiyyət, şəfqət, hörmət, sevgi və səmimiyyət əmələ gələcəkdir.

Bu səbəbdən, insanların bu həqiqəti anlamaq istəməməyi, bu həqiqətdən qorxub qaçması çox məntiqsizdir. İmansız insanı bu həqiqətlər qorxuda bilər. Çünki bu həqiqətləri qəbul etdikdə Allahın varlığını da qəbul edəcəkdir. Ancaq imanlı insanların maddənin zehində Allahın yaşatdığı xəyali görüntü olduğu, tək mütləq varlığın isə Allah olduğu həqiqətinə böyük sevinc və əminliklə inanmalıdırlar. İmanlı insanın Allahın bu möhtəşəm sənətindən qorxaraq bunu anlamaq istəməməsi ağılsız davranış olar. Çünki həqiqət açıq-aşkar ortada ikən ağıla gətirməyərək, düşünməyərək, kölgə görüntünün aydınlığına və üç ölçülü formasına aldanmağa davam etmək mənasızdır. Mömin həqiqətlərdən qorxmaz, həqiqətin gözəlliyini və dərinliyini, Allahın qüsursuz sənətinin bu sistem içərisində necə daha da möcüzəvi hala gəldiyini düşünər.

### Bu həqiqət dünyaya həvəslə bağlananları qorxudur

Gördüyü işə görə mükafat alan insan beynindəki mükafatı alır. Mükafatını alarkən onu alqışlayaraq təbrik edən insanlar əslində beynində əmələ gələn insan görüntüləridir.

İnsan beynindəki kiçik ekranda əmələ gələn bu mükafatlandırma mərasimini seyr edərkən salondakı insanların, mükafatın və salonun əsli ilə beynindən kənarda təmasda ola bilməz. Çünki beynindən kənara çıxa bilməz. Bu, həmin insanın ona verilən mükafatı videokassetdən seyr etməsinə bənzəyir.

Elə insanların bu həqiqətdən böyük dəhşətlə qaçmalarının səbəbi budur. Dünya həyatına həvəslə bağlananlar mövqe və vəzifələrinin, qazandıqları mükafatların, bank hesablarının, yaxtalarının, istiqrazlarının, onları tərifləyən, bəyənən insanların hər birinin beyinlərindəki bir görüntü olduğunu anladıqda dəhşətli qorxuya düşürlər. Bu şəkildə əldə etdikləri etibar, şöhrət və malların həvəslə bağlanmağa dəyməyəcəyini anlayır, paxıllıq edərək bu həqiqətdən qaçırlar. Ancaq həqiqətdən nə qədər qaçsalar da, yenə də bütün həyatlarını başlarının içində keçirdikləri həqiqətini dəyişdirə bilməzlər.

## Sıxıntı və çətinliklər də yuxuda görülən xəyallar kimidir

Bəzi insanlar sadəcə müəyyən şeylərin beyinlərində meydana gələn görüntülər olduğunu düşünərək bəzi hadisələrdə bu həqiqəti unudurlar. Əslində isə baş verən hadisənin nə olduğundan asılı olmayaraq, insan həyatının hər anında beynindəki xəyali görüntüləri yaşayır. Məsələn, iflasa uğrayan iş adamı əslində beynindəki iş yeri görüntüsündə, beynində əmələ gələn insan görüntüləri ilə təmasda olur. Ticarətini etdiyi əşyanın, bu əşyanın əvəzində aldığı pulun hamısı zehnində meydana gələn hisslərdir. Bu insan bütün pulunu itirdikdə əslində pulun görüntüsünü itirir. İş yeri və bütün əşyaları müsadirə



**Uğuruna görə mükafat alan insan beyninin içindəki mükafatı alır və beyninin içində əmələ gələn insan görüntüləri tərəfindən alqışlanır.**



edilən insan beynində əmələ gələn əşya və iş yeri görüntülərini itirmişdir. Avtomobili oğurlanan insan da yenə zehnində seyr etdiyi avtomobil xəyalını itirmişdir. Həyatı boyu bir an belə təmasda olmadığı, amma buna baxmayaraq, sahib olduğu görüntünü artıq görə bilmir.

Sadəcə bunlar da deyil, həyatı boyu yaşadığı bütün çətinliklər insanın beynində əmələ gəlir. Məsələn, daxili çaxnaşmanın hakim olduğu ölkədə hər an ölüm təhlükəsi altında yaşayan, düşmən əsgərlərinin hücumları ilə hər an qarşı-qarşıya gələn insan əslində beynində əmələ gələn düşmən əsgərlərinin görüntüsü ilə qarşı-qarşıyadır. Hücum zamanı yara alan, qolunu itirən insan da beynindəki qol görüntüsünü itirir, bütün ağrı hissi beynində hiss kimi əmələ gəlir. Düşmənlərinin hədə-qorxuları, kinli və təcavüzkar sözləri də beynində əmələ gələn səslərdən ibarətdir.

Beləliklə, çətinliklər, sıxıntılar, qorxu meydana gətirən hadisələr də insanın beynində meydana gələn xəyallardır. Gördüyü görüntülərin həqiqi tərəfini bilən insan içinə düşdüyü çətinliyə görə sıxıntı keçirməz, bunlara görə şikayətlənməz. Ən təcavüzkar və təhlükəli düşmənin qarşısında belə beynindəki xəyallarla qarşı-qarşıya olduğunu bilərək qorxu və ümidsizliyə qapılmaz. Hər birinin Allahın yaratdığı görüntülər olduğunu və Allahın bunları hikmətlə



**Bir insan nə qədər çətinliklə qarşılaşsa da, hər hadisə beynində meydana gəlir. Bir insan keçmişini, məsələn, əksəriyyət kasıblığını necə düşünüb zehnində canlandırırsa, yaşadığı an da beyninin içində meydana gəlir.**






**İnsanların həyatları boyu yaşadıqları bütün çətinlik və sıxıntıya səbəb olan hadisələr də əslində beyinlərinin içində meydana gəlir. Bu həqiqəti bilən insan qarşılaşdığı hər hadisəyə səbir edər. Allahın hər şeyi xeyirlə yaratdığını bilər və təvəkküllü davranar.**

yaratdığını bilər. Nə ilə qarşılaşsa da, Rəbbimizə olan təslimiyyət və etibarın verdiyi rahatlıq içində olar. Belə ki, Allah bir çox ayəsində inananlar üçün qorxu və kədər olmayacağını bildirmişdir:

> **Şübhəsiz: "Rəbbimiz Allahdır!" - deyənlərin, sonra da möhkəm duranların heç bir qorxusu yoxdur və onlar qəm-qüssə də görməyəcəklər! (Əhqaf surəsi, 13)**

Həyatı boyu gördüyü bütün hadisələrin, eşitdiyi bütün səslərin Allahın beynində yaratdığı görüntülərilə təmasda olduğunu bilən insan qorxmaq, boş yerə sıxılıb kədərlənmək, təşvişə düşmək yerinə bu görüntülərin və özünün Yaradanı olan, sonsuz dərəcədə mərhəmətli və şəfqətli olan Allaha təvəkkül edər.

## Maddənin həqiqəti gizlədilmədikdə əmələ gələcək mühit

Maddənin əsli ilə təmasda olmadıqlarını, yalnız Allahın onlara seyr etdirdiyi görüntülərlə sıx təmasda olduqlarını bilən insanların bütün həyatları, həyata baxışları və mühakimə meyarları da dəyişəcək. Bu, həm şəxsi, həm də ictimai mənada faydalı dəyişiklik olacaqdır. Çünki bu həqiqəti görən insan Allahın Quranda bildirdiyi üstün mömin əxlaqını asanlıqla yaşayacaqdır.

Dünyaya əhəmiyyət verməyən, maddənin xəyal olduğunu anlayan insanlar mənəviyyata əhəmiyyət verəcəklər. Allahın hər an onu eşitdiyini və gördüyünü bilən, etdiyi hər hərəkətə görə axirətdə hesab verəcəyini dərk edən şəxs, təbii ki, gözəl əxlaqlı olacaq, Allahın əmr və qadağalarına əməl edəcəkdir. Beləliklə, cəmiyyətdə hər kəs bir-birinə qarşı sevgi və hörmətlə yanaşacaq, yaxşı və gözəl davranmaqda hər kəs bir-birilə yarışacaq. İnsanlar arasındakı mühakimə meyarları dəyişəcək, maddə dəyərini itirəcək və beləliklə, insanlar arasında üstünlük mövqe və vəzifəyə görə deyil, əxlaq və təqvaya görə olacaq. Heç kim xəyalın arxasınca qaçmayacaq, hər kəs həqiqətin arxasınca gedəcəkdir. İnsanlar "kim nə fikirləşər?" -təfəkkürü ilə deyil, "Allah nə etsəm məndən razı qalar?" -düşüncəsilə hərəkət edəcəklər. Mal, mülk, mövqe və vəzifədən qaynaqlanan qürur, lovğalıq, təkəbbür hisslərinin yerini təvazö və acizliyini çox yaxşı anlama hissi alacaqdır. Ona görə, insanlar Quranda bəhs edilən bütün gözəl əxlaq nümunələrini sevərək və istəyərək yaşayacaqlar. Sadalanan bu dəyişikliklər isə dövrümüzdəki cəmiyyətlərin bir çox problemini, təbii ki, aradan qaldıracaq.

Kiçik mənfəətlər üçün belə əsəbiləşən, hirslənən, təcavüzkar olan insanların yerini hər gördüyünün xəyalı ilə təmasda olduğunu bilən, buna görə əsəb, hirs, bağırmaq kimi münasibətlərin onu alçaldacağını bilən insanlar alacaq. Beləliklə, insanlar və cəmiyyətlərə rahatlıq və etibar hakim olacaq, hər kəs həyatından və sahib olduqlarından razı qalacaqdır. Elə insanlardan gizlədilən bu həqiqətin insanlara və cəmiyyətlərə qazandıracağı nemətlərin bir qismi bunlardır. Bu həqiqətin bilinməsi, düşünülməsi və yaşanılması ilə birlikdə insanlar daha bir çox gözəlliklərə qovuşacaqlar. Bu gözəlliklərə qovuşmaq istəyən şəxslər bu böyük həqiqəti yaxşı düşünməli və anlamağa çalışmalıdırlar. Allah bir ayəsində belə bildirir

:

**Rəbbinizdən sizə parlaq dəlillər gəlmişdir. Kim (onları) görsə, öz lehinə, kim görməsə, öz əleyhinədir...** (Ənam surəsi, 104)

## Maddənin həqiqətinin bilinməsi materializmin sonudur

Həyatımız boyu maddənin əsli ilə təmasda olmadığımız həqiqətindən ən çox qorxu və təşvişə düşənlər, əlbəttə, materialist fəlsəfəyə bağlananlardır. Bunun səbəbini daha yaxşı görmək üçün materializmin ümumi tərifinə baxmaq kifayətdir. Materialistlərin öz mənbələrində materializmin azğın fəlsəfəsi belə tərif edilir:

*Materializm dünyanın əzəli və əbədiliyini (əvvəli və sonu olmadığını), Tanrı tərəfindən yaradılmadığnı və zaman və məkanda sonsuzluğunu qəbul edir.*[36]

Meydan Larousse Ensiklopediyasının 8-ci cildində isə materialist fəlsəfə belə tərif edilir:

*Materializm "maddə"dən başqa hər hansı bir cövhərin varlığını qəbul etməyən təlimdir. Bütün həqiqətlərin cövhərini və əsasını ruhun meydana gətirdiyini söyləyən "ruhçuluğun" əksidir...*

Bu qısa təriflərdən də göründüyü kimi, materialist fəlsəfə maddəni tək mütləq varlıq kimi qəbul edir və maddədən başqa heç bir varlığı və ya məfhumu qəbul etmir. Məsələn, materialist fəlsəfə ruhun varlığını qəbul etmir, insan şüurunu beynin fəaliyyətlərinin məhsulu kimi görür (materialistlərin bu iddialarının əsassızlığına "materializmin düşdükləri ən böyük çıxılmaz vəziyyətlərdən biri: insan şüuru" başlıqlı bölmədə yer verilmişdir). Bu kitab boyu izah edilənlərin ən vacib və tarixi cəhəti isə materialist fəlsəfəni tamamilə əsassız etməsidir. Çünki bu gün artıq açıq şəkildə bilinir ki, maddə dediyimiz şeylərin sadəcə zehnimizdəki hallarını bilirik və zehnimizdən kənarda maddənin necə olduğunu göstərməyimiz mümkün deyil. Çünki zehnimizdən kənara çıxıb maddə dediyimiz şeyin əsli ilə təmasda olmağımız mümkün deyil. İki cümlə ilə tərif edilən bu həqiqəti qəbul etdikdən sonra artıq ortada nə maddə, nə materializm qalır. Xarici aləmdəki maddi varlıqlarla heç vaxt təmasda ola bilməyəcəyimizə görə, heç vaxt görməyəcəyimiz maddələr haqqında fəlsəfə yürütməyin, onlar haqqında fikir söyləməyin məntiqsizliyi və lüzumsuzluğu



**Həyatı boyu tərəfdarlarına maddənin mütləq gerçək varlıq olması xətasını izah edən Lenin ən atəşli nitqlərini əslində beynində əmələ gələn insan görüntülərinə söyləyirdi. Güc topladığı tərəfdarları da beynində əmələ gələn görüntülər idi.**





**Lenin, Mao və Stalin kimi kommunist liderlərin arxasınca gedənlər, onları güclü liderlər kimi görənlər, nitqlərini böyük diqqət və coşğunluqla dinləyənlər bu insanları özlərinə aid gücləri olan varlıqlar zənn edirlər. Əslində isə hər biri beyinlərində əmələ gələn varlıqlardır.**

da açıq şəkildə ortadadır.

Elə materialist fəlsəfə tərəfdarlarının maddənin ardındakı bu vacib sirrin açıqlanmasından son dərəcə narahat olmalarının, bu sirrin çox açıq olmasına baxmayaraq, onu anlamaq istəməmələrinin əsas səbəbi bu mövzunun fəlsəfələrinin sonunu gətirdiyini anlamalarıdır. Tarix boyu bütün materialistlər maddənin həqiqətinin açıqlanmasından, hətta materializm tərəfdarlarının bu həqiqəti izah edən kitabları oxumalarından çox narahat olmuşlar və bunu dilə gətirmişlər. Rusiyadakı qanlı kommunist inqilabının liderlərindən biri olan Vladimir İ. Lenin təxminən bir əsr əvvəl yazdığı *"Materializm və empiriokritisizm"* adlı kitabında tərəfdarlarını bu həqiqətə qarşı belə xəbərdar edir:

*Duyğularımızla qavradığımız maddi həqiqəti bir dəfə inkar etdinsə, şübhəçiliyə (agnostisizm) və fərdiliyə (subyektivizmə) meyl edəcəyin üçün fideizmə (dini inanca) qarşı istifadə edəcəyin bütün silahları itirərsən; bu da fideizmin istədiyi şeydir. Barmağını verdinsə, əvvəlcə qolun, sonra bütün mənliyin gedər. Duyğuları maddi dünyanın görüntüsü kimi deyil, xüsusi bir komponent kimi aldıqda, başqa*

*sözlə, materializmə güzəştə getdikdə, mənliyini fideizmə verərsən. Sonra duyğular heç kimin duyğularına çevrilər, zəka heç kimin zəkası, ruh heç kimnin ruhu, iradə heç kimin iradəsi olar.*[37]

Bu sətirlər Leninin böyük qorxuyla anladığı və həm öz başından, həm də "tərəfdaş"larının başlarından silmək istədiyi həqiqətin materialistləri nə qədər narahat etdiyini göstərir. Ancaq dövrümüzün materialistləri Lenindən də narahatdırlar. Çünki bu həqiqət bundan 100 il əvvələ nisbətən daha çox açıq, qəti və güclü şəkildə ortaya qoyulmuşdur.

Keçmişdə hər hansı bir fəlsəfə və ya izah kimi düşünülən bu mövzu bütün dünya tarixində ilk dəfə bu qədər qarşısı alınmaz şəkildə və elmi tapıntılara əsaslanaraq izah edilir. Elmi yazıçı Lincoln Barnett bu mövzunun təkcə "sezilməsinin" belə materialist elm adamlarını qorxu və həyəcana saldığını belə bildirir:

*Filosoflar bütün maddi həqiqətləri hisslərdən ibarət kölgə dünya formasına salarkən elm adamları insan hisslərinin hüdudlarını qorxu və həyəcan ilə sezdilər.*[38]

Ölkəmizdə və bütün dünyada bu mövzu ilə qarşılaşan hər materialistdə bu "qorxu və həyəcan" çox güclü şəkildə üzə çıxır. Məsələn, ölkəmizdə fəlsəfələrinin "əsası" olan təkamül nəzəriyyəsinin elmi cəhətdən çökdürülməsində onsuz da ciddi sarsıntı keçirən materialistlər indi də darvinizmdən daha vacib əsaslarını, məhz maddənin özünü itirdiklərini anlamağa başlamışlar. Buna görə, mövzunun əhəmiyyətinə diqqət çəkərək bu mövzunun öz fikirlərinə görə, "ən böyük təhlükə" olduğundan, öz "sivil quruluşlarını tamamilə yıxdığından" bəhs edirlər.

Əslində bu, Allahın Quranda inananlara bildirdiyi vədinin təzahürüdür. Haqqın ortaya çıxdığı yerdə batil olan fikirlər yox olmağa məhkumdur.

**De: "Haqq gəldi, batil yox oldu. Çünki batil yoxluğa məhkumdur! (İsra surəsi, 81)**

**Xeyr, Biz batili haqla rədd edərik və o da onu yox edər. (Bir də baxıb görərsiniz ki) o yox olub getmişdir. (Batil sözlərlə Allaha) isnad etdiyiniz sifətlərə görə vay halınıza! (Ənbiya surəsi, 18)**

Materializm bəşəriyyət tarixi boyu mövcud olmuş və bu fəlsəfəni müdafiə edənlər maddəni özləri üçün "dəlil" qəbul edərək onları yoxdan var edən, heç ikən onlara can verən, içində yaşaya biləcəkləri kainat yaradan Allaha qarşı çıxmışlar. "Maddə varsa, Allah bu maddənin harasında ola bilər?" kimi səthi və cahil məntiqlərlə Allahın varlığını inkar edən və insanların da inkar etmələri üçün səy göstərən bu şəxslər dövrümüzdə ən böyük əsaslarının məhv olduğuna şahid olurlar. Çünki burada bəhs edilən həqiqət fəlsəfələrini kökündən

məhv edir, bu barədə mübahisəyə belə imkan vermir. Bütün düşüncələrini, həyatlarını, təkəbbürlərini və inkarlarını üzərində qurduqları maddə əllərindən bir anda uçub getmişdir. Materialistlər tarix boyu bir-birlərinə inkarı və inkar metodlarını miras qoymuşlar. Leninin yuxarıdakı sözlərindən bu gün bir çox materialist istifadə edir və tərəfdarlarına bu həqiqəti dinləməmələrini, oxumamalarını tövsiyə edirlər. Ancaq elmin maddənin mahiyyəti ilə bağlı bu həqiqəti açıq şəkildə üzə çıxartması və internet kimi texnoloji imkanlarla bütün dünyaya məlumatın çatdırılmasının son dərəcə asan və sürətli olması onların bu səylərini boşa çıxarır. Çünki insanlar böyük sürətlə bu həqiqəti oxuyur, öyrənir və qavrayırlar. Yaxın keçmişə qədər materializmi ən əsaslı dünyagörüşü kimi qəbul edənlər bu gün böyük heyrət və təəccüblə dünya həyatının və maddənin gerçək yönünü öyrənirlər. Elə bu, Allahın inkar edənlərə qurduğu möhtəşəm tələdir. İnkar edənlər necə tarix boyu sadəcə Allahı inkar etmək üçün təhrifedici şəkildə maddəni tanrı qəbul edərək öz geri qalmış ağılları ilə dinə qarşı tələ qurduqlarını hesab etdilərsə, Allah qarşılığında onların saxta tanrılarını əllərindən alacaq mühit yaratmış və onları öz tələlərinə salmışdır. Allah tarix boyu inkar edənlərin tələlərinə verdiyi bu qarşılığı belə bildirir:

**... sənə qarşı hiylə qururdular. Allah da tədbir tökdü. Allah tədbir tökənlərin ən yaxşısıdır! (Ənfal surəsi, 30)**

Allah insanlara maddənin əsli ilə təmasda olduqları hissini verərək materialistləri tələyə salmış və onları tarixdə tayı-bərabəri görünməmiş şəkildə alçaltmışdır. Mallarını, mülklərini, mövqelərini, içində olduqları cəmiyyəti, bütün dünyanı və əslində xəyaldan ibarət olan hər şeyi mütləq varlıq hesab etmişlər, üstəlik bunlara güvənərək Allaha qarşı təkəbbür göstərmişlər. Öz ağıllarına görə lovğalanaraq Allaha üsyan etmiş və inkar etməkdə daha da irəli getmişlər. Bunları edərkən də güc aldıqları tək şey maddə olmuşdur. Amma elə bir anlayış çatışmazlığı içinə düşmüşlər ki, Allahın onları hər tərəfdən əhatə etdiyini heç düşünməmişlər. Allah inkar edənlərin anlayışsızlıqları nəticəsində düşəcəkləri vəziyyəti Quranda belə xəbər vermişdir:

**Yoxsa bir tələ qurmaq istəyirlər? Amma kafirlər özləri o tələyə düşəcəklər! (Tur surəsi, 42)**

Materialistlər tarixin ən böyük məğlubiyyətinə addım-addım yaxınlaşarkən bunun fərqində belə olmamışlar. Məsələn, bütün görüntülərin beyində qavrandığını kəşf edərkən bunun öz inanclarını kökündən çökdürəcəyini nəzərə almamışlar. Materialist elm adamı apardığı tədqiqatlar nəticəsində bütün gördüyü şeylərin əslində hesab etdiyi kimi olmadığını, əksinə, beynində

meydana gələn görüntülərlə təmasda olduğunu sübut edərək materialist inancına öz əlləri ilə zərbə vurmuşdur. Allah inkar edənlərin öz qurduqları tələyə şüursuzluqla düşdüyünü bir ayədə belə bildirir:

**Beləliklə, hər bir obanın günahkarlarını oranın başçıları təyin etdik ki, onlar orada bacardıqları qədər məkrlə məşğul olsunlar. Onlar yalnız özlərinə qarşı məkr edərlər, lakin fərqinə varmazlar. (Ənam surəsi, 123)**

Şübhəsiz, bu həqiqəti anlamaq materialistlər üçün çox dəhşətli hadisədir. Çünki sahib olduqları hər şeyin sadəcə xəyali görüntüləri ilə təmasda olmaları onlar üçün hələ dünyada ikən "ölmədən ölüm" hökmüdür.

Bu həqiqətlərlə birlikdə bir Allah, bir də özləri qalmışdır. Belə ki, Allah **"Məni Öz yaratdığım kimsə ilə tək burax!" (Müddəssir surəsi, 11)** ayəsi ilə hər insanın Onun qatında əslində tamamilə tənha olması həqiqətinə diqqət çəkmişdir. Bu qeyri-adi həqiqət daha bir çox ayədə xəbər verilmişdir:

**Siz Bizim hüzurumuza ilk dəfə sizi yaratdığımız kimi tək-tənha, özü də sizə verdiyimizi arxanızda qoyub gəlmisiniz... (Ənam surəsi, 94)**

**Onların hamısı qiyamət günü Onun hüzuruna gələcək. (Məryəm surəsi, 95)**

Allah başqa bir ayəsində isə axirət günüdə inkar edənlərə belə müraciət edəcəyini bildirir:

**O gün onların hamısını toplayacaq, sonra şərik qoşanlara deyəcəyik: "İddia etdiyiniz şəriklərimiz haradadır?! (Ənam surəsi, 22)**

Bunun ardından inkar edənlər dünyada var olduğunu zənn edərək Allaha şirk qoşduqları mallarının, övladlarının, ətraflarının özlərindən uzaqlaşdığına və tamamilə yox olduğuna şahid olacaqlar. Allah bu həqiqəti də **"gör onlar özlərinə qarşı necə yalan dedilər. Özlərindən uydurub düzəltdikləri bütlər də onlardan qeyb oldular!" (Ənam surəsi, 24)** ayəsi ilə xəbər vermişdir.

XXI əsr bu həqiqətin bütün insanlar arasında yayılacağı, materializmin isə yer üzündən silinəcəyi tarixi dönüş nöqtəsidir. Bu həqiqəti görə bilən insanların keçmişdə nəyə inandıqları, nəyi nə üçün müdafiə etdikləri vacib deyil. Vacib odur ki, həqiqəti gördükdən sonra buna qarşı çıxmamaq, ölümlə birlikdə onsuz da açıq-aydın başa düşüləcək bu həqiqəti gec olmadan anlamaqdır. Unutmaq olmaz ki, həqiqətlərdən qaçmaq olmaz.





# ZAMAN DA HİSSDİR

Kitabın buraya qədər olan bölməsində mütləq varlıq zənn edilən maddənin əsli ilə heç vaxt təmasda ola bilməyəcəyimiz və hər insanın sadəcə beynindəki xəyali görüntülərlə təmasda olduğu açıqlandı. Bu qeyri-adi həqiqətin bütün dünyada Allah sevgisi və qorxusunun artması, mənəviyyatın və gözəl əxlaqın yayılması, materializmin çökməsi üçün nə qədər böyük əhəmiyyətə malik olduğu bildirildi.

Materialistlərin maddə kimi əzəli və mütləq varlıq zənn etdikləri başqa məfhum isə zamandır. Ancaq maddə kimi zaman da hissdir və əzəli deyil, yaradıldığı bir an var. Dövrümüzdə elmi dəlilləri ilə üzə çıxarılan bu həqiqət Quranda bir çox ayə ilə də bildirilmişdir.

## Zaman bir anı digər an ilə müqayisə etdikdə ortaya çıxan məfhumdur

Zaman tamamilə bizim hisslərimizə və hisslərimiz arasında apardığımız müqayisəyə əsaslanan anlayışdır. Məsələn, siz hal-hazırda bu kitabı oxuyursunuz. Fərz edək ki, kitabı oxumazdan əvvəl mətbəxdə yemək yeyirdiniz. Elə mətbəxdə yemək yediyiniz "an" ilə "hal-hazırkı an" arasında bir müddət olduğunu düşünür və buna "zaman" deyirsiniz. Əslində isə mətbəxdə yemək yediyiniz "an" sizin hafizənizdəki məlumatdır və siz içində olduğunuz "hal-hazırkı an" ilə hafizənizdəki məlumat arasında müqayisə aparır və bunu "zaman" adlandırırsınız. Bu müqayisəni aparmadığınız təqdirdə zaman anlayışı da qalmayacaq, insan üçün sadəcə içində olduğu an mövcud olacaqdır.

Məsələn, şagirdin son zəng mərasimi hafizəsindəki məlumatdır. İnsan o mərasimdən etibarən hafizəsindəki digər məlumatları da içində yaşamaqda olduğu an ilə müqayisə etdikdə zaman anlayışını əldə edir və hafizəsindəki





**Telefon zəng çaldığı an ilə telefonda dostun səsinin eşidildiyi an arasında bir müddət olduğunu düşünür və buna "zaman" deyirik. Zaman "o an" yaşananlar ilə keçmiş arasında aparılan müqayisə ilə ortaya çıxan hissdir.**



**Zaman bizim yaşadığımız hadisələr arasında apardığımız müqayisəyə əsaslanan anlayışdır. Məsələn, bir nəfər otağa daxil olur. Sonra yerdəki qələmi görür və əyilib onu götürür. Bundan sonra stola yaxınlaşır və qələmi onun üstünə qoyur. Həmin insan bu hərəkətlər arasında müqayisə aparır. Hər biri arasında müəyyən müddət keçdiyini düşünür və beləliklə, zaman hissini əldə edir.**

məlumatlara görə bu zamanın uzunluğunu və ya qısalığını müəyyən edir. Əslində isə bu "uzunluq" və "qısalıq" tamamilə beyində əmələ gələn və bu müqayisədən qaynaqlanan hissdir.

Eyni şəkildə yerə düşən qələmi əyilib götürən və stolun üstünə qoyan birini gördükdə müqayisə edir. Gördüyü insan qələmi stolun üstünə qoyduğu anda o şəxsin qələmi əyilib götürməsi və stola doğru yeriməsini seyr edən şəxsin beynində yerləşən məlumatlardır. Zaman hissi qələmi stolun üstünə qoyan insan ilə bu məlumatlar arasında müqayisə aparılaraq ortaya çıxır.

Məşhur fizik Julian Barbour zamanın tərifini belə verir:

*Zaman əşyaların mövqelərini dəyişdirmə ölçüsündən başqa bir şey deyil. Saat kəfkiri yellənir, saatın əqrəbləri hərəkət edir.*[39]

Qısaca desək, zaman beyində xatirə kimi saxlanılan bir sıra məlumatlar, daha doğrusu, görüntülər arasında müqayisə aparılması ilə mövcud olur. Əgər insanın hafizəsi olmasaydı, o insan sadəcə içində olduğu anı yaşayar, beyni bu cür şərhlər etməz və ona görə də zaman hissi də əmələ gəlməzdi.

## Zamanın hiss olması barəsində elm adamlarının düşüncələri

Zamanın hərəkət edən cisimlər və meydana gələn dəyişikliklər arasında apardığımız müəyyən ardıcıllıqdan əmələ gələn anlayış olması həqiqəti bu gün elmi cəhətdən də qəbul edilmişdir. Bu barədə fikir bildirən mütəfəkkir və elm adamlarından nümunələr verərək mövzunu daha yaxşı açıqlamağa çalışaq.

*"The end of time" (zamanın sonu)* adlı kitabında zamansızlıq və sonsuzluq haqqında açıqlamaları ilə elm dünyasında böyük əks-səda doğuran fizik Julian Barbour zamanın hiss olmasının bir çox insan üçün qəbul edilməsi çətin olan həqiqət olduğunu bildirir. *"Discover"* jurnalında Barbour ilə aparılan müsahibədə zaman hissi üçün şərhləri verir:

> *"Mən hələ qəbul etməkdə çətinlik çəkirəm", -deyir (Barbour). Ancaq qabaqcadan kainatı anlamaq üçün heç bir zaman etibarlı yol göstərici olmamışdır. Kopernik Günəşin Yerin ətrafında dönmədiyini ilk dəfə söylədiyindən bəri fiziklər hisslərimizi çaşdırdılar. Buna baxmayaraq, Yer 67000 mil/saat sürətlə boşluqda fırlanarkən ən kiçik hərəkəti belə hiss etmirik. Barbour zamanın keçdiyinə dair hissimizin "Düz Dünya Cəmiyyətinin" (Flat Earth Society) batil inancı qədər səhv olduğunu iddia edir.*[40]

Yuxarıda da göründüyü kimi, məşhur fizik Barbour zamanın mütləq varlıq olduğuna dair sahib olduğumuz inancın batil olduğunu bildirir və dövrümüzdə fizika sahəsindəki tədqiqatlar bu həqiqəti açıq şəkildə göstərir. Zaman mütləq




**İnsanın keçmişi hafizəsinə verilən məlumatlardan ibarətdir. Hafizə silindikdə insanın keçmişi də silinir. Gələcəyi isə düşüncələrindən ibarətdir. Bu düşüncələr olmadıqda isə insanın sadəcə yaşadığı "an" qalır.**

deyil, meydana gələn hadisələrə görə fərqli qavranan nisbi məfhumdur.

Nobel mükafatı almış məşhur genetika professoru François Jacob isə *"Mümkünlərin oyunu"* adlı kitabında zamanın geriyə axını ilə bağlı bunları danışır:

> *Kadrı geriyə doğru fırladaraq göstərilən filmlər zamanın geriyə axdığı bir dünyanın nəyə bənzəyəcəyini təsəvvür etməmizə imkan verir. Südün fincandakı qəhvədən ayrıldığı və süd qabına geri tökülmək üçün havaya qalxdığı bir dünya; işıq şualarının bir mənbədən çıxdığı yerdə tələnin (cazibə mərkəzinin) içində toplanmaq üçün divarlardan çıxacağı dünya; saysız-hesabsız damlaların heyrətləndirici şəkildə birlikdə suyun üzərinə doğru atılan daşın insanın ovcuna qayıtmaq üçün maili xətt boyu tullandığı  dünya. Amma zamanın geriyə axdığı belə bir dünyada beynimizin prosesləri və hafizəmizin əmələ gəlməsi də eyni şəkildə tərsinə çevrilmiş olacaqdır. Keçmiş və gələcək üçün də eyni şey olar və dünya tamamilə bizə göründüyü kimi görünər.*[41]

Beynimiz müəyyən ardıcıllıq üsuluna əsasən işlədiyi üçün hal-hazırda dünya yuxarıda izah edildiyi kimi işləmir və zamanın daim irəliyə doğru axdığını düşünürük. Əslində isə bu, beynimizin içində verilən qərardır və ona görə, bizim üçün tamamilə izafidir. Əgər hafizəmizdəki məlumatlar geriyə doğru fırlanan filmlərdəki kadrlar kimi düzülsə, zamanın axını da bizim üçün geriyə doğru fırladılan filmlərdəki kimi olacaqdır. Belə vəziyyətdə keçmişi gələcək, gələcəyi də keçmiş kimi qavramağa başlayar, həyatı indiki nizamının tamamilə tərsinə olan nizamda yaşayardıq.

Əslində isə zamanın necə axdığını, ya da axıb-axmadığını əsla bilə bilmərik. Bu da zamanın mütləq həqiqət olmadığını, sadəcə qavrayış forması olduğunu göstərir.

Zamanın hiss olması XX əsrin ən böyük fiziki hesab edilən Eynşteynin ortaya qoyduğu Ümumi nisbilik nəzəriyyəsi də təsdiq etmişdir. Lincoln Barnett *"Kainat və Eynşteyn"* adlı kitabında bu barədə aşağıdakıları yazır:

> Hüdudsuz kosmosla birlikdə Eynşteyn sonsuz keçmişdən sonsuz gələcəyə axan səhv etməyən və dəyişməyən  ümumdünya zaman anlayışını da bir kənara qoydu. Nisbilik nəzəriyyəsini əhatə edən anlaşılmazlığın böyük hissəsi insanların zaman duyğusunun da rəng duyğusu kimi qavrama forması olduğunu qəbul etmək istəməməsindən doğur... Necə ki, kosmos maddi varlıqların mümkün olan ardıcıllığıdırsa, zaman da hadisələrin mümkün olan ardıcıllığıdır. Zamanın subyektivliyini Eynşteynin sözləri daha yaxşı açıqlayır: *"Fərdin həyatı bizə hadisələr ardıcıllığı şəklində sıralanmış kimi görünür. Bu ardıcıllıqdan xatırladığımız hadisələr "daha əvvəl" və "daha sonra" ölçüsünə görə sıralanmışdır. Bu səbəbdən, fərd üçün mən-zamanı, ya da subyektiv zaman var. Bu zaman öz-özlüyündə ölçülə bilməz. Hadisələrlə saylar*

# ZAMANIN TƏRSİNƏ İŞLƏDİYİ DÜNYADA KEÇMİŞ GƏLƏCƏK OLARDI



**Bütün hadisələr bizə müəyyən ardıcıllıqla göstərildiyi üçün zamanın daima irəliyə doğru axdığını düşünürük. Məsələn, xizəkçi daima dağdan aşağıya doğru sürüşür, yuxarı doğru sürüşmür və ya bir su damlası su hövzəsindən yuxarı doğru çıxmaz, daima aşağıya doğru düşər. Belə olduqda xizəkçinin təpədəki halı keçmiş ikən aşağıya çatdığı halı gələcəkdir. Elə isə hafizəmizdəki məlumatlar filmin əvvələ sarılması kimi tərsinə doğru göstərilməyə başlasa, bizim üçün gələcək, yəni aşağı enmiş halı keçmiş olar, keçmiş isə, yəni təpədəki halı isə gələcək olar.**



*arasında elə bir əlaqə qura bilərəm ki, böyük say əvvəlki hadisə ilə deyil, sonrakı hadisə ilə əlaqədar olar".*[42]

Eynşteynin bu sözlərindən zamanın irəliyə doğru axması fikrinin tamamilə şərtlənmə olması başa düşülür.

Eynşteyn Barnettin ifadələrilə *"kosmos və zamanın da duyğu formaları olduğunu, rəng, forma və böyüklük anlayışları kimi bunların da şüurdan ayrılmaz olduğunu göstərmişdir".*[43]

Ümumi nisbilik nəzəriyyəsinə görə, *"zaman mütləq deyil, onu ölçdüyümüz hadisələr ardıcıllığından ayrı, müstəqil bir varlığı yoxdur".*

Yuxularımız zamanın nisbiliyinin başa düşülməsi baxımından olduqca əhəmiyyətlidir. Biz yuxuda günlərlə davam etdiyini düşündüyümüz hadisələri yaşayarkən əslində sadəcə bir neçə dəqiqə, hətta bir neçə saniyə davam edən bir yuxu görürük.

Mövzunu bir az da açıqlamaq üçün belə bir nümunə üzərində düşünək. Xüsusi dizayn edilmiş tək pəncərəli otağa qoyularaq burada müəyyən vaxt keçirdiyimizi düşünək. Otaqda keçən zamanı görməyimiz üçün bir saat da



olsun. Eyni zamanda otağın pəncərəsindən günəşin müəyyən fasilələrlə doğub-batdığını görək. Aradan bir neçə gün keçdikdən sonra o otaqda nə qədər qaldığımız soruşulduqda verəcəyimiz cavab həm müəyyən vaxtlarda saata baxaraq əldə etdiyimiz məlumat, həm də günəşin neçə dəfə doğub-batdığına əsasən apardığımız hesablamadır. Məsələn, otaqda üç gün qaldığımızı hesablamışıq. Amma əgər bizi bu otağa qoyan şəxs gəlib bizə: "Əslində sən bu otaqda iki gün qalmısan", -desə və pəncərədə gördüyümüz günəşin əslində süni şəkildə əmələ gətirildiyini, otaqdakı saatın da xüsusi sürətlə hərəkət etdirildiyini söyləsə, bu vəziyyətdə apardığımız hesablamanın heç bir mənası qalmır.

Bu misal da göstərir ki, zamanın axma sürəti ilə məlumatımız sadəcə qavrayana görə dəyişən fikirlərə əsaslanır.

Fərqli şərtlər altında insanların eyni zaman kəsiyini daha uzun və ya daha qısa qavramaları da bunun nümunəsidir. Məsələn, əməliyyatdakı qardaşının çıxmasını gözləyən insana bir saatlıq müddət aradan saatlar keçmiş kimi uzun gəlir. Ancaq eyni şəxs çox xoşladığı işi görərkən bir saatın necə keçdiyini anlamaz. Eynşteynin Ümumi nisbilik nəzəriyyəsinin elmi cəhətdən ortaya qoyduğu həqiqət budur: zamanın sürəti cismin sürətinə və cazibə mərkəzinə olan uzaqlığına görə dəyişir. Sürət artdıqca zaman qısalır, daralır; daha ağır, daha yavaş işləyərək sanki "dayanma" nöqtəsinə yaxınlaşır.

Bunu Eynşteynin misalı ilə açıqlayaq. Bu misala görə, əkiz qardaşlardan biri Yerdə yaşayır, digəri isə işıq sürətinə yaxın sürətlə kosmik səyahətə çıxır. Kosmosa çıxan şəxs geri qayıtdıqda əkiz qardaşını ondan daha yaşlı görəcəkdir. Bunun səbəbi kosmosda səyahət edən qardaş üçün zamanın daha yavaş axmasıdır. Eyni misal işıq sürətinin 99%-nə yaxın sürətlə hərəkət edən raketlə kosmosda səyahət edən ata və Yerdə qalan oğluna da aid edilə bilər. Eynşteynə görə: "əgər atanın yaşı 27, oğlunun yaşı üç olsa, 30 Yer ili sonra ata dünyaya qayıtdıqda oğul 33 yaşında, ata isə 30 yaşında olacaq".[44]

Zamanın nisbi olması saatların yavaşıması və ya sürətlənməsindən deyil, bütün maddi sistemin atom altı səviyyədəki zərrəciklərə qədər fərqli sürətlərdə işləməsindən irəli gəlir. Zamanın qısaldığı belə mühitdə insan orqanizmindəki ürək döyüntüləri, hüceyrələrin bölünməsi, beyin fəaliyyətləri kimi proseslər daha ağır işləyir.

Beləliklə, insan zamanın yavaşladığını heç anlamadan gündəlik həyatına davam edir.

## Zamanın nisbi anlayış olması Quranda bildirilmişdir

Əvvəlki səhifələrdə də bildirildiyi kimi, zamanın mütləq həqiqət deyil, nisbi hiss olması müasir elmin kəşfləri ilə qətiləşmişdir. Elmin XX əsrdə kəşf



30 İL ƏVVƏL



BU GÜN



**İşıq sürətinə yaxın sürətlə kosmik səyahətə çıxan əkiz qardaşlardan biri 30 il sonra geri qayıtdıqda Yerdə qalan qardaş digərinə nisbətən daha yaşlı olacaq.**

etdiyi bu həqiqətin Quranda 1400 il əvvəl bildirilməsi isə çox böyük möcüzədir.

Allah bir çox ayəsində dünya həyatının çox qısa olduğunu vurğulayır. Bir insanın təxminən 60 illik ömrünün ayələrdə "günün bir saatı" qədər qısa olduğunu Rəbbimiz belə bildirir:

**O gün ki, Allah sizi çağıracaqdır. Siz də Ona şükür edərək dərhal çağırışına cavab verəcəksiniz və sizə elə gələcəkdir ki, (dünyada) çox az qaldınız! (İsra surəsi, 52)**

**Gündüz bir saat belə olmamışlar kimi, bir yerə toplayacağı gün onlar bir-birini tanıyacaqlar. Allahla qarşılaşacaqlarını yalan hesab edənlər, sözsüz ki, ziyana uğrayacaqlar. Onlar heç doğru yolda da deyildilər. (Yunus surəsi, 45)**

Bəzi ayələrdə isə zamanın insanların hesab etdiklərindən daha qısa olduğunu Allah belə bildirir:

**Belə buyurdu: "Yer üzündə neçə il qaldınız?" Onlar: "Bir gün, bir gündən də az, hər halda, sayanlardan soruş!" - deyə cavab verdilər. Allah buyurdu:**

**"Əgər bilirsinizsə, siz (orada) çox az qaldınız! (Muminun surəsi, 112-114)**

Quranda başqa ayələrdə isə fərqli ölçülərdə zamanın daha fərqli sürətlə axdığı xəbər verilir. Məsələn, Allah qatındakı bir günün insanların min ilinə bərabər olduğu bildirilir. (Həcc surəsi, 47) Bu mövzu ilə bağlı digər ayələr belədir:

**Mələklər və ruh (Cəbrail) Onun dərgahına müddəti əlli min il olan bir gündə qalxarlar. (Məaric surəsi, 4)**

**O, göydən yerə qədər olan bütün işləri idarə edir. Sonra (həmin işlər) sizin saydığınızın min ilinə bərabər olan bir gündə Ona doğru yüksələr. (Səcdə surəsi, 5)**

Quranın daha bir çox ayəsində istifadə edilən üslüb zamanın hiss olduğunu açıq şəkildə ortaya qoyur. Allah Quranda bəhs edilən mömin cəmiyyət olan Kəhf əhlini 300 ildən çox müddət ərzində dərin yuxuya vermişdir. Daha sonra oyandırdıqda isə bu şəxslər zaman cəhətdən çox az müddətdə yuxuda olduqlarını düşünmüş, nə qədər çox yatdıqlarını təxmin edə bilməmişlər.

**Biz onları mağarada illərlə yuxuya verdik. Sonra iki tayfadan hansının onların (mağarada) qaldıqları müddəti daha düzgün hesabladıqlarını bilmək üçün onları oyatdıq. (Kəhf surəsi, 11-12)**

**Beləcə də onları bir-birindən hal-əhval tutsunlar deyə, oyatdıq. Onların biri dedi: "Nə qədər qaldınız?" Onlar: "Bir gün və ya bir gündən az!" - deyə cavab verdilər. Onlardan (bəziləri isə) belə dedi: "Qaldığınız müddəti Rəbbiniz daha yaxşı bilir..." (Kəhf surəsi, 19)**

Aşağıdakı ayədə bəhs edilən vəziyyət də zamanın əslində psixoloji hiss olmasının vacib dəlilidir.

**Yaxud uçulmuş bir kəndin yanından keçən kimsənin əhvalatını bilirsən? O kimsə: "Əcaba, Allah bu kəndi ölümündən sonra necə diriləcək?" - demişdi. Belə olduqda, Allah onu yüz il ölü halında saxladı, sonra dirildərək ondan: "Nə qədər yatmısan?" - deyə soruşdu. O da: "Bir gün, bəlkə, bir gündən daha az", - deyə cavab verdi. Allah ona: "Bəlkə, yüz il yatmısan, yediyin yeməyə, içdiyin suya bax, hələ də xarab olmayıb. Bir də uzunqulağına bax! Səni insanlar üçün bir ibrət dərsi olmaqdan ötrü belə etdik. İndi sümüklərinə bax, gör necə onları bir-biri ilə birləşdirir, sonra da onların üzərini ətlə örtürük?" - deyə buyurdu. O kimsəyə bunlar**

**aydın olduqda: "Artıq bildim ki, Allah hər şeyə qadirdir!" - dedi. (Bəqərə surəsi, 259)**

Göründüyü kimi, bu ayələrdə zamanın nisbi olduğu, mütləq olmadığı açıq şəkildə bildirilir. Yəni zaman qavramaya və qavrayana görə dəyişir; qavrayandan kənar öz-özlüyündə bir varlığı olan sabit varlıq deyil.

## Zamanın nisbiliyi qədər həqiqətini də açıqlayır.

Zamanın nisbiliyi ilə bağlı açıqlamalardan və ayələrdən göründüyü kimi, zaman hiss ilə bağlı dəyişən, qeyri-sabit anlayışdır. Məsələn, bizim üçün milyonlarla il davam edən zaman kəsiyi Allah qatında bir andır. Bizim üçün 50 min illik müddət mələklər və Cəbrayıl üçün bir gündür.

Bu həqiqətin bilinməsi qədər mövzusunun qavranması üçün çox vacibdir. Çünki qədər Allahın keçmiş və gələcək bütün hadisələri "tək bir an" içərisində yaratmasıdır. Bu da Allah qatında kainatın yaradıldığı andan qiyamətə qədər olan hər hadisənin yaşanmış və bitmiş olması deməkdir. İnsanların bir çoxu Allahın hələ yaşanmamış hadisələri əvvəlcədən necə bildiyini, Allah qatından keçmiş və gələcək bütün hadisələrin necə yaşanıb bitdiyini və qədərin gerçəkliyini heç cür qavraya bilmirlər. Əslində isə "yaşanmamış hadisələr" bizim nöqteyi-nəzərimizdən yaşanmamış hadisələrdir. Çünki biz Allahın yaratdığı zamana bağlı şəkildə yaşayırıq və hafizəmizə verilən məlumatlar olmadan heçnə bilə bilmərik. Allah dünyadakı imtahan mühitinə görə, "gələcək" adlandırdığımız hadisələri hafizəmizə vermədiyi üçün gələcəkdə nə olacağını da bilmərik. Allah isə zaman və məkandan asılı deyil, onsuz da bunların hamısını yoxdan yaradan Özüdür. Buna görə, Allah üçün keçmiş, gələcək və hal-hazırkı an hamısı birdir və hamısı olub bitmişdir. Allah bir hadisənin sonunu görmək üçün gözləmir. Onsuz da bir hadisənin əvvəli də, sonu da Onun qatında tək bir anda yaşanır. Məsələn, Fironun sonunun necə olduğunu Allah hələ hz. Musanı Firona göndərmədən, hz. Musa hələ doğulmadan, hətta Misir dövləti hələ qurulmadan əvvəl bilir və bütün bu hadisələr Fironun sonu ilə birlikdə Allah qatında tək bir an kimi yaşanmışdır. Bundan əlavə, Allah üçün keçmişi xatırlama deyə bir şey də yoxdur. Keçmiş və gələcək hazır olaraq Allahın daima qarşısındadır, hamısı eyni anda mövcuddur.

İnsan bütün həyatını film lenti kimi düşünsə, biz bu lenti videokassetdən seyr edən kimi seyr edirik və kasseti irəli fırlatmaq kimi imkanımız yoxdur. Allah isə bu film lentini bütünlüklə eyni anda görür və bilir. Onsuz da bu filmi bütün detalları ilə müəyyən etmiş və yaratmış olan Odur. Biz necə bir xətkeşin başını, ortasını və sonunu bir dəfədə görə biliriksə, Allah bizim bağlı

olduğumuz zamanı başından sonuna qədər tək bir an olaraq əhatə etmişdir. İnsanlar isə sadəcə zamanı gəldikdə bu hadisələri yaşayaraq Allahın onlar üçün yaratdığı qədərə şahid olurlar. Bu, dünyadakı bütün insanların qədərləri üçün də etibarlıdır. Bu günə qədər yaradılmış və bu gündən sonra da yaradılacaq bütün insanların dünya və axirətdəki həyatları hər anları ilə Allahın qatında hazır və yaşanmış şəkildə mövcuddur. Allahın sonsuz "hifzində" milyardlarla insanla birlikdə bütün canlıların, planetlərin, bitkilərin, əşyaların qədərində yazılmış hadisələr də heç əskilmədən və ya itmədən durur. Qədər həqiqəti Allahın Hafiz (mühafizə edən, qoruyan) sifətinin, sonsuz gücünün, qüdrətinin və böyüklüyünün təcəllilərindən biridir.

## "Keçmiş" anlayışı hafizəmizdəki məlumatlara görə əmələ gəlir

Biz bizə verilən təlqinə görə, keçmiş, hal-hazırkı an və gələcək kimi hissələrə ayrılmış zaman kəsiklərini yaşadığımızı zənn edirik. Əslində isə "keçmiş" anlayışına malik olmağımızın tək səbəbi daha əvvəl də bildirdiyimiz kimi, hafizəmizə bəzi hadisələrin verilməsidir. Məsələn, orta məktəbin birinci sinfinə getdiyimiz an hafizəmizdə olan məlumatdır və biz bu səbəbdən bunu keçmiş hadisə kimi qavrayırıq. Gələcəklə bağlı hadisələr isə hafizəmizdə yoxdur. Buna görə, biz hələ xəbərdar olmadığımız bu hadisələri "yaşanacaq", "gələcəkdə baş verəcək" hadisələr kimi qəbul edirik. Əslində keçmiş necə bizim üçün yaşanmış, təcrübədən keçirilmiş, görünmüş hadisələrdirsə, gələcək də eyni şəkildə yaşanmışdır. Ancaq bu hadisələr bizim hafizəmizə verilmədiyi üçün biz bunları bilə bilmərik.

Əgər Allah gələcəklə bağlı hadisələri də hafizəmizə versəydi, onda gələcək də bizim üçün keçmiş olardı. Məsələn, 30 yaşında bir insanın hafizəsində 30 illik xatirələr, hadisələr var və buna görə, bu insan 30 illik keçmişi olduğunu düşünür. Əgər bu insanın hafizəsinə 30 ilə 70 yaş arasındakı gələcəyinə dair hadisələr verilsə, onda 30 yaşındakı bu insan üçün həm 30 ili, həm də 30 ilə 70 yaşı arasındakı "gələcəyi" keçmişə çevrilər. Çünki bu halda keçmişi də, gələcəyi də hafizəsində mövcud olacaq, hər ikisi də onun üçün yaşanmış, görünmüş, təcrübədən keçirilmiş hadisələr olacaqdır.

Ancaq Allah bizə hadisələri müəyyən ardıcıllıqla, kiçikdən böyüyə doğru axacaq şəkildə, sanki keçmişdən gələcəyə axan zaman var imiş kimi hiss etdirdiyi üçün bizə gələcəyimizlə bağlı hadisələri bildirmir, bunlar haqqında məlumatı hafizəmizə vermir. Gələcək bizim hafizəmizdə yoxdur, ancaq Allahın sonsuz hifzində bütün insanların keçmişləri və gələcəkləri var. Bu, daha əvvəl də bildirildiyi kimi, bir insanın öz həyatını artıq mövcud olan filmdən seyr etməsinə bənzəyir. Film artıq çəkilmiş və bitmişdir. Ancaq bu filmi irəliyə

# KEÇMİŞ




GƏLƏCƏK
İNDİ

çəkmək imkanı olmayan insan kadrları bir-bir seyr etdikcə həyatını görür. Hələ seyr etmədiyi kadrların isə gələcəyi olduğunu zənn edərək yanılır.

### Keçmiş və gələcək qeyb xəbəridir

Allah Quranın bir çox ayəsində qeybi, yəni görünməyəni, bilinməyəni, şahid olunmayanı bilənin yalnız Özü olduğunu bildirir:

**De: "Ey göyləri və yeri yoxdan yaradan, ey gizlini və aşkarı bilən Allah! Bəndələrin arasında ixtilafda olduqları barəsində Sən hökm edəcəksən!" (Zümər surəsi, 46)**

**De: "Qaçdığınız ölüm sizi mütləq yaxalayacaqdır. Sonra siz gizlini də, aşkarı da bilənin (Allahın) hüzuruna qaytarılacaqsınız. O da sizə nələr etdiyinizi xəbər verəcəkdir!" (Cumuə surəsi, 8)**




**İnsanın keçmişi əslində o insanın hafizəsində yer alan məlumatlardan ibarətdir. Əgər bu insanın hafizəsi silinsə, keçmişi qalmayacaq. Gələcək isə insanların düşüncələrindən ibarətdir. İnsan gələcəyi üçün plan qurar, gələcəyini düşünər. Ancaq insanın düşüncələri də aradan qaldırılsa, bu dəfə gələcək deyə bir anlayış da qalmayacaq. Hafizəsi və düşüncələri əlindən alınan insan üçün sadəcə içində yaşadığı "an", yəni "bu an" qalacaq.**

**(Allah): "Ey Adəm, bunların adlarını onlara bildir!"- dedi. (Adəm) onlara bunların adlarını xəbər verdikdə (Allah): "Mən sizə, göylərin və yerin gözə görünməyən sirlərini və sizin gizlində - aşkarda nə etdiyinizi bilirəm, söyləmədimmi?" - buyurdu. (Bəqərə surəsi, 33)**

Ümumiyyətlə, qeybin sadəcə gələcəyə aid məlum olmayan məlumatlar olması düşünülür, əslində həm keçmiş, həm də gələcək qeybdir. Keçmişdə yaşananlar da, gələcəkdə yaşanacaqlar da Allah qatında qorunan məlumatlardır. Ancaq Allah Öz qatında olan qeyb məlumatlarından bəzilərini insanların hafizəsinə verərək bunları məlum olan, yəni müşahidə edilən hala salmışdır. Məsələn, Allah Quranda keçmişə dair məlumatlar verərək Peyğəmbərimizə (s.ə.v.) bunların qeyb xəbərləri olduğunu xəbər verir:

**Bunlar sənə vəhy etdiyimiz qeyb xəbərlərindəndir. Bundan qabaq onları nə sən, nə də ümmətin bilirdi. Səbir et. Həqiqətən, (gözəl) aqibət müttəqilərindir! (Hud surəsi, 49)**

**Bu, sənə vəhy etdiyimiz qeyb xəbərlərindəndir. Onlar hiylə quraraq əlbir iş gördükləri zaman sən ki onların yanında deyildin! (Yusif surəsi, 102)**

Allah Peyğəmbərimizə (s.ə.v.) hələ yaşanmamış bəzi hadisələrdən də xəbərlər vermişdir ki, bunlar gələcəyə dair qeyb xəbərləridir. Məsələn, Məkkənin fəthi (Fətih surəsi, 27) və Romanın bütpərəstlər üzərində qalibiyyəti (Rum surəsi, 3-4), bu hadisələr hələ yaşanmadan əvvəl Peyğəmbərimizə (s.ə.v.) bildirilmişdir. Peyğəmbərimizin (s.ə.v.) qiyamət əlamətləri, axır zaman kimi mövzulardakı hədisləri də o dövrün bütün insanları üçün qeyb olan bu məlumatları Allahın ona öyrətdiyini göstərir. Quranda peyğəmbərlərə və digər bəzi saleh möminlərə də qeybdən xəbərlər verildiyi açıqlanır. Məsələn, hz. Yusifə qardaşlarının tələlərinin boşa çıxacağı xəbər verilmiş (Yusif surəsi, 15), hz. Musanın anasına körpə oğlunun fironun zülmündən qurtulacağı və peyğəmbər olacağı vəhylə açıqlanmışdır (Qəsəs surəsi, 7).

Beləliklə, bizim keçmiş və gələcək adlandırdığımız hadisə və məlumatların hamısı Allah qatında gizli saxlanılan qeyb xəbərləridir. Allah istədiyi vaxt istədiyi şəxsin hafizəsinə bu xəbərlərdən bəzilərini verərək qeybin bir qismini açıqlayır. Müşahidə edilə bilən, yəni görünə bilən, şahid olunmuş bu hadisələr insanlar tərəfindən keçmiş kimi dəyərləndirilir.

## Qədərə təslimiyyətin əhəmiyyəti

Keçmiş və gələcəyin əslində Allah qatında yaradılmış və yaşanmış şəkildə gizli və hazır hadisələr olması bizə çox vacib həqiqəti göstərir: hər insan qeyd-şərtsiz qədərinə təslim olmuşdur. İnsan necə keçmişini dəyişdirə bilmirsə,

gələcəyini də dəyişdirə bilməz. Çünki keçmişi kimi gələcəyi də yaşanmışdır; gələcəyindəki bütün hadisələr, nə zaman, harada, nə yemək yeyəcəyi, necə, harada öləcəyi-hamısı məlumdur və bunları dəyişdirə bilməz. Çünki bunlar onsuz da Allah qatında, Allahın hafizəsində yaşanmış şəkildə mövcuddur. Sadəcə bunların məlumatı hələ onun hafizəsində deyil.

Ona görə başlarına gələn hadisələrə kədərlənən, əsəbiləşən, qışqıran, gələcəyi üçün narahat olan və hirslənənlər əslində özlərini boş yerə üzürlər. Çünki necə olacağından qayğı və qorxu duyduqları gələcəkləri onsuz da yaşanmışdır və nə etsələr də, bunları dəyişdirmə imkanları yoxdur. Burada bir cəhətə diqqət edilməlidir: yanlış qədər anlayışından qaçmaq lazımdır. Bəzi insanlar: "Onsuzda qədərimdə nə varsa, o da olacaq, elə isə mənim nəsə etməyimə ehtiyac yoxdur", -deyərək səhv qədər anlayışı əmələ gətirirlər. Hər yaşadığımızın qədərimizdə müəyyən edildiyi həqiqətdir. Biz hələ o hadisəni yaşamazdan əvvəl, o hadisə Allah qatında yaşanmışdır və məlumatı da bütün detalları ilə Allah qatındakı Lövhi-məhfuz adlı kitabda yazılmışdır. Ancaq Allah hər insana sanki hadisələri dəyişdirməyə, öz qərar və seçiminə görə hərəkət etməyə imkanı var imiş kimi hiss verir. Məsələn, insan su içmək istədikdə bunun üçün: "Qədərimdə varsa, içəcəyəm", -deyərək oturub gözləməz. Bundan ötrü qalxar, stəkanı alar və suyunu içər. Həqiqətən də qədərində müəyyən edilmiş stəkanda, müəyyən edilmiş miqdarda suyu içir. Ancaq bunları edərkən öz iradəsi və istəyi ilə etdiyini hiss edir və həyatı boyu bu hissi hər etdiyi işdə yaşayır. Allaha və Allahın yaratdığı qədərinə təslim olmuş insan ilə bu həqiqəti qavraya bilməyən insan arasındakı fərq budur: təslimiyyəti olan insan özü etdiyi hissini yaşamasına baxmayaraq, bunların hamısını Allahın istəyi ilə etdiyini bilir. Digəri isə hər etdiyini öz ağlı və gücü ilə etdiyini zənn edərək yanılır.

Məsələn, xəstəliyi olduğunu öyrənən təslimiyyətli insan bunun qədərində olduğunu bildiyi üçün çox təvəkküllü davranır. "Allah bunu qədərimdə yaratdığına görə, mütləq böyük xeyir var", -deyə düşünür. Amma: "Onsuzda, qədərimdə sağalmaq varsa, sağalacağam", -deyərək tədbir almadan gözləməz. Əksinə, mümkün olan bütün tədbirləri görər. Həkimə gedər, qidalanmasına diqqət edər, dərmanlarını qəbul edər. Ancaq getdiyi həkimin, həkimin yazdığı müalicənin, qəbul etdiyi dərmanların, bunların ona nə qədər təsir edəcəyinin, sağalıb-sağalmayacağının, qısaca desək, hər detalın qədərində olduğunu unutmaz. Bunların hamısının Allahın hafizəsində hələ o, dünyaya gəlməzdən əvvəl hazır şəkildə olduğunu bilir. Allah Quranda insanların yaşadıqları hər şeyin əvvəlcədən bir kitabda yazılı olduğunu belə bildirir:

**Yer üzündə baş verən və sizin öz başınıza gələn elə bir müsibət yoxdur ki, Biz onu yaratmamışdan əvvəl o, bir kitabda yazılmamış olsun. Bu,**





**İnsan necə keçmişini dəyişdirə bilməzsə, gələcəyini də dəyişdirə bilməz. Buna görə, hadisələr qarşısında gərginlik keçirənlər, əsəbiləşənlər, qədərə təslim ola bilməməyin nəticə gətirməyən sıxıntı və çətinliyini yaşayırlar.**

**Allah üçün çox asandır! Bu, sizin əlinizdən çıxana kədərlənməməyiniz və sizə də verilənə sevinib qürrələnməməyiniz üçündür. Allah özünü bəyənən, (özü ilə) fəxr edən heç bir kəsi sevməz! (Hədid surəsi, 22-23)**

Elə buna görə, qədərə iman gətirən insan başına gələn heç bir hadisəyə görə kədərlənməz, ümidsizliyə qapılmaz. Əksinə, son dərəcə təvəkküllü, təslimiyyətli və daima rahat olar. Çünki Allah insanların başlarına gələn hər şeyin əvvəlcədən müəyyən olduğunu, buna görə başlarına gələn çətinliklər üçün kədərlənməmələrini və onlara verilən nemətlərə görə azmamalarını əmr etmişdir. İnsanın qarşılaşdığı çətinliklər də, əldə etdiyi uğur və zənginliklər də Allahın təqdiri ilədir. Bunların hamısı Rəbbimizin insanları sınamaq üçün qədərlərində əvvəlcədən müəyyən etdiyi hadisələrdir. Bir ayədə bildirildiyi kimi, **"... Allahın əmri əzəli hökmdür!" (Əhzab surəsi, 38)**. Allah başqa bir ayəsində isə: **"Şübhəsiz ki, Biz hər şeyi qədər ilə yaratdıq" (Qəmər surəsi, 49)**, -deyə bildirir. Sadəcə insanların deyil, bütün canlıların, əşyanın, Günəşin, Ayın, dağların, ağacların, hər varlığın Allah qatında müəyyən edilmiş qədəri var. Məsələn, sınan antik vaza qədərində müəyyən edilən anda sınmışdır. Bir neçə əsrlik bu vaza hələ istehsal edilərkən kimlərin istifadə edəcəyi, hansı evin hansı küncündə, hansı əşyalarla birlikdə duracağı müəyyən edilmiş şəkildə istehsal edilir. Vazanın hər naxışı, üzərindəki hər rəng qədərdə əvvəlcədən müəyyən edilmişdir. Vazanın hansı gün, hansı saatda, hansı dəqiqədə, kim tərəfindən necə sınacağı da Allahın hifzində yaşanmış şəkildə durur. Hətta vazanın ilk dəfə istehsal edildiyi an, ilk dəfə satılmaq üçün vitrində qoyulduğu an, evin küncündə durduğu an və sınaraq qırıq-qırıq olduğu an, qısaca desək, antik vazanın əsrlərlə mövcud olduğu hər an Allah qatında tək bir an kimi mövcuddur. Vazanı sındıran şəxs bir neçə saniyə əvvəl bundan xəbərsiz ikən, Allah qatında

# *ALLAH BİZİM KEÇMİŞİMİZİ VƏ GƏLƏCƏYİMİZİ TƏK BİR AN KİMİ BİLİR VƏ GÖRÜR*



**Bu şəkildəki insanlar avtomobili görmədikləri kimi, avtomobildəkilər də yoldakı bu insanları görmürlər. Hər ikisi də bir-birlərindən "hal-hazırda" xəbərsizdirlər. Ancaq bu şəklə uzaqdan, fərqli yerdən baxan insan hər iki tərəfi də asanlıqla və bütün təfərrüatı ilə eyni anda görə bilir. İnsanın həyatına da eyni vəziyyət aiddir.**



**Bizim üçün keçmiş və gələcək var və biz zamandan asılı olduğumuz üçün gələcəyimizi ancaq zaman keçdikdən sonra görə bilərik. Ancaq Allah zamandan və məkandan uzaq olduğu üçün bizim keçmişimizi, gələcəyimizi və içində olduğumuz anı tək bir anda, bütün canlılığı və aydınlığı ilə görür. Məsələn, bir an sonra yoldakı insanları görən sürücünün ani bir tormozla dayanması da Allah qatında əvvəlcədən məlumdur və görülür.**

o an yaşanmışdır və məlumdur. Buna görə, Allah insanlara itirdiklərinə görə kədərlənməmələrini bildirir. Çünki əllərindən çıxan hadisələrdən dərs almalı, bunlarla tərbiyə olunmalı, bu hadisələrdəki hikmət və xeyirləri görərək daima qədərlərini yaradan sonsuz mərhəmətli, şəfqətli, ədalətli, qullarını əsirgəyən və qoruyan Rəbbimizə yönəlməlidirlər.

Ən mühüm həqiqətdən qafil yaşayan insanlar həyatları boyu daim təşviş və qorxu içində olurlar. Məsələn, uşaqlarının gələcəyi üçün təşviş keçirirlər. Hansı məktəbdə oxuyacağı, necə peşənin sahibi olacağı, sağlamlığı, necə yaşayacağı kimi məsələlərdə təvəkkülsüz halda səy göstərirlər. Əslində isə hər insanın hələ tək hüceyrə halından ilk oxuma-yazma öyrəndiyi ana, universitetə qəbul imtahanında verdiyi cavablardan həyatı boyu hansı şirkətdə nə iş görəcəyinə, hansı kağızları neçə dəfə imzalayacağına, harada və necə öləcəyinə qədər hər anı Allah qatında bəllidir. Bu hadisələrin hamısı Allahın hifzində gizli şəkildə durur. Məsələn, hal-hazırda hər insanın rüşeym halı, ibtidai sinifdəki vəziyyəti, universitetdəki vəziyyəti, 35 yaşını qeyd etdiyi anı, işə başladığı ilk günü, öldükdə mələkləri gördüyü an, yaxınları tərəfindən dəfn edildiyi və axirətdə Allaha hesab verdiyi anlar tək bir an kimi Allahın qatında mövcuddur. Belə olduqda hər anı Allahın qatında yaşanmış, görülmüş və hələ Allahın hafizəsində hazır şəkildə mövcud olan həyat üçün narahat olmaq, qorxu hiss etmək, kədərlənmək böyük qəflətdir. Nə qədər çalışsa da, nə qədər narahat olsa da, bir insanın özü də, uşağı da, həyat yoldaşı və yaxınları da özləri üçün Allah qatında hazır şəkildə mövcud olan həyatlarını yaşayacaqlar.

Elə isə ağıl və vicdan sahibi insan bu həqiqəti qavrayaraq Allaha və Allahın yaratdığı qədərə könüldən təslim olmalıdır. Əslində hər insan onsuz da Allaha təslim olmuş və boyun əymiş şəkildə yaradılmışdır. Çünki istəsə də, istəməsə də Allahın onun üçün yaratdığı qədərə boyun əyərək yaşayır. Qədəri inkar edən insan da qədərində "qədəri inkar etmək" olduğu üçün inkarçıdır.

Allaha könüldən təslim olaraq boyun əyənlər isə həm Allahın razılığını, rəhmətini və cənnətini qazanmağı ümid edə bilərlər, həm də dünyada və axirətdə əminlik və xoşbəxtlik içində rahat həyat yaşayarlar. Çünki Allaha təslim olan, Allahın yaratdığı qədərin onun üçün ən xeyirlisi olduğunu bilən insanı kədərləndirəcək, qorxudacaq, narahat edəcək heç bir şey yoxdur. Bu insan əlindən gəldiyi qədər səy göstərər, ancaq bu səyin də qədərində olduğunu, nə edərsə etsin, qədərində yazılı olanları dəyişdirməyə gücü çatmayacağını bilir.

Mömin Allahın yaratdığı qədərə təslim olacaq, bununla bərabər qarşılaşdığı hadisələr qarşısında əlindən gəldiyi qədər səbəblərə sarılacaq, tədbir görəcək, hadisələri xeyirə doğru yönləndirmək üçün çalışacaq, amma bütün bunların qədəri çərçivəsində həyata keçdiyi və Allahın ən xeyirlisini əvvəlcədən təqdir etdiyini dərk edəcək və rahat olacaqdır. Quranda bu cür davranışa misal olaraq











**Hər varlıq bir qədər ilə yaradılır. Hər hansı bir vaza hələ istehsal edilməzdən əvvəl kim tərəfindən, hansı modeldə istehsal ediləcəyi, kim tərəfindən, haradan satın alınıb hansı evin hansı küncünə yerləşdiriləcəyi və hansı gün hansı anda necə düşüb sınacağı Allah qatında məlumdur.**







**Bir avtomobil hələ istehsal edilməzdən əvvəl hansı rəngdə olacağı, kim tərəfindən satın alınacağı, hətta hansı metal tullantıları xarabalığında necə vəziyyətdə olacağı qədərində bəllidir.**

hz. Yaqubun övladlarının təhlükəsizliyi üçün aldığı tədbirdən bəhs olunur. Hz. Yaqub pis niyyətli insanların diqqətini çəkməmələri üçün oğullarına şəhərə ayrı-ayrı qapılardan girməyi nəsihət etmiş, amma bunun Allahın müəyyən etdiyi qədərə əsla təsir etməyəcəyini də onlara xatırlatmışdır:

**Dedi: "Oğullarım! Eyni bir qapıdan girməyin, ayrı-ayrı qapılardan daxil olun. Bununla belə, mən Allahın qəza-qədərini sizdən heç bir şeylə dəf edə bilmərəm. Hökm yalnız Allahındır. Mən ancaq Ona təvəkkül etdim. Qoy təvəkkül edənlər də ancaq Ona təvəkkül etsinlər!" (Yusif surəsi, 67)**

Allah insanların nə etsələr də, qədərlərini dəyişdirə bilməyəcəklərini bir ayədə belə bildirir:

**Bu qəm qüssədən sonra Allah sizə rahatlıq üçün xəfif bir uyğu göndərdi. O, sizin bir qisminizi bürüdü. O biri qisminiz isə ancaq öz canlarının harayına qalaraq: "Bu işdə bizim üçün bir şey varmı?" - deyə Allaha qarşı haqsız yerə, cahiliyyətə xas olan düşüncələrə qapıldılar. Onlara de: "Əlbəttə, bütün işlər Allaha məxsusdur". Onlar sənə açıb bildirmədikləri şeyləri öz ürəklərində gizlədərək: "Əgər bu işdə bizim üçün bir şey olsaydı, elə buradaca öldürülməzdik", - deyirlər. De: "Əgər siz evlərinizdə olsaydınız belə, alınlarına ölüm yazılmış kəslər yenə çıxıb əbədi yatacaqları yerlərə gedərdilər ki, Allah sizin ürəklərinizdə olanları yoxlayıb aşkara çıxartsın və qəlblərinizdə olanları təmizləsin. Allah ürəklərdə olanları biləndir!" (Ali-İmran surəsi, 154)**

Ayədən də göründüyü kimi, insan ölməmək üçün xeyir və ibadət olan işdən qaçsa belə, əgər ona ölüm yazılmışsa, onsuz da öləcəkdir. Hətta ölümdən qaçmaq üçün əl atdığı yollar və üsullar da qədərində bəllidir və hər insan qədərindəki hadisəni yaşayacaqdır. Allah bu ayədə də insanlara qədərlərində yaratdığı hadisələrin məqsədinin onları sınamaq və onların qəlblərini təmizləmək olduğunu bildirir. "Fatir" surəsində isə hər insanın ömrünün Allah qatında bəlli olduğu, ana bətninə düşən körpələrin də Allahın izni ilə olduğu bildirilir:

**Allah sizi torpaqdan, sonra nütfədən xəlq etmiş, sonra da sizi cüt-cüt yaratmışdır. O bilmədən heç bir qadın hamilə olmaz və bari-həmlini yerə qoymaz. Ömür sahibi olan birinin uzun ömür sürməsi də, onun ömrünün qısaldılması da ancaq kitabda yazılmışdır. Həqiqətən, bu, Allah üçün çox asandır. (Fatir surəsi, 11)**

"Qəmər" surəsinin aşağıdakı ayələrində isə insanın hər etdiyinin sətir-sətir yazılı olduğu bildirilərkən, cənnət əhlinin yaşadıqları da yaşanmış şəkildə danışılır. Daha əvvəl də bildirildiyi kimi, cənnətdəki gerçək həyat bizim üçün gələcəkdir. Ancaq cənnətdə olanların həyatları, söhbətləri, ziyafətləri hal-hazırda Allahın hifzində mövcuddur. Biz doğulmadan əvvəl də bütün bəşəriyyətin dünyadakı və axirətdəki gələcəyi Allah qatında bir an içərisində yaşanmışdır və Allahın hifzində mühafizə edilir:

**Onların etdiyi hər şey dəftərlərdədir!**
**Hər bir kiçik və böyük yazılmışdır!**
**Şübhəsiz ki, müttəqilər cənnət bağlarında və çaylar kənarında,**
**Haqq məclisində, qadir hökmdarın (Allahın) hüzurunda olacaqlar! (Qəmər surəsi, 52-55)**

Allah qatında zamanın tək bir an olduğunu, Allah üçün keçmiş və gələcək olmadığını Quranda istifadə edilən bu üslubdan anlayırıq. Göründüyü kimi, bizim üçün gələcək zamanda olacaq bəzi hadisələr Quranda çoxdan olub-bitmiş hadisə kimi danışılır. Çünki Allah keçmişi də, gələcəyi də bir an kimi artıq yaratmışdır. Buna görə, gələcəkdə olacağı danışılan hadisə artıq olub-bitmişdir. Amma biz görmədiyimiz üçün onu gələcək zənn edirik. Məsələn, axirətdə insanların Allaha verəcəkləri hesabın bildirildiyi ayələr çoxdan olub-bitmiş hadisə kimi bəhs edilir:

**Sur çalınacaq, Allahın göylərdə və yerdə olan istədiyi kimsələrdən başqa, dərhal hamı yıxılıb öləcək. Sonra bir daha çalınan kimi onlar qalxıb (Allahın əmrinə) müntəzir olacaqlar!**

**Yer öz Rəbbinin nuru ilə işıqlanacaq, kitab qoyulacaq, peyğəmbərlər və şahidlər gətiriləcək, onlar arasında ədalətlə hökm olunacaq və onlara haqsızlıq edilməyəcəkdir! Hər kəs öz əməlinin cəzası veriləcəkdir! Allah onların nə etdiklərini ən yaxşı biləndir! Kafirlər dəstə-dəstə cəhənnəmə sürüklənəcəklər. Nəhayət, ora çatınca onun qapıları açılacaq və cəhənnəm gözətçiləri onlara deyəcəklər: "Məgər sizə öz içərinizdən Rəbbinizin ayələrini oxuyan, sizi bu gününüzə qovuşacağınızla qorxudan peyğəmbərlər gəlməmişdi?" Onlar isə: "Bəli (gəlmişdi), lakin əzab sözü kafirlər barəsində vacib oldu!" – deyə cavab verəcəklər. (Onlara) belə deyiləcək: "Girin cəhənnəmin qapılarına orada əbədi qalmaq üçün!" təkəbbür göstərənlərin məskəni necə də pisdir! Rəbbindən qorxanlar da dəstə-dəstə Cənnətə gətiriləcəklər. Nəhayət, ora çatınca onun qapıları açılacaq və (cənnət) gözətçiləri: "Salam əleykum! Xoş gəldiniz! Əbədi qalacağınız cənnətə daxil olun!" – deyəcəklər. (Zumər surəsi, 68-73)**

Bu barədə digər misallar isə belədir:

**Hər bir kəs bir sürüyən və bir də şahidlə gəlmişdir. (Qaf surəsi, 21)**

**Və (göy) süst düşüb parçalanmışdır. (Haqqə surəsi, 16)**

**Və onları etdikləri səbir müqabilində cənnətlə və ipəklə mükafatlandırmışdır. Onlar orada taxtlara söykənmiş, orada nə günəş, nə də sərt soyuq görəcəklər. (İnsan surəsi, 12-13)**

**Cəhənnəm də hər görənə görünəcəkdir. (Naziat surəsi, 36)**

**Bu gün isə möminlər kafirlərə gülürlər. (Mütəffifin surəsi, 34)**

**Günahkarlar atəşi görüncə ona düşəcəklərini yəqin etmiş və oradan baş götürüb qaçmağa bir yer tapa bilməmişlər. (Kəhf surəsi, 53)**

Yuxarıdakı ayələrdə ölümümüzdən sonra yaşanacaq hadisələrdən yaşanmış və bitmiş hadisələr kimi bəhs edilir. Çünki Allah bizim bağlı olduğumuz nisbi zaman ölçüsündən və məkandan uzaqdır. Allah bütün hadisələri zamansızlıqda diləmiş, insanlar bunu etmiş, bütün bu hadisələr yaşanmış və nəticələnmişdir. Böyük-kiçik hər hadisədən Allahın xəbəri olduğunu və bir kitabda qeyd olunduğu həqiqəti isə aşağıdakı ayədə belə xəbər verilir:

**Sən nə iş görsən, Qurandan nə oxusan, nə iş görsəniz, onlara daldığınız (onları etdiyiniz) zaman Biz sizə şahid olarıq. Yerdə və göydə zərrə qədər bir şey sənin Rəbbindən gizli qalmaz. Ondan daha böyük, daha kiçik**





# SONSUZ ZAMAN ALLAHIN HAFİZƏSİNDƏ QORUNUR

**elə bir şey də yoxdur ki, açıq-aydın kitabda olmasın! (Yunus surəsi, 61)**

Maddənin əsli ilə heç vaxt təmasda olmadığımızı və gördüyümüz hər şeyin beynimizdə əmələ gələn hisslər olduğu həqiqətini tam qavraya bilməyən bəzi insanlar müxtəlif səhv fikirlərə düşür, bu həqiqətdən səhv nəticələr çıxarırlar. Məsələn, bir qismi maddənin xəyal olduğuna dair izahları "maddə yoxdur" kimi anlayırlar. Bir qismi isə maddənin ancaq biz gördüyümüz zaman xəyal kimi mövcud olduğunu, ancaq görmədikdə yox olduğunu zənn edirlər. Bunların heç biri doğru deyil. Əvvəla, "maddə yoxdur" və ya "insanlar, ağaclar, quşlar... bunların heç biri yoxdur" demək qətiyyən doğru deyil. Çünki bunların hamısı var və hamısını Allah yaratmışdır. Ancaq Allah bütün bu varlıqları kitabın əvvəlindən bəri izah etdiyimiz kimi bizim üçün görüntü, hiss kimi yaratmışdır. Yəni Allah bu varlıqları yaratdıqdan sonra onları öz başlarına (qaim) olan sabit varlıqlar etməmişdir. Hər birini hər an yaratmaqda davam edir. Biz görsək də, görməsək də, bu varlıqlar Allahın hafizəsində sonsuzluğa qədər mövcuddur. Bizdən əvvəlkilər kimi, bizdən sonrakı varlıqları da Allah tək bir an içərisində onsuz da yaratmışdır. Zamanın hiss olması mövzusunda izah edildiyi kimi, zamanı da Allah yaratmışdır və Allah zamandan uzaqdır. Ona görə, bizim üçün gələcəkdə var olacaq varlıqlar da əslində Allah qatında "tək bir an" içərisində yaradılmışlar və hal-hazırda mövcuddurlar. Ancaq biz zamandan asılı olduğumuza görə, onları hələ görə bilmərik.

Gələcəkdə görə biləcəyimiz və ya bizim üçün gələcəkdə mövcud olacaq varlıqlar necə Allahın hafizəsində hər an mövcuddurlarsa, keçmişdəkilər də eyni şəkildə, heç itmədən Allahın hafizəsində mövcuddurlar. Məsələn, sizin rüşeym kimi ana bətnindəki halınız, oxuma-yazmağa başladığınız bu günkü halınız, ilk dəfə qiymət vəsiqənizi əlinizə aldığınız an, ilk dəfə avtomobil istifadə etdiyiniz an, bir gün avtobusda yer verdiyiniz yaşlı qadının üzündəki təbəssümün olduğu an kimi, keçmişdə yaşadığınız bütün anlarla yanaşı gələcəkdə yaşayacağınız bütün anlar da hal-hazırda Allahın hifzindədir və heç itmədən sonsuzluğa qədər qalacaqlar.

Yolda gedərkən ayağınıza ilişən daş parçası qədərdə siz hələ doğulmamış ayağınıza ilişəcəyi vaxt müəyyən edilmiş şəkildə yaradılmışdır. O



**İnsanın yaşadığı heç bir an itməz, Allahın hafizəsində bütün canlılığı ilə sonsuzluğa qədər saxlanılır.**

## *ALLAH BİZİM KEÇMİŞİMİZİ VƏ GƏLƏCƏYİMİZİ TƏK BİR AN KİMİ BİLİR VƏ GÖRÜR*





**Şəkildə gördüyünüz kəpənəyin hələ yumurta olduğu anından barama halına, baramadan çıxıb uçmağa başladığı andan ölüb zibillərə qarışdığı halına qədər hər halı hal-hazırda Allah qatında canlı şəkildə mövcuddur. Kəpənək Allahın hafizəsində hal-hazırda baramadan çıxır, hal-hazırda uçmağa başlayır və hal-hazırda ölərək yerə düşür.**

daşın daha böyük qayadan qopduğu, bütün girinti-çıxıntılarının əmələ gəldiyi hər mərhələ Allah qatında siz hələ o daş ayağınıza ilişmədən əvvəl mövcuddur. Eyni şey zibil qutusunda gördüyünüz ölü kəpənək və ya başınıza ağacdan düşən quru yarpaq üçün də keçərlidir. Kəpənəyin hələ tırtıl halından baramadan çıxmasına, qanadlarını qurutduğu andan yerdəki zibilə qarışdığı ana qədər hamısı qədərdə sonsuz başlanğıcdan məlumdur. Allah qatında bu kəpənəyin canlı halları və ölü halı heç itmədən durur və sonsuzluğa qədər durmaqda davam edəcəkdir.

## Bütün hadisələr "Lövhi-məhfuz" adlı kitabda qeyd olunmuşdur

Əvvəlki bölmədə də izah etdiyimiz kimi, Allah bizim üçün keçmiş və gələcək bütün hadisə və varlıqları tək bir anda yaratmışdır. Quranda bütün insanların və varlıqların qədərlərinin Allah qatında Lövhi-məhfuz adlandırılan əsas kitabda qorunduğu belə bildirilir:

**... Dərgahımızda (hər şeyi) hifz edən bir Kitab vardır! (Qaf surəsi, 4)**

**Göylərdə və yerdə elə bir gizli şey yoxdur ki, açıq-aydın Kitabda (Lövhi-Məhfuzda) olmasın! (Nəml surəsi, 75)**

Allah başqa ayələrində də göylərdə və yerdə olan hər şeyin bu kitabda olması həqiqətini belə xəbər verir:

**İnkar edənlər: "Qiyamət bizə gəlməyəcəkdir!" - dedilər. De: "Xeyr, qeybi bilən Rəbbimə and olsun ki, qiyamət sizə gələcəkdir. Nə göylərdə, nə də yerdə zərrə qədər bir şey Ondan gizli qalmaz. Bundan kiçik, yaxud böyük elə bir şey yoxdur ki, açıq-aydın kitabda olmasın!" (Səba surəsi, 3)**

Ayələrdə də bildirildiyi kimi, kainat yaradıldığından bəri mövcud olan canlı-cansız hər şey, baş verən hər hadisə Allahın yaratmasıdır və ona görə, bunlardan Onun xəbəri vardır; yəni bütün bunlar Allahın hifzindədir. Lövhi-məhfuz da Allahın Hafiz sifətinin bir təzahürüdür.

## Keçmiş və gələcək əslində "hal-hazırda" yaşanmaqdadır

Allah qatında zaman olmadığı üçün bütün hadisələr tək bir anda həyata keçir və o, "hal-hazırki an"dır. "Hal-hazırda" bizim üçün keçmiş və gələcək olan bütün hadisələr Allah qatında bizim hadisələri gördüyümüzdən daha aydın və canlı şəkildə baş verir. Məsələn, hz. Yunus hal-hazırda gəmidəki tələ nəticəsində dənizə atılır, hz. Yusif hal-hazırda qardaşları tərəfindən quyuya atılır, hal-hazırda zindandakı ilk yeməyini yeyir, zindandan hal-hazırda çıxaraq yeriyir. Hz. Məryəm hal-hazırda Cəbrayıl ilə danışır, hz. İsa hal-hazırda doğulur. Hz. Nuh gəmisinin ilk mismarını hal-hazırda vurur, hz. Nuh və ailəsi hal-hazırda gəmidən Allahın onları üçün seçdiyi torpaqlara enirlər. hz. Musanın anası onun beşiyini hal-hazırda gəmidən buraxır, hz. Musa hal-hazırda sıx meşəlikdə Allahdan ilk vəhyini alır, dəniz hal-hazırda iki yerə yarılır, inananlar hal-hazırda dənizdən keçərkən Firon hal-hazırda ordusu ilə birlikdə boğularaq ölür. Hz. Musa hal-hazırda Xızırla görüşür, Xızır da yetim uşaqların divarını hal-hazırda sökür. Hz. Zülqərneyndən onları qorumaq üçün sədd inşa etməsini istəyənlər tələblərini hal-hazırda ona çatdırırlar və hz. Zülqərneyn qiyamətə qədər deşilməz və keçilməz səddi hal-hazırda inşa edir. Hz. İbrahim atasına hal-hazırda nəsihət edir, bütpərəst tayfanın bütlərini hal-hazırda sındırır və tayfasının onu atdığı atəş hz. İbrahimə hal-hazırda sərinlik verir. Hz. Muhəmməd (s.ə.v.) hal-hazırda Cəbrayıldan vəhy alır, elə indicə Məscidül-həramdan əl-Əqsa məscidinə aparılır.

Lut qövmü hal-hazırda yerlə bir olur. Cənnət əhli hal-hazırda taxtlarda oturaraq qarşılıqlı söhbət edirlər. Cəhənnəm əhli isə hal-hazırda oda atılır, böyük əzab və faydası olmayan peşmançılıq içində əzab çəkirlər.

Allah bu görüntülərin hamısını "hal-hazırkı anda" bizim bilməyimiz mümkün olmayan tam aydın şəkildə görür və eşidir. Bizim şahid olduğumuz və olmadığımız bütün hadisələr və bütün səslər Allah qatında hər an hazırdır və bütün canlılığı ilə hər an yaşayır. Bunların heç biri heç vaxt itmir, hər zaman Allahın hafizəsində bütün detalları ilə yaşanır.

Bu həqiqət sizin həyatınıza da aiddir. Məsələn, babanızdan sizə qalan evin bünövrəsi əslində hal-hazırda qoyulur. Atanız bu evdə hal-hazırda doğulur. Sizin ilk dəfə danışmağa başladığınız an da hal-hazırkı andır. Bu gününüzdən tam 10 il sonra yediyiniz yeməyi əslində hal-hazırda yeməkdəsiniz.

Bütün bu misalların qarşımıza bir daha çıxardığı həqiqət budur: heç bir an, heç bir kadr, heç bir hadisə, heç bir varlıq yox olmamışdır və olmayacaqdır. Necə televizorda seyr etdiyimiz bir film lentinə qeyd edilmişdirsə, müxtəlif kadrlardan ibarətdirsə və bu kadrları bizim görməməyimiz onların olmadığı mənasına gəlmirsə, bizim "keçmişdə yaşanmış" və ya "gələcəkdə yaşanacaq" dediyimiz hadisələrə də eyni şey aiddir.

Ancaq bir cəhətin səhv başa düşülməməsi çox vacibdir: bu səhnələrin heç





**Keçmişdə qalmış hadisələr "hal-hazırda" Allahın hafizəsində çox canlı və aydın şəkildə yaşanır. Məsələn, piramidaları inşa edən işçilər materialları hal-hazırda daşıyırlar, hal-hazırda yorulurlar, hal-hazırda susayaraq su içirlər.**









**Hz. Musa və yanındakılar hal-hazırda yarılan dənizdən keçərək qurtululurlar. Fironun ordusu hal-hazırda birləşən dənizin içində boğulur. Hz. Nuhun gəmisi və hz. Süleymanın sarayı hal-hazırda inşa edilir və bütün bu hadisələr bizim bildiyimizdən daha aydın və canlı şəkildə hal-hazırda Allahın hafizəsində mövcuddurlar.**









**Bir banan ağacının toxumunun torpağa düşməsindən bananların ağacdan dərilməsinə, o bananların marketə gətirilməsinə, marketdə satılıb nəhayət meyvə səbətinə qoyulmasına qədər hər anı tək bir an şəklində Allahın hafizəsində saxlanılır. Hər anı Allahın qatında canlı şəkildə yaşanır. Bananın heç bir halı Allah qatında yox olmaz, sonsuzluğa qədər saxlanılır.**





**Bu uçan binanın hər anı Allahın hafizəsində hər an hazır durur. Binanın bünövrəsinin ilk dəfə qoyulduğu andan uçub yerlə bir olduğu ana qədər hər anı sonsuzluğa qədər itmədən hazır duracaq.**

biri xatirə və ya xəyal kimi deyil. Bunların hamısı eynilə hal-hazırda yaşadığınız an kimi canlıdır. Hər şey diri şəkildə qorunur. Biz yalnız Allah bizə bu hissləri vermədiyi üçün onları keçmiş, bitmiş hadisələr kimi görürük və Allah istədiyi vaxt bizə bu görüntüləri göstərə bilər, bu hadisələrə aid hissləri verərək bizə də bu hadisələri yaşada bilər.

Bu misallardan da göründüyü kimi, Allah üçün keçmiş, gələcək, indi- hamısı birdir. Elə buna görə, Allaha heç bir şey gizli qalmır. Belə ki, ayədə də Rəbbimiz bu həqiqətə belə diqqət çəkmişdir:

> **Dedi: "Oğlum, bir xardal dənəsi ağırlığında olsa da, bir qayanın içində, yaxud göylərdə və ya yerin təkində olsa da, Allah onu ortaya gətirər. Həqiqətən, Allah lətifdir, xəbərdardır! (Loğman surəsi, 16)**

## Allah cənnətdə istəyənə keçmişi eynilə göstərə bilər

Cənnətdəki qul əgər istəsə, Allah ona dünya həyatından hadisələri eynilə göstərə bilər (doğrusunu Allah bilir). Məsələn, cənnətdəki insan Allahdan ölmüş itinin canlı halını, yanmış evinin yanmadan əvvəlki halını, Titanik gəmisinin batmadan əvvəlki halını görmək istədikdə Allah ona bunların hamısını göstərəcəkdir. Həm də o ankı ən canlı hallarını. Məsələn, Titanik dənizdə səyahət edərkən, o anda ətrafda olan bütün balıqlar yenə eyni yerlərində olacaq, içində olan insanlar yenə eyni mövzuları, eyni kəlmələrlə danışacaqlar. Keçmişdə yaşamış böyük sivilizasiyalar ən ehtişamlı dövrləri ilə, quruluşları ilə, zənginlikləri ilə birlikdə görünəcəkdir. İnk mədəniyyətini görmək istəyən insan bu mədəniyyətin hər dövrünü istədiyi an görə biləcəkdir. Allahın hafizəsində

# YAŞANAN HEÇ BİR AN ALLAH QATINDA YOX OLMAZ



# *İNSAN YAŞADIĞI HƏR ANI FİLMİN KADRLARI KİMİ NÖVBƏSİ ÇATDIQDA İZLƏYƏR*



hər hadisə sonsuzluğa qədər eyni canlılıqla yaşanmaqda davam etdiyi üçün insan istədiyi hər şeyi eyni ilə hazır tapacaqdır.

Allah bir ayəsində **"...orada sizin üçün nəfsinizin çəkdiyi, istədiyiniz hər şey vardır" (Fussilət surəsi, 31),** -deyərək cənnətdə insanın istədiyi hər şeyə sahib olacağını bildirir. İnsanlara kədər verməyəcək, onları sevindirəcək, dünyaya aid hər görüntü və hadisəni Allah cənnətdəki qullarına istədikləri anda göstərəcəkdir. Bu, Rəbbimizin cənnətə layiq qulları üçün hazırladığı böyük nemətdir.

## Bu mövzunun insanlar üçün əhəmiyyəti

Bu mövzu insanlar üçün böyük əhəmiyyət daşıyır. Çünki bizim gün ərzində yaşadığımız və hətta axşam olduqda belə unutduğumuz hər danışığımız, hər davranışımız, hər baxışımız, fikrimizdən keçirdyimiz hər düşüncə Allah qatında unudulmur və eynilə mühafizə edilir. Məsələn, dostu ilə söhbət edərkən dedi-qodu edən insan buna əhəmiyyət vermir, hətta unudur. Ancaq onun dedi-qodu etdiyi an Allah qatında sonsuzluğa qədər qalır. İçindən müsəlmanlar əleyhinə fikir keçən insanın o düşüncəsi onu düşündüyü andakı üzünün ifadəsi, içindən keçirdiyi cümlələr, Allah qatında sonsuzluğa qədər durur. Özü ac olmasına baxmayaraq, fədakarlıq edərək dostunu doyuran insanın fədakarlığı, o andakı vəziyyəti, baxışı, düşüncələri də Allah qatında itmədən sonsuzluğa qədər qalacaqdır. Qarşısına çıxan çətinliyə Allah rizası üçün səbir edən, ona sıxıntı verən insana gözəl söz deyən insanın gözəl əxlaqlı davranışı da heç vaxt itmədən sonsuza qədər mühafizə edilir. Allah axirət günündə hər kəsi etdiyi bu yaxşı və pis davranışlara görə sorğu-sual edəcək. İnsanların etdikləri halda unutduqları şeylər heç unudulmadan və ya dəyişikliyə uğramadan qarşılarına çıxacaqdır. Hətta bəzi şəxslər sorğu-sual zamanı ona verilən kitabın nə qədər hərtərəfli olduğuna təəccüb edəcək və belə deyəcəklər:

> **Əməl dəftəri qarşılarına qoyulmuşdur. Günahkarların orada olanlardan qorxduqlarını görürsən. Onlar belə deyirlər: "Vay halımıza! Bu necə bir kitab imiş! O, bizim heç bir kiçik və böyük günahımızı gözdən qaçırmadan hamısını sayıb yazmışdır ki!" Onlar etdikləri bütün əməllərin hazır durduğunu görmüşlər. Rəbbin heç kəsə haqsızlıq etməz! (Kəhf surəsi, 49)**

Buna görə, bu həqiqətin fərqində olan hər bir insan hər davranışının və düşüncəsinin sonsuzluqda saxlandığını, sonsuzluğa qədər Allahın hafizəsində mövcud olmağa davam edəcəyini heç unutmamalı və axirətdəki sorğu-sualdan qorxub çəkinməlidir.

# *ZAMANSIZLIĞI VƏ SONSUZLUĞU İZAH EDƏN FİZİK*

*"The end of the time"* (Zamanın sonu) kitabının müəllifi məşhur fizik Julian Barbour "Discover" jurnalı tərəfindən aparılan müsahibəsində bu bölmədə toxunduğumuz mövzuların elmi həqiqətlər olduğuna diqqət çəkir. Julian Barbourun "Buradan sonsuzluğa" başlığı altında dərc edilən müsahibəsində bildirdiyi mövzular və yazını hazırlayan "Discover" jurnalının jurnalisti Tim Folgerin şərhlərindən bəziləri belədir:

> Barbourun fikrincə bu an və bu an içində olanlar – Barbourun özü, amerikalı qonaq və uzaq qalaktikalara qədər olan hər şey – heç dəyişməyəcək. Nə keçmiş var, nə də gələcək. Əslində zaman və hərəkət illüziyadan başqa bir şey deyil. Barbourun kainatında hər fərdin həyatındakı hər an – doğulma, ölüm və bunların arasındakı hər şey- sonsuzluğa qədər mövcuddur. Barbour belə deyir: "Yaşadığımız hər an əslində sonsuzdur".
>
> Kainatın mümkün olan hər konfiqurasiyası, keçmiş zaman və gələcək ayrı-ayrı və sonsuzluğa qədər mövcuddur. Zamanda səyahət edən hər hansı kainatda yaşamırıq. Əksinə, bizlər və ya özümüzün fərqli versiyaları hər hansı bir zamanda, içində hər şeyi ehtiva edən kainatda, bir çox sabit və sonsuzluğa qədər davam edən rəsmdə eyni zamanda mövcuduq. Barbour bunların hər birinə mümkün sabit həyat konfiqurasiyaları, yəni "indi" deyir. Hər "indi" əksiksiz, öz-özünü ehtiva edən zamansız, dəyişməyən kainat. Əslində hər biri sonsuzluğadək davam edərkən bizlər səhvən "indi"ləri tez keçib gedən kimi hiss edirik, çünki kainat kəlməsi bütün mümkün "indi"ləri əhatə etmək üçün çox kiçikdir. Barbour bunun üçün yeni bir söz törətdi: platoniya. Hisslərimizlə qavradığımız fiziki dünya sabit şəkildə davam edən kimi görünsə də, bu adı gerçəkliyin sonsuz və dəyişməyən formalardan meydana gəldiyini iddia edən qədim yunan filosofunun şərəfinə qoymuşdu.
>
> (Barbour) gerçəklik anlayışını kinofilmin kadrlarına bənzədir.
>
> Hər kadr incə uzun otları, mavi göy üzündəki buludları, Julian Barbouru, təəccüb içində olan "Discover" jurnalistini, uzaqdakı qalaktikaları ehtiva edən mümkün "indi"ni ehtiva edir və hər hansı bir kadrdakı heç bir şey hərəkət etmir və dəyişmir.

“Bu həyatınızın mühüm anlarını xatırlamağa bənzəyir”, -deyir. “Bəzi səhnələri ani çəkilən fotoşəkil kimi çox aydın xatırlayırsınız. Bir dəfə özünü vuran insanı yıxılmaq məcburiyyətində qaldığımı xatırlayıram. Hələ qapını açdıqda onun pilləkənin aşağısında əlində silah qan içində yerdə yatarkən gördüyüm səhnəni xatırlamaqda çətinlik çəkmirəm. Bir fotoşəkil kimi yadımdadır. Bu cür xatırladığım hələ bir çox xatirəm var. İnsanların güclü görmə yaddaşları var. Əgər bu bir ani fotoşəkil deyilsə, onda xatırladığınız filmdən bir neçə səhnə də ola bilər. Bəlkə də ən mühüm xatirələrinizi düşünürsünüz. Bunları bir saniyədə düşünüb bitirə bilməzsiniz. Hamısını fikrinizdən ani fotoşəkillər kimi keçirirsiniz, elə deyil? Yavaş-yavaş yox olmazlar. Hər hansı bir davamlılığı varmış kimi görünmürlər. Sadəcə oradadırlar, eynilə kitabın səhifələri kimi. Bir səhifənin neçə saniyə davam etdiyini soruşa bilməzsiniz. Salisə və ya saniyə davam etməz, sadəcə orda durur”.

Barbour sakitcə qaçılmaz etirazları gözləyirdi. Elə isə bir növ bir kadrdan digərinə keçmirik? Xeyr. Kainatın sabit nizamından digərinə keçid yoxdur. Kainatın bəzi konfiqurasiyaları sadəcə “indi”ni əmələ gətirən keçmiş kimi təsvir edilən xatirələrlə şüur hissələrini ehtiva edir. Hərəkət illüziyası meydana gəlir, çünki bizlərin çox az fərqlənən bir çox versiyamız ki, bunların heç biri hərəkət etmir, eyni anda maddənin çox az fərqlənən nizamlamaları ilə birlikdə bu kainatlarda mövcuddurlar.

Hər versiyamız bənzərsiz, hərəkətsiz, sonsuz “indi”dən ibarət olan fərqli kadr görür. “Mənim fikrimcə, hər hansı iki anda heç vaxt eyni deyilik”, -Barbour deyir. “Barbourun evinin yanındakı kilsədə İngiltərədə çox nadir tapılan divar rəsmlərindən bəziləri var. 1340-cı ildə tamamlanan rəsmdə XII əsrdə yaşamış və inancları Karl II Henri ilə ziddiyyət təşkil edən Tomas Beketin öldürülməsi canlandırılıb. Divar rəsmi kralın qılıncının Beketin başını bədənindən ayırdığı anı təsvir edir. Kəsilən yerdən qan fışqırır”.

Əgər Barbourun nəzəriyyəsi doğrudursa, onda Beketin şəhid edildiyi an eynilə öz ölümümüz kimi, hələ sonsuz “indi” kimi kainatın hər hansı bir konfiqurasiyasında mövcuddur; dərk edilməyəcək qədər böyük, donmuş əsərin saysız hissəsindən bir dənəsi. Yaşadığımız bütün hadisələr sonsuzluğa qədər sabit qalacaqlar, eynilə ölümsüz zinət əşyasındakı kristallar kimi. Dostlarımız, ailəmiz, uşaqlarımız

hər zaman oradadırlar.

“Hər zaman tək bir ana bağlıyıq”, -Barbour deyir. Zamanın içindən keçmirik. Əksinə hər yeni an tamamilə fərqli kainatdır. Bütün bu kainatlarda heç bir şey hərəkət etmir və ya qocalmır, çünki heç birində zaman yoxdur. Kainatlardan biri sizin körpə ikən ananızın üzünə baxarkən olan halınızı saxlayır. Bu kainatdakı sabit görüntüdə heç bir yerə hərəkət etmirsiniz. Digər bir kainatda isə sonsuzluğa qədər ölümdən bir nəfəs uzaqda olacaqsınız. Bütün bu kainatlar və hələ bir çoxu yan-yana xəyal edilməyəcək ölçü və növdəki kosmosda daima mövcuddur. Beləliklə, ölümsüz sizdən sadəcə bir dənə yox, əksinə çoxdur: iməkləməyə başlayarkən, lovğa yelbeyin, yaşlandıqda. Faciəvi olan- bəlkə də xeyirli olan- bu versiyaların heç birinin öz ölümsüzlüyünü anlamamasıdır. Sonsuzluğa qədər 14 yaşında olub vətəndaşlıq dərsinin bitməsini gözləmək istərdiniz?” (Tim Folger, “Buradan sonsuzluğa, Discover, dekabr, 2000-ci il, səh. 54”)

Julian Barbourun yuxarıdakı açıqlamaları bu bölmədə izah edilənlərin elmi tərəfini çox yaxşı vurğulayır. Bu cəhətdən kitabın mövzusu ilə böyük uyğunluq təşkil edir. Ancaq bildirilməli əsas cəhət budur: Barbour keçmişdə yaşanan heç bir anın itmədiyini, ancaq bu hadisələrin kadr-kadr fotoşəkillər kimi hal-hazırkı anda mövcud olduqlarını bildirir.

Həqiqətən də keçmiş və gələcək Allahın hafizəsində hər an hazır şəkildə durur. Ancaq bunlar kadr-kadr fotoşəkillər kimi deyil hal-hazırda hərəkətli şəkildə yaşanırlar. Məsələn, hal-hazırda hz. Yusifin qardaşları hz. Yusifi quyuya salırlar. Misir piramidaları hal-hazırda inşa edilir, işçilər daşları yerləşdirirlər. Necə ki, biz hal-hazırda canlı şəkildə yaşayırıq, bu an içərisində Allah qatında bütün keçmiş və gələcək canlı şəkildə yaşanır.

Müasir dövrümüzdə fizika sahəsindəki irəliləyişlərlə elmi cəhətdən də sübut edilən bu həqiqətlər Quranda zamansızlıq və sonsuzluq haqqında bildirilən ayələrlə böyük uyğunluq təşkil edir. Allahın yaratmasındakı bu böyük möcüzə Allahın sonsuz qüdrətini və ucalığını göstərən qeyri-adi məlumat, üzərində diqqətlə düşünülməli və qavranılmalı böyük həqiqətdir.



# MADDƏNİN HƏQİQƏTİ MÖVZUSUNA GƏLƏN ETİRAZLARA CAVABLAR

Maddənin həqiqəti mövzusu son dərəcə açıq, aydın və başa düşülən olmasına baxmayaraq, daha əvvəlki mövzularda da toxunulduğu kimi, bəzi insanlar bir çox səbəbdən bu həqiqəti qəbul etməkdən qaçırlar və özlərini bilməməzliyə vururlar.

Bu həqiqəti öyrənən bir çox insan "maddənin ardındakı sirr"i öyrəndiklərinə görə, yaşadıqları qeyri-adi həyəcanı dilə gətirmiş, bu həqiqətin həyatlarını və bütün düşüncələrini kökündən dəyişdirdiyini bildirmişlər. Bir çox insan isə bu həqiqəti daha yaxşı qavraya bilmək üçün daha ətraflı suallar verərək mövzunu daha dərindən anlamağa çalışmışlar. Bu şəxslərdən bəzilərinin şərhlərini "maddənin sirrini öyrənənlər böyük bir həyəcan yaşayırlar" bölməsində görə bilərsiniz.

Bəzi kütlələr isə bu mövzunu kor-koranə rədd edir və öz ağılları ilə bəzi məntiqlər irəli sürərək bu qeyri-adi həqiqəti inkar etməyin yollarını axtarırlar. Əslində isə bu mövzunun rəddi elmi cəhətdən mümkün deyil. Bu mövzunu rədd edən insanın görüntünün və ya səslərin beyninin içində əmələ gəlmədiyini elmi cəhətdən sübut etməyi lazımdır. Amma gələn etirazların heç birində heç bir elm adamı, nevrologiya professoru, beyin mütəxəssisi, psixoloq, psixiatr və ya biologiya professoru – heç kim bütün hisslərimizin beynimizdə əmələ gəldiyini inkar etmir. Çünki bu elmi cəhətdən qəti olduğu bilinən həqiqətdir.

Buna baxmayaraq, bəziləri "görüntü beynimizdə əmələ gəldiyinə görə..." -deyə başlayan bir cümlənin ardınca açıq-aşkar bir həqiqətdən qaçmaq üçün bəzi söz oyunları edir, bu həqiqətin üstünü söz oyunları və ya təmtəraqlı elmi üslubla örtməyə çalışırlar. Bunun ən açıq nümunələrindən biri "görüntü beyində əmələ gəlir?" -deyə sual verilən bəzi elm adamlarının verdikləri cavablardır.

Bu elm adamlarından biri sözügedən suala belə cavab verirlər: *"Xeyr, beyində görüntü əmələ gəlmir. Gələn siqnallar əyani təcrübənin əsasını təşkil edən görüntü əmələ gətirirlər".*

İndi bu elm adamının həqiqətləri göz ardı etmək üçün istifadə etdiyi metodu nəzərdən keçirək. Bu elm adamı "görüntü beyində əmələ gəlir?" sualına əvvəlcə qəti şəkildə: "Yox", -deyir. Ardınca da gələn siqnallarla görüntünün görməyimizi təmin edən təsviri görüntünü əmələ gətirdiyini bildirir. Nəticədə verilən suala əslində: "Bəli", -deyir. Beyində əmələ gələn görüntü, əlbəttə, "təsviri görüntüdür". Yəni beynin içində heç vaxt masanın, günəşin və ya göy üzünün özü olmaz. Təsviri və ya başqa sözlə, görüntüsü olur. Biz də: "Dünyanı görürük", -deyərkən "təsviri dünyanı", "dünyanın surətini" və ya "xəyali dünyanı" görürük. Bunların hamısı eyni həqiqətin fərqli formalarda ifadəsidir.

Bu elm adamının etdiyi şey "beynimizdə gördüyümüz dünya təsviri dünyadır?" sualına: "Əsla yox, beynimizdə gördüyümüz dünyanın surətidir", -kimi cavab verməsidir. Yəni verilən sualı əvvəlcə qətiyyətlə inkar edib sonra ardınca da fərqli izahla, bir az daha qarışıq cümlələrlə əslində beynimizdə gördüyümüzü təsdiq edir. Bu, bəzi elm adamlarının bu həqiqəti qəbul etdikdə tək mütləq varlıq kimi qəbul etdikləri maddəni itirməyin gətirdiyi qorxu və həyəcan ilə üzləşdikləri səmimiyyətsiz metoddur.

Bəziləri isə görüntünün beynimizdə əmələ gəldiyini inkar etmir, amma yenə: *"Bəli, bütün dünyanı beynimin içində görürəm", -deməkdən qaçmaq üçün: "Beyin sadəcə gələn siqnalları şərh edir və sinir fəaliyyətlərini nizamlayır, beləliklə, görüntünü görür, səsi eşidirsiniz"*, -deyərək dolayı yolla cavab verirlər. Onsuz da əsas məsələ beyin bütün prosesləri etdikdən sonra görüntünün harada əmələ gəlməsidir. Bu elm adamının verdiyi cavab sualın cavabı deyil, görüntü əmələ gəlməzdən əvvəlki mərhələnin qısa izahıdır. Beyin gələn siqnalları şərh edir, ancaq sonra bu şərh etdiklərini yenidən gözə və ya qulağa geri göndərmir. Ona görə də görən göz, eşidən də qulaq deyil. Elə isə, beyin gələn siqnalları şərh etdikdən sonra nə edir? Bu şərh edilən məlumat harada qalır, bu məlumat görüntüyə və ya səsə harada çevrilir? Bu məlumatı görüntü kimi görən, səs kimi eşidən kimdir? Bu elm adamlarından istənilən cavablar bunlar ikən, onlar bir çox dolayı cavabla həqiqəti etiraf etməkdən qaçırlar. Əslində bu qədər açıq həqiqətlə bağlı mübahisə edilməsi böyük möcüzədir.

Ancaq bu etiraz və ya mövzudan qaçma üsullarının hamısı əsassız və zəifdir. Burada izah edilənləri inkar edən şəxsin bütün hisslərimizin beynimizdə əmələ gəlməsi həqiqətini inkar edəcək məlumatlara gəlmədikcə deyəcəklərinin dəyəri olmayacaq. Ancaq insan çox açıq həqiqəti qavradığı halda, bu görüntüləri əmələ gətirənin – öz fikrinə görə və cahil inadkarlıqla – Allah olduğunu inkar edə bilər; "Bu mövzu haqqında düşünmək əhvalımı pozur", -deyə bilər; "Maddənin əslini heç vaxt görə bilmədiyimi düşündükcə ürəyim sıxılır", "Həyatımın heç bir mənası qalmadı", -deyə bilər. Amma bunu dərhal bildirmək lazımdır ki, maddə mövzusundakı bu mühüm həqiqəti öyrənmək əsla əhvalı pozmur. Əksinə olaraq, Allahın üstünlüyü və gücünü daha dərindən təqdir eməyə, Allahın üstün yaratma sənətini daha yaxşı qavramağa, Allahı daha çox sevməyə, beləliklə, gördüyü bütün görüntülərin də Allahın təzahürləri olması şüuru ilə daha çox sevməyə, hamısından daha çox şövq almağa, imanda dərinləşməyə səbəbdir. Qısaca desək, çöx böyük nemətdir. Buna baxmayaraq, heçlik halına gəlib Allahdan başqa heç bir varlığın qalmaması imanın dərinləyini qavramamış bəzi insanlara ağır gələ bilər. Ancaq bu insanlar əsla: "Gördüklərimi gözlərimlə görürəm" və ya: "Gördüklərim xarici aləmdəki maddənin əslidir", -deyə bilməzlər. Çünki bunları sübut edəcək

heç bir elmi dəlilə və ya müşahidəyə malik deyillər, ola bilməzlər də. Onsuz da ən qatı materialist belə bütün görüntünü beynində gördüyünü qəbul edir.

Bu bölmədə, əsasən, bu həqiqəti qəbul etmək istəməyən şəxslərdən gələn etirazlara verilən cavablara yer veriləcək. Aşağıdakı etirazları və cavablarını oxuduqda, səmimi və obyektiv düşündükdə əslində bu sualların cavablarının çox açıq olduğunu siz də görəcəksiniz.

**Etiraz: "Yolda avtobus gördükdə əzilməmək üçün qaçırsınız. Deməli, avtobus var. Əgər beyninizdə görürsünüzsə, niyə qaçırsınız?"**

**Cavab:** Bu və buna bənzər sualları verənlərin yanıldıqları və anlaya bilmədikləri cəhət "hiss" məfhumunun sadəcə görmə hissi ilə bağlı olduğunu hesab edirlər. Əslində isə, təkcə görmə deyil, toxunma, vurma, zərbə, sərtlik, ağrı, isti, soyuq, nəm kimi bütün hisslər eynilə görmə kimi insanın beynində əmələ gələn hisslərdir. Məsələn, avtobusa minmək üçün avtobusun soyuq metalını əlində hiss edən insan əslində bu "soyuq metal hissini" beynində hiss edir. Bu çox açıq və məlum həqiqətdir. Toxunma hissi, daha əvvəl də bildirildiyi kimi, bir insanın - barmaqlarından gələn sinir oyanmalarının – beynin müəyyən nöqtəsində əmələ gətirdiyi hissdir. Hiss edən barmaqlarımız deyil. İnsanlar bunu elmi cəhətdən də açıqlandığı üçün qəbul edirlər. Ancaq məsələ avtobusun qapısını tutmaq deyil, avtobus insanı vurduqda, yəni bu toxunma hissi daha şiddətli və ağrılı olduqda, bu həqiqətin əsassız olduğunu hesab edirlər. Əslində isə ağrı və ya zərbə də beyində hiss edilir. Avtobusun vurduğu insan zərbənin şiddətini və bütün ağrını beynində hiss edir.

Bunu daha yaxşı anlamaq üçün yuxuları düşünmək faydalı olar. İnsan yuxuda da onu avtobus vurduğunu, qəzadan sonra gözünü xəstəxanada açdığını, əməliyyat edildiyini, həkimlərin danışıqlarını, ailəsinin narahatlıq içində xəstəxanaya gəldiyini, şikəst olduğunu görə bilər. Yuxuda yaşadığı bütün bu hadisələrin görüntülərini, səslərini, bərklik hissini, ağrını, işığı, xəstəxanadakı rəngləri, hər cür hissi çox parlaq və aydın hiss edir. Bunların hamısı gerçək həyatdakı kimi təbii və inandırıcıdır. O an yuxudakı birinin ona yuxu gördüyünü, gördüklərinin xəyal olduğunu desə, ona inanmaz. Əslində isə gördüklərinin hamısı xəyaldır və nə avtobusun, nə xəstəxananın, nə də yuxuda gördüyü bədəninin xarici aləmdə maddi qarşılığı var. Yuxuda gördüyü bədənin və avtobusun maddi qarşılıqları olmasına baxmayaraq, "həqiqi bədəni" "həqiqi avtobus" vurmuş kimi hiss edir.

Elə isə materialistlərin "maddənin varlığını şillə yesən, anlayarsan", "dizinə təpik dəysə, maddənin varlığına şübhən qalmaz", "it görsən, qaçırsan ancaq", "avtobus vursa, beynində olub-olmadığını anlayarsan", "əgər hissdirsə,









**Bəzi insanlar avtobusa toxunduqda soyuq metal hissinin beyinlərində əmələ gəldiyini qəbul edirlər. Ancaq avtobus vurduqda meydana gələn ağrı hissinin də beyində əmələ gəldiyini qəbul etmirlər. Əslində isə insan yuxuda onu avtobus vurduğunu görsə, eyni ağrını hiss edəcəkdir.**







**İnsan hər hansı bir itin hücumuna məruz qalsa, bütün bunları beynində gördüyü həqiqəti dəyişməz. Çünki insan eyni hadisəni yuxuda da bütün gerçəkliyi ilə görə bilər, eyni həyəcan və qorxunu yuxuda da yaşaya bilər.**

onda şosseyə çıxıb avtomobillərdən qaçmadan ortada dur" kimi etirazların heç bir mənası və əsası yoxdur. Sürətli zərbə, itin ağrı verən dişləri, möhkəm şillə maddənin əsli ilə təmasda olduğumuzun dəlili deyil. Çünki bildirildiyi kimi, bunları eynilə yuxuda da maddi qarşılığı olmadığı halda yaşaya bilirsiniz. Bundan əlavə, hissin şiddətli olması o hissin beyində əmələ gəlməsi həqiqətini də dəyişdirmir. Bu, elmi sübutu olan açıq həqiqətdir.

Bəzi insanların şossedə sürətlə keçən avtobusu və ya avtobusun səbəb olduğu qəzanı maddənin fiziki varlığı ilə təmasda olduqlarının təsirli dəlili zənn etmələrinin səbəbi görüntünün insanı aldadacaq qədər həqiqi görünməsi və hiss edilməsidir. Məkan görüntülərindəki, məsələn, şossedəki dərinlik və perspektivin qüsursuzluğu, məkanda görünən cisimlərin rəng, forma, kölgə cəhətdən mükəmməlliyi, səs, qoxu və sərtlik hisslərinin çox aydın olması və görüntünün içində məntiq tamlığının olması bəzilərini yanıldır. Bəzi insanlar bu hadisələr nəticəsində bunların hiss olduğunu unudurlar. Amma zehində meydana gələn hisslər nə qədər tam və mükəmməl olsa da, bunların hər birinin hiss olması həqiqəti dəyişməyəcək. İnsan şossedə yeriyərkən qəza baş versə də, zəlzələdə uçan evin altında qalsa da, yanğında alovlar ətrafını bürüsə də, pilləkəndən yıxılsa da, bütün bu hadisələri zehnində yaşayır və əsla əsilləri ilə

təmasda ola bilməz.

Bir insan şossedəki avtobusun qarşısına özünü atdıqda zehnindəki avtobus zehnindəki bədənini vurur. O insanın bu qəza nəticəsində həyatını itirməsi, bədəninin parçalanması da bu həqiqəti dəyişdirmir. Əgər insanın zehnində gördüyü bu hadisə ölüm ilə nəticələnirsə, Allah o insana göstərdiyi görüntünü pərdənin qaldırılması kimi qaldırır və o şəxsə başqa bir görüntü, axirətə aid görüntülər göstərir. Bu həqiqəti indi səmimiyyətlə düşünüb anlamayanlar öldükdə dərhal anlayacaqlar.

**Etiraz: "Bütün cisimləri beynimdə gördüyüm doğrudur, ancaq bunların hamısının xəyali görüntü olmasına inana bilmirəm".**

**Cavab:** Bütün dünyanı beynimizdə hiss etməyimiz elmin qəti şəkildə sübut etdiyi və savadlı insanlardan heç birinin əksini iddia etmədiyi həqiqətdir. Ancaq insanların dərk edə bilmədikləri əsas məsələ budur: "Biz bütün cisimləri zehnimizdə hiss ediriksə, zehnimizdən kənarda mövcud olan cisimlərin əsllərini heç bilməyəcəyik?" Bu şübhə doğrudur, biz heç vaxt zehnimizdə hiss etdiklərimizdən kənarda maddənin əsli olub-olmadığından əmin ola bilmərik. Çünki biz beynimizdən kənara çıxıb xarici aləmdə nə olduğunu görə bilmərik. Beyindəki görüntülərin xarici dünyada qarşılığının necə olduğunu bilməyimiz elə buna görə mümkün deyil. Çünki nə bu iddianı irəli sürən şəxs, nə nevroloq, nə beyin cərrahı, nə filosof, nə də hər hansı başqa bir insan bu günə qədər beynindən kənara çıxmamışdır ki, beynindən kənardakı maddənin necə olduğunu bilsin.

İnsanın həyatına dair bildiyi hər şey beyninə gələn elektrik siqnallarının beyni tərəfindən qavranma formasından qaynaqlanır. Yəni insan daima öz beyninin içində əmələ gələn dünyasında yaşayır. Göyə baxdıqda gördüyümüz quşlar, küçənin o biri tərəfində gözdən itməkdə olan avtomobil, otağımızdakı əşyalar, əlimizdəki bu kitab, dostlarımız, qohumlarımız, bunların hamısı beynimizdəki xəyali görüntülərdir. Heç kim beyninin içində əmələ gələn bu həyatdan kənara çıxa bilməz. Bu, nə elmlə, nə də texnologiya ilə əldə edilməsi mümkün olan vəziyyətdir. Çünki elm adamı nə icad etsə də, yenə onu beyninin içindəki görüntünün içində icad edəcəkdir. Ona görə, o "xarici aləmi görmək üçün icad etdiyi şey" də beyninin içindəki görüntünün içində qalacaqdır. Heç bir insanın maddənin əslinin nəyə bənzədiyini bilməsi mümkün deyil; çünki heç bir insan maddənin əsli ilə heç vaxt təmasda olmamışdır. İlk insandan bəri yer üzündə səsin əslini eşidən, mənzərənin əslini görən və ya gülün əslini qoxulayan tək bir insan belə yaşamamışdır.





**Beynə gedən sinirlər kəsilsə, beyində heç bir görüntü əmələ gəlməyəcəkdir.**





**Bir insan əlini kəsdikdə hiss etdiyi ağrı, nəm, sızıldama hissi də beyində əmələ gəlir. Eyni insan yuxuda da əlini kəsdiyini görə bilər və eyni hissləri yuxusunda da yaşaya bilər. Əslində isə yuxuda sadəcə xəyal görür, ortada nə bıçaq, nə də qanayan yara var. Elə isə ağrı hissi bütün həyatımızı beynimizin içində görüntü kimi gördüyümüz həqiqətini dəyişdirmir.**

**Etiraz: "Bıçağı əlimə sürtdükdə, əlimdə hiss etdiyim ağrı, əlimdən axan qan görüntü deyil. Həm də bunu yanımdakı dostum da gördü".**

**Cavab:** Əslində bu mövzunu bundan əvvəlki etirazların cavablarında ətraflı izah etmişdik. Ancaq mövzunu əhəmiyyəti baxımından bir daha vurğulamaqda fayda var.

Bu etirazı edənlərin ən mühüm xətası görüntüdən başqa səs, qoxu, toxunma kimi digər hisslərin də beyində əmələ gəldiyini göz ardı etmələridir. Buna görə: "Bıçağı beynimdə görə bilərəm, amma baxın, bıçağın itiliyi həqiqidir, çünki əlimi kəsdi", -deyirlər. Əslində isə bu şəxsin əlindəki ağrı axan qanın verdiyi istilik və nəmlik hissi və bütün digər hissləri də beynində əmələ gəlir. Yanındakı dostunun bu hadisəyə şahid olması bu həqiqəti dəyişdirmir, çünki dostu da, bıçaqla eyni yerdə, yəni beynindəki görmə mərkəzində əmələ gəlir. Bu şəxs eyni hissləri-bıçaqla əlini kəsdiyini, əlindəki ağrını, qanın görüntüsünü və istiliyini eynilə yuxuda da yaşaya bilər. Əlini kəsdiyini görən dostunu da yuxuda görür. Amma dostunun varlığı bu gördüklərinin yuxu olmadığının dəlili deyil.

Hətta yuxuda əlini kəsdikdə biri gəlib: "Bu gördüklərin hissdir, bu bıçaq həqiqi deyil, əlindən axan qan, hiss etdiyin ağrı da həqiqi deyil, bunların hamısı hal-hazırda zehnində seyr etdiyin hadisələrdir", -desə, həmin şəxs buna inanmayacaq və yenə etiraz edəcəkdir. Hətta bəlkə: "Mən materialistəm. Belə

iddialara inanmıram. Hal-hazırda gördüklərimin hamısını hiss edirəm, bax, qanı görmürsən?" -deyəcək.

Elə: "Maddənin əsli ilə təmasda oluram", -deyə israr edənlər yuxarıdakı misalda görünən şəxs kimidirlər. İçində yaşadıqları hisslər dünyasında: "Bütün bunlar hissdir və bu hisslərin əsli ilə əsla təmasda ola bilməzsən", -deyilir, ancaq onlar bu həqiqətə inadla qarşı çıxırlar.

Ancaq bunu da unutmaq olmaz ki, insanın əli kəsildikdə: "Necə də olsa, bu bir görüntüdür", -deyərək tədbir görmədən dayanmaz. Çünki Allah bu görüntülər içində insanları bəzi səbəblərə bağlı şəkildə yaratmışdır. Məsələn, əli kəsilən insan bunun üçün lazımi dərmanlardan istifadə edir, əlini sarıyır və həkimə gedir. Ancaq bu proseslərin hamısının beynində əmələ gələn görüntüləri ilə təmasda olur. Sarğı bezi də, istifadə etdiyi dərmanlar da beynində əmələ gələn görüntülərdir.

**Etiraz: "Maddənin zehnimizdə gördüyümüz xəyalı ilə təmasda olduğumuzu söyləmək İslam dininə uyğundur?"**

**Cavab:** Bəzi müsəlmanlar maddənin beynimizdəki xəyalı ilə təmasda olduğumuz həqiqətinin İslam dininə uyğun olmadığını irəli sürür və keçmişdə din alimlərinin bu həqiqəti qəbul etmədiklərini iddia edirlər. Ancaq bu, doğru deyil. Əksinə, burada izah edilənlər Quran ayələrinə tamamilə uyğundur; hətta bir çox ayənin cənnət və cəhənnəmin, sonsuzluq, zamansızlıq, ölümdən sonra dirilmə, axirət kimi Quranda bildirilən mövzuların qəti şəkildə başa düşülməsi baxımından da son dərəcə vacibdir.

Əlbəttə, bu mövzunu bilməsə də, insan həqiqi imanı ilə yaşaya bilər. Allahın Quranda bildirdiyi hər şeyə könüldən və heç bir şübhə etmədən iman gətirə bilər. Amma bunu bildirmək lazımdır ki, bu mövzu insanın imanda və Allaha yaxınlıqda dərinləşməsini təmin edir və keçmişdə bir çox böyük İslam alimi də bu həqiqəti bu yöndə açıqlamışlar. Ancaq yaşadıqları dövrdə elmin bu mövzunu hələ aşkar etməməsi və mövzunu səhv anlamağa meyilli kütlələrin varlığı onların bu izah etdiklərinin yayılmasına və geniş kütlələrə yayılmasına mane olmuşdur.

Maddənin əsl mahiyyətini açıqlayan İslam alimlərindən biri və ən böyüyü hicri 10-cu əsrin mücəddidi sayılan və əsrlərdir bütün İslam dünyasının böyük hörmətini qazanmış **İmam Rəbbanidir**. İmam Rəbbaninin *"Məktubat"* adlı əsərində bu mövzuyla bağlı çox hərtərəfli izahlar yer alır. İmam Rəbbani Allahın kainatı "hiss və xəyal mərtəbəsində", yəni hiss dərəcəsiində yaratdığını bir məktubunda belə açıqlayır:

*Yuxarıda belə bir cümlə işlətdim: "Sübhan Haqqın xəlqi (Allahın yaratması) hiss*

*və xəyal mərtəbəsindədir". Bunun mənası belədir: Allahu-Təala əşyanı elə bir mərtəbədə yaratmışdır ki, o mərtəbədə əşya üçün hiss və xəyaldan başqa bir yerdə sübut (sabitlik) və hüsul (varlıq) yoxdur.*[45]

Diqqət edilsə, İmam Rəbbani bizim gördüyümüz aləmin, yəni bütün varlıqların "hiss və xəyal mərtəbəsində", yəni hiss səviyyəsində yaradıldığını xüsusi şəkildə vurğulayır. Bu xəyal mərtəbəsindəki aləmdən kənarda (xaricdə) isə sadəcə Allahın Zatı var. İmam Rəbbani tək mütləq varlığın Allah olduğunu belə izah edir:

***Xaricdə uca Haqqdan başqası mövcud deyil... Bəlkə də şanı böyük Allahın yaratması ilə xəyal mərtəbəsində sübut (sabitlik) tapmışdır...*** *Əgər onun üçün görüntü sabit olarsa, o xəyal mərtəbəsindədir. Əgər onun sübutu (sabitliyi) varsa, o da uca* ***Allahın xəyal mərtəbəsindəki sənəti ilədir.*** *Xülasə, onun sabitliyi və görüntüsü tək mərtəbədədir. Sübutu bir yerdə, görüntüsü başqa bir yerdə deyil...*[46]

Beləliklə, İmam Rəbbaninin də izahlarından açıq şəkildə anladığımız kimi, maddə mütləq varlıq deyil və biz onun haqqında çox məhdud məlumata malikik. Biz sadəcə zehnimizdə bizə göstərilən görüntünü görürük. Bu görüntünü bütün detalları ilə yaradan və bizə seyr etdirən isə aləmlərin Rəbbi olan Allahdır.

Yeganə mütləq varlığın Allah olduğunu, Allahın bütün kainatı xəyal mərtəbəsində yaratdığını açıqlamış digər böyük İslam alimi **Muhyiddin Ərəbidir**. Elmdəki dərinliyinə görə "Şeyxi-əkbər" (ən böyük şeyx) kimi tanınan Muhyiddin *"Ərəbi fusüs-ül hikəm" (Hikmətlərin mahiyyəti)* adlı kitabında kainatın Allahın təzahürlərindən ibarət kölgə varlıq olduğunu belə açıqlamışdır:

*Biz deyirik ki, bilməlisən ki, Haqqdan başqa varlıqlar, yaxud aləm adı ilə tanınan şey Haqqa nisbətən bir şəxsin kölgəsi kimidir. Belə olduqda masiva, yəni Allahdan başqa olan varlıqlar Allahın kölgəsidir...* ***Kölgə, şübhəsiz, hissdə mövcuddur.***[47]

Muhyiddin Ərəbinin bu sözlərində bildirdiyi kimi, insan Allahın Özündən üfürdüyü ruhu daşıyan, Allahın təzahürü olan varlıqdır. Tək mütləq varlıq Allahdır. İnsan isə xəyaldır. Bu çox mühüm həqiqətdir və əksini düşündükdə insan böyük xətanın içinə düşür.

İmam Rabbani ilə bərabər **Mövlana Cami** də Quranın işarətləri və ağıl yolu ilə tapdığı bu heyrətamiz həqiqəti: **"Kainatda nə varsa, hamısı hiss və xəyaldır. Ya güzgülərdəki əkslərdir, ya da kölgələr kimidir", -deyərək dilə gətirmişdir.**

Göründüyü kimi, böyük İslam alimləri bu həqiqəti açıq şəkildə izah etmişlər və ona görə, bu mövzunun Qurana və sünnəyə qarşı olduğunu iddia etmək və ya İslam alimlərinin qəbul etmədiyini irəli sürmək inandırıcı deyil. Bundan əlavə, bunu da unutmaq olmaz ki, bütün görüntüləri beynimizdə görməyimiz heç kimin inkar edə bilmədiyi, qəti şəkildə sübut edilmiş həqiqətdir. Keçmişdə bu həqiqət elmi cəhətdən məlum olmadığı üçün bəzi İslam alimlərinin bu həqiqəti

ortaya çıxarmamaları təbiidir. Bundan başqa, maddənin əsli ilə təmasda ola bilməməyimiz həqiqətini bəzi kütlələr təhrif edilmiş inancla açıqlamış və dinin hökmlərini və qaydalarını bu şəkildə aradan qaldırmağa çalışmışlar. Bu cür təhrifedici və səmimiyyətsiz axınlara görə, bəzi İslam alimləri müsəlmanları bu cür təhlükələrə qarşı xəbərdar etmişlər. Ancaq bunlar bu həqiqətin təhrifedici şərhləridir. Burada izah edilənlərlə qarışdırılmamalıdır.

Doğrusu, başdan bəri vurğuladığımız kimi, maddəni Allah yaratmış və biz onun əsli ilə təmasda ola bilmirik.

**Etiraz: "Hər şeyin xəyalı ilə təmasda oluruqsa, Allahın bəzi sifətlərini necə açıqlaya biləcəyik?"**

**Cavab:** Bəzi inananlar maddənin həqiqi mahiyyətinin qəbul edilməsi ilə Allahın bir çox isminin "pərdələndiyini", madənin xəyal olması ilə Allahın bəzi isimlərinin, təzahürlərinin açıqlana bilməyəcəyini zənn edirlər. Bu da yenə dərin düşünməməkdən və izah edilənləri tam qavraya bilməməkdən irəli gələn xətadır.

Hər şeydən əvvəl, Allahın isimlərini heç bir düşüncə, heç bir güc pərdələyə bilməz. Heç bir elmi həqiqət Allahın isimlərinin təzahür etməsinə mane ola bilməz. Onsuz da bu elmi həqiqətləri yaradan da Allahdır. Allah Öz yaratdığı varlıqlardan və qanunlardan uzaqdır. Ona görə, yer üzündə mövcud olan heç bir güc və ya heç bir məlumat Allahın isimlərinin təzahürlərini aradan qaldırmaz. Belə bir şeyi düşünmək Allahın sonsuz qüdrətini təqdir etməmək olar.

Bundan başqa, maddənin zehnimizdə əmələ gələn surəti ilə təmasda olduğumuz həqiqəti bu şəxslərin fikirlərinin əksinə, Allahın isimlərinin hər an, hər yerdə dayanmadan təzahür etdiyini göstərən vacib dəlildir. Çünki eyni ilə film görüntüsü kimi, hiss və xəyal mərtəbəsində əmələ gələn görüntü öz-özünə meydana gələ bilməyəcəyinə görə və mütləq onu göstərən bir varlıq olmalı olduğuna görə, bunu var edən bir Yaradan var deməkdir. Bu Yaradan üstün güc və qüdrət sahibi olan uca Allahdır.

Görüntünün fasiləsiz, davamlı olması isə Yaradanımız Allahın hər an yaratmanı davam etdirməsinin açıq dəlilidir. Belə ki, göylərin və yerin, yəni kainatın sabit və dəyişməz olmadığını, sadəcə Allahın yaratması ilə var olduqlarını və Allah yaratmanı dayandırdıqda yox olacaqları bir ayədə belə ifadə edilir:

**Həqiqətən, Allah göyləri və yeri zaval tapmasınlar deyə, tutub saxlayır. Əgər öz mehvərindən çıxsalar, Ondan başqa onları heç kəs tutub saxlaya bilməz. Doğrudan da, (Allah) həlimdir, bağışlayandır! (Fatir surəsi, 41)**

Allah "Nəml" surəsinin 64-cü ayəsində isə **"insanları davamlı yaratmaqda olan"** olduğunu xəbər vermişdir. **"Məgər heç bir şey yaratmağa qadir olmayıb özləri yaradılanımı şərik qoşarlar?" (Əraf surəsi, 191)** ayəsində isə yenə insanların hər an yaradılmaqda olduqlarına diqqət çəkilir.

Yəni **gördüyümüz görüntülərin fasiləsiz, davamlı olmasının səbəbi bu görüntülərin sabit varlıqlarının olması deyil, Allahın onları hər an yaratmasıdır.** Ona görə, insan hər anda hər gördüyü, hiss etdiyi varlıqda Allahın davamlı yaratmasının təzahürünü görür.

Beləliklə, bu həqiqət Allahın isimlərinin kainatdakı təzühürlərinin görünməsini daha da aydınlaşdırır. Məsələn, bir bağa girdikdə bağdakı meyvələrin, çiçəklərin, ağacların əslində zehnində ona göstərilən xəyalı ilə təmasda olduğunu bilən insan dərhal bu xəyalı ona göstərən, ona saysız-hesabsız neməti və gözəlliyi bəxş edən, Rəzzaq olan Allahı xatırlayar. Çox gözəl ev sahibi olan, ancaq bu evin, içindəki bütün əşyaların, antik şeylərin, qızılların, gümüşlərin həqiqi mahiyyətini bilən, yəni hamısının beynindəki görüntüsü ilə təmasda olduğunu anlayan insan bu mülk ilə azğınlaşıb lovğalanmaz. Eynilə hz. Süleyman kimi ona bu mülkün gözəlliyini göstərən, onu bununla zəngin edən Vəhhab (bəxşişi çox olan, qarşılıqsız bəxş edən) olan Allahı xatırlayar. Bir insana Allahın varlığını, birliyini, Allahın tək mütləq varlıq olduğunu, cənnətin və cəhənnəmin varlığını anladan insan qarşısındakı insan iman gətirdikdə Allahın Hadi (hidayət verən, lütf edən, doğru yol göstərən) isminin təzahürünü görər.

Bu həqiqəti yenidən xatırlatmaq lazımdır ki, hər insanın beynində əmələ gələn görüntüləri seyr etməsi, bu görüntülərin səslərini beynində eşitməsi, beynindəki görüntülərə toxunması elmi həqiqətdir və biz sahib olduğumuz hisslərimizlə beynimizdən kənarda nə olduğunu əsla bilmirik. Elə isə, bizə bu görüntüləri göstərən, bu səsləri dinlədən və görüntünü daima səbəb-nəticə əlaqəsi içində yaradan gücün varlığından əmin oluruq. Bu güc Allahdır və Allah bizim üçün bu görüntüləri yaratmadıqda bizim üçün dünya həyatı həyat olmaz. Elə isə bizim hər anımızda Allahın yaratması və Allahın isimlərinin təzahürləri fasiləsiz davam edir. Məsələn, bu kitabı oxuyan şəxs üçün Allah fasiləsiz şəkildə bu kitabın və içindəki yazıların, rəsmlərin görüntülərini yaratmağa davam edir.

Bu, bizə Allahın Xaliq sifətini və yaratmadakı gücünü göstərir. Allah hal-hazırda yer üzündəki milyardlarla insana milyardlarla fərqli görüntünü seyr etdirir və bu görüntülərin hər biri fasiləsiz, böyük ahənglə, ən incə təfərrüatına qədər yaradılır. Heç bir insanın görüntüsündə ən kiçik detal belə əksik olmadan ona göstərilir. Bu həqiqəti düşünmək insanlara Allahın sonsuz gücünü, aləmlərin tək hakimi olduğunu göstərəcəkdir.

# BÜTÜN GÖZƏLLİKLƏR ALLAHIN YARATMASININ ƏSƏRİDİR

**Sahib olduğumuz və ya ətrafımızda gördüyümüz bütün gözəlliklər və nemətlər Allahın Vəhhab (çox bəxş edən, qarşılıqsız hədiyyə edən) sifətinin təzahürüdür.**



İmam Rəbbani maddənin xəyal mərtəbəsində yaradıldığını izah edərkən Allahın adlarını hiss və xəyal mərtəbəsində təzahür etdirdiyini belə açıqlamışdır:

> ***... Sübhan Haqq kəmali-qüdrətilə adəm (yoxluq) aləmində adlardan hər bir ad üçün əşyalardan bir əşya təyin etdi. Və onu hiss və xəyal mərtəbəsində yaratdı.*** *Həm də istədiyi vaxtda və istədiyi şəkildə...* ***Aləmin sübutu (sabitliyi) hiss və xəyal mərtəbəsində olub xarici mərtəbədə deyil... Xaricdə (kənarda) belə uca Vacib Zatın (Allahın) zat və sifətlərindən başqası da sabit və mövcud deyil...*** [48]

Bu həqiqəti anlayan insanın uğurlarını, əldə etdiyi zənginliyi, əşyalarını özü sayəsində olduğunu bilməsi, bunlara sahib çıxaraq lovğalanması da mümkünsüz olur. Çünki hər an, hər yerdə Allahın isminin təzahürünü, Allahın ona hiss etdirdiyi görüntünü çox yaxşı bilir. Allaha nə qədər möhtac və aciz olduğunu əsla unutmaz. Allahın aşağıdakı ayəsində də bildirdiyi həqiqətə "haqqül-yakin" (qəti həqiqət olaraq) iman gətirər:

> **Ey insanlar! Siz Allaha möhtacsınız. Allah isə möhtac deyildir. O, şükrə layiqdir! (Fatir surəsi, 15)**

**Etiraz: "Bu, keçmişdə idealistlərin irəli sürdüyü köhnə fəlsəfədir".**

**Cavab:** Bəzi kütlələr maddənin həqiqətinin izah edilməsindən çox narahat olduqları üçün maddənin beynimizdə əmələ gələn surətilə təmasda olduğumuz həqiqətini keçmişdə irəli sürülmüş fəlsəfələrdən biri kimi göstərməyə çalışırlar. Əslində isə elmi irəliləyişlər bu mövzunun fəlsəfə deyil, elmi həqiqət olduğunu göstərir. Ona görə də sözügedən şəxslərin səyləri boş yerədir.

Bir fikrin daha əvvəlki dövrlərdə də başqa mütəfəkkirlər tərəfindən müdafiə edilməsi həmin fikri nə əsassız edər, nə də dəyərdən salar. Maddənin xəyalı ilə təmasda olduğumuz həqiqəti keçmişdə də, dövrümüzdə də bəzi insanlar tərəfindən başa düşülmüş və ifadə edilmişdir.

Bundan başqa, keçmişdə yaşamış idealistlərin fikirləri onlara qarşı çıxmış materialistlər tərəfindən əsassız edilməmişdir ki, "keçmişdə bu mövzudan bəhs edilib", -deyənlərin haqlı tərəfi olsun.

## Dünyanı beynimizdə görməyimiz mövzusu fəlsəfə deyil

Maddənin əsli haqqındakı həqiqətlər ilk dəfə kəşf edilmiş bir mövzu deyil, keçmişdə bu həqiqətin sadəcə bir fəlsəfə kimi izah edildiyi doğrudur. Ancaq dövrümüzdə bu həqiqət elmi cəhətdən sübut edilmişdir.

Tarix boyu bir çox mütəfəkkir, din və elm adamı bu mövzunu gündəmə

gətirmiş, maddənin sadəcə surəti ilə təmasda olduğumuzu izah etmişdir. Məsələn, qədim yunan filosoflarından Pifaqor, Elea məktəbi, xüsusilə “Mağara ideyası” ilə Əflatun (Platon) kimi bir çox mütəfəkkir bu mövzunu birtərəfli açıqlamışdılar. Zərdüştlük, Buddizm, Taorizm kimi batil inancların, yəhudilik və xristianlıq kimi dinlərin əlimizə gəlib çatan mətnlərində də bu mövzudan bəhs edildiyi görünür. İmam Rəbbani, Muhyiddin Ərəbi, Mövlana Cami kimi böyük İslam alimləri də maddənin əsli mövzusunu bütün açıqlığı ilə izah etmişlər. Bu mövzuda fikirlərinə yer verilməli olan digər alim irlandiyalı din alimi və filosof Berkeleydir.

Maddənin sadəcə zehnimizdəki surətini bildiyimizi açıqlayan Berkeley dövründə yaşayan və maddəni mütləq varlıq qəbul edən materialistlər tərəfindən təzyiqlərə məruz qalmış, təhqir və iftira yolu ilə susdurulmağa çalışılmışdır. Ancaq nə Berkeley, nə də digər mütəfəkkirlər yaşadıqları dövrdə mövcud olan elmi tapıntıların çatışmazlığına görə, bu fikirlərini elmi dəlillər ilə dəstəkləyə bilməmişlər. Buna görə, qarşı fikirlərin təzyiqinin də təsiri ilə mövzunun tam şəkildə başa düşülməsi və ya yayılması mümkün olmamışdır. Bir qismi isə kəşf etdikləri bu mühüm həqiqəti səhv dəyərləndirmiş, həqiqətə yaxınlaşsalar da, ən doğru nəticələri çıxara bilməmişlər. Bəzi bədniyyət kütlələr də bu həqiqəti təhrif etməyə çalışmışdır.

## Maddənin əsli mövzusu texniki həqiqətdir

Ancaq dövrümüzdə “maddənin zehində hiss edilməsi halını bildiyimiz” fəlsəfi mövzu olmaqdan çıxmış, elmi dəlillərlə sübut edilən həqiqətə çevrilmişdir. Elm dünyasındakı irəliləyişlər insanın duyğu orqanlarının funksiyasını öyrənmişdir. Bu funksiya, kitabın əvvəlində də izah etdiyimiz kimi, hər duyğu orqanı üçün eynidir: xarici aləmdən duyğu orqanlarına gələn təsirlər hüceyrələrimiz tərəfindən elektrik siqnallarına çevrilir və sinirlər yolu ilə beyindəki qavrama mərkəzlərinə çatdırılır. İnsan xarici aləmi beynindəki kiçik qavrama mərkəzlərində görür, eşidir, qoxulayır, dadır və ya hiss edir.

Bu texniki həqiqətlər bu gün hər hansı bir fiziologiya kitabında və ya orta məktəb biologiya kitablarında belə rast gəlinəcək qədər açıq həqiqətlərdir. Görüntünün və hisslərin beyində necə əmələ gəlməsi bütün tibb fakültələrində ətraflı şəkildə öyrədilir. İnkişaf edən elmlə bərabər fizika, kvant fizikası, psixologiya, nevrologiya, biologiya, tibb kimi elmlər bu həqiqətin texniki tərəflərini açıq şəkildə üzə çıxarmışdır.

Apardığı fəaliyyətləri ilə böyük marağa səbəb olan, hamısı mükafata layiq görülmüş 8 kitabın müəllifi, nəzəri fizika alimi dr. Fred Alan Wolf elmi irəliləyişlərin, xüsusilə də, kvant fizikasında əldə edilən nəticələrin insanlara görünən dünyanın beynimizdə təmasda olduğumuz xəyali varlıqlardan ibarət

olduğunu göstərdiyini belə açıqlayır:

> *Bütün materializmin, fiziki dünyanın, bizə məlum olan gerçəkliyin, bütün varlığın fövqündə bir şey var. Bu ənənəvi dualizmi də təkzib edir. Mən bunu mistik görüş kimi deyil, kvant fizikası kimi görürəm. Bizim ən müasir fiziki dünya anlayışımıza görə, tərif edilməz dünya, mistik dünya, "xəyali" dünya ola bilər. Alman fiziki və kvant mexanikasının qabaqcıllarından Werner Heisenbergin irəli sürdüyü kimi, şüuru daha fərqli görürəm. Həqiqət daha çox yuxu kimidir, mən yuxuda gerçəklik görürəm.* ***Hamımızın bir hissəsi olan, bu yuxunu əmələ gətirən varlığı və ya böyük Ruhun varlığını qəbul edirəm və bu, elmi açıqlamalarla əldə edə biləcəyimiz nəticədir.***[49]

Bu elm adamı maddi dünyanın əslində zehnimizdə qavrandığını elmi kəşflərlə görmüş və qavramış bir çox elm adamından yalnız biridir. Bu çox açıq elmi həqiqəti qəbul etməyənlərin inkar etmələrindəki səbəb isə elmi deyil, ideoloji səbəbdir. Çünki bu elm adamları böyük mühafizəkarlıqla bağlı olduqları materializmi təməlindən əsassız edəcək bu həqiqəti göz görə-görə qəbul etmək istəmirlər. Belə ki, dr. Wolf bu həqiqətin materializmi təkzib edəcəyini bildirir.

XIX əsrdə əldə edilən elmi nəticələr nəzərə alındıqda xarici aləmin beyində qavranması həqiqətini hər hansı bir fəlsəfə kimi qəbul etmək heç inandırıcı deyil. **Çünki bu fəlsəfə deyil, elmi kəşflərin açıq şəkildə göstərdiyi texniki həqiqətdir.** Bu, insanların məhz içində yaşadıqları, inkar edilməz məsələdir. Dinsiz də olsa, dindar da olsa, hər insan bu mövzunu qeyd-şərtsiz bilir, inkar etməyinin də mənası yoxdur.

**Etiraz: Maddənin həqiqəti mövzusu vəhdəti-vücud düşüncəsi ilə eynilik təşkil edir?**

**Cavab:** Vəhdəti-vücud düşüncəsini izah edən bir çox böyük İslam aliminin keçmişdə bu kitabda yer verilən bəzi mövzuları düşünərək izah etdikləri doğrudur. Ancaq burada izah edilənlər vəhdəti-vücud düşüncəsi ilə eyni deyil. Tarix boyu bir çox alim və mütəfəkkir bu həqiqəti izah etmişlər. Ancaq bir qismi səhv fikirlərə düşərək Allahın yaratdığı varlıqları tamamilə yox hesab etmişlər. Əslində isə maddənin beynimizdə əmələ gələn xəyalını gördüyümüzü söyləmək "gördüyümüz varlıqların heç biri yoxdur" demək deyil. **Çünki gördüyümüz bütün varlıqlar, dağlar, düzənliklər, çiçəklər, insanlar, dənizlər, qısaca desək, gördüyümüz hər şey, Allahın Quranda mövcud olduğunu bildirdiyi hər varlq yaradılmışdır və vardır. Ancaq bunların hər biri görüntü kimi var.**

Allahın yaratdığı hər varlıq, biz görsək də, görməsək də, vardır. Çünki onsuz da bu varlıq yaradılmışdır və daha əvvəl də deyildiyi kimi, ilk yaradıldığı halından öldüyü ana qədərki hər halı Allahın hifzində sonsuzluğa qədər mövcud

olmaqda davam edəcəkdir (bu mövzu haqqındakı ətraflı məlumat üçün bax: *"Sonsuzluk Başlamış Durumda", Harun Yahya, Araştırma Yayıncılık).*

Beləliklə, maddənin beynimizdə əmələ gələn xəyalı ilə təmasda olmağımız onu "yox" halına salmaz. Ancaq bizə maddənin mahiyyəti haqqında məlumat verir ki, bu da maddənin görüntü olması həqiqətidir.

**Etiraz: "İnsan xəyal olduğunu bildiyi şeyi necə sevər? Hər şeyin zehnimizdə əmələ gələn xəyal olduğunu qəbul etsək, anamızı, atamızı, dostlarımızı, Peyğəmbərimizi (s.ə.v.) necə sevərik?"**

**Cavab:** Bu sualı verən insan hər şeydən əvvəl özünün də xəyal olduğunu bilmir və ya dərk etmir. Özünü mütləq, dostlarını, yaxınlarını, ailəsini isə xəyal kimi qəbul edir. Əslində isə özü də digər yaxınları kimi xəyal varlıqdır. Gördüyü, toxunduğu bədəni eynilə yaxınlarının bədənləri kimi beynində əmlə gələn görüntüdür.

Bundan başqa, bu sualı verən insanların yaxınlarının, dostlarının zehinlərində meydana gələn hiss olmaları onların sevilmələrini əngəlləyir. Əgər insan yaxınlarını və dostlarını, onların bədənlərindən və ya maddi varlıqlarından ötrü sevirsə, bu yanlış sevgi formasıdır. Doğru olan, insanı Allahın o insanda təzahür edən xüsusiyyətlərinə görə sevməkdir. Məsələn, biz Peyğəmbərimizi (s.ə.v.) heç görmədiyimiz halda, onda Allahın Vəli, Məlik, Kərim, Vəkil, Hadi kimi bir çox isminin çox gözəl təzahür etdiyini, Allahın ən bəyəndiyi əxlaqı onda təzahür etdirdiyini bildiyimiz üçün ona qarşı çox böyük sevgi və məhəbbət duyuruq. Amma bu sevgimizin yeganə qaynağı əslində Peyğəmbərimizin (s.ə.v.) əsl sahibi olan Allaha olan sevgi və məhəbbətimizdir.

Müsəlmanları, insanları, digər bütün varlıqları da Allaha olan sevgilərinə, bu varlıqlar Allahın təzahürü olduqlarına görə sevirlər. Məsələn, hər hansı bir ceyran balasını sevən müsəlman o ceyranda Allahın mərhəmətinin, şəfqətinin təzahürünü, Allahın o ceyranda yaratdığı sevimliliyi bəyəndiyi üçün, görüntüsü mərhəmət hissini təhrik etdiyi üçün ona qarşı sevgi göstərir. Ceyranı və ya hər hansı başqa bir canlını tək başına, müstəqil varlıq kimi sevməz.

Bir müsəlman heç bir insana və ya varlığa müstəqil sevgi və ya bağlılıq duymaz. Bütün sevgilərin mənbəyi Allah sevgisidir. Quranda **"...sizin Allahdan başqa bir dostunuz və yardımçınız yoxdur" (Bəqərə surəsi, 107)** ayəsi ilə insanın Allahdan başqa dostu olmadığına diqqət çəkilmişdir. Başqa bir ayədə isə insandan: **"Məgər Allah Öz bəndəsinə kifayət deyilmi?!" (Zumər surəsi, 36),** -deyə soruşulur. Elə isə sevdiklərimiz də Allahdan ayrı, müstəqil varlıqlar kimi bizim dostumuz və köməkçimiz ola bilməzlər. Ona görə, bütün yaxınlarımızın, dostlarımızın zehnimizdə hiss olması bu həqiqəti daha da qüvvətləndirir.





**"Bütün varlıqların beynimizdəki görüntüləri ilə təmasda oluruq", deməк "bu varlıqlar yoxdur", -demək deyil. Allahın yaratdığı hər şey insanlar, binalar, göllər, göy üz və digər bütün varlıqların hamısı var. Ancaq biz bunların hamısının sadəcə zehnimizdə qavradığımız halını bilirik və biz onları sadəcə beynimizdə görə bilirik.**

Biz, məsələn, anamızı sevərkən əslində sevdiyimiz Allahın ana görüntüsündə təzahür edən Rəhim, Rauf (əsirgəyən), Asim (Qoruyucu) sifətləridir. Mömin qardaşımızı sevərkən onda Allahın təzahür etdirdiyi və razı olduğu gözəl əxlaqı sevirik. Onun təqvasından və davranışlarından Allahın razı olduğunu umduğumuz üçün biz də ondan razı oluruq. Onun Allahı sevdiyini, Allahdan qorxub çəkindiyini gördüyümüz üçün Allahın yaratdığı bu imanlı görüntüdən biz də zövq alır, xoşlanırıq. Ona görə, biz insanı sevdikdə əslində Allahı sevirik və o görüntüyə olan məhəbbət və sevgimizin əsl mənbəyi Rəbbimizə olan məhəbbət və sevgimizdir.

İnsanları Allahdan ayrı tutaraq sevənlər, insanlara Allahdan müstəqil varlıqlar kimi bağlananlar, insanları Allahı sevən kimi sevənlər isə böyük səhv edirlər. Çünki Qurana görə, tək sevgi və bağlılıq Allaha qarşıdır, varlıqlar isə Allahın təzahürləri kimi sevilir. Allah insanlara müstəqil dəyər verərək bağlananlar haqqında Quranda belə buyurmuşdur:

**İnsanların içərisində Allahdan qeyrilərini şərik qoşub, onları Allahı sevən kimi sevənlər də vardır. Halbuki iman gətirənlərin Allaha məhəbbəti daha qüvvətlidir. Əgər zülm edənlərin vaxtında görəcəkləri əzabdan xabərləri olsaydı, onlar bütün qüdrətin Allaha məxsus olduğunu və Allahın əzabının şıddətli olacağını bilərdilər. (Bəqərə surəsi, 165)**

Ayədə də bildirildiyi kimi, insanlara və ya varlıqlara Allahın varlığından başqa güc vermək və onlara bu şəkildə bağlanmaq onları Allaha bərabər və ortaq etməkdir. Əslində isə Allahdan başqa heç bir varlıq hər hansı bir hərəkəti icra etməyə qadir deyil. Quranın bir çox ayəsində Allahdan başqa varlıqlara güc aid edən insanlara bu həqiqət bildirilmişdir:

**Allahdan başqa ibadət etdikləriniz də sizin kimi bəndələrdir. Əgər**













**Allahın yaratdığı varlıqlara sevgi, şəfqət, məhəbbət duyan müsəlman əslində sevgisini və məhəbbətini Allahın yaratmasına, Onun yaratmasındakı üstün sənətə və gücə duyur. Bir canlının üzündə təzahür edən gözəlliyinin əslinin Allaha aid olduğunu bilir.**



**doğrusunuzsa, haydı, çağırın onları, sizə cavab versinlər. Məgər onların yeriyən ayaqları, ya tutan əlləri, ya görən gözləri, yaxud eşidən qulaqları var?! De: "Haydı, çağırın şəriklərinizi, mənim barəmdə istədiyiniz hiyləni qurun və mənə heç möhlət də verməyin! Şübhəsiz ki, mənim hamim Kitabı nazil edən Allahdır. O, əməlisalehlərə himayədarlıq edər! Sizin Ondan başqa tapındıqlarınız isə nə sizə, nə də özlərinə bir köməklik edə bilər!" Əgər siz onları sizə doğru yol göstərməyə çağırsanız, eşitməzlər. Sən onları sənə baxan görərsən, halbuki onlar görməzlər! (Əraf surəsi, 194-198)**

Yuxarıdakı ayələrdə açıq şəkildə xəbər verildiyi kimi, Allahdan başqa heç kimin hər hansı bir şəkildə insana kömək etməsi mümkün deyil. İnsanın ən sevdiyi, həyatı boyu mütləq varlıqlar olduqlarını zənn etdiyi anası, atası, uşaqları, dostları da olsa, çətin vəziyyətə düşdükdə o insana kömək edə bilməzlər. İnsanın yaxınlarının, dostlarının köməyi ancaq Allahın istəyi və iznilədir. Allahın istəyi xaricində heç bir insanın öz-özünə belə kömək etməsi mümkün deyil. Hətta Allahın istəyi xaricində insanın yeriməsi, görməsi, eşitməsi, qısaca desək, həyata davam etməsi də mümkün deyil. Bundan başqa, unutmaq olmaz ki, əslinin necə olduğunu bilmədiyimiz, sadəcə xəyali görüntüləri ilə təmasda olduğumuz varlıqlar axirətdə bu iddianı irəli sürənlərdən uzaqlaşdırılacaq və Quranda bildirildiyi kimi, hər kəs "tamamilə tək" sorğu-sual ediləcəkdir. Yəni





**Müsəlman bir insanı sevdikdə əslində Allaha olan sevgisini göstərir. Allahın yaratdığı görüntüyə olan sevgi və məhəbbətin əsl mənbəyi o görüntünü sevəcəyimiz şəkildə yaradan Allaha olan sevgi və məhəbbətimizdir.**

necə ki, dünyada hər kəs əslində sadəcə Allah ilə bərabərdirsə, axirətdə də o cür hesaba çəkiləcəkdir. Allah bu həqiqəti bir ayəsində belə bildirir:

**Siz Bizim hüzurumuza ilk dəfə sizi yaratdığımız kimi tək-tənha, özü də sizə verdiyimizi arxanızda qoyub gəlmisiniz. Artıq sizin öz aranızda Allahın şərikləri iddia etdiyiniz şəfaətçilərinizi görmürük. Artıq aranızdakı (rabitə) qırılmış və (Allaha şərik) iddia etdikləriniz də sizdən (uzaqlaşıb) qeyb olmuşdur. (Ənam surəsi, 94)**

Hər insan, məsələn, dostuna baxarkən zehnində Allahın onun üçün yaratdığı dost görüntüsünü görür. Beyninə gedən sinirlər kəsilsə, dostunun görüntüsü itəcəkdir. Daima Diri və Qaim olan sadəcə Allahdır. Elə isə insan əsli ilə əsla əlaqə qura bilməyəcəyi, sadəcə zehnində olan varlığa nə üçün bağlansın? Unudulmamalıdır ki, insanın bağlanacağı, sevərək boyun əyəcəyi tək dostu uca Allahdır.

**Etiraz: "İnsan sevdiklərinin də özü kimi həqiqi və daimi olmasını istəyir".**

**Cavab:** Bu mövzuya etiraz edən bəzi şəxslər belə deyirlər: "Halbuki insan istəyər ki, dostları da özü kimi həqiqi və daimi olsun. Başqa cür necə ola bilər?"

Bu ifadələr bu şəxslərin maddənin gerçək mahiyyəti ilə bağlı izah edilən mövzunu anlamadığnı və ya üzərində lazımi şəkildə düşünmədiyini göstərir. Çünki bu sözləri deyən şəxsin özü də "gerçək və daimi" deyil ki, yaxınlarının da özü kimi olmasını istəsin. Bu həqiqətin üzərində lazımi şəkildə düşündükdə insan öz bədəninin də Allahın ruhuna seyr etdirdiyi görüntü olduğunu anlayacaqdır.

Bəzi insanların bədənlərinə toxunmaları, barmaqlarını kəsdikdə ağrı hiss etmələri, malik olduqları bədənin bəzi ehtiyaclarını təmin etmələri bu insanlara öz bədənlərinin xəyali görüntü olduğunu unutdura bilər. Əslində isə bütün digər varlıqlar kimi insanın öz bədəni də hissdir və insanın özü öz bədəninin maddi gerçəkliyinin əslini bilmir. Məsələn, barmağını kəsdikdə hiss etdiyi ağrı da hissdir. Yemək yediyi zaman duyduğu toxluq hissi də hissdir. İnsanın beyninə kənardan verilən süni siqnallar bu toxluq hissini yemək yemədən də meydana gətirə bilər. Ancaq insan heç bir zaman öz bədəninin əslinin necə olduğunu bilmir. Ağrıları hiss edən, toxunan, bu yazını oxuyaraq anlayan, tənqid yazan Allahın insana verdiyi ruhdur. Ona görə, insan özü də Allahın bir təzahürüdür. Bu şəxslərin hesab etdiyi kimi, mütləq və daimi deyil.





**İnsan beyninə kənardan verilən süni oyanmalar ilə toxluq hissini əmələ gətirmək mümkündür. Bir insan yemək yeməsə də, süni oyanmalarla özünü tox hiss edə bilər.**

**Etiraz: "Kainatın hisslərin cəmi olması nəticəsinə gəlmək kainatın necə işlədiyini araşdırmağı, yəni elmi tərk etməyə gətirib çıxarır".**

**Cavab:** Bu, daha çox materialistlərin irəli sürdüyü və bu böyük həqiqəti, elmi yox edəcək mövzu kimi göstərmək üçün dilə gətirdikləri etiraz formasıdır. Bu etirazın əsassızlığı və məntiqsizliyi isə açıqdır.

Allah bizə yaşadığımız görüntüləri səbəb-nəticə əlaqəsi içində bəzi qanunlara bağlı kimi göstərir. Məsələn, gecə ilə gündüz bizim beynimizdə əmələ gələn görüntülərdir və biz gecə ilə gündüzün Günəşə və Yerin hərəkətlərinə bağlı şəkildə dəyişdiyini hiss edirik. Məsələn, beynimizin içindəki görüntüdə Günəş ən təpədə ikən, günorta saatı olduğunu bilirik və Günəş batarkən də havanın qaraldığına şahid oluruq. Allah kainata aid hissləri yaradarkən bu səbəb-nəticə əlaqəsi ilə birlikdə yaratmışdır. Heç vaxt Günəş batdığı halda gündüzü yaşamırıq. Elə Allahın zehnimizdə yaratdığı bu səbəb-nəticə əlaqəsinin müşahidə edilməsi və araşdırılması elmdir.

Başqa bir nümunə də verək: beynimizin içindəki xəyalda əlimizdən buraxdığımız qələm həmişə yerə düşür. Buna səbəb olan səbəb-nəticə əlaqəsinin araşdırılması nəticəsində "yerin cazibə qüvvəsi qanununu" kəşf edirik. Allah ruhumuza seyr etdirdiyi görüntüləri müəyyən səbəblərə və qanunlara bağlı şəkildə göstərir. Bu səbəblərin və qanunların yaradılmasının səbəbi həyatın imtahan üçün yaradılmasıdır. Bu qanunların və "kainat" adı verilən hisslər cəminin necə bir nizam içində işlədiyinin araşdırılması isə elmi əmələ gətirir. Ona görə, elm Allahın yaratdığı qeyri-adi görüntülərin əlaqəli kimi göründükləri qanunları anlamaq üçün vacibdir.

Beləliklə, materialistlərin iddia etdikləri kimi, maddənin əsli ilə təmasda

olmadığımız həqiqətini qəbul etmək elmi inkar etməyə gətirib çıxarmır. Əksinə, bu həqiqəti səmimi niyyətlə qəbul edənlər elmi bu hisslərin cəmi kimi anlamaq, bu cəmdəki sirrləri qavramaq üçün vacib yol kimi görürlər.

Bu elm anlayışı ilə materialist elm anlayışı arasında isə böyük fərq var. Sözügedən hisslər cəminin müşahidə edərək kəşf etdiyimiz təbiət qanunları bu cəmi yaratmış Allahın qanunlarıdır. Maddəni mütləq varlıq zənn edən, təbiət qanunlarının maddənin özündən qaynaqlandığını düşünən, onları yaradanın da təbiət qanunları olduğu xətasına düşən materialistlərin elm anlayışı isə bu həqiqətlə birlikdə çökür.

Bunu da unutmaq olmaz ki, Allah bütün bu hissləri heç bir qanuna və səbəbə ehtiyac hiss etmədən yaratmağa gücü çatandır. Məsələn, Allah toxum olmadan gülü yarada bilər, bulud olmadan yağış yağdıra bilər və ya Günəş olmadan kölgəni, gecəni və gündüzü yarada bilər. Allah bir ayəsində bu həqiqəti belə bildirir:

**Məgər Rəbbinin kölgəni necə uzatdığını görmürsənmi? Əgər istəsəydi, onu daim öz yerində saxlayardı. Sonra Biz günəşi bir əlamət etdik. Sonra**





**Günəşin doğması da, batması da insanın beynində meydana gələn görüntülərdir. İnsan beyninin içindəki Günəşin batmasını seyr edir və bu görüntüdən həzz alan isə ruhudur.**



**Allah yaratdığı görüntüləri müəyyən səbəblərə bağlı şəkildə göstərir. Məsələn, alma budağından qopduqda həmişə yerə düşür, heç vaxt göyə qalxmaz və ya havada asılı qalmaz. Allahın yaratdığı bu səbəblərin və qanunların araşdırılması isə elmin mövzularını əmələ gətirir. Beləliklə, bütün kainatın xəyallar cəmi olması nə elmi, nə də elm üçün aparılan araşdırılmaları əsassız etmir, aradan qaldırmır.**

**onu yavaş-yavaş Özümüzə tərəf çəkdik. Sizin üçün gecəni örtük, yuxunu rahatlıq yaradan, gündüzü də həyat yaradan Odur. (Furqan surəsi, 45-47)**

Ayədə də göründüyü kimi, Allah əvvəlcə kölgəni yaratdığını, sonra da Günəşi ona dəlil etdiyini bidirir. Yuxularımız bu yaradılışı daha yaxşı qavraya biməyimiz üçün nümunədir. Yuxuda Günəşin maddi qarşılığı olmadığı halda, Günəşin verdiyi işığı, istiliyi, aydınlığı eynilə gerçək həyatdakı kimi hiss edirik. Bu cəhətlərilə yuxular Allahın Günəş olmadan da Günəşə aid hissləri zehnimizdə yarada biləcəyinin göstəricilərindən biridir.

Ancaq Allah yaratdığı imtahan mühitində insanlar üçün hər şeyin səbəbini də yaratmışdır. Gündüzün səbəbi Günəşdir, yağışın səbəbi isə buluddur. Bunların hamısı beynimizdə Allahın ayrı-ayrı var etdiyi görüntülərdir. Səbəbin nəticədən əvvəl yaradılması ilə də Allah bu imtahan mühitində hər şeyin

müəyyən qanunlarla işldəyini də düşünməyimizi və bu yolla elmi tədqiqat aparmağımızı təmin edir.

**Etiraz: Bir tərəfdən Allahı iman həqiqətləri ilə açıqlayarkən, digər tərəfdən Onun varlıq dəlili kimi təqdim etdiyi "varlıq aləmi"nin yox olduğunu demək ziddiyyət deyilmi?**

**Cavab:** Maddənin əsli ilə bağlı izahları tam qavraya bilməyən bəzi insanlar "maddi dünyanın əsli ilə təmasda ola bilmərik, sadəcə zehnimizdəki xəyali görüntülərilə təmasda oluruq" ifadəsini "heç bir şey yoxdur" kimi səhv anlayırlar. Əslində isə: "Maddə hisslər cəmidir və ya beynimizdə gördüyümüz



**Allah səbəb olmadan da nəticəni yaratmağa gücü çatandır. Məsələn, yuxuda Günəş olmadığı halda Günəşin işıqları ilə isindiyini hiss edən insan bunun dəlilidir.**

görüntüdür", -demək, "maddə yoxdur", -demək deyil. Maddi kainat vardır, amma biz əslini heç vaxt bilmərik. Biz sadəcə maddənin zehnimizdəki surətilə, yəni xəyalı ilə təmasda oluruq.

Maddənin xəyalı ilə təmasda olmağımız Allahın varlığının qəti dəlilidir. Çünki (eynilə ilə görüntü kimi) hiss və xəyal mərtəbəsində olan varlıq öz-özünə meydaya gəlməyəcəyinə görə, bu, bunu var edən Yaradanın olduğunu, yəni üstün güc sahibi Allahı göstərir. Ona görə, maddi kainatın görüntü olması həqiqəti Allahın varlığının və birliyinin qəti dəlilidir. Bu səbəbdən, maddənin görüntüsü ilə təmasda olmağımız ilə varlıqların Allahın varlığına dəlil təşkil etməsi arasında heç bir ziddiyyət yoxdur, əksinə mübahisəsiz məntiq əlaqəsi var.

Allah bütün varlıqları yaratmışdır, ancaq biz bu varlıqların sadəcə zehnimizdəki hisslərini, görüntülərini bilirik və bu görüntü varlıqlara aid xüsusiyyətlərin tədqiq edilməsi, araşdırılması, Allahın yaratmadakı üstünlüyünün, sənətinin və sonsuz ağlının dəlillərini göstərir. Beləliklə: "Maddə hisslər cəmidir", -demək və sonra bu görüntülərə aid xüsusiyyətləri araşdıraraq Allahın ucalığını, böyüklüyünü və qüdrətini görmək əsla ziddiyyət deyil.

Bundan əlavə, bunu da bildirmək lazımdır ki, bəzi şəxslər ancaq Allahı düşünən varlıqlar olduqda Allahın var olduğunu (Allahı tənzih edirik) hesab edir və bu böyük xətaya görə, bəzi etirazlar irəli sürürlər. Əslində isə Allah istəsə, yaratdığı bütün görüntüləri silə bilər, bütün varlıqları yox edə bilər. Ancaq Allah yenə var olmaqda davam edər. Çünki O, əzəli və əbədidir, əvvəli və sonu yoxdur, Əvvəl və Axırdır. Allah istədiyini bir anda yox edə biləcəyinə bir çox ayəsində diqqət çəkir:

**Ey insanlar! Əgər O istərsə, sizi yox edər, (yerinizə) başqalarını gətirər. Allah buna qadirdir! (Nisa surəsi, 133)**

**Ey insanlar! Siz Allaha möhtacsınız. Allah isə möhtac deyildir. O, şükrə layiqdir! Əgər istəsə, sizi yox edib (yerinizə) başqa bir məxluq gətirər. Bu, Allah üçün çətin deyildir! (Fatir surəsi, 15-17)**

Allah bütün varlıqları yaratmazdan əvvəl də vardır, bütün varlıqlar yox olsalar da, var olacaqdır. Rəbbimiz ayələrdə belə bildirir:

**(Yer) üzündə olan hər kəs fanidir. Ancaq əzəmət və kərəm sahibi olan Rəbbinin zatı baqidir. (Rəhman surəsi, 26-27)**

**Etiraz: "Bu açıqlamalar qəbul edildikdə, haram və halal qavrayışları qalmır".**



**Bir suitinə baxan insan bu canlını beynində görür. Beynində gördüyü bu canlının xüsusiyyətlərini də beyninin içində araşdırır və nəzərdən keçirir. Öyrəndikləri isə ona Allahın yaratmasındakı qüsursuzluğu, Onun elminin üstünlüyünü göstərir.**

**Cavab:** Bu, tamamilə həqiqətdən kənar iddiadır. Çünki maddi dünyanın əsli ilə təmasda olmamağımız həqiqəti imtahanın sirrini ortadan qaldırmaz. Maddənin əslini heç vaxt bilməsək də, Allahın haram buyurduqları haram, halal buyurduqları isə halaldır. Məsələn, Allah donuz ətini haram buyurmuşdur. "Necə də olsa, donuzun xəyalı ilə təmasdayam", -deyərək bu heyvanın ətini yeməyin böyük səmimiyyətsizllik və ağılsızlıq olacağı aydındır. "Qarşımdakı insanların hamısının sadəcə zehnimdə əmələ gələn görüntülərini görürəm, onlara yalan söyləsəm, heç bir şey olmaz", -demək də Allahdan qorxan və bu həqiqəti lazımi olduğu kimi qavrayan insana yaraşmaz. Bu, Allahın bütün hədləri, əmr və qadağalarına da aiddir. Məsələn, bu həqiqət 5 vaxt namazımızı qılmağı, zəkat verməyi ortadan qaldırmaz. Verdiyimiz zəkatın maddəsinin, bu zəkatı verdiyimiz insanların zehnimizdəki xəyallar olmaları fərz olan bu ibadətin yerinə yetirilməsinə mane olmaz. Allah bütün dünyanı hisslər cəmi kimi yaratmışdır, ancaq bizlərin boynuna bu xəyallar içində Quranda bildirdiklərinə görə məsuliyyət qoyur.

Keçmişdə bəzi kütlələrin bu həqiqəti təhrif edərək halal və haramları ortadan qaldırmağa çalışmışdır. Ancaq bu kütlələr onsuz da əsas inanc kimi

azğın anlayışa malik idilər və bu həqiqəti də nəfsləri və mənfəətləri üçün istifadə edə bilərlər. Ancaq bilmək lazımdır ki, onların gəldikləri bu nəticə doğru deyil, təhrif edilmişdir.

Beləliklə, səmimi düşünən insan çox açıq şəkildə görəcəkdir ki, imtahan üçün maddənin əsli ilə təmasda olmaq şərt deyil. Allah imtahan mühitini görüntü aləmi içərisində yaratmışdır. Bir insanın namaz qılması, halala-harama diqqət etməsi üçün maddənin əslini bilməli olduğunu irəli sürənlərin heç bir əsası yoxdur. Bundan əlavə, əsas olan ruhdur. Axirətdə cəzalandırılan və ya cənnət nemətləri ilə ruziləndirilən də ruhdur. Allahın imtahan etdiyi varlıq da insanın ruhudur. Ona görə, maddənin beynimizdəki xəyalı ilə təmasda olmağımız həqiqəti halal və haramlara əməl edilməsinə və ibadətlərin yerinə yetirilməsinə əsla mane olmaz.

Burada bunu da bildirmək lazımdır ki, görüntüyə görə məsuliyyət daşımayacaqlarını iddia edənlər cəhənnəmə girdikdə də: "Biz buna görə məsuliyyət daşımayacağımızı dedik, ona görə də buradayıq", -deyəcəklər. Amma bunu da unutmamalıdırlar ki, dünya həyatı kimi cəhənnəm də görüntü olsa da, cəhənnəm əzabı sonsuzluğa qədər yaşanacaqdır. Allah bu görüntü içində inkar edənlərə əzabı hər yönü ilə hiss etdirəcəkdir.

**Etiraz: "Bütün insanlar hər hansı bir ağac gördükdə, onun yarpaqlarına yaşıl deyirlər. Hər kəs bu ağacı eyni cür tərif etdiyinə görə, deməli, bu ağac sadəcə mənim zehnimdə deyil".**

**Cavab:** Ətrafımızdakı insanların yaşıl dediyinə biz də yaşıl deyirik. Ancaq onların yaşıl adlandırdıqları rəng bizim zehnimizdə gördüyümüz yaşıldır, yoxsa bizim mavi gördüyümüzə yaşıl deyirlər, buna öyrənmə imkanımız əsla yoxdur. Çünki daha əvvəl də bildirildiyi kimi, zehnimizdən kənarda rənglər yoxdur. Xarici aləmdə sadəcə işığın fərqli dalğa uzunluqları var və bu dalğa uzunluqlarını rənglərə çevirən beynimizdir. Ona görə, rənglər bizim daxilimizdə əmələ gəlir və başqa şəxsin bizim beynimizdə əmələ gələn rəngi görmək imkanı yoxdur. Bu mövzu bir çox filosof və elm adamı tərəfindən mübahisə edilən məsələdir və elm adamlarının ortaq qənaəti budur: "Biz, bizim qırmızı dediyimiz gülü yanımızdakı şəxs də bizim gördüyümüz kimi görür, yoxsa o bizim mavi dediyimizə qırmızı deyir, bunu heç vaxt bilmərik". Bu sadəcə rənglər üçün deyil, bütün hisslərimizə də aiddir. Məsələn, Daniel Dennet bu mövzu haqqındakı düşüncələrini və marağını belə ifadə edir:

*Cisimlərin görüntülərinin, səslərinin və qoxularının mənə gəlmə formaları var. Bu, açıqdır. Yenə də cisimlər digər insanlara da mənə göründüyü kimi görünüb-görünmədiyi mənə maraqlıdır.*





**Bizim yaşıl dediyimiz rəngi yanımızdakı digər şəxs eyni şəkildə görür? Bunu heç vaxt bilmərik. Məsələn, bu şəkil iki insanın beynində fərqli rənglərdə görünə bilər. Birinin yaşıl dediyini digəri eyni cür adlandırmasına baxmayaraq, mavi görə bilər. Bu, heç vaxt müəyyən edilə bilməz.**

*... Bir şeyə baxdıqda sizin və mənim eyni rəngi gördüyümüzü haradan bilərəm? İkimizə də rəng adları, ümumi şəkildə rəngli cisimlərdə göstərilərək öyrədilmişdir, tamamilə fərqli rəng təcrübələri keçsək də, bu rəngləri sözlə ifadə etməyimiz oxşar olacaqdır. Məsələn, qırmızı şeylərin mənə görünməsi yaşıl şeylərin sizə görünməsi kimi olsa da.*[50]

Harvard Universitetindən psixologiya professoru Drew Westen isə elmi cəhətdən digər şəxsin gülü bizimlə eyni cür qavrayıb-qavramadığını bilməyəcəyimizi belə açıqlayır:

*Əgər qavrayış yaradıcı və ya struktural prosesdirsə, insanlar dünyanı hansı dərəcəyə qədər eyni şəkildə qavrayırlar? Qırmızı bir insana göründüyü kimi digər insana da eyni şəkildə görünür? Əgər bir insan sarımsağı xoşlayırsa və digəri xoşlamırsa, bu eyni dadı xoşlayan və xoşlamayan 2 fərqli insandır, yoxsa sarımsaq hər biri üçün fərqli dada malikdir? Qavrayışın struktural təbiəti insanların dünyanı hansı dərəcəyə qədər həqiqətdə olduğu kimi görüb-görmədikləri problemini yaradır. Platon bizim qavradıqlarımızın hər hansı bir mağaranın divarındakı kölgələrdən bir az daha çox olduğunu iddia edir. Bir fincan qəhvənin isti olduğunu söyləmək nə məna verir? Ot həqiqətən yaşıldır? Görmə sistemi işığın müəyyən dalğa uzunluqlarını ayırd etməkdən məhrum olan və yaşıl rəng korluğu olan insan otu yaşıl görməz. Yaşıllıq obyektin (ot), qavrayanın xüsusiyyətidir, yoxsa müşahidəçi ilə müşahidə edilən arasındakı bir növ əlaqələrdir? Bütün bunlar duyğu və hissin həlledici cəhətindəki fəlsəfi suallardır.*[51]

Göründüyü kimi, eyni tərifləri verməyimiz və ya eyni rəngin adını söyləməyimiz eyni şeyləri görməyimiz demək deyil. İnsanların qavrayışlarını müqayisə etmək isə tamamilə mümkünsüzdür, çünki hər kəs beyninin içindəki özünə aid dünyanı görür. Bu etirazla bağlı başqa bir açıqlama isə sonrakı etirazda verilir.

**Etiraz: "Mənimlə birlikdə üç nəfər bağda gəzir və üçümüz də eyni şeyləri görürük. Hamımızın zehnində gördükləri bir-birinin eynidirsə, onda zehnimizdəki görüntülərin xəyal olduğunu necə deyə bilərik?"**



**Qırmızı lalələrə baxan iki insan bir-biri ilə tamamilə eyni tonda qırmızı görür? Bunu əsla müəyyən edə bilmərik.**

**Cavab:** Sizinlə birlikdə başqa insanların da eyni şeyləri görməsi maddənin xarici aləmdəki əslini görməyiniz mənasına gəlməz. Çünki siz ətrafınızdakıları da beyninizin içində görürsünüz. Məsələn, meyvə bağında dostlarınızla birlikdə gəzərkən gördüyünüz alma, ərik, tut ağacları, rəngarəng çiçəklər, quşların səsi, əsən meh, xoş çiçək və meyvə ətri necə beyninizdə əmələ gəlirsə, dostlarınız da onların danışıqları da beyninizdə əmələ gəlir. Yəni dostlarınız xarici aləmdəki bağda deyil, sizin zehninizdə gördüyünüz bağda gəzirlər. Ona görə, dostlarınızın sizinlə eyni görüntünü görməsi gördüklərinizin əsli ilə təmasda olmağınız demək deyil.

Hətta böyük stadion dolu insanla hər hansı bir futbol matçını seyr etdikdə minlərlə insanın vurulan qolu eyni anda görməsi və buna eyni anda münasibət göstərməsi də nə o stadionun, nə futbolçuların, nə hakimlərin, nə də stadionu dolduran insanların əsl varlıqlarını gördüyünüzə dəlil deyil. Çünki stadion və içindəki futbolçular, tamaşaçılar, alqışlar və orada gördüyünüz hər şey sizin beyninizdə əmlə gəlir. Qol vuran futbolçu da, bu qola sevinən tamaşaçılar da sizin içinizdədir. Siz beyninizdə atılan qola sevinirsiniz, beyninizdəki insanlarla birlikdə alqışlayırsınız. Nəticədə ətrafınızda gördüyünüz insanların sizin gördüklərinizi təsdiqləməsi xarici aləmdəki əslləri ilə təmasda olduğunuz demək deyil. Çünki "yanımda" dediyiniz insanlar nə qədər çox olsalar da, əslində beyninizin içindədirlər.

**Etiraz: "Xarici aləmi olduğu kimi qavrayırıq, ona görə də davranışlarımızda hər hansı bir anormallıq yoxdur. Məsələn, uçurumun kənarında düz yolda olduğu kimi düz yerimirik. Uçurumu görüb dayanırıq".**

**Cavab:** Bu etiraz bu şəxsin düşüncə qarışıqlığı içində olduğunu və izah edilənləri heç anlamadığını göstərir. Çünki bu şəxsin etirazı belə bir iddiaya əsaslanır: "Xarici aləmdə maddi gerçəklik var. Ancaq hər kəs bu maddi dünyanı öz zehnində fərqli görə bilər". Bu şəxs ortada belə bir iddianın olduğunu zənn edir və buna etiraz edərək: "Xarici aləmdə maddi gerçəklik var və biz onu olduğu kimi görürük, kimsə xarici aləmi olduğundan fərqli görə bilməz. Bunun dəlili də budur ki, xarici aləmdə uçurum olduqda onu uçurum kimi görürük və kənarına çatdıqda dayanırıq", -deyərək bu iddianı əsassız etdiyini zənn edir.

Əslində isə burada haqqında danışılan həqiqət bu şəxsin anladığından çox fərqlidir. Burada: "Xarici dünya var, amma bu dünyanı biz eynilə deyil, fərqli görürük", -deyilir. Burada: "Biz bütün yaşadıqlarımızı zehnimizdə görürük və əslləri ilə heç vaxt təmasda ola bilmərik. Buna görə, xarici aləmdəki əsllərinin necə olduğunu biz bilmərik", -deyilir.



Dostları ilə çəmənlikdə gəzən insan əslində beyninin içindəki çəmənlikdə, beyninin içində gördüyü dostları ilə gəzir, beyninin içindəki təmiz havanı qoxulayır. Çəmənlikdə gəzərkən çiçəkləri nəzərdən keçirən üç nəfərin zehnində üç ayrı çiçək görüntüsü əmələ gəlir. Bu, sözügedən çiçəklərin xarici aləmdəki əsillərini gördüklərinə dəlil kimi göstərilə bilməz.



# BİR STADİON DOLU İNSANIN HƏR BİRİ BEYNİNDƏKİ AYRI FUTBOL OYUNUNU SEYR EDİR



Bir futbol oyununu seyr etmək üçün stadiona daxil olan şəxs içəridəki minlərlə insan ilə eyni oyunu seyr edəcəyini zənn edir, əslində isə çox böyük səhv edir.
Çünki stadiondakı hər insan beynində ayrı futbol meydanı, ayrı futbolçular, ayrı tamaşaçılar, qısaca desək, ayrı görüntü zənn edir. Hətta evlərindəki televizorlarda bu oyunu seyr edən hər insanın da ekrandakı eyni oyunu seyr etdiyini zənn edirlər. Əslində isə hər insanın beynində əslində ayırd edilməyəcək qədər eyni olan, tamaşaçı sayı qədər surət yaradılır. Nə stadionda oturanlar xarici aləmdəki görüntünü, nə də evlərindəki televizorun qarşısında oturanlar ekrandakı həqiqi görüntünü görə bilməzlər. Çünki heç bir insanın beyninin içindəki ekrandan çıxıb xarici aləmdəki görüntünün əsli ilə təmasda olması mümkün deyil. Bu insanların tək görə bildikləri şey beyinlərinə çatan məlumatların beyinlərindəki ekranda şərh edilməsidir. Görən ruhdur. Həm ruhu, həm əslinə eynilə bənzəyən görüntüləri üstəlik hər insan üçün ayrı-ayrı yaradan isə göylərin və yerin Rəbbi olan Allahdır.

Yolda yeriyərkən uçurumdan yıxılmamağımız isə maddənin xarici aləmdəki orijinalı ilə təmasda olmağımız demək deyil. Biz düz yolda yeriyərkən də uçurumun kənarına çataraq dayandıqda da beynimizin içindəki yolda yeriyir, beynimizin içindəki uçurumu görürük. Hətta bu uçurumdan yıxılsaq da, beynimizdə gördüyümüz uçurumdan yıxıldığımıza dair hissləri də beynimizdə hiss edirik. Eyni ilə daha əvvəl izah etdiyimiz avtobus vurması, it dişləməsi və s. kimi nümunələrdə olduğu kimi. Uçurumdan yıxıldıqda baş verən yaralanma, sınıq və ya ağrı kimi hisslərin hamısı beynimizdə əmələ gələn görüntü və hisslərdir.

**Etiraz: "Allahın bizə bu görüntüləri seyr etdirməsinin məqsədi bizi imtahan etməkdir. Ancaq onsuz da bəzi hərkətlərin yaradıcısı olan Allah nə üçün belə bir imtahan mühiti yaratmışdır?"**

**Cavab:** Əlbəttə, insanların davranışlarının necə olduğunu görmək üçün Allahın onları sınamağa ehtiyacı yoxdur. Çünki bütün hadisələri, zamanları və məkanları yaradan Rəbbimizdir. Allah zamandan və məkandan uzaqdır. Bizim üçün keçmiş və gələcək hadisələr Onun qatında tək bir an içərisində yaşanıb sona çatmışdır. Ancaq Allah yaratdığı imtahan və səbəblər daxilində insanların öz davranışlarına şahid olmaları, nə üçün cənnətə və ya nə üçün cəhənnəmə getdiklərini bilmələri üçün bizlərə bunları yaşadır. Allahın dost olduğunu, sonsuz ədalətli, mərhəmətli və şəfqətli olduğunu bilən insan Allahın bu yaratmasından razı olur.

Allah bizlərə Öz qatında olub-bitmiş hadisələri seyr etdirir. İnsana isə bunları özü etdiyi hissini verir və bu hiss içində bizə Quran vasitəsilə bildirdiyi hər şeyə görə məsuliyyət daşıdığımızı xəbər verir. Bizim boynumuza düşən vəzifə Rəbbimizin bizə əmr etdiklərini yerinə yetirməkdir. Bundan sonrasını isə ancaq Rəbbimiz istəsə, öyrənə bilərik. Bu sirri və hikməti Allah istəsə, bizə dünyada və ya axirətdə göstərə bilər və ya heç vaxt göstərməyə bilər. Allahın bir ayəsində bildirdiyi kimi: **"...Allahın elmindən Onun Özünün istədiyindən başqa heç bir şey qavraya bilməzlər..." (Bəqərə surəsi, 255)**. Nə olarsa olsun, Allah bizim sahibimiz və dostumuzdur. Elə isə bizim üzərimizə düşən bizə sonsuz nemətlər bəxş edən Allaha güvənmək, Onun hər yaratdığından razı olmaqdır.

Bəzi insanlar tarixən maddənin əsli mövzusunu qavramışlar, ancaq Allaha olan imanları və Quranı qavramaları zəif olduğu üçün təhrif edilmiş inanclar meydana gətirmişlər. "Hər şey necə də olsa, xəyaldır, onda ibadətlərə nə gərək var", -deyənlər olmuşdur. Bunlar son dərəcə azğın və cahil fikirlərdir. Hər şeyin Allahın bizə göstərdiyi xəyallar olduğu doğrudur. Ancaq Allahın boynumuza

Qurandakı əmrlərə görə məsuliyyət qoyduğu da qəti həqiqətdir. Biz Allahın əmr və qadağalarına dəqiqliklə əməl etməliyik.

Allah Quranda insana ruh ilə bağlı çox az məlumat verildiyini bildirir. Nəticədə, Allah bu imtahan görüntüsünü bir məqsədlə yaratmışdır. Allah bu məqsədi ayələrində belə bildirir:

> **Əlbəttə, Biz sizi bir az qorxu, bir az aclıq, bir az da mal, can və məhsul qıtlığı ilə imtahan edərik. Səbir edən şəxslərə müjdə ver! (Bəqərə surəsi, 155)**

> **Əlbəttə, siz malınız və canınızla imtahan ediləcəksiniz. Sizdən əvvəl kitab verilmiş kimsələrdən və şərik qoşanlardan bir çox əziyyətli sözlər eşidəcəksiniz. Əgər səbir edib Allahdan qorxsanız, əlbəttə, bu, məqsədə müvafiq işlərdəndir. (Ali-İmran surəsi, 186)**

Bu imtahanın bir çox hikməti var. Bunlardan biri bizim sınanmağımız və buna əsasən sonsuz həyatımızda harada olacağımızın müəyyən edilməsidir. Digər bir hikməti isə insanların öz etdiklərinə həyatları boyu şahid olmaları, əxlaqlarını axirət günündə Quran əxlaqı ilə müqayisə edilərək nə üçün cənnətə və ya nə üçün cəhənnəmə layiq görüldüklərini görmələri ola bilər. Ancaq bunun doğrusunu Allah bilər. Biz ancaq dua ilə Allahdan bizə elmini açmasını, göstərməsini istəyə bilərik.

**Etiraz: "Bu danışılanlardan başa düşdüyümüz kimi, ölümdən sonra da xəyallarla təmasda olacağıq. Xəyallarla təmasda olmaq sonsuza qədər davam edəcək? Cənnət və cəhənnəm də görüntülərdən ibarətdir?"**

**Cavab:** Allah dünyada bütün insanları sadəcə ruhlarına seyr etdirilən görüntüləri qavrayacaq şəkildə yaratmışdır. Yəni biz sadəcə zehnimizdə bizə göstərilənləri görə bilirik, zehnimizdən kənardakıları görmək və ya onlara toxunmaq imkanımız yoxdur. Ancaq Allah ölümdən sonra insanı başqa bir yaradılışla yaradacaqdır. Bu yaradılış da görüntü çərçivəsində olacaq, yəni biz yenə cənnət görüntüsünü zehnimizdə görəcəyik. Bu yeni yaradılışın necə olacağını bilmirik. Ancaq bunu da unutmaq olmaz ki, cənnət və cəhənnəmin hiss kimi qavranılması nə cənnətdən alınacaq zövqü, nə də cəhənnəmdə olan əzabı azaltmayacaq. Hər hansı bir insan dünya həyatında, zehnində necə əlinin yandığının bütün əlamətlərini, ağrını hiss edirsə, bu hissin gerçəkliyi axirətdə də davam edəcəkdir.

Ağrı kimi hisslər də beyində hiss edilir. Ancaq bütün insanların bildiyi bu ağrı hissi bütün digər hisslərimiz kimi son dərəcə həqiqi yaradılır. Hətta bəzən

insan hiss etdiyi ağrının şiddətindən huşunu itirir. Buna bənzər bəzi görüntülər də zehnimizdə bir hiss kimi yaradılmalarına baxmayaraq, çox həqiqi olduqları üçün insana bir çox cəhətdən narahatlıqlar verir. Məsələn, pis görüntü, pis qoxu, narahatlıq verən səs insanda böyük narahatlıq meydana gətirir. Bunların beyində qavranılması bu həqiqəti dəyişdirmir. Ona görə, cəhənnəmin insanların ruhuna xəyal kimi göstərilməsi inkar edənlərin sonsuza qədər çəkəcəkləri əzabı azaltmayacaq. Allah qüsursuz yaratması ilə dünya həyatını insanlara "mütləq həqiqət" zənn edəcəkləri şəkildə necə aydın və inandırıcı yaradırsa, axirət həyatını da elə yaratmağa gücü çatandır. Allah bir çox ayəsində cəhənnnəm əzabının dözülməz əzab olduğunu bildirir:

**Eyni zamanda da əzabım da çox şiddətli əzabdır. (Hicr surəsi, 50)**

**Biz kafir olanlara mütləq şiddətli bir əzab daddıracaq, etdikləri əməllərin ən şiddətli cəzasını verəcəyik! Budur Allahın düşmənlərinin cəzası - cəhənnəm! Ayələrimizi inkar etmələrinin cəzası olaraq onların əbədi məskəni oradadır! (Fussilət surəsi, 27-28)**

Eyni vəziyyət cənnətə də aiddir. Bir insanın dünya həyatında zövq aldığı, xoşladığı, gözəl gördüyü hər şey əslində zehnində meydana gələn hissdir. Məsələn, ən yaxın dostu ilə söhbət edən insan əslində zehnində əmələ gələn dostu ilə söhbət edir. Bir şəlalənin möhtəşəm görüntüsünü, gurultulu səsini dinləyən insan əslində zehnində əmələ gələn şəlaləni seyr edir, zehnində əmələ gələn səsini dinləyir. Bu, qəti həqiqətdir. Ancaq bu vəziyyət insanın bu görüntüdən zövq almasına mane olmur. Bu səbəbdən, Allah Quran ayələrində cənnətin insanlar üçün böyük qurtuluş və xoşbəxtlik olacağını, cənnətdə nəfslərinin xoşlayacağı hər şeyin mövcud olacağını belə bildirir:

**Lakin öz Rəbbindən qorxanları altından çaylar axan cənnətlər gözləyir ki, onlar orada Allah qonağı kimi həmişəlik qalacaqlar. Allah yanında olan nemətlər yaxşı əməl sahibləri üçün daha xeyirlidir. (Ali-İmran surəsi, 198)**

**Rəbbi onları Özündən bir mərhəmət, razılıq və içərisində onlar üçün tükənməz nemətlər olan cənnətlərlə müjdələr. Onlar orada əbədi qalacaqlar. Böyük mükafat, həqiqətən, Allah yanındadır! (Tövbə surəsi, 21-22)**

**Tərəzisi ağır gələn kimsə xoş güzəran içində olacaq! (Qariə surəsi, 6-7)**

Bundan başqa, bütün bu gözəl görüntüləri ona seyr etdirənin Allah

olduğunu bilən insan bundan daha çox zövq alır. Məsələn, dərdiyi almanın təzə və gözəl qoxusunu alan və bu qoxunu, meyvənin estetik görünüşünü, dadını və gözəlliyini onun üçün yaradan Allahı düşünən insan bu görüntüdən digər insanların aldıqlarından daha böyük zövq alır. Cənnətdə də Allah hər mömin üçün cənnət görüntüsünü ayrı-ayrı yaradacaq və hər möminə nəfsinin istədiyi hər şeyin ən gözəlini orada verəcəkdir. İnsan dünyada da axirətdə də tək dostu, vəlisi, qoruyucusu və yaradıcısı olan Allah ilə bərabərdir. İnsanın cənnətdə yanında görəcəyi peyğəmbərlər, elçilər, saleh möminlər, hurilər və qılmanlar isə Allahın dostluğunu, sevgisini və yaxınlığını ən çox təzahür etdirdiyi varlıqlardır.

Allahın bütün həyatımızı hisslər cəmi kimi seyr etdirdiyi açıq həqiqətdir. Bu həqiqəti anlayan səmimi insan Allahın ədalətindən, hər şeyi qüsursuz yaratmasından və Allahın yaratdığı hər şeyin ən gözəli və ən xeyirlisi olduğundan heç şübhələnməməlidir. Allah cənnəti də, cəhənnəmi də xəyal kimi görüntü içərisində yaradacaq. Ancaq bu həqiqət Allahın Qurandakı vədini dəyişdirmir. Cənnətdə insana ən böyük zövqlər və gözəlliklər sonsuzluğa qədər bəxş edilərkən inkar edənlər üçün də cəhənnəmdə ən şiddətli əzablar sonsuzluğa qədər davam edəcəkdir. Allahın yaratması qüsursuzdur və Allah vədindən dönməz.

**Belələri yaxşı əməllərini qəbul edəcəyimiz, günahlarından keçəcəyimiz və onlara verilmiş doğru vədə görə cənnət əhli içərisində olacaq kimsələrdir! (Əhqaf surəsi, 16)**

Ayələrdə də bildirildiyi kimi, cənnət hal-hazırda Allah qatında mövcuddur. Allah cənnəti və cəhənnəmi yaratmışdır və hər ikisi də hər halı və anları ilə Allahın hifzində hal-hazırda durur.

**Etiraz: "Heç vaxt mütləq varlıqlar ilə üz-üzə gəlməyəcəyik? Davamlı olaraq xəyali mühitlə təmasda olduğumu bilmək məni narahat edir".**

**Cavab:** Tək mütləq varlıq Allahdır. Gördüyümüz digər varlıqlar Allahın təzahürləridir. İnsanların ümumi qənaəti daima özlərinin və gördükləri digər varlıqların mütləq olmaları, Allahın isə radiodalğalar kimi onları əhatə etməsidir (Allahı tənzih edirik). Əslində isə tam doğru olan bunun əksidir. Yəni var olan yalnız Allahdır. İnsanın Allahın Zatını gözlərilə görməməsi onu aldatmamalıdır. İnsan hara çevrilsə də, kimə baxsa da, əslində gördüyü, baxdığı hər yerdə Allahın təzahürləri vardır. Üstəlik bu, insanı narahat etməz, əksinə, Allaha iman gətirən insanın çox xoşuna gələcək həqiqətdir. Allahın tək mütləq varlıq, bizim isə xəyal olmağımız qul üçün şərəfdir. Belə bir həqiqət insana sevinc verir. Rəbbimizə olan heyranlığımızı və Onun sonsuz qüdrətinə olan təslimiyyətimizi qat-qat artırır.

*ALLAH CƏNNƏTİ SONSUZ ZÖVQ MƏNBƏYİ KİMİ YARADACAQ.*



Bundan başqa, insanın bütün dünyəvi istəklərini təbii olaraq aradan qaldıran, Allaha heç bir şirk qoşmadan iman gətirməsini təmin edən vacib məlumatdır. Çünki: "Allahdan başqa da mütləq varlıq var", -dedikdə o varlığı Allaha ortaq qoşur, ona Allahın gücündən başqa güc aid etmiş olur. Amma bu həqiqəti bilən insana belə vəziyyət şamil edilə bilməz. Belə bir insan Allahdan başqa heç kimdən qorxmaz. Bir güc və ya imkan əldə etdikdə bunun əslində Allaha aid olduğunu bilir.

Allahın yaratdığı hər zaman ən gözəl və ən xeyirlidir. Bu həqiqət heç vaxt unudulmamalıdır. Allah bir ayəsində belə bildirir:

**Dön Rəbbinə, sən Ondan və O da səndən razı olmuş şəkildə! (Fəcr surəsi, 28)**

İnsan daima Allahın yaratdığı hər hadisədən razı qalmalıdır. Onda bu məlumatın insanların Allaha olan yaxınlıqlarını necə artıracağı daha yaxşı qavrana bilər. Bundan əlavə, bu böyük həqiqəti nəzərə alaraq Quran bir daha oxunduqda bir çox ayənin hikməti daha yaxşı başa düşülər.

Ancaq Allaha iman gətirməyən, dünya həyatına bağlı olan, axirəti istəməyən, materialist fikrə malik olan insanlar üçün bu həqiqətin narahatlıq verən, "vahiməli" vəziyyət olması həqiqətdir. Çünki həvəslə bağlandıqları hər şeyin, mütləq varlıq zənn etdikləri şəxslərin əslində xəyalı ilə təmasda olduqlarını anlamaq onlar üçün böyük ümidsizlik və məhvdir. Bunu anladıqda bütün həyatları boyu xəyalın ardınca qaçaraq, həvəslənərək boş yerə yorulduqlarını anlayacaqlar və mənasız işlərlərlə məşğul olub, həqiqətləri inkar etdiklərini görüb çox peşman olacaq, hətta son dərəcə alçalacaqlar. Bu insanların xəyal olan şeyləri həqiqət zənn edərək aldanmaları isə onları axirətdə məhv edəcəkdir.

**Onlar özlərinə zərər eləyənlərdir. Yalandan uydurduqları bütlər də onlardan uzaqlaşıb qeyb olacaqlar. Şübhəsiz ki, axirətdə də ən çox ziyana uğrayanlar onlardır! (Hud surəsi, 21-22)**

Amma Allahı tək dost və vəkil kimi qəbul edən, Allaha könüldən bağlı qullar üçün hər şeyin xəyal, Allahın tək mütləq varlıq olması böyük sevinc vəsiləsi və gözəllikdir.

**Etiraz: "Xəyali mühitin sona çatması heçlikdir? İnsan bu heçliyin içində qala bilərmi?"**

**Cavab:** İnsanların bu mövzu üzərində düşünmələrinə mane olan, onları qorxudan səbəblərdən biri bu mövzu üzərində fikirlərini cəm edərək dərindən düşündükdə özlərinin və toxunduqları hesab etdikləri cisimlərin əslini heç vaxt

görə bilməyəcəklərini anlamaq və heçliyin içində qalmaqdan qorxmaqdır. Ancaq Allahın istəyi xaricində Allah bu imtahan dünyası üçün yaratdığı səbəbləri ortadan qaldırmaz. Bu səbəblər biz ölənə qədər bizim üçün yaradılmaqda davam edəcək.

Toxunduqda stolun bərkliyini hiss edəcəyik, əlimizi kəsdikdə əlimiz qanayacaq, ağrı hiss edəcəyik, aclıq, qorxu, ağrı, xəstəlik kimi imtahanları yaşayacağıq. Xəyallar dünyasında yaşamağımız bizi bu səbəblərə bağlı olmaqdan ayırmayacaq. Ölümümüzlə birlikdə isə yenə də heçlik olmayacaq, Allahın Quranda bildirdiyi kimi, fərqli ölçüyə və səbəblərə bağlı həyatımız başlayacaq. Beləliklə, insanın heçlik içində qalacağından qorxması yersizdir, çünki Allah bu imtahan mühitində insanı yaratdığı üçün bu hissləri yaratmaqda davam edəcək. Belə ki, Allah Quranda bildirdikləri bu yöndədir. İnsanın dünya həyatına aid hissləri bitdikdə axirət həyatına dair hissləri başlayacaq və insan heç vaxt heçlik içində olduğunu hiss etməyəcək.

**Etiraz: "Beynindən kənarda mövcud olan dünya ilə əsla təmasda olmayacağını anlayan insan üçün dünya həyatındakı imtahan davam edir?"**

**Cavab:** Bu, çox mühüm məsələdir. Bəzi kütlələr bu həqiqətin qavranılması ilə imtahan mühitinin sona çatdığını irəli sürərək səmimiyyətsiz düşüncə ortaya atırlar. Ancaq imtahan mühiti əvvəlki cavablarda da bildirildiyi kimi, biz ölənə qədər davam edir.

Allah bizi maddənin əsli ilə təmasda olmayacaq şəkildə yaşatsa da, bizə bu dünyanı müəyyən səbəblərə bağlı şəkildə göstərir. Məsələn, biz acdıqda: "Necə də olsa, xəyaldır, heç nə olmaz", -demirik, yemək yeyirik. Yemədikdə zəifləyər, bir müddət sonra həyatımızı itirə bilərik. Allah istədiyi vaxt istədiyi şəxsə istədiyi şeylər vasitəsi ilə bu səbəbləri aradan qaldıra bilər. Biz bunu bilmərik. Ancaq bu, çox vacib həqiqətdir: Allah bizim boynumuza Qurandakı hər şeyə görə məsuliyyət qoymuşdur və biz Qurandakı ibadətləri və saleh əməlləri yerinə yetirə bilmək üçün bu səbəblər çərçivəsində yaşamalıyıq.

Məsələn, Allah insanlara yaxşılığı əmr edib pislikdən çəkindirməyi əmr edir. Məzlum qadın və uşaqların zülmdən, sıxıntıdan xilas edilməsini əmr edir. Allah Quranda: "Nə üçün onlar üçün mübarizə aparmırsınız?" -deyə soruşur. Allahın bu səbəblər daxilində insanların üzərinə qoyduğu bu vəzifələri yerinə yetirməmək isə əsla doğru və səmimi davranış olmaz.

Əksinə, gördüyü hər hadisəni Allahın ona seyr etdirdiyini dərk edən insan gördüyü hər görüntüyə görə əvvəlcə məsuliyyət hiss edər. Bir çox insanın əksinə, qarşılaşdığı hər hadisədə daim yaxşılığı əmr edib pisliklərə mane olmağa çalışar. Bu vəzifəni heç vaxt başqalarına aid etməz, heç vaxt: "Bir azını da başqası

etsin, mən bu qədər edə bilirəm", -deyə bunun kimi bəhanələr gətirməz. Bu elmə vaqif olan insan: "Allah mənə bu görüntünü göstərirsə, mənim bunu həll etməyimi istəyir, bunun məsuliyyəti mənim üzərimə düşür", -deyər.

Beləliklə, bir insan, əvvəla, Allahın Quranda onun üzərinə qoyduğu vəzifələri vicdanı ilə əlindən gəldiyi qədər yerinə yetirməlidir. Maddənin əslini bilmək və bu həqiqətə əsasən dünyaya dair fikir əldə etmək isə insanın Allah rizası üçün göstərdiyi səylərini daha da gücləndirər, qətiyyətini qat-qat artırar.

**Etiraz: "Allahın hər yerdə olduğunu söyləmək doğrudur? Allahın hökmranlığı göylərdə deyil?"**

**Cavab:** İnsanlardan bəziləri özlərini, maddəni, ətraflarında gördükləri dünyanı mütləq varlıq zənn edirlər. Allahı isə (Allahı tənzih edirik) bu mütləq maddəni əhatə edən xəyal kimi düşünürlər və ya Allahı gözləri ilə görə bilmədikləri üçün: "Hər halda Allah bizim görə bilmədiyimiz bir yerdə, kosmosun və ya göyün uzaq bir yerindədir", -deyirlər (Allahı tənzih edirik). Bunların hamısı səhvdir.

Çünki Allah sadəcə göydə deyil, hər yerdədir. Allah tək mütləq varlıq kimi bütün kainatı, bütün insanları, yerləri, göyləri – hər yeri əhatə etmişdir və Allah bütün kainatda təzahür edir. Hara çevrilsəniz, Allahın üzü oradadır. Hədislərdə rəvayət edildiyinə görə, Peyğəmbərimiz (s.ə.v.) Allahın göydə olduğunu söyləyən şəxsə doğru söylədiyini bildirmişdir. Ancaq bu rəvayət Allahın hər yerdə olması həqiqətinə zidd deyil. Belə ki, dünyanın sizin olduğunuz nöqtədəki şəxs əllərini göyə qaldıraraq Allaha dua etsə və Allahın göydə olduğunu düşünsə, cənub qütbündə başqa hər hansı bir insan da eyni şəkildə Allaha yönəlsə, şimal qütbündə insan əllərini göyə qaldırsa, Yaponiyadakı, Amerikadakı, ekvatordakı insan da eyni şəkildə əllərini göyə qaldıraraq Allaha yönəlsə, bu halda hər hansı sabit istiqamətdən bəhs etmək mümkün deyil. Eyni şəkildə kainatın və kosmosun fərqli nöqtələrindəki cinlər, mələklər, şeytanlar da göyə doğru dua etsə, hər hansı sabit göydən və ya istiqamətdən bəsh etmək mümkün olmayacaq, bütün kainatı əhatə edən vəziyyət olacaq. Siz hara üz tutsanız, Allah orada təzahür edir. Daha əvvəlki mövzularda da bildirildiyi kimi, Allahın üzünü görəcəyimiz bir çox Quran ayəsi ilə bildirilmişdir. Məsələn, Allah "Bəqərə" surəsinin 255-ci ayəsində: **"...Onun kürsüsü göyləri və yeri əhatə etmişdir...", -**deyə bildirir. "Hud" surəsinin 52-ci ayəsində isə: **"Həqiqətən, Rəbbim nə etdiklərinizi biləndir!"** -deyilərək Allahın insanları da, etdiklərini də bildiyi xəbər verilir.

Quranda da bildirildiyi kimi, Allah sadəcə göylərdə deyil. Allah hər yeri əhatə edəndir. Bu məlumat bizə Quran vasitəsilə verilir. Maddənin ardındakı sirr ilə bağlı həqiqətin izah edilməsi isə bu ayələrin insanlar tərəfindən daha yaxşı başa düşülməsinə və qavranılmasına səbəb olacaq. Maddənin mütləq varlıq

*HƏQİQƏTLƏRİ İNADKARLIQLA İNKAR EDƏNLƏR CƏHƏNNƏM ƏZABI İÇİNDƏ MÜBAHİSƏ ETMƏKDƏ DAVAM EDƏCƏKLƏR*



olmadığını anlayan insanlar Allahın hər an, hər yerdə olduğunu, hər an onları gördüyünü və eşitdiyini, hər şeyə şahid olduğunu və onlara şah damarlarından daha yaxın olduğunu, hər dua edənin duasını eşitdiyi açıq şəkildə anlayacaqlar.

## Nəticə: Mübahisələrin yurdu cəhənnəm

Allah Quranda **"Biz bu Quranda insanlar üçün cürbəcür məsəllər çəkdik. İnsan isə ən çox mübahisə edəndir", (Kəhf surəsi, 54)** ayəsilə insanların mübahisəçi xüsusiyyətlərinə diqqət çəkir. Bəzi insanlar, xüsusilə mənfəətlərinə zidd olduğunu düşündükləri məsələlərdə, həqiqətlər çox açıq olduğu halda özlərini bilməməzliyə vururlar. Lazımsız təfərrüatlara aparan, hər hansı bir nəticə gətirməyən mənasız suallar verərək mübahisə edirlər. Bu xüsusiyyətlərinə görə, insanlardan bəziləri tarix boyu Allahın seçdiyi bütün peyğəmbər və elçilərlə mübahisə etmiş, onların gətirdikləri açıq-aşkar həqiqətlərə qarşı həqiqətdən kənar misallar gətirmişlər. Bu qarşı çıxmalarındakı məqsəd isə səmimi şəkildə həqiqətləri öyrənmək deyil, əksinə, həqiqətləri görməməzliyə vuraraq öz fikirlərinə görə çətinlik yaratmaqdır.

Səmimi şəkildə, həqiqətən öyrənmək, düşünmək və anlamaq məqsədilə sual verənləri bu açıqlamadan kənar etmək lazımdır. Əlbəttə, insanların bir çoxunun ilk dəfə qarşılaşdıqları və həyata baxışlarını tamamilə dəyişdirəcək belə vacib mövzuda sual vermək, daha yaxşı anlamaq üçün araşdırmaq və bilənlərlə məsləhətləşmək son dərəcə doğru və vacibdir. Suallarında və araşdırmalarında səmimi və xoş niyyətli olan insanların üslublarının mübahisəçi, şübhəçi və anlayışsız insanlarla eyni olmayacağı məlumdur. Ona görə, burada haqqında danışılan şəxslər həqiqətləri qəbul etməkdə inadkarlıq edən, mübahisəni və inkarı vərdiş halına gətirən insanlardır.

Allah bir ayəsində mübahisəçi insanların halını belə açıqlayır:

**Onlar dedilər: "Bizim tanrılarımız yaxşıdır, yoxsa o?!" Onlar bunu sənə yalnız mübahisə etmək xatirinə dedilər. Şübhəsiz ki, onlar höcətləşən bir qövmdürlər! (Zuxruf surəsi, 58)**

Quranda inadkar və mübahisəçi insanlara verilən nümunələrdən biri də firondur. Firon hz. Musanın ona bütün həqiqətləri tam açıq şəkildə izah etməsinə baxmayaraq, onun izah etdikləri ilə heç bir əlaqəsi olmayan, bundan başqa, cavabını alsa belə, ona heç bir fayda verə bilməyən sual vermişdir. Ona Allahın varlığını izah edən hz. Musaya fironun sualı belədir:

**(Firon) soruşdu: "Bəs əvvəlki nəsillərin halı necədir?" (Taha surəsi, 51)**

Aydındır ki, firon bu sualı "sadəcə mübahisə olsun deyə" vermişdir. Sualında səmimi öyrənmə istəyi yoxdur və öz zəif ağlına görə, hz. Musanın cavabsız qalaraq çətin vəziyyətə düşəcəyini hesab edir. Ancaq hz. Musa onun bu sualı verməsindəki məqsədini dərhal anlayır, ayədə də bildirildiyi kimi, ona çox açıq və qəti cavab verir:

**Cavab verdi: "Onlara dair bilik yalnız Rəbbimin dərgahında olan bir kitabdadır. Rəbbim xəta etməz və unutmaz!" (Taha surəsi, 52)**

Mübahisəçi və qəsdən həqiqətləri bilməməzliyə vuran xarakter, əlbəttə, sadəcə firona və ya keçmişdə yaşayan bir sıra inkarçılara aid deyil. Dövrümüzdə də insanların böyük hissəsi mənfəətlərinə zidd olan məsələlərdə, xüsusilə, dinlə bağlı məsələlərdə dərhal mübahisə etməyə başlayırlar. Səmimiyyətlə yanaşdıqda dərhal anlayacaqları mövzuları qəsdən anlamaq istəmədikləri suallarında və üslublarından bəlli olur. Xüsusilə bu kitabda izah edilən qədər gerçəyi və maddənin həqiqi mahiyyəti kimi mövzular insanların ən çox özlərini bilməməzliyə vurduqları mövzulardır. Bunda görə də bu mövzularda verdikləri suallar həqiqəti araşdırıb öyrənməyə yönələn səmimi araşdırmadan çox öz ağlına görə bu həqiqəti əsassız etməyə yönəlir. Məsələn: "Əgər hər şey görüntüdürsə, nə üçün ibadətlərimizi yerinə yetirək?" -deyə sual verənlər verdikləri sualın nə qədər mənasız olduğunu dərk etmirlər. Bir insanın görüntü kimi yaradılması nə üçün onun namaz qılmasına mane olsun və ya bir yeməyin görüntü olması nə üçün onun haram olmasına mane olsun, bunu düşünmədən, sadəcə etiraz etmək üçün bu sualları verirlər. Tək məqsədləri heç bir məntiq olmadan, sadəcə qarşı çıxmaq, doğru olanları qəbul etməmək və inadkarlıq etməkdir.

Möminlər isə həqiqətləri gördükdə heç mübahisə etmədən, Quranda da bildirildiyi kimi: "Eşitdik və itaət etdik", -deyərək dərhal qəbul edir və əməl edirlər. Onlara mübahisəçilərin verdiyi suallara isə onlarla mübahisə etmədən, qəti və açıq cavablar veririlər. Allah onlar ilə mübahisə edənlərə möminlərin belə cavab vermələrini bildirmişdir:

**"Siz Allah barəsində bizimlə mübahisəmi edirsiniz? Halbuki O, həm bizim, həm də sizin Rəbbinizdir. Bizim əməllərimiz bizə, sizin əməlləriniz isə sizə aiddir. Ona sadiq olan bizik!" (Bəqərə surəsi, 139)**

Möminlərlə mübahisə edənlər, qədəri və Allahın tək mütləq varlıq olduğunu, özlərinin isə Allaha aid bir varlıq olduqlarını inkar edərək çox açıq həqiqətlər barədə özlərini bilməməzliyə qoyanlar, məntiqsiz suallarla cənnətin,

cəhənnəmin varlığını, Allahın mərhəmətini və ədalətini öz zəif ağılları ilə sorğu-sual edənlər bunu çox yaxşı anlamalıdırlar: bu mübahisələrinə cəhənnəmdə də davam edəcəklər. Quran ayələrində cəhənnəm əhlinin davamlı olaraq mübahisə edib çəkişəcəklərini xəbər verilmişdir:

**Onlar orada çənə-boğaz olub deyərlər: "Allaha and olsun ki, biz açıq-aydın azmışdıq! (Şüəra surəsi, 96-97)**

**O zaman onlar od içində bir-birilə çənə-boğaz olacaq, acizlər təkəbbür göstərənlərə deyəcəklər: "Biz sizə tabe idik. İndi siz cəhənnəm odunun bir hissəsini bizdən dəf edə bilərsinizmi?!" Təkəbbür göstərənlər deyəcəklər: "Biz hamımız atəşin içindəyik. Allah artıq Öz bəndələri arasında hökmünü vermişdir! (Mumin surəsi, 47-48)**

Yuxarıdakı ayələrdən də göründüyü kimi, inkar edənlər atəşin içində olarkən də mübahisəyə davam edəcəklər. Başqa ayələrdə də inkar edənlərin sözləri ilə möminlərlə mübahisə etməyə çalışdıqları və belə dediklərini Allah bildirir:

**Onlar deyəcəklər: "Ey Rəbbimiz! Buna bizi kim uğradıbsa, onun əzabını cəhənnəmdə ikiqat elə!" Deyəcəklər: "Pis adamlar saydığımız kəsləri niyə burda görmürük? Biz onları məsxərəyə qoyurduq. Yoxsa onlar gözə dəymirlər?!" Şübhəsiz ki, bu - cəhənnəm əhlinin bir-biri ilə bu cür çəkişməsi bir həqiqətdir! (Sad surəsi, 61-64)**

Cəhənnəm əhli cəhənnəmin dar və sıx yerlərində dəmir qamçılarla, üzərlərinə tökülən qaynar su ilə oddan dəriləri əriyərkən yenə mübahisə etməyə davam edəcəklər. Nəticəsiz mübahisələri heç bitməyəcək, özlərinin nə üçün əzab çəkdiyini bir-birlərindən soruşacaqlar, Allah və möminlər haqqında mübahisə etməkdə davam edəcəklər:

**Bunlar Rəbbi barəsində mübahisə aparan iki zümrədir. Onu inkar edənlər üçün atəşdən paltar biçilmişdır; başlarına da qaynar su tökülür. O su ilə qarınlarında olanlar və dəriləri əridilmişdir. Hələ onlar üçün dəmir qamçılar da vardır. Oradan çıxmaq istədikcə, yenidən ora qaytarılar və (onlara:) "Dadın atəşin əzabını!" (deyilər). (Həcc surəsi, 19-22)**

Ancaq bu mübahisələrdən də heç bir nəticə əldə etməyəcəklər. Dünyada həqiqətlər haqqında özlərini bilməməzliyə qoyaraq mübahisə edən inkarçılar,

Allahın istəyi xaricində, sonsuzluğa qədər davam edəcək cəhənnəm əzabı içində, faydası olmayan peşmançılıqla mübahisə edərək yaşayacaqlar.

Cəhənnəm əhlinin cəhənnəmdə də mübahisələrinə davam etməsi onların cəhənnəm atəşini gördükdə belə iman gətirməyəcəklərinin, mübahisələrə davam edərək həqiqətləri anlamayacaqlarının göstəricisidir. Bu insanlar cəhənnəm əzabının içində ikən belə inkarlarına davam edirlər:

**Od içində olanlar cəhənnəm gözətçilərinə dedilər: "Rəbbinizə dua edin ki, heç olmasa, bircə gün əzabımızı yüngülləşdirsin!" (Cəhənnəm gözətçiləri) dedilər: "Məgər sizə öz peyğəmbərləriniz açıq-aşkar möcüzələr gətirməmişdilər?" Onlar: "Bəli", - deyə cavab verdilər. (Cəhənnəm gözətçiləri onlara: ) "Elə isə özünüz dua edin!" - dedilər. Kafirlərin duası isə boşunadır. (Mumin surəsi, 49-50)**

Cəhənnəm atəşinin içində olarkən də: "Rəbbim", -deyərək dua etməyən və təkəbbür göstərməkdə davam edən bu insanların sahib olduqları davranış və əxlaq pozğunluğu ortadadır. Bu insanlara bütün nümunələr verilsə də, bütün dəlillər göstərilsə də, anlamazlar. Allah bir ayəsində bəzi insanların inanmayacaqlarını belə bildirir:

**Allaha ürəkdən and içdilər ki, əgər onlara bir ayə gəlsə, ona mütləq inanacaqlar. De: "Ayələr ancaq Allahın Qatındadır. Onlara ayə gəldikdə yenə də iman gətirməyəcəklərini dərk etmirsiniz?!" (Ənam surəsi, 109)**

Buna görə, bəzi insanların burada izah edilən həqiqətləri çox açıq və anlaşılan olmasına baxmayaraq, anlamamalarına təəccüblənmək lazım deyil. Bu insanların həqiqətlər qarşısında boyun əyməmələrini də əslində Allahın ayəsidir.

# NƏTİCƏ: HƏQİQƏTLƏRDƏN QAÇMAQ OLMAZ

İnsanların fikirlərini kökündən dəyişdirən, insanları Allaha qəti iman etdirən, Quranda bəhs edilən bütün gözəl əxlaq xüsusiyyətlərinin sevərək və istəyərək yaşanmasını təmin edən, insanlardakı həvəs, rəqabət, kin, düşmənçilik, paxıllıq hisslərini aradan qaldıraraq sevgi, mərhəmət, şəfqət, təvazökarlığı hakim edən bu qeyri-adi vacib həqiqəti, yəni maddənin xəyal olması həqiqətini öyrənən və anlayan insanların sayı sürətlə artır. "Bu qədər açıq həqiqəti necə olub ki, bu günə qədər anlamamışam", -deyən insanlar çoxluq təşkil edir.

İnsanların qədər, zaman, ölüm, dirilmə, cənnət, cəhənnəm kimi mövzuları qəti şəkildə başa düşmələrini təmin edən bu böyük sirri qavrayan hər insanın digərlərini də bu mühüm məlumatdan xəbərdar etməsi çox vacibdir. Bunu edən insan bu sayədə həm insanların Quranı daha yaxşı və asan anlamalarını təmin edəcək, həm də insanların sürətlə hidayətlərinə səbəb olacaqdır.

Allah Ona gizli və açıq şəkildə şirk qoşulmadıqda, yalnız Ona ibadət edildikdə, tək İlah və tək güc kimi Allah qəbul edildikdə Quran əxlaqını dünyaya hakim edəcəyini müjdələyir:

**Allah aranızdan iman gətirib yaxşı işlər görənlərə - yalnız Mənə ibadət edərlər, heç nəyi Mənə şərik qoşmazlar deyə - onları özlərindən əvvəlkilər kimi yer üzünün varisləri edəcəyini, onlar üçün bəyəndiyi dinini möhkəmləndirəcəyini və onların qorxusunu sonra əmin-amanlıqla əvəz edəcəyini vəd buyurmuşdur. Bundan sonra küfr edənlər, şübhəsiz ki, əsl fasiqlərdir! (Nur surəsi, 55)**

Quran əxlaqının dünyaya hakim olması üçün ən mühüm məsələ olan şirkdən, yəni Allahdan başqa güclərin olduğuna inanmaqdan çəkinmək lazımdır. Allahdan başqa maddənin mütləq olduğunu iddia etmək, Allahın maddəni ancaq xəyal kimi əhatə edəcəyini düşünmək, Allahı ağıl kimi mücərrəd varlıq kimi görmək, Allahdan başqa gücdən qorxmaq, insanın istədikdə qədərini dəyişdirə biləcəyini düşünmək (hamısından Allahı tənzih edirik), zamanı, məkanı mütləq zənn etmək kim şirk olan inanclardan qurtulmaq üçün bu kitabda izah edilən mövzular yaxşı başa düşülməlidir. Bu səbəbdən: "Bu mövzunun nə əhəmiyyəti var? Nə üçün hər fürsətdə, hər kitabınızda bu mövzuya yer verirsiniz?" -deyənlər bu vacib həqiqəti yenidən düşünməlidirlər.

Tək mütləq varlıq Allahdır və Allah biz bu kitabı yazarkən də, oxuyarkən də, bu kitab haqqında düşünərkən də bizi seyr edir, görür, eşidir, gizlimizin gizlisini bilir. Allah bizi hər tərəfdən əhatə etmişdir. Gerçək mütləq varlıq olan

Allahdır, ağıl kimi görünməyən və mücərrəd olan isə biz qullarıq. Bu həqiqət Allahı sevən və Allaha qul olduğunu dərk edən biri üçün böyük şərəf və gözəllikdir. Bu həqiqətdən müsəlmanların qaçması doğru olmaz. Müsəlmanlar haqq olanı könüldən qəbul etməli, görməməzliyə vurmağa çalışaraq Allah qatında alçalmamalıdırlar. Allah inanan qullarını Quranda belə xəbərdar edir:

**Siz bilə-bilə haqqı batillə qarışdırmayın, haqqı gizlətməyin! (Bəqərə surəsi, 42)**

Bunu da unutmaq olmaz ki, bu həqiqətin açıqlanması materializmin süqut etməsinə və bütün dünyada mənəviyyatın və gözəl əxlaqın hakim olmasına vəsilə olacaqdır. Bunu anlayan materialist kütlələr bu həqiqətin açıqlanmasından çox narahat olur, fəlsəfələrini kökündən məhv edəcəyini anladıqları bu həqiqətin insanlara açıqlanmasına mane olmaq üçün son dərəcə gülünc və çarəsizliklərini göstərən yollara əl atırlar. Ancaq bu gün maddənin həqiqəti mövzusu bütün açıqlığı ilə üzə çıxmışdır. Keçmişdə sadəcə bir fəlsəfə kimi qalan, elmi kəşflərin dəstəkləyə bilmədiyi bu həqiqət dövrümüzdə elm tərəfindən açıq şəkildə ortaya qoyulmuşdur. Frederick Vester bu həqiqəti qavramış biri kimi bu mövzuda belə deyir:

*Bəzi mütəfəkkirlərin "insan xəyaldır, əslində bütün yaşananlar keçici və aldadıcıdır, bu kainat kölgədir" kimi sözləri günümüzdə elmi cəhətdən sübut edilir.*[52]

Materialistlərin səyləri artıq boş yerədir. Məlumatın böyük sürətlə bütün dünyaya qısa zamanda ötürülə bildiyi dövrümüzdə əsrlərdir gözdən qaçırmağa çalışdıqları bu böyük həqiqət bu gün Qayanadan İngiltərəyə, Amerikadan İndoneziyaya, Sinqapurdan İsveçə, materialistlərin qalaları olan Rusiyadan Çinə, Kubadan Albaniyaya qədər hər yerdə oxunur, öyrənilir və izah edilir. Materializm böyük gurultu ilə süqut edir. Çünki bu gün başa düşülmüşdür ki, maddənin əsli ilə heç vaxt təmasda ola bilmərik. Maddə ilə təmasda ola bilmədiyimizə və ola bilməyəcəyimizə görə materializm də yoxdur.

Quranın bəzi ayələrində işarə edilən və bir çox mövzunun başa düşülməsini daha da asanlaşdıran bu vacib həqiqətin materializm kimi batil və din əleyhinə olan bir fəlsəfəni məhv etməsi çox mühüm irəliləyişdir. Quranda Allah belə bildirir:

**Xeyr, Biz batili haqla rədd edərik və o da onu yox edər. (Bir də baxıb görərsiniz ki) o yox olub getmişdir. (Allaha) isnad etdiyiniz sifətlərə görə vay halınıza! (Ənbiya surəsi, 18)**

Ayədə də xəbər verildiyi kimi, doğru olan batilin üstünə atıldıqda batil bir inanc olan materializmin beyni maddə də yox olub gedər. Hər hansı bir materialistin bu həqiqətin qarşısını almaq və ya dəyişdirmək imkanı da qətiyyən yoxdur.

# MADDƏNİN SİRRİNİ ÖYRƏNƏNLƏR BÖYÜK HƏYƏCAN YAŞAYIR



Aşağıdakı məktublar daha əvvəl başqa kitablarda nəşr edilmiş "Maddənin ardındakı sirr" mövzusunu oxuyan şəxslərdən gəlmişdir. Sözügedən məktublardan sadəcə bu həqiqəti öyrəndikdən sonrakı düşüncələri ilə bağlı bölmələr seçilmişdir.

* Maddənin xəyal olması o qədər böyük bir hadisədir ki, bunu tərif etmək hər halda o qədər mümkün deyil. Məsələn: bir insan ölüb dirilərsə, necə həyəcan hiss edər, təxmin edə bilərsiniz? Bir insan heç səbəbsiz havada uçsa, divardan keçsə, eyni anda bir neçə yerdə olsa, tərifi mümkün olmayan şəkildə həyacanlanar. Lakin bu mövzu bu qeyri-adi hallarla müqayisə edilə bilməz. Fövqəladə olduğunu desək, yenə bu vəziyyəti tərif etmək olmur. Yəni çox qəribə, qeyri-adi dərəcədə həyəcan verici olduğunu desək, yenə də bu vəziyyəti izah etmək olmaz. Bu, Allahın dərin, ucsuz-bucaqsız sənətinin möhtəşəm təzühürüdür. Amma mənim başa düşmədiyim budur ki, bu qədər açıq bir məsələ insanlardan necə bu qədər müddət gizlədilib? Çünki mən bir dəfə oxudum və dərhal anladım. Çünki hər şey çox açıq şəkildə ortadadır... K.H.G./Frankfurt

* İnsanın ağlını, zəkasını şok edən bu böyük həqiqəti bütün bəşəriyyətə dərhal izah etməliyik. Nəyi gözləyirik? Bu, açıq-aydın həqiqət deyil? Bunu dünyaya hamımız hər cür imkandan istifadə edərək dərhal çatdıraq. Bəşəriyyət bu həqiqətlə Allaha daha çox yaxınlaşacaqdır. Məncə, bu böyük mövzu dünyadakı hər şeyi dərindən sarsıdacaq böyük həqiqətdir. Deyəcək başqa söz tapa bilmirəm. Sevgilərimlə uca Allaha əmanət olun deyirəm. F.E./Ankara

* "Təkamül yalanı" kitabının arxasındakı "Maddənin ardındakı sirr" bölməsini oxudum. Mən bir şey anlamadım. Ancaq çox qəribə bir şeydir. Hal-hazırda danışdığım da yenə mənim içimdə, mən də mənim içimdə. Bu, nədir? Bu, nə möhtəşəm sirdir? Görəsən, insanlar bunu nə vaxt anlayacaq? Başa düşülməyəcək bir şey deyil, son dərəcə açıq bir həqiqətdir. Amma biz nə üçün indiyə qədər bilmirdik? Bu mövzu bütün insanlar tərəfindən başa düşülərsə, elmdə saysız-hesabsız inqilablar olacağını düşünürəm. Mən də bu vəziyyətə nə

ad verəcəyimi bilmirəm. Təəccübləndim, heyrətləndim. Uca Allaha çoxlu şükür etdim. Hər şeyi indi daha yaxşı anlayıram. Ancaq başqalarına izah etməkdə çətinlik çəkirəm. Bəzən insanlar bunu anlamırlar. Budur, mən qarşında dayanmışam deyirlər. Halbuki bunu söylədikdə mən onun beynində bir görüntüyəm. O, məni xarici aləmdə zənn edir. İndi: "Sadəcə dərin heyrətimi necə daha yaxşı izah edə bilərəm", -deyə düşünürəm. Bu mövzuda yeni kitablarınızı gözləyirəm. Xüsusilə gündəlik həyatdan nümunələr olarsa, bunları başqalarına daha rahat izah edə bilərik. S.K./Muğla

* Hörmətli Harun Yəhya bəy, bəzi kitablarınızda işlədiyiniz "Maddənin ardındakı sirr" mövzusunu dəfələrlə oxudum. Qəti qənaətim budur ki, maddə həqiqətən xəyaldır. Ancaq bu çox möhtəşəmdir, həyatın yuxu kimi olması mənə həddindən artıq təsir etdi. Ancaq maddənin əsli ilə təmasda oluruq kimi görünməsi və mənə aid insanda oyandırdığı hisslər o qədər inandırıcıdır ki, daha çox həqiqiymiş kimi yaşayıram. Lakin bu mövzunu bir an düşündükdə maddənin xəyal olduğunu dərhal açıq şəkildə hiss edirəm. Ancaq həqiqətən çox inandırıcıdır. Vəziyyətimə gülürəm. Bəzən bir şeyə əsəbiləşirəm, səsimi yüksəldirəm. Sonra beynimdəki görüntüyə qışqırdığımı xatırladıqda pərt oluram. İnsanın nə qədər heyrətamiz bir yaradılışı var. Xəyal olan şeyi maddi zənn etməyimiz o qədər güclüdür ki, bilməyən bir insanın bunun əksini düşünməsi mümkün deyil. Bəzən Bosfor mənzərəsini seyr edirəm. "Qarşı sahilə keçmək nə qədər vaxtımı alar?" -deyirəm. Çox uzaq yerlərə baxıram. Sonra düşünürəm. Ən uzaq hesab etdiyim yer də mənim içimdə, beynimin içində, yəni görüntü  beynimin içindədir. İnsan qeyri-adi bir varlıqdır. Allah insanı o qədər möhtəşəm bir elmlə yaratmışdır ki, necə tərif edim, nə deyim, hansı yolla bunu izah edə bilərəm, tam bilmirəm. Ancaq bunu deyə bilərəm. Bizi bu böyük elmdən xəbərdar etdiyiniz üçün Allah sizdən və fəaliyyətlərinizdən razı olsun inşaAllah. E.M./İstanbul

* "Təkamül yalanı" kitabının arxa hissəsindəki maddənin ardındakı sirlə bağlı izahınızı maraq və həyəcanla oxudum. Əvvəlcə, nəzəri cəhətdən anladım, amma praktik cəhətdən o qədər də anlaya bilmədim. Sonra bir ara düşündükdə nəyə işarə edildiyni anidən anladım. Şok dərəcəsində həyəcanlandım. "Aman Allahım, bu, ağlasığmaz şeydir", -dedim. Bu heç ağlıma da gəlməyən haldır. Həyatın yuxu kimi olduğunu deyirdilər. Mən onu bir bənzətmə kimi anlayırdım. Amma onu söyləyənlər də həqiqi mənada demirlər, bənzətmə kimi deyirlər. Bunun həqiqi olduğunu bilsələr, kim bilir, nə edərlər. Qeyri-adi vəziyyətdir. Ancaq kitabı oxuyan hər kəs çox sakitdir. "Görəsən, tam şəkildə anlamadılar?" -deyə fikirləşirəm. Belə bir vəziyyət qarşısında necə sakit olmaq olar? Mən

ölümü, yenidən yaradılışı, cənnət həyatını, hər şeyi indi daha yaxşı anladım. Allah Quranda "Sizi yenidən yaratmaq Bizim üçün çox asandır", -deyir. İndi beynimdə hər şey aydınlaşdı. Bu mövzunu izah etdiyim insanlar bu mövzunu bir az çətin anlayırlar. Daha praktiki və asan necə izah edə bilərəm? Bir də bu mövzunu izah etdiyim bəzi insanlar həddindən artıq həyəcanlandı. Görəsən, mən birbaşa izah etməkdə səhv edirəm? Daha əvvəl Allah sevgisi, Allahın Rəhman və Rəhim olduğunu, insanların daha çox yaxşılıq etmələrini, daha yaxşı yaşamalarını istədiyini izah etsəm, daha yaxşı olarmı? Sizin fikriniz nədir? Ş.U./Edirne

* Orta məktəbdən etibarən bütün duyğuların beyində əmələ gəldiyi bizlərə hər zaman izah edilmişdi. Çox yaxşı bildiyim həqiqət idi. Biologiya imtahanlarında neçə dəfə hərtərəfli izah edilmişdi. Ancaq bu cür hadisənin həqiqi tərəfini görə bilməmişdim. Görüntü beyində əmələ gəlir deyirdim. Amma maddə kənarda, məndən uzaqda durur. O, oradadır, mən də görürəm. Hətta görüntünün gözümün olduğu yerdə əmələ gəldiyi, bir də beynimdə əmələ gəldiyi, bundan başqa, "maddənin varlığı açıqdır, budur, qarşımda durur" kimi qarmaqarışıq məntiqim vardı. Əslində elə çox da düşünməmişdim. Sanki nazik bir pərdənin üstündəydim, amma seyr edən sanki boşluqdur, ruhun nə olduğu başa düşüləcək bir şey deyil. Amma hər şeyi qavrayan bir gücdür, həcmi, çəkisi, qatılığı olmayan, heçlik olan, amma beş duyğunu qavrayan şüurdur. Bu mövzuda daha ətraflı  kitab yazmağı düşünürsünüz? Bir də kitablarınız bizim bölgəmizdə satılmır, bunu nəşriyyat evinə bildirməyim kifayətdir? Sevgilərimi göndərir, uğurlar diləyirəm. Y.C./ Kayseri

*... Mən bu mövzunu bəzi dostlarıma izah etdim. Universitet məzunu olan çox savadlı uşaqlardır, ancaq bəzi dostlarım heç cür bu mövzunu qavraya bilmirlər. "Necə olur, budur, sən qarşımdasan, beynimdə görüntün əmələ gələ bilər. Amma sən burdasan", -deyə əlimi çiynimə toxundurur. Bu danışıq və hərəkətinin onun beynində əmələ gəldiyini bildirirəm. Hətta: "Beyninə gedən sinir kəsilsə, məni görə bilməzsən, toxunma hissin də itər", -deyirəm. Yenə anlamır. Bu anlamama mənə "müəyyənedici metafizik bir həqiqətin üzə çıxması" kimi gəlir. Çünki heç cür bu həqiqəti qavraya bilmir. Bu mövzunu orta məktəbdə sonuncu sinifdə oxuyan qardaşımın oğluna izah etdim, dərhal anladı. "Bunu başa düşməyən insanlar xüsusi şəkildə qavramalarına maneə qoyulmuş insanlar ola bilər?"- deyirəm. Yəni: "Şüura sahib deyillər, görəsən?" -deyə fikirləşirəm. Belə bir şey mümkündür? Quranda gözü, qulağı qapalı insanlardan bəhs edilir. Bəzi insanlarda görmə, eşitmə şüuru olmaya bilərmi? Bu mövzuları məktubunuzda və ya kitabınızın yeni nəşrində bildirə bilərsiniz?

İndidən təşəkkür edirəm. Hörmətlə: E.A./ İstanbul

* Hörmətli Harun Yəhya, mən fəlsəfə ilə çox maraqlanıram. Buna görə, maddənin ardındakı sirr mövzusunu böyük maraqla oxudum. Maddənin xəyal olması dünya tarixində bir çox dəfə açıqlanmışdır. Ancaq insanları maddənin əslini gördüklərinə dair inandırıcı hisslərin aydınlığı qarşısında bir az çox düşünməyə vaxt ayırmadıqlarına görə, yəqin ki, bu açıq-aydın həqiqəti anlaya bilməmişlər. Ancaq dövrümüzdə bu asan həqiqəti çox asan anlaya biləcəkləri imkanlara qovuşmuşlar. Gözün ümumi quruluşu, görüntünü beynə ötürən sinirlər, beyindəki görmə mərkəzi və buna bənzər elmi detalların mikro səviyyədə tədqiq edilməsi və açıqlanması bu mövzunun açıqlanmasını asanlaşdırmışdır. Bundan başqa izafi fizikanın inkişaf etməsi, üç ölçülü filmlər, televiziya, radio və s. texniki imkanlar da bu mövzunu aydınlaşdırma asanlığı verir. Mənim qənaətimə görə, bu əsrdə bu mövzu bütün elm dünyasına hakim olacaq. Sizin də bildiyiniz kimi, kvant fizikası artıq səs-küylə bu həqiqəti xəbər verir. Təbii ki, bəzi insanlar bu böyük həqiqət qarşısında uşaq kimi qorxmasalar və dünyaya olan sevgilərinin məcburən yox olmasını qəbul etsələr, bunun daha asan olacağını ümid edirəm. Lakin belə açıq həqiqətdən qaçmağın, başını quma soxmağın, özünü bilməməzliyə qoymağın insanın şəxsiyyətinə yaraşan davranış olmadığını düşünürəm. Yazmaq istədiyim çox şey var, ancaq vaxtınızı almaq istəmirəm. Sağlam, gözəl günlər diləyirəm. Sağ olun. T.E. /Richmond

* Maddənin beynimizdəki halı ilə, yəni elektrik siqnallarının şərh edilməsilə meydana gələn surətlərilə təmasda olduğumuzu televiziya, radio və qəzetlər insanlara nə üçün açıqlamır? Bu, qəti həqiqətdir, bir TV proqramında və ya böyük tolk-şou proqramlarından birində bu mövzu Türkiyənin qabaqcıl elm adamları tərəfindən dəyərləndirilməlidir. Əksini iddia edən şəxs çıxsa, çox maraqlıdır, görəsən, nə deyər? Bu mövzunu heç anlaya bilməyən bir neçə insanın izahını eşitmiş və təəccüblənmişdim. O yaşda insanlar bu qədər açıq-aydın mövzunu necə qavramırlar? Yenə belə vəziyyət meydana gələ bilər. Ancaq bunu millət dəyərləndirər. Həm ibrət alar, həm də bu mövzunu qavramayanların məntiqini də, daha doğrusu, məntiqsizliyini də öyrənər. Mənim qənaətim budur ki, bu mövzu İslam dinində çox vacibdir. Əhəmiyyətinin qarşıdakı günlərdə daha çox başa düşüləcəyinə ümid edirəm... K.İ. / Samsun

* Maddəni tərif etməyiniz mənə çox təsir etdi. Bu mövzu insan ağlının hüdudlarını aşır. Tam başa düşüləcək bir şey deyil. Elə qəribədir ki, məsələn, bu yazdığım bir görüntüdür. Görüntü görüntü ilə görüşür və danışır. Əslində həqiqətdən çox təəccüblü vəziyyətdir. Məncə, bu mövzunu oxuyan hər kəs bu

möhtəşəm həqiqəti anlayır... W.B.F./ İngiltərə

* Kitabınızın arxasındakı maddənin sirri ilə bağlı bölməni oxuduqdan bəri həyata baxışım dəyişdi. Məsələn, ötən gün birisinə əsəbiləşib qışqıracaqdım, sonra ağlıma gəldi ki, hər şeyi beynimin içində görürəm. Dərhal sakitləşdim, əsəbiliyim də keçdi. Bu mənə türk filmi seyr edən yaşlı bir qadının mənfi roldakı aktyora əsəbləşməsi kimi gəlir. Məndə belə dərin dəyişiklik əmələ gətirən həqiqətləri, məncə, daha geniş kütlələrə izah etməli və bunun üçün ayrıca kitab nəşr etməlisiniz. Əgər belə bir kitab yazsanız, zəhmət olmasa, mənə də xəbər verərsiniz. M.V./ Aydın

* "Maddənin ardındakı sirr" yazınızı oxudum. Hər şey həqiqətən beynimin içində əmələ gəlir? Elə isə beynim də bir görüntü deyil? Əslində anlamadığım budur, bu məktəbdə, televizorda, hər yerdə insanlara izah edilməlidir. Mən bu mövzu ilə bağlı daha çox şey öyrənmək istəyirəm. Bunun üçün nə edə bilərəm? Mənə kömək etsəniz, çox sevinərəm. K.B./ Antalya

* Mən göz həkimiyəm. Ötən gün bir xəstəm necə gördüyümüz ilə bağlı suallar verdi. Əvvəlcə, sualları texniki xarakter daşıyırdı, ancaq daha sonra həqiqətən məni düşündürən suallar verdi: beynimizin içində əmələ gələn görüntünü görən kimdir? Açığını deyim ki, çox təsirləndim. Mən Allaha və ruhun varlığına inanan bir insanam, ancaq ruhun varlığını bu qədər elmi və açıq bir yolla açıqlamaq mənim ixtisasım olmasına baxmayaraq, ağlıma gəlməmişdi. İnternet səhifənizdən bu mövzu haqqındakı yazınızı oxudum. Bu barədə məsləhət gördüyünüz başqa mənbələr və ya sizin başqa əsəriniz var? Xarici mənbə də ola bilər. Həqiqətən öyrənməyə, araşdırmağa və düşünməyə dəyən çox vacib mövzu olduğunu düşünürəm. İzah edilənlər insanın düşüncə tərzini təkcə genişləndirmir, həm də həyatındakı bir çox şey barədə sorğu-sual etməsinə səbəb olur. Həqiqətən, vacibdir. F.N.G./Eskişehir

* Dünən "MADDƏNİN ARDINDAKI SİRR" CD-sini seyr etdim. Öz ağlımla anlamağa çalışdım və ya anladığımı zənn etdim. Cavab axtardığım bəzi suallar var. Xahiş edirəm, mənə kömək edin. M.H./İzmir

* "Maddənin ardındakı sirr" adlı yazını oxuduqda hər şeyin mənim üçün hazırlanmış ssenari olduğunu düşündüm. Mövzunun aydın olması üçün özümü "Truman Show" və ya "Matrix" adlı filmdəki kimi hiss etdim. Mənə mənim üçün hazırlanmış bir maşının içində yaşayıram kimi gəldi. Mövzunu bu şəkildə inanaraq düşündükdə özümdə fərqli hallar hiss etdim. Bu mövzunu

indiyə qədər heç kimin izah etmədiyi qədər dərindən izah etmisiniz. E.H./ Toronto

*... "Maddənin ardındakı sirr" adlı video kassetinizin bir hissəsini seyr etdim. Mövzu olduqca gözəl şəkildə açıqlanmış, lakin bu həqiqəti izah edərkən düşünürəm ki, daha çox misallara ehtiyacımız olacaq. Sənədli filmdə verilən nümunələr kifayətdir, ancaq xüsusilə gündəlik həyatdan bir az da nümunlər yeni nüsxələrdə yer alarsa, öz tərəfimizdən bu həqiqətin başa düşülməsinin və izah edilməsinin daha asan olacağını düşünürəm. Çünki bu mövzunu insanlar lazım olduğu kimi şərh edə bilmirlər və səhv fikirlər irəli sürürlər. Bunun qarşısını almaq üçün mövcud nümunələrə daha bəsit nümunələrin əlavə edilməsi, mənim fikrimcə, daha faydalı olar. Ş.G./İstanbul

* Maddi dünyaya və həyata baxışımı kökündən dəyişdirdi. Həyat, ətrafım və insanlar artıq mənim üçün heç də əvvəlki kimi deyil. Həqiqətləri öyrəndikcə bəzi şeylərdən soyumağa başladım, bir az da özüm düşünməyə başladım. Bilmirəm, bu, doğrudurmu? Amma bir tərəfdən də özümü daha rahat, təhlükəsiz və xoşbəxt hiss edirəm. İnsanların etdikləri, sözləri mənə çox bəsit gəlir. Bu yaşadıqlarımı anlaya biləcək və dinləyə biləcək insanlar axtarıram. Sizlərdən mənə hər zamankı kimi bu çox vacib mövzuda da kömək etməyinizi istəyirəm. Çünki boş yerə yaşamaq, boş yerə hadisələrə kədərlənmək istəmirəm. K.U./ Tekirdağ

**Maddənin həqiqəti mövzusunda suallar ünvanlanan elm adamlarının bəzi şərhləri**

* Email mesajınız və çox maraqlı mövzusu üçün təşəkkür edirəm. Suallarınız çox maraqlı gəldi və bunu deməliyəm ki, onları oxumaqla çox şey öyrəndim. Mənə yazdığınız üçün təşəkkür edirəm və suallarınızı bu sahədə fəaliyyətləri olan elm adamı dostlarımla bölüşəcəyəm. Onların cavablarının nə olacağı mənə maraqlıdır. Ən yaxşı arzularımla və mənə yazdığınız üçün təkrar təşəkkür edirəm. Kofi Opoku

* Bütün suallarınız və müşahidələriniz son dərəcə dərindir və məhz hədəfə yönəlmişdir! Bunlar, tarix boyu verilmiş suallardır, ancaq hələ tamamilə cavablandırılmamışdır. Əslində əgər tədqiqatçılar sizin qədər bu sualların cavablarını axtarmaq üçün çalışsaydılar, nevrologiya və psixologiya, hətta fəlsəfə elmi böyük irəliləyişlər əldə edərdi. 13-cu sualınızda bəzi insanların bu həqiqətin üzə çıxarılmasından qorxduqlarını bildirmişsiniz. Bu fikrinizdə haqlısınız. Dünyanı ən doğru şəklində gördüyünüz halda, onun tərif etdiyiniz

halı çox-çox qorxuducudur. Ancaq həqiqət çox qorxuducu olsa da, həmişə öyrənməyə dəyər... Siz bu suallardan göründüyü kimi, çox ağıllı və dərin düşünən insansınız. Bir çox insan nədən bəhs etdiyinizi anlamadıqda əsla təəccüblənməyin, hətta öz sahələrində mütəxəssis olan filosoflar belə bu mövzuları anlamaya bilərlər. Fəaliyyətlərinizdə uğurlar diləyirəm. Prof. Steve Lehar

* Əsrlərdir filosofları məşğul edən suallar vermisiniz... Biz super kompyuterin içində xəyali dünyada da yaşaya bilərik və belə bir vəziyyətdə heç vaxt fərqi anlamarıq; eynilə "The Matrix" və "Tron" filmlərində olduğu kimi. Təbiət qanunları da bu proqramın bir hissəsi olduğu təqdirdə həqiqətlə xəyal arasındakı fərqi əsla bilmərik, çünki arada fərq olmaz. Bir çox insan bunları düşünməkdən qorxur, çünki onlara rahat gələn dünyagörüşlərini təhlükə qarşısında qoyduğunu düşünürlər. Jon Roland (Vanguard Tədqiqat İnstitutunun qurucusu və rəhbəri)





# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini rədd etmək məqsədi ilə ortaya atılan, lakin müvəffəqiyyətli ola bilməyən və elmdən kənar olan mənasız fikirdən başqa bir şey deyil. Canlının cansız maddələrdən təsadüfən meydana gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çoxlu möcüzəvi nizam olduğunun elm tərəfindən isbat edilməsilə dəlilsiz hala gəlmişdir. Beləcə, Allahın bütün kainatı və canlıları yaratdığı həqiqəti elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsinə dəstək olmaq üçün dünya səviyyəsində aparılan təbliğat yalnız elmi həqiqətlərin təhrif edilməsinə, tərəfli şərh olunmasına, elm adı altında deyilən yalanlara və edilən saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizləyə bilmir. Təkamül nəzəriyyəsinin elm tarixinin ən böyük yalanı olduğu son 20-30 ildə elm dünyasında getdikcə daha yüksək səslə dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan araşdırmalar darvinist iddiaların tamamilə səhv olduğunu ortaya qoymuş və bu həqiqət bir çox alim tərəfindən də dilə gətirilmişdir. Xüsusilə ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrdən olan çoxlu sayda tədqiqatçı alim darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılış həqiqəti ilə açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutunu və yaradılışın dəlillərini digər bir çox əsərlərimizdə bütün elmi detalları ilə göstərdik və göstərməyə davam edirik. Ancaq mövzunu daşıdığı böyük əhəmiyyət səbəbilə burada da yekunlaşdırmaqda fayda vardır.

## Darvini yıxan çətinliklər

Təkamül nəzəriyyəsi tarixinin qədim yunanlara qədər gedib çıxan bir nəzəriyyə olmasına baxmayaraq, əhatəli olaraq 19-cu əsrdə ortaya atıldı. Nəzəriyyəni elm dünyasının gündəliyinə gətirən ən əhəmiyyətli yenilik Çarlz Darvinin 1859-cu ildə nəşr olunan "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı fərqli canlı növlərinin Allahın ayrı-ayrı yaratdığı həqiqətinə qarşı çıxırdı. Darvinə görə, bütün növlər ortaq bir atadan gəlirdilər və zamanla kiçik dəyişmələrlə fərqliləşiblər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, yalnız bir "məntiq irəli sürmək" idi. Hətta Darvinin kitabındakı "Nəzəriyyənin çətinlikləri" başlıqlı uzun hissədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox əhəmiyyətli suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin önündəki çətinliklərin inkişaf edən elm tərəfindən aşılacağını, yeni elmi tapıntıların nəzəriyyəsini gücləndirəcəyini ümid edirdi.

Bunu kitabında tez-tez ifadə etmişdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin təməl iddialarını bir-bir əsassız etmişdir.



Çarlz Darvin

Darvinizmin elm qarşısındakı uduzması üç təməl başlıqda araşdırıla bilər:

1) Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını heç cür açıqlaya bilmir.

2) Nəzəriyyənin qarşıya qoyduğu "təkamül mexanizmləri"nin, həqiqətdə təkmilləşdirici bir təsirə sahib olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

3) Fosil (qalıq) qeydləri təkamül nəzəriyyəsinin nəzərdə tutduqlarının tam əksi olan bir cədvəl ortaya qoyur.

Bu hissədə bu üç təməl başlığı ana xətləri ilə araşdıracağıq.

## Keçilə bilməyən ilk pillə: Həyatın mənşəyi

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl ibtidai dünyada ortaya çıxan tək bir canlı hüceyrədən gəldiyini iddia edir. Tək bir hüceyrənin necə oldu ki, milyonlarla kompleks canlı növünü meydana gətirdiyi və əgər həqiqətən bu cür təkamül reallaşmışdırsa, niyə bunun izlərinin fosil qeydlərində olmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül müddətinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Haqqında danışılan o "ilk hüceyrə" necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi yaradılışı rədd etdiyi və heç bir fövqəltəbii müdaxiləni qəbul etmədiyi üçün, o "ilk hüceyrə"nin heç bir məqsəd, plan və tənzimləmə olmadan təbiət qanunları içində təsadüfi olaraq meydana gəldiyini iddia edir. Yəni nəzəriyyəyə görə, cansız maddə təsadüflər nəticəsində ortaya canlı bir hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən fundamental biologiya qanunlarına zidd bir iddiadır.

## "Həyat həyatdan gəlir"

Darvin kitabında həyatın mənşəyi mövzusundan heç danışmamışdı. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə bir quruluşa

sahib olduğunu fərz edirdi. Orta əsrlərdən bəri insanların inandığı "öz-özünə törəyən nəsil" adlı nəzəriyyəyə görə, cansız maddələrin təsadüfən bir yerə gəlib canlı bir varlıq meydana gətirə biləcəyinə inanırdılar. Bu dövrdə böcəklərin yemək artıqlarından, siçanların da buğdadan meydana gəldiyi məşhur bir düşüncə idi. Bunu isbat etmək üçün maraqlı təcrübələr aparılmışdı. Çirkli bir əskinin üzərinə bir az buğda qoyulmuş və bir az gözlədikdə bu qarışıqdan siçanların meydana gələcəyi zənn edilmişdi.


**Luis Pastor**

Ətlərin qurdlanması da həyatın cansız maddələrdən törəyə bildiyinə bir dəlil sayılırdı. Halbuki daha sonra aydın olacaqdı ki, ətlərin üzərindəki qurdlar öz-özlərinə meydana gəlmirlər, ağcaqanadların gətirdiyi gözlə görünməyən sürfələrdən çıxırdılar.

Darvinin "Növlərin mənşəyi" adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən meydana gəldiyi inancı elm dünyası tərəfindən qəbul edildi.

Halbuki Darvinin kitabının nəşr olunmasından beş il sonra məşhur fransız bioloq Luis Pastor təkamülə əsas təşkil edən bu inancı qəti olaraq təkzib etdi. Pastor apardığı uzun təcrübələr nəticəsində aldığı nəticəni belə yekunlaşdırmışdı:

Cansız maddələrin həyat meydana gətirə biləcəyi iddiası artıq qəti olaraq tarixə basdırılmışdır.[53]

Təkamül nəzəriyyəsinin müdafiəçiləri Pastorun tapıntılarına qarşı uzun müddət müqavimət göstərdilər. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin kompleks quruluşunu ortaya çıxardıqca həyatın öz-özünə meydana gələ biləcəyi iddiasının əsassızlığı daha da aydınlaşdı.

## 20-ci əsrdəki nəticəsiz səylər

20-ci əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə ortaya atdığı bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini isbat etməyə çalışdı. Ancaq bu işlər müvəffəqiyyətsizliklə nəticələnəcək və Oparin bu etirafı etmək məcburiyyətində qalacaqdı:

Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamını əhatə

edən ən qaranlıq nöqtəni meydana gətirir.[54]



**Aleksandr Oparin**

Oparinin yolunu izləyən təkamülçülər həyatın mənşəyi mövzusunu həll edəcək təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stanley Miller tərəfindən 1953-cü ildə təşkil edildi. Miller ibtidai Yer atmosferində olduğunu iddia etdiyi qazları bir təcrübə qurğusunda birləşdirib və bu qarışığa enerji əlavə edib proteinlərin quruluşunda istifadə edilən bir neçə orqanik molekul (aminoasid) sintez etdi.

O illərdə təkamül adına əhəmiyyətli bir mərhələ kimi tanıdılan bu təcrübənin əsaslı olmadığı və təcrübədə istifadə edilən atmosferin həqiqi dünya şərtlərindən çox fərqli olduğu növbəti illərdə ortaya çıxacaqdı.[55]

Uzun sürən səssizlikdən sonra Millerin özü də istifadə etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi.[56]

Həyatın mənşəyi problemini açıqlamaq üçün 20-ci əsr boyu aparılan bütün təkamülçü səylər davamlı olaraq müvəffəqiyyətsizliklə nəticələndi. San Diego Scripps institutundan məşhur geokimyaçı Jefrey Bada təkamülçü "Earth" jurnalında 1998-ci ildə nəşr olunan bir məqalədə bu həqiqəti belə qəbul edir:

Bu gün 20-ci əsri geridə qoyarkən hələ 20-ci əsrə girdiyimizdə sahib olduğumuz ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: Həyat yer üzündə necə başladı.[57]

**Həyatın kompleks quruluşu**

Təkamül nəzəriyyəsinin həyatın mənşəyi mövzusunda belə böyük çətinliyə düşməsinin başlıca səbəbi ən sadə zənn edilən canlı quruluşların inanılmaz dərəcədə kompleks quruluşlara sahib olmasıdır. Canlı hüceyrəsi insanların düzəltdiyi bütün texnoloji məhsullardan daha kompleksdir. Belə ki, bu gün dünyanın ən inkişaf etmiş laboratoriyalarında belə cansız maddələr bir yerə gətirilərək canlı bir hüceyrə çıxarıla bilmir.

Bir hüceyrənin meydana gəlməsi üçün lazım olan şərtlər əsla təsadüflərlə açıqlana bilməyəcək qədər çoxdur. Hüceyrənin ən fundamental quruluş maddəsi olan proteinlərin təsadüfi olaraq sintez edilmə ehtimalı 500 aminoasidlik orta hesabla bir protein üçün 10950/1-dir. Ancaq riyaziyyatda 1050/1-dən kiçik ehtimallar praktik olaraq qeyri-mümkün sayılır. Hüceyrənin nüvəsində yerləşən

və genetik məlumatı saxlayan DNT molekulu isə inanılmaz bir məlumat bankıdır. İnsan DNT-sinin ehtiva etdiyi məlumatın kağıza köçürüldüyü təqdirdə 500 səhifədən ibarət 900 cildlik bir kitabxana meydana gətirəcəyi hesablanmışdır.

Bu nöqtədə çox maraqlı bir dilemma əlavə var: DNT yalnız bəzi xüsusiləşmiş proteinlərin (fermentlərin) köməyi ilə cütləşə bilər. Amma bu fermentlərin sintezi də ancaq DNT-dəki məlumatlar yönündə reallaşır. Bir-birindən asılı olduqlarından cütləşmənin meydana gəlməsi üçün ikisi də eyni anda mövcud olmalıdırlar. Bu isə həyatın öz-özünə meydana gəldiyi ssenarisini çarəsiz vəziyyətə salır. San Diego California universitetindən məşhur təkamülçü professor Lesley Orqel "Scientific american" jurnalının oktyabr, 1994 tarixli sayında bu həqiqəti belə etiraf edir:

> Son dərəcə kompleks quruluşlara sahib olan proteinlərin və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfi olaraq meydana gəlmələri həddindən artıq ehtimaldan kənardır. Amma bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Dolayısilə, insan həyatın kimyəvi yollarla ortaya çıxmasının əsla mümkün olmadığı nəticəsinə gəlmək məcburiyyətində qalır.[58]

Şübhəsiz, əgər həyatın təbii amillərlə ortaya çıxması qeyri-mümkündürsə, bu vəziyyətdə həyatın fövqəltəbii bir şəkildə yaradıldığını qəbul etmək lazımdır. Bu həqiqət əsas məqsədi yaradılışı rədd etmək olan təkamül nəzəriyyəsini açıq şəkildə əsassız edir.

## Təkamülün xəyali mexanizmləri

Darvin nəzəriyyəsini əsassız edən ikinci böyük nöqtə nəzəriyyənin "təkamül mexanizmləri" olaraq qarşıya qoyduğu iki anlayışın həqiqətdə heç bir təkmilləşdirici gücə sahib olmadığının aydınlaşmasıdır. Darvin ortaya atdığı təkamül iddiasını tamamilə "təbii seleksiya" mexanizminə bağlamışdı. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə aydın olurdu: Növlərin mənşəyi, təbii seleksiya yolu ilə...

Təbii seleksiya təbii seçmə deməkdir. Təbiətdəki həyat mübarizəsində təbii şərtlərə uyğun və güclü canlıların həyatda qaldığı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhdid edilən bir maral sürüsündə daha sürətli qaçan marallar həyatda qalır. Beləcə, maral sürüsü sürətli və güclülərdən meydana gəlir. Amma, əlbəttə, bu mexanizm maralları təkmilləşdirməz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Dolayısilə, təbii seleksiya mexanizmi heç bir təkmilləşdirici gücə sahib deyil. Darvin də bu həqiqətin fərqində idi və "Növlərin mənşəyi" adlı kitabında:

"faydalı dəyişikliklər meydana gəlmədiyi müddətdə təbii seleksiya heç bir şey edə bilməz",- demək məcburiyyətində qalmışdı.[59]

## Lamarkın təsiri

Bəs bu "faydalı dəyişikliklər" necə meydana gələ bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı içində bu sualı Lamarka əsaslanıb cavablandırmağa çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar yaşayış dövrlərində keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə köçürürlər və nəsildən nəslə yığılan bu xüsusiyyətlər nəticəsində yeni növlər ortaya çıxırdı. Məsələn, Lamarka görə, zürafələr ceyranlardan törəmişdir, yüksək ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən nəslə boyunları uzanmışdı.

Darvin də bənzəri nümunələr vermiş, məsələn, "Növlərin mənşəyi" adlı kitabında yemək tapmaq üçün suya girən bəzi ayıların zamanla balinalara çevrildiyini iddia etmişdi.[60]

Amma Mendelin kəşf etdiyi və 20-ci əsrdə inkişaf edən genetika elmi ilə dəqiqləşən irsilik qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə köçürülməsi əfsanəsini qəti olaraq rədd etdi. Beləcə, təbii seleksiya "özbaşına" və dolayısilə, tamamilə təsirsiz bir mexanizm olaraq qalırdı.

## Neodarvinizm və mutasiyalar

Darvinistlər bu vəziyyətə bir həll tapa bilmək üçün 1930-cu illərin sonlarında "Müasir sintetik nəzəriyyə"ni və ya daha məşhur adı ilə desək, neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seleksiyaya "faydalı dəyişiklik səbəbi" olaraq mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici təsirlər və ya köçürmə səhvləri nəticəsində yaranan pozulmaları əlavə etdi.

Bu gün də hələ dünyada təkamül adına əsaslılığını qoruyan model neodarvinizmdir. Nəzəriyyə Yer üzündəki milyonlarla canlı növünün bu canlıların qulaq, göz, ağciyər, qanad kimi saysız kompleks orqanlarının "mutasiyalara", yəni genetik pozulmalara əsaslanan müddət nəticəsində meydana gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz duruma salan açıq bir elmi həqiqət vardır: Mutasiyalar canlıları inkişaf etdirməzlər, əksinə, həmişə canlılara zərər verərlər.

Bunun səbəbi çox sadədir: DNT çox kompleks bir quruluşa malikdir. Bu molekul üzərində yaranan hər hansı bir təsadüfi təsir ancaq zərər verər. Amerikalı genetik B.G.Ranganathan bunu belə açıqlayır:

> Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir hallarda meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların

təkamüli inkişaf meydana gətirə bilməyəcəyini göstərir. Onsuz da yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələ biləcək təsadüfi bir dəyişmə ya təsirsizdir, ya da zərərlidir. Bir qol saatında meydana gələn təsadüfi dəyişmə qol saatını inkişaf etdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsirsiz olar. Bir zəlzələ bir şəhəri inkişaf etdirməz, onu dağıdar.[61]

Necə ki, bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı inkişaf etdirən mutasiya nümunəsi müşahidə edilməmişdir. Bütün mutasiyaların zərərli olduğu görülmüşdür. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin "təkamül mexanizmi" olaraq göstərdiyi mutasiyalar həqiqətdə canlıları yalnız korlayan, şikəst edən genetik hadisələrdir. (İnsanlarda mutasiyanın ən çox görünən təsiri xərçəngdir). Əlbəttə, korlayıcı bir mexanizm "təkamül mexanizmi" ola bilməz. Təbii seleksiya isə Darvinin də qəbul etdiyi kimi, "özbaşına heç bir şey edə bilməz". Bu həqiqət bizlərə təbiətdə heç bir "təkamül mexanizmi"nin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə də təkamül deyilən xəyali müddət yaşana bilməz.

## Fosil qeydləri: Ara nümunələrin izi yoxdur

Təkamül nəzəriyyəsinin iddia etdiyi ssenarinin yaşanmadığının ən açıq göstəricisi isə fosil (qalıq) qeydləridir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəmişlər. Əvvəldən var olan bir canlı növü zamanla bir başqasına çevrilmiş və bütün növlər bu şəkildə ortaya çıxmışlar. Nəzəriyyəyə görə, bu çevrilmə yüz milyonlarla il davam edən uzun zaman kəsiyini əhatə etmiş və addım-addım irəliləmişdir.

Bu vəziyyətdə iddia edilən uzun çevrilmə müddətində saysız "ara növlər" meydana gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən xüsusiyyətləri qazanan yarı balıq, yarı sürünən canlılar yaşamalıdır. Yaxud sürünən xüsusiyyətlərini daşıyarkən bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanan sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçiş müddətində olduqları üçün şikəst və qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadıqlarına inandıqları bu nəzəri varlıqlara "ara keçid nümunəsi" adını verirlər.

Əgər həqiqətən bu cür canlılar keçmişdə yaşamışdırsa, bunların sayı və növləri milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların fosillərinə mütləq fosil qeydlərində rast gəlinməldir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

“Əgər nəzəriyyəm doğrudursa, növləri bir-birinə bağlayan saysız ara keçid növləri mütləq yaşamalıdır... Bunların yaşadıqlarının dəlilləri də yalnız fosil qalıqları arasında ola bilər.[62]

## Darvinin puç olan ümidləri

Ancaq 19-cu əsrin ortalarından bu yana dünyanın dörd tərəfində çoxlu fosil araşdırmaları aparıldığı halda, keçiş nümunələrinə rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və araşdırmalarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə qüsursuz və nöqsansız şəkildə ortaya çıxdığını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek W.Ager bir təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

> Problemimiz budur: Fosil qeydlərini detallı olaraq araşdırdığımızda istər növlər, istərsə də siniflər səviyyəsində olsun davamlı olaraq eyni həqiqətlə qarşılaşırıq; pilləli təkamüllə inkişaf edən deyil, birdən-birə yer üzündə yaranan qruplar görürük.[63]

Yəni fosil qeydlərində bütün canlı növləri arasında heç bir keçiş nümunəsi olmadan qüsursuz şəkilləri ilə birdən-birə ortaya çıxırlar. Bu, Darvinin nəzərdə tutduğunun tam əksinədir. Əlavə də bu canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü bir dəlildir. Çünki bir canlı növünün öz-özünə təkmilləşən heç bir atası olmadan bir anda və qüsursuz olaraq ortaya çıxmasının tək izahı o növün yaradılmış olmasıdır. Bu həqiqət məşhur təkamülçü bioloq Douglas Futuyma tərəfindən də qəbul edilir:

> Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında verilə biləcək yeganə iki açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və qüsursuz bir şəkildə ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişmə müddəti sayəsində özlərindən əvvəl var olan bəzi canlı növlərindən təkmilləşərək meydana gəlməlidirlər. Amma əgər qüsursuz və mükəmməl bir şəkildə ortaya çıxmışlarsa, o halda, sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmış olmalıdırlar.[64]

Fosillər isə canlıların yer üzündə qüsursuz və mükəmməl bir şəkildə ortaya çıxdıqlarını göstərir. Yəni “növlərin mənşəyi” Darvinin zənn etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

## İnsanın təkamülü nağılı

Təkamül nəzəriyyəsini müdafiə edənlərin ən çox gündəliyə gətirdikləri mövzu insanın mənşəyi mövzusudur. Bu mövzudakı darvinist iddia bu gün

yaşayan müasir insanın meymunabənzər bəzi varlıqlardan gəldiyini fərz edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu müddətdə müasir insanla ataları arasında bəzi "ara nümunə"lərin yaşadığı iddia edilir. Həqiqətdə tamamilə xəyali olan bu ssenaridə dörd təməl "kateqoriya" sayılır:

1-*Australopithecus*

2-*Homo habilis*

3-*Homo erectus*

4-*Homo sapiens*

Təkamülçülər insanların sözdə ilk meymunabənzər atalarına "cənub meymunu" mənasını verən *australopithecus* adını verirlər. Bu canlılar həqiqətdə soyu tükənmiş bir meymun növündən başqa bir şey deyil. Məşhur ingilis və amerikalı iki anatomiyaçı Lord Solly Zuckerman və prof. Charles Oxnardın *australopithecus* nümunələri üzərində apardığı çox geniş əhatəli tədqiqat bu canlıların yalnız soyu tükənmiş bir meymun növünə aid olduğunu və insanlarla heç bir bənzərliklərinin olmadığını göstərmişdir.[65]

Təkamülçülər insan təkamülünün bir sonrakı mərhələsini də "homo", yəni insan olaraq sinifləndirirlər. İddiaya görə, "homo" ardıcıllığındakı canlılar *australopithecus*lardan daha çox inkişaf etmişlər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ard-arda düzərək xəyali bir təkamül sxemi meydana gətirirlər. Bu sxem xəyalidir, çünki həqiqətdə bu fərqli siniflər arasında təkamüli bir əlaqənin olduğu qətiyyən isbat edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin 20-ci əsrdəki ən əhəmiyyətli müdafiəçilərindən biri olan Ernst Mayr ""Homo sapiens"ə uzanan zəncir həqiqətdə itmişdir", -deyərək bunu qəbul edir.[66]

Təkamülçülər "*australopithecus > homo habilis > homo erectus > homo sapiens*" sıralamasını yazarkən bu növlərin hər birinin bir sonrakının atası olduğu təəssüratını verirlər. Halbuki paleoantropoloqların son tapıntıları *australopithecus*, *homo habilis* və *homo erectus*un dünyanın fərqli bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir.[67]

Bundan başqa, *homo erectus* sinifləməsinə aid insanların bir hissəsi müasir dövrlərə qədər yaşamış, *homo sapiens, neandertalensis* və *homo sapiens sapiens* (müasir insan) ilə eyni mühitdə yan-yana olmuşlar.[68]

Bu isə, əlbəttə, bu siniflərin bir-birlərinin ataları olduğu iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stephen Jay Gould özünün də bir təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

Əgər bir-birilə paralel şəkildə yaşayan üç fərqli hominid (insana xas) xətti varsa, o halda, bizim soy ağacımıza nə oldu?

> Açıqdır ki, bunların biri digərindən gələ bilməz. Bundan başqa, biri digəri ilə müqayisə edildiyində təkamüli bir inkişaf tərzi göstərmirlər.[69]

Qısa olaraq, mediya və ya dərs kitablarında yer alan xəyali bəzi "yarı meymun, yarı insan" canlıların şəkilləri ilə, yəni sırf təbliğat yolu ilə dəstəklənməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi təməli olmayan bir nağıldan ibarətdir.

Bu mövzunu uzun illər araşdıran, xüsusilə *australopithecus* fosilləri üzərində 15 il tədqiqat aparan İngiltərənin ən məşhur və hörmətli alimlərindən Lord Solly Zuckerman bir təkamülçü olmasına baxmayaraq, ortada meymunabənzər canlılardan insana uzanan həqiqi bir soy ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zuckerman bir də maraqlı "elm şkalası" tərtib etmişdir. Elmi olaraq qəbul etdiyi bilik sahələrindən elmdən kənar qəbul etdiyi bilik sahələrinə qədər bir yelpik hazırlamışdır. Zuckermanın bu cədvəlinə görə, ən "elmi" (yəni konkret məlumatlara əsaslanan) bilik sahələri kimya və fizikadır. Yelpikdə bunlardan sonra biologiya elmləri, sonra da ictimai elmlər gəlir. Yelpiyin ən aşağısında, yəni ən "elmdən kənar" sayılan hissəsində isə Zuckermana görə telepatiya, altıncı hiss kimi "duyğu sonrası qəbul etmə" anlayışları və bir də "insanın təkamülü" vardır! Zuckerman yelpiyin bu yerini belə açıqlayır:

> Obyektiv həqiqətin sahəsindən çıxıb bioloji elm olaraq fərz edilən bu sahələrə (yəni duyğu sonrası qəbul etməyə və insanın fosil tarixinin şərh olunmasına) girdiyimizdə təkamül nəzəriyyəsinə inanan bir adam üçün hər şeyin mümkün olduğunu görərik. Belə ki, nəzəriyyələrinə qəti inanan bu adamların ziddiyyətli bəzi qərarların eyni anda qəbul etmələri belə mümkündür.[70]

Budur, insanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bəzi insanların tapdıqları bəzi fosilləri birtərəfli şəkildə izah etmələrindən ibarətdir.

## Darvin düsturu!

İndiyədək araşdırdığımız bütün texniki dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə axmaq bir inanca sahib olduqlarını bir də uşaqların anlaya biləcəyi qədər açıq bir nümunə ilə yekunlaşdıraq.

Təkamül nəzəriyyəsi həyatın təsadüfən meydana gəldiyini iddia edir. Dolayısilə, bu iddiaya görə, cansız və şüursuz atomlar bir yerə gələrək əvvəlcə hüceyrəni meydana gətirmişlər və sonra eyni atomlar bir şəkildə digər canlıları və

insanı meydana gətirmişlər. İndi düşünək: həyatın elementi olan karbon, fosfor, azot, kalium kimi elementləri bir yerə gətirdiyimizdə bir topa meydana gələr. Bu atom topası hansı əməliyyatdan keçirilsə də, tək bir canlı meydana gətirə bilməz. İstəyirsinizsə, bu mövzuda bir "təcrübə" hazırlayaq və təkamülçülərin əslində müdafiə etdiyi, amma yüksək səslə dilə gətirə bilmədiyi iddianı onlar adına "Darvin düsturu" adı ilə arşdıraq:

Təkamülçülər çoxlu sayda böyük bir qabın içinə həyatın quruluşundakı fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə olan ancaq bu qarışığın içində olmasını lazım gördükləri vəsaitləri də bu qablara əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də (tək birinin belə təsadüfi meydana gəlmə ehtimalı $10^{-950}$ olan) zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə istilik və nəmlik versinlər. Bunları istədikləri inkişaf etmiş cihazlarla qarışdırsınlar. Qabların başına da dünyanın ən öndə gələn alimlərini qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən nəslə köçürərək növbəti milyardlarla, hətta trilyonlarla il davamlı qabların başında gözləsinlər. Bir canlının meydana gəlməsi üçün hansı şərtlərin var olması lazım olduğuna inanılırsa, hamısından istifadə etmək sərbəst olsun. Ancaq nə etsələr də, o qablardan qətiyyən bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, rəngarəng kəpənəkləri və bunun kimi milyonlarla canlı növündən heç birini meydana gətirə bilməzlər. Yalnız burada bir neçəsini saydığımız bu canlı varlıqları deyil, bunların tək bir hüceyrəsini belə əldə edə bilməzlər.

Qısası, şüursuz atomlar bir yerə gələrək hüceyrəni meydana gətirə bilməzlər. Sonra yeni bir qərar verib, bir hüceyrəni ikiyə bölüb, sonra ard-arda başqa qərarlar alıb elektron mikroskopunu tapan, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında izləyən professorları meydana gətirə bilməzlər. Maddə ancaq Allahın üstün yaratması ilə həyat tapar. Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd bir mənasız sözdür. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az belə düşünmək üstdəki nümunədə olduğu kimi, bu həqiqəti açıq şəkildə göstərər.

**Göz  və qulaqdakı texnologiya**

Təkamül nəzəriyyəsinin qətiyyən izah edə bilmədiyi bir başqa mövzu isə göz və qulaqdakı üstün qəbul etmə keyfiyyətidir.

Gözlə əlaqədar mövzuya keçməzdən əvvəl, “necə görürük?” sualına qısa cavab verək. Bir cisimdən gələn şüalar gözdə retinaya tərs düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beynin arxa hissəsindəki görmə mərkəzi deyilən kiçik bir nöqtəyə çatır. Bu elektrik siqnalları bir silsilə əməliyyatdan sonra beyindəki bu mərkəzdə görüntü kimi hiss olunur. Bu məlumatdan sonra indi düşünək:

Beyin işığa bağlıdır. Yəni beynin içi tamamilə qaranlıqdır, işıq beynin olduğu yerə girə bilməz. Görüntü mərkəzi deyilən yer qaranlıq, işığın əsla çatmadığı, bəlkə də heç qarşılaşmadığınız qədər qaranlıq bir yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, tərtəmiz bir dünyanı seyr edirsiniz.

Üstəlik, bu o qədər dəqiq və keyfiyyətli bir görüntüdür ki, 21-ci əsr texnologiyası belə hər cür imkana baxmayaraq, bu dəqiqliyi təmin edə bilməmişdir. Məsələn, bu anda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Bu anda gördüyünüz dəqiqlik və keyfiyyətdəki bu görüntünü başqa bir yerdə gördünüzmü? Bu qədər dəqiq bir görüntünü sizə dünyanın bir nömrəli televizor şirkətinin çıxardığı ən inkişaf etmiş televizor ekranı da verə bilməz. 100 ildir ki, minlərlə mühəndis bu dəqiqliyə çatmağa çalışırlar. Bunun üçün fabriklər, nəhəng təsisatlar qurulur, araşdırmalar aparılır, plan və dizaynlar inkişaf etdirilir. Yeni bir televizor ekranına baxın, bir də bu anda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük bir dəqiqlik və keyfiyyət fərqinin olduğunu görəcəksiniz. Üstəlik, televizor ekranı sizə iki ölçülü bir görüntü göstərir, halbuki siz üç ölçülü, dərin bir perspektivi izləyirsiniz.

Uzun illərdir ki, on minlərlə mühəndis üç ölçülü ekran düzəltməyə, gözün görmə keyfiyyətinə çatmağa çalışırlar. Bəli, üç ölçülü bir ekran sistemi düzəldə bildilər, amma onu da eynək taxmadan üç ölçülü görmək mümkün deyil, qaldı ki, bu süni bir üç ölçüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiyası kimi durur. Heç bir zaman gözün gördüyü qədər dəqiq və keyfiyyətli bir görüntü meydana gəlməz. Kamerada da, televizorda da mütləq görüntü itkisi meydana gəlir.

Təkamülçülər bu keyfiyyətli və dəqiq görüntünü meydana gətirən mexanizmin təsadüfən meydana gəldiyini iddia edirlər. İndi biri sizə “otağınızdakı televizor təsadüflər nəticəsində meydana gəldi, atomlar bir yerə gəlib bu görüntünü meydana gətirən aləti meydana gətirdi”, -desə, nə düşünərsiniz? Minlərlə adamın bir yerə gəlib edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha primitiv olan bir görüntünü meydana gətirən alət təsadüfən meydana gələ bilmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gələ bilməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulaq üçün də etibarlıdır. Xarici qulaq ətrafdakı səsləri qulaq çanağı vasitəsilə qəbul edib orta qulağa çatdırır; orta qulaq aldığı səs titrəyişlərini gücləndirib daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri beyindəki eşitmə mərkəzinə verir.

Gözdəki vəziyyət qulaq üçün də etibarlıdır, yəni beyin işıq kimi səsə də bağlıdır, səs keçirməz. Dolayısilə, çölü nə qədər gurultulu olsa da, beynin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən dəqiq səslər beyində qəbul edilir. Səs keçirməyən beyninizdə bir orkestrin simfoniyalarını dinləyirsiniz, izdihamlı bir mühitin bütün səs-küyünü eşidirsiniz. Amma o anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada iti bir səssizliyin hakim olduğu görüləcək. Dəqiq bir görüntü əldə edə bilmək ümidi ilə texnologiya necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdir davam etdirilir. Səs yazma cihazları, musiqi mərkəzləri, bir çox elektronik alət, səs qəbul edən musiqi sistemləri bu işlərdən bəziləridir. Ancaq bütün texnologiyaya, bu texnologiyada çalışan minlərlə mühəndisə və mütəxəssisə baxmayaraq, qulağın meydana gətirdiyi dəqiqlik və keyfiyyətdə bir səs əldə edilməmişdir.

Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi yazdıqda mütləq səsin bir qismi itir və ya az da olsa, mütləq əngəl meydana gələr və ya musiqi mərkəzini açdığınızda hələ musiqi başlamadan bir xışıltı mütləq eşidərsiniz. Ancaq insan bədənindəki texnologiyanın məhsulu olan səslər son dərəcə dəqiq və qüsursuzdur. Bir insan qulağı heç vaxt musiqi setində olduğu kimi, xışıltı və ya əngəl qəbul etməz; səs necədirsə, tam və dəqiq bir şəkildə onu qəbul edir. Bu vəziyyət insan yaradıldığı gündən indiyədək belədir. İndiyə qədər insanların düzəltdiyi heç bir görüntü və səs cihazı, göz və qulaq qədər həssas və müvəffəqiyyətli bir qəbul edici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunlardan başqa böyük bir həqiqət yenə vardır.

### *Beynin içində görən və eşidən şüur kimə aiddir?*

Beynin içində rəngli dünyanı seyr edən, simfoniyaları, quşların civiltisini dinləyən, gülü iyləyən kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn xəbərdarlıqlar elektrik siqnalı olaraq beynə gedir. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə meydana gəldiyinə dair bir çox məlumat oxuyubsunuz. Ancaq bu mövzu haqqındakı ən əhəmiyyətli həqiqətə

heç bir yerdə rast gələ bilməzsiniz: Beyində bu elektrik siqnallarını görüntü, səs, qoxu və hiss hesab edən kimdir? Beynin içində gözə, qulağa, buruna ehtiyac duymadan bütün bunları qəbul edən bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyni meydana gətirən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara cavab verə bilmirlər. Çünki bu şüur Allahın yaratdığı ruhdur. Ruh görüntünü seyr etmək üçün gözə, qulağa, buruna ehtiyac duymaz. Bunlardan əlavə düşünmək üçün beynə ehtiyac duymaz.

Bu açıq və elmi həqiqəti oxuyan hər insanın beynin içindəki bir neçə kub santimetirlik qaranlıq məkana bütün kainatı üç ölçülü, rəngli, kölgəli və işıqlı olaraq sığdıran uca Allahı düşünməli, Ondan qorxmalı, Ona sığınmalıdır.

### *Materialist bir inanc*

Bura qədər araşdırdıqlarımız təkamül nəzəriyyəsinin elmi tapıntılarla açıq şəkildə ziddiyyət təşkil edən bir iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, qarşıya qoyduğu təkamül mexanizmlərinin heç bir təkmilləşdirici təsiri yoxdur və fosillər nəzəriyyənin tələb etdiyi ara formaların yaşamadığını göstərir. Bu vəziyyətdə, əlbəttə, təkamül nəzəriyyəsinin elmə zidd bir düşüncə olaraq bir kənara atmaq lazımdır. Necə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə elmin gündəmindən çıxarılmışdır. Amma təkamül nəzəriyyəsi israrla elmin gündəmində tutulmaqdadır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid olunmasını "elmə hücum" kimi göstərməyə belə çalışırlar. Yaxşı, bəs niyə?...

Bu vəziyyətin səbəbi təkamül nəzəriyyəsinin bəzi çevrələr üçün özündən əsla imtina edilə bilməyəcək doğma bir inanc olmasıdır. Bu çevrələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiətə gətirilə biləcək yeganə materialist izah olduğu üçün mənimsəyirlər. Bəzən bunu açıq şəkildə etiraf da edirlər. Harvard Universitetindən məşhur bir genetik və eyni zamanda öndə gələn bir təkamülçü Richard Lewontin "əvvəl materialist, sonra alim" olduğunu belə etiraf edir:

> Bizim materializmə bir inancımız var, "a priori" (əvvəldən qəbul edilmiş, doğru fərz edilmiş) bir inancdır bu. Bizi dünyaya materialist bir izah gətirməyə məcbur edən şey elmin üsulları və qaydaları deyil. Əksinə, materializmə olan "a priori"yə bağlılığımız səbəbi ilə dünyaya materialist bir izah gətirən araşdırma üsullarını və anlayışları hazırlayırıq. Materializm mütləq doğru olduğuna görə də ilahi bir izahın səhnəyə girməsinə icazə verə bilmərik.[71]

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğruna yaşadılan bir doqma olduğunun açıq ifadələridir. Bu doqma maddədən başqa heç bir varlığın olmadığını fərz edir. Bu səbəblə də cansız, şüursuz maddənin həyatı yaratdığına inanır. Milyonlarla fərqli canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, böcəklərin, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz içindəki qarlılıqlı təsirlərlə, yəni yağan yağışla, çaxan şimşəklə cansız maddənin içindən meydana gəldiyini qəbul edir. Həqiqətdə isə bu, həm ağıla, həm də elmə zidd bir qəbuldur. Amma darvinistlər öz deyimləri ilə "ilahi bir izahın səhnəyə girməməsi" üçün bu qəbulu müdafiə etməyə davam edirlər.

Canlıların mənşəyinə materialist zehniyyətlə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: Bütün canlılar üstün bir güc, bilik və ağıla sahib olan bir Yaradıcının əsərləridir. Yaradıcı bütün kainatı yoxdan var edən, qüsursuz şəkildə təşkil edən və bütün canlıları yaradıb şəkilləndirən Allahdır.

### *Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli cadusudur*

Burada bunu da ifadə etmək lazımdır ki, zehniyyətsiz, heç bir ideologiyanın təsiri altında qalmadan, yalnız ağıl və məntiqindən isitifadə edən hər kəs elm və mədəniyyətdən uzaq cəmiyyətlərin xurafatlarını xatırladan təkamül nəzəriyyəsinin inanılması qeyri-mümkün bir iddia olduğunu asanlıqla anlayacaq.

Yuxarıda da ifadə edildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir qabın içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman içində düşünən, bir çox tapıntının müəllifi olan professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi alimlərin, Frank Sinatra, Charlton Heston kimi sənətçilərin, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Üstəlik, bu axmaq iddiaya inananlar alimlər, professorlar, mədəni və təhsilli insanlardır. Bu səbəblə, təkamül nəzəriyyəsi üçün "dünya tarixinin ən böyük və ən təsirli cadusu"-ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin önünə sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan bir başqa inanc və ya iddia yoxdur. Bu, qədim misirlilərin günəş tanrısı Raya, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə ibadət etməsindən, hz İbrahim qövmünün əlləri ilə düzəltdikləri bütlərə, hz Musa qövmünün qızıldan düzəltdikləri buzova ibadətlərindən daha dəhşətli və ağıla sığmaz bir korluqdur. Həqiqətdə bu vəziyyət Allahın Quranda işarə etdiyi bir ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlanacağını və həqiqətləri görməkdə aciz duruma düşəcəklərini bir çox ayəsində bildirir. Bu ayələrdən

bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! ("Bəqərə" surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, (ondan) daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! ("Əraf" surəsi, 179)**

Allah "Hicr" surəsində isə bu insanların möcüzələr görsələr belə, inanmayacaq qədər ovsunlandıqlarını belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və onunla durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütlənin üzərində bu cadunun təsirli olması insanların həqiqətlərdən bu qədər uzaq tutulması və 150 il bu cadunun təsirini itirməməsi isə sözlə izah edilə bilməyəcək qədər heyrət verici bir vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, axmaqlıq və məntiqsizliklərlə dolu iddialara inanmaları başa düşülə bilər. Ancaq dünyanın dörd tərəfindəki insanların şüursuz və cansız atomların ani bir qərarla bir yerə gəlib fövqəladə bir təşkilat, intizam, ağıl və şüur göstərib qüsursuz bir sistemlə işləyən kainatı, həyat üçün uyğun olan hər cür xüsusiyyətə sahib olan Yer planetini və saysız kompleks sistemlə təchiz edilmiş canlıları meydana gətirdiyinə inanmasının "cadu"dan başqa bir izahı yoxdur.

Necə ki, Allah Quranda inkarçı fəlsəfəni müdafiə edən bəzi adamların etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa və firon arasında keçən bir hadisə ilə bizlərə bildirir. Hz. Musa firona haqq dini izah etdiyində firon hz. Musaya öz "bilikli sehrbazları" ilə insanların toplandığı bir yerdə qarşılaşmasını istəyir. Hz. Musa sehrbazlara əvvəlcə onların bacarıqlarını göstərməyini deyir. Bu hadisənin açıqlandığı ayə belədir:

**(Musa: ) "Siz atın", – dedi. Onlar atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. ("Əraf" surəsi, 116)**

Göründüyü kimi, fironun sehrbazları öz "hiylə"ləri ilə (hz. Musa və ona

inananlar xaricində) insanların hamısını ovsunlaya bilmişlər. Ancaq onların atdıqlarına qarşı hz Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə "uydurduqlarını udmuş", yəni təsirsiz etmişdir:

> **Biz də Musaya: "Əsanı tulla!", – deyə vəhy etdik. Bir də (baxıb gördülər ki) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, olanların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. ("Əraf" surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, daha əvvəl insanları ovsunlayaraq təsir edən bu adamların etdiklərinin bir saxtakarlıq olduğu başa düşülmüşdür. İndiki dövrdə də bir sehr təsiri ilə elm adı altında son dərəcə axmaq iddialara inanan və bunları müdafiə etmək üçün həyatını həsr edənlər əgər bu iddialardan imtina etməsələr, həqiqətlər tam mənası ilə ortaya çıxdığında və "sehr pozulduğunda" pis vəziyyətə düşəcəklər. Necə ki, təxminən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist fəlsəfəçi olan, ancaq daha sonra həqiqətləri görən Malcolm Muggeridge təkamül nəzəriyyəsinin yaxın gələcəkdə süqut edəcəyi vəziyyəti belə açıqlayır:

> **Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq olunduğu sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük zarafat vəsaitlərindən biri olacağına inandım.** Gələcək nəsil bu qədər səhv və naməlum bir fərziyyənin inanılmaz bir saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaq.[72]

Bu gələcək uzaqda deyil, əksinə, yaxın zamanlarda insanlar "təsadüflər"in ilah ola bilməyəcəklərini anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən şiddətli sehri olaraq təyin olunacaq. Bu şiddətli sehr böyük sürətlə dünyanın dörd tərəfində insanların üzərindən qalxmağa başlamışdır. Təkamül yalanının sirrini öyrənən bir çox insan bu yalana necə aldandığını heyrətlə düşünürlər.

# QEYDLƏR


1- Rita Carter, Mapping The Mind, University of California Press, London, 1999, s. 107

2- R. L. Gregory, Eye and Brain: The Psychology of Seeing, Oxford University Press Inc. New York, 1990, s. 9

3- Hoimar von Ditfurth, Dinozorların Sessiz Gecesi 4, Kitap, Çev: Veysel Atayman, Alan Yayıncılık, s. 256

4- M. Ali Yaz, Sait Aksoy, Fizik 3, Sürat Yayınları, İstanbul, 1997, s. 3

5- Daniel C Dennett, Brainchildren, Essays on Designing Minds, The MIT Press, Cambridge, 1998, s. 142

6- Daniel C Dennett, Brainchildren, Essays on Designing Minds, s. 142

7- www.hhmi.org/senses/a/a110.htm

8- George Politzer, Felsefenin Başlangıç İlkeleri, Sosyal Yayınları, Çev: Enver Aytekin, İstanbul: 1976, s.40

9- www.hhmi.org/senses/a/a110.htm

10- Michael I. Posner, Marcus E .Raichle, Images of Mind, Scientific American Library, New York 1999, s. 88

11- Bertrand Russell, Rölativitenin Alfabesi, Onur Yayınları, 1974, s.161-162

12- Rita Carter, Mapping The Mind, s. 135

13- "Treaties Concerning the Principle of Human Knowledge", 1710, Works of George Berkeley, vol. I, ed. A. Fraser, Oxford, 1871, s.35-36

14- Rita Carter, Mapping The Mind, s. 113

15- Fusus-ül Hikem, çev. Nuri Gencosman, İstanbul 1990, s. 220

16- Dr. Muhterem Ercan, Hipnoz ve Hipnoterapi, Seha Neşriyat, İstanbul 1993, s.32-34; William Kroger, Clinical and Experimental Hypnosis, http://www.lucidexperience.com/HypnoPapers/512.html

17- Dr. Tahir Özakkaş, Gerçeğin Dirilişine Kapı HiPNOZ, "Üst Ultrastabilite", Seda Yayınları, 1. Cilt, 1. Baskı, s. 204-205

18- Dr. Tahir Özakkaş, Gerçeğin Dirilişine Kapı HiPNOZ, "Üst Ultrastabilite", s. 267

19- Terrence Watts, Abreaction, The psychological phenomena that hypnotherapists either love or hate, http://www.hypnosense.com/abreaction.htm

20- Dr. Recep Doksat, Hipnotizma, Kader Basımevi, İstanbul, 1962, s. 106-108

21- Dr. Recep Doksat, Hipnotizma, s.106-108

22- Dr. Recep Doksat, Hipnotizma, s. 106-108

23- Daniel C. Dennett, Consciousness Explained, Little, Brown and Company, NY 1991, s. 26-27

24- R. L. Gregory, Eye and Brain: The Psychology of Seeing, s. 9

25- Karl Pribram, David Bohm, Marilyn Ferguson, Fritjof Capra, Holografik Evren I, Çev: Ali Çakıroğlu, Kuraldışı Yayınları, İstanbul: 1996, s.37

26- Bertrand Russell, Rölativite'nin Alfabesi, Onur yay. 1974 s. 160-161

27- George Politzer, Felsefenin Başlangıç İlkeleri, İstanbul, Sosyal Yay., 1989, s.

196
28- John Horgan, The Undiscovered Mind: How the Human Brain Defies Replication, Medication, and Explanation , New York:Free Press, 1999, s. 258-259
29- John Horgan, The Undiscovered Mind: How the Human Brain Defies Replication, Medication, and Explanation , s.258-259
30- John Horgan, The Undiscovered Mind: How the Human Brain Defies Replication, Medication, and Explanation , s.229
31- Hoimar Von Ditfurth, Dinozorların Sessiz Gecesi 3, s.13
32- William A. Dembski, Converting Matter into Mind, 1998, www.arn.org
33- William A. Dembski, Converting Matter into Mind, 1998, www.arn.org
34- Cumhuriyet Bilim Teknik Dergisi, 7 Temmuz 2001, sayı 746, s. 18; DerSpiegel, 1/2001, Nilgün Özbaşaran Dede
35- İbni Arabi'de Varlık Düşüncesi, Ferid Kam/ M.Ali Ayni, s. 37
36- Materyalist Felsefe Sözlüğü, istanbul, Sosyal Yayınlar, 4. Baskı, s. 326
37- Rennan Pekünlü "Aldatmacanın Evrimsizliği", Bilim ve Ütopya, Aralık 1998
38- Lincoln Barnett, Evren ve Einstein, Varlık Yayınları, 1980, s. 17-18
39- Tim Folger, "Buradan Sonsuzluğa", Discover, Aralık 2000, s.54
40- Tim Folger, "Buradan Sonsuzluğa", Discover, Aralık 2000, s.54
41- François Jacob, Mümkünlerin Oyunu, Kesit Yayınları, 1996, s. 111
42- Lincoln Barnett, Evren ve Einstein, Varlık Yayınları, 1980, s. 52-53
43- Lincoln Barnett, Evren ve Einstein, s. 17
44- Paul Strathern, Einstein ve Görelilik Kuramı, Gendaş Yayınları, 1997, s. 57
45- Mektubat-ı Rabbani, 357. Mektup, çev. Abdulkadir Akçiçek, Çile yayınevi, 1983, s. 163
46- Mektubat-ı Rabbani, 470. Mektup, çev. Abdulkadir Akçiçek, s. 519
47- Fusus-ül Hikem, çev. Nuri Gencosman, İstanbul 1990, s. 117-18
48- Mektubat-ı Rabbani, 470. Mektup, çev. Abdulkadir Akçiçek, s. 517-18
49- Robert Lawrence Kuhn, Closer To Truth, Mc Graw-Hill, New York, 2000, s. 8
50- Daniel Dennet, Consciousness Explained, s.389
51- Drew Westen, Psychology; Mind, Brain and Culture, John Wiley & Sons, Inc, NY 1996, s. 118
52- Frederick Vester, Düşünmek, Öğrenmek, Unutmak, İstanbul: Arıtan Yayınevi, 1991, s. 6
53- Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, s. 2
54- Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), s.196
55- New Evidence on Evolution of Early Atmosphere and Life, Bulletin of the American Meteorological Society,

cilt 74, Kasım 1982, s. 1328-1330.
56- Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, s. 7
57- Jeffrey Bada, Earth, Şubat 1998, s. 40
58- Leslie E. Orgel, "The Origin of Life on Earth", Scientific American, cilt 271, Ekim 1994, s. 78
59- Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, s. 189
60-Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, s. 189
61- B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988
62- Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, s. 179
63- Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, cilt 87, 1976, s. 133
64- Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. s. 197
65- Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, ss. 75-94; Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, cilt 258, s. 389
66- J. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr", Scientific American, Aralık 1992
67- Alan Walker, Science, cilt 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, cilt 3, Cambridge: Cambridge University Press, 1971, s. 272
68 - Time, Kasım 1996
69- S. J. Gould, Natural History, cilt 85, 1976, s. 30

---

**…Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur! Həqiqətən, Sən Bilənsən, Müdriksən!"**

**(Bəqərə surəsi, 32)**

---